

# Yeniyetmələrin Güclərinin Azad Edilməsi



Ruhi İnstitutu



Kitab 5



# Yeniyetmələrin Güclərinin Azad Edilməsi

Ruhi İnstitutu

Bu Silsilədə olan kitablar:

Aşağıda Ruhi İnstitutunun tərtib etdiyi hazırkı silsilə mövzular üzrə kitabların siyahısı verilmişdir. Bu kitablar öz icmalarına xidmət etmək üçün gənclərin və böyüklərin qabiliyyətlərini yüksəltmək üçün qoyulan sistematik bir səydə əsas kurslar ardıcıllığı kimi istifadə olunma məqsədi daşıyır. Ruhi İnstitutu, həmçinin Bəhai uşaq dərsləri müəllimlərinin hazırlanması üçün üçüncü kitabdan ayrılan və yeniyetmə qruplarının animatorlarını yetişdirmək üçün Kitab 5-dən ayrılan əlavə kurslar da işləyib hazırlayır. Siyahıda bunlar da göstərilmişdir. Bunu qeyd etmək lazımdır ki, sahədə təcrübə toplandıqca, bu siyahıda dəyişiklik ola bilər və hazırlanmaqda olan kurrikulum elementləri geniş istifadə mərhələsinə çatdıqca sayı getdikcə artan yeni kitabların adları əlavə ediləcəkdir.

| | |
|---|---|
| Kitab 1 | Ruhun Həyatı Üzərində Düşüncələr |
| Kitab 2 | Xidmətə Qalxmaq |
| Kitab 3 | Uşaq Dərslərinin Tədrisi, I Sinif (budaq kurs) |
| | Uşaq Dərslərinin Tədrisi, II Sinif (budaq kurs) |
| | Uşaq Dərslərinin Tədrisi, III Sinif (budaq kurs) |
| | Uşaq Dərslərinin Tədrisi, IV Sinif (budaq kurs) |
| Kitab 4 | Qoşa Məzhərlər |
| Kitab 5 | Yeniyetmələrin Güclərinin Azad Edilməsi |
| | İlkin İmpuls: Kitab 5-in birinci budaq kursu |
| | Genişlənən Çevrə: Kitab 5-in ikinci budaq kursu |
| Kitab 6 | Əmrin Təbliği |
| Kitab 7 | Xidmət Yolunda Birgə Addımlamaq |
| Kitab 8 | Həzrət Bəhaullahın Əhdi |
| Kitab 9 | Tarixi Perspektivin Əldə Edilməsi |
| Kitab 10 | Canlı İcmaların Qurulması |
| Kitab 11 | Maddi Vəsaitlər |
| Kitab 12 | Ailə və İcma |
| Kitab 13 | Sosial Fəaliyyətlə Məşğul Olmaq |
| Kitab 14 | İctimai Diskursda İştirak Etmək |

2020 və 2023-ci il nəşrləri üzrə müəlliflik hüququ Kolumbiyada yerləşən Ruhi Fonduna aiddir.
Bütün hüquqlar qorunur. Nəşr 2.1.1.PE.PV 2023-ci il sentyabr ayı
Printed in Azerbaijan

Originally published in Spanish as *Liberando los poderes de los prejóvenes*
Copyright © 2006, 2014, 2022 by the Ruhi Foundation, Colombia
ISBN 978-628-95102-2-5

Permission for a limited printing of this book in Azeri has been granted to the institute in Azerbaijan by the Ruhi Institute.

Ruhi İnstitutu
Kolumbiya, Kali şəhəri
Elektron ünvan: instituto@ruhi.org
Veb sayt: www.ruhi.org

# MÜNDƏRİCAT

Aparıcı Üçün Bir Neçə Fikir .......................................................5

Həyatın Bahar Çağı .....................................................................9

Vədverici Bir Yaş .......................................................................45

Animator Kimi Xidmət Etmək ...................................................75

# Aparıcı Üçün Bir Neçə Fikir

Erkən 1970-ci illərdə fəaliyyətə başlamasından bəri Ruhi İnstitutu öz təlim-tərbiyə fəaliyyətləri ilə çox vaxt “yeniyetmə” kimi xitab edilən 12-15 yaş arasında, cəmiyyətin xüsusi bir seqmentini təmsil edən gənc insanlara xidmət etməyə çalışmışdır. Bu yaşda olanların çoxunda olan idealizm və enerjiyə şahid olduğunda institut həyatın mürəkkəbliklərinin öhdəsindən gəlməyə, hər yerdə güclənən əxlaqi tənəzzüllə mübarizə aparmağa və fəal sosial dəyişiklik amilinə çevrilməyə onları qabil edəcək bir sıra mövzuları və konsepsiyaları araşdırmaq üçün onlara imkan yaratmağın vacibliyinə əmin oldu. Növbəti bir neçə onillik müxtəlif mənşələrdən olan yeniyetmələrlə işdəki dünya təcrübəsindən, o cümlədən, inkişafla bağlı, ən çox da savadlandırma sahəsindəki səylərdən getdikcə daha çox faydalanan hərəkət və düşünmə-təhlil dövrünü təşkil edirdi. Təqribən 2000-ci ildə yeniyetmələrin ruhani gücləndirilməsi konsepsiyası və bununla bərabər bəşəriyyətə xidmətdə onların intellektual və ruhani güclərini azad etməyə çalışan üçillik proqramın müxtəlif cəhətləri meydana çıxdı.

Ruhi İnstitutunun digər çalışmaları kimi, yeniyetmələrin ruhani gücləndirilməsi proqramı məsafədən təhsil sistemi ilə sıravi səviyyələrə təklif edilir və bu halda o, üç başlıca ünsürü ehtiva edir: “yeniyetmə qrupu,” “animator,” və xüsusi materiallar dəsti. İnstitutun əsas ardıcıllığında beşinci kitab olan *Yeniyetmələrin Güclərinin Azad Edilməsi* öz kəndlərindən və qonşuluqlarından olan gənclər qrupunu proqrama cəlb etmək istəyənlərə kömək etmək məqsədi daşıyır. Bu, əsas ardıcıllıqdan ayrılan kurslar silsiləsində birincisidir ki, “animator” – bir tərif ki, özlüyündə, buraya daxil olan xidmət aktının təbiətindən danışır – kimi xidmət etmək üçün tələb olunan qadiriyyətləri inkişaf etdirməkdə fərdlərə kömək edəcəkdir. Kitabı öyrənənlərdən heç də hamısı bu çalışma sahəsinə daxil olmasa da, ümid edilir ki, xitab edilən mövzulardan hamı ilham alacaq və yeniyetmələrin nəcib canatmalarına lazımi diqqət verməyin vacibliyini etiraf edəcəklər - bu, cəmiyyətdə bu gün gənc insanlara qarşı oturuşan münasibətlərdən olduqca fərqli olan münasibətləri irəlilədən bir mədəniyyətin yaradılmasının mühüm cəhətidir. Odur ki, belə bir mühitdə, hətta proqrama bilavasitə cəlb olunmamış fərdlər belə bu proqramın çiçəklənən fəaliyyətlərinə öz dəstəklərini vermək üçün hazır olacaqlar.

Kitab 5-in aparıcısı kimi çalışanlar üçün bunun fərqində olmaq vacibdir ki, əsas kurslar ardıcıllığına daxil olmuş iştirakçılar arasında 19-20 yaşın altında olan, yaxud 20 yaşı yenicə adlamış, animator kimi xidmət etməkdə möhkəm arzusu olan və bunu etmək üçün bütün gizli qabiliyyətə malik çoxlu gənclər olacaq. Onların bəziləri yaşıdları ilə etdikləri, gənc nəslin təlim-tərbiyəsində onların oynaya biləcəkləri rolun vurğulandığı müzakirələr vasitəsilə Əmrlə təmas etmiş olacaqlar. Digərləri isə yeniyetmə kimi ruhani gücləndirilmə proqramını keçəcək və ondan dərhal sonra Kitab 1-in öyrənilməsinə qoşulacaqlar. Onları institut prosesinə gətirən yol nə olursa olsun, onlar indi kəndlərində və ya qonşuluqlarında oranın yaxşılaşdırılmasına təəhhüd götürmüş böyüyən fərdlər nüvəsinin bir hissəsini təşkil edəcəklər və bu kontekstdə Əmrin mərkəzində duran mövzuları ailələrlə birlikdə araşdırmaq üçün ailələri ziyarət etməkdə – Kitab 2-də xitab edilən xidmət aktı – təcrübə qazanacaqlar. Bu nüvənin bir hissəsi kimi, onların arasından əhəmiyyətli bir say nahiyədə ən azı bir yeniyetmə qrupu ilə sıx əlaqədə olacaq və animatora müxtəlif fəaliyyətləri yerinə yetirməkdə kömək edəcək, proqrama aid konsepsiya və yanaşmaları müzakirə etmək üçün valideynləri ziyarət etməkdə ona qoşulacaqlar. Bu məqamda onların hamısı Bəhai təlimləri barədə əhəmiyyətli biliyə malik olacaq, bu bilik onların Kitab 3 və 4-ü öyrənmələri ilə dərinləşəcək və onlar dostları və qonşuları ilə mənalı söhbətləri başlatmaq və davam etdirmək üçün lazım olan məharət, bacarıq, münasibət və ruhani keyfiyyətlər nümayiş etdirəcəklər. Məhz burada, onlar Kitab 5-ə çatanda, Ruhi İnstitutunun əsas kurslar ardıcıllığına xas olan qabiliyyət yaratma prosesinin – bir proses ki, xidmət yolu ilə addımlamaq nöqteyi-nəzərindən təsəvvür edilir – əhəmiyyəti üzə çıxacaq. Bir qrup yeniyetməni onların ruhani gücləndirilməsi üçün üçillik proqrama cəlb etmək tələbkar bir xidmət aktıdır – və bunu etmək üçün yeni başlamış animatorların səyləri heç də az olmayan ölçüdə bu yolda indiyə kimi davamlı olaraq yaratdıqları qabiliyyətə əsaslanacaqdır.

Kitabın birinci fəsli, “Həyatın Bahar Çağı” Əmrin yazılarının göstərdiyi əsasda, gənclik dövrünü fərqləndirməli olan sifətlər üzərində fokuslanır. Aparılan təhlillərdən Allahın Əmrinə və bəşəriyyətə xidmətdə gənclərin hər bir nəslinin verdiyi töhfə barədə tədricən bir baxış meydana çıxır. Aparıcı bunu təmin etmək istəyəcək ki, iştirakçılar bu fəslin öyrənilməsindən açılan baxışla çıxsınlar, çünki yeniyetmələrin

ruhani gücləndirilməsi proqramını aydınladan və onların yeniyetmələri öz fəaliyyətlərinə cəlb etmək səylərinə istiqamət verməli olan şey də məhz bu baxışdır.

Doğrudan da, fəsil iştirakçılardan 15 yaşına – Bəhai yazılarında yetkinliyin astanası kimi görülən vaxt – çatanda və gəncliklərinin "sübhü"nə daxil olarkən üçillik proqramı bitirdiklərində gənclərin inkişaf etdirmiş olacaqları xüsusiyyətlər barədə düşünməyi xahiş etməklə başlayır. Aparıcı başa düşməlidir ki, bu çalışmanın məqsədi proqramın konkret təfərrüatlarına dalmaq deyil, yaxud bu, yeniyetmələrin potensialları üzərində düşünmək üçün deyil, bunlar kitabın müvafiq olaraq üçüncü və ikinci fəsillərində aparılacaq araşdırmalardır. Məqsəd daha çox Allahın Əmrini müdafiə edəcək növbəti nəsil arasında yer almağa və özünü sivilizasiyanın inkişafına həsr etməyə hazır olan gənc bir insanın obrazını bilavasitə diqqət mərkəzinə gətirməkdir. İştirakçılar üçün bu çalışma animator kimi onların tezliklə qəbul edəcəkləri fəaliyyətin təbiətini başa düşmələrini yüksəldəcək və onların sonrakı müzakirələrinə daha dərin məna qatacaq.

Sonra bu fonda, fəsildə yazılardan gənclik dövrünə aid müəyyən konsepsiyaları aydınladan bir sıra parçalar təqdim edilir. Bu fəslin əvvəlində təqdim edilən konsepsiyalardan biri xidmət, təhsil və gələcək üçün hazırlıq arasındakı qarşılıqlı əlaqədir – bir məsələ ki, bəzən gənclərin beynini çox məşğul edir. Aydınlaşdırılan məqam budur ki, həyata bütövlüyü ilə baxanda onun müxtəlif cəhətləri bir-biri ilə ziddiyyətdə olmadan bir-birini gücləndirməyə xidmət edə bilər. 10-cu Bölmədəki çalışma praktiki anlamda bunun nə demək olduğuna baxmaqda iştirakçılara kömək edəcəkdir. Diqqət etmək lazımdır ki, onlar çalışmanı mexaniki yerinə yetirməsinlər və müəyyən həyat seçimlərinin və düşüncə tərzlərinin uydurma dixotomiyalara və onların yaratdığı gərginliklərə necə yol açdığını başa düşməkdə uğursuz olmasınlar.

Bu fəsildə xitab edilən, onun məqsədi üçün mərkəzdə dayanan digər bir konsepsiya ikili mənəvi-əxlaqi məqsəddir. Əlbəttə, iştirakçılar ilkin kitabları öyrənməkdən bu konsepsiya ilə tanışdırlar. Bu konsepsiyaya burada daha dərin bir səviyyədə baxılır və onlar onun, Bəhai yazılarında öngörülən ikitərəfli transformasiyanın – fərd səviyyəsində və cəmiyyətin strukturunda – təsviri ilə başlayan araşdırılmasına həsr olunmuş bölmələrə xüsusi diqqət verməlidirlər. Fəsil bu işıqda təklif edir ki, gənc insanlara özlərinin intellektual və ruhani inkişafları üçün məsuliyyət götürmək və cəmiyyətin tərəqqisinə daimi olacaq töhfələr vermək naminə güclü məqsəd hissi aşılanmalıdır. Fəsil daha sonra iddia edir ki, mənəvi-əxlaqi məqsədin bu iki cəhəti qarşılıqlı tamamlayıcıdır və fundamental olaraq bir-birindən ayrılmazdır, çünki fərdlərin meyarları və davranışları onların öz mühitlərini şəkilləndirir və onlar da öz növbəsində sosial strukturlar və proseslər tərəfindən formalaşdırılır. 16-cı Bölmədəki çalışmada nəzərdən keçirilən bu iddianın nələri nəzərdə tutduğunu başa düşmək bəzi iştirakçılara meydanoxuyucu gələ bilər. Dominant dünyagörüşləri – bir tərəfdən fərdiyyətə və fərdi azadlığa həddən artıq vurğu etməyə meyil edən, yaxud digər tərəfdən, sosial gücləri və siyasi prosesləri həddən artıq şişirdən dünyagörüşləri – gerçəkliyi təhrif edə və inanc və düşüncə tərzlərini çox vaxt da nəzərə çarpmadan formalaşdıra bilər. Qrupla bu çalışmanı yerinə yetirərkən, aparıcı bu çalışmanın ortaya qoyduğu meydanoxumadan agah olmalı və qrup üzvlərinə, əgər ehtiyac olarsa, həmin bölmədə Əmrin Vəlisindən iqtibas edilən bəyanatla uzlaşmayan iddiaları görməkdə kömək etməlidir. Sonra ikili məqsəd konsepsiyasının araşdırılması belə bir fərziyyə ilə sona yetir ki, belə bir məqsəd ancaq xidmət meydanında gerçəkləşdirilə bilər. Fəsildə təsdiq edilir ki, xidmət fərdi potensialın gerçəkləşdirilməsini cəmiyyətin inkişafı ilə birləşdirir.

İkinci fəsil "Vədverici bir Yaş" adlanır və yeniyetmələr və onların malik olduqları sonsuz potensiallardan bəhs edir. Fəsil onu öyrənənlərin fikrində belə bir anlayışı möhkəmləndirməyə çalışır ki, yeniyetmələr özlərinə xas xüsusiyyətlərlə fərqli bir yaş qrupunun üzvləridir – o xüsusiyyətlər ki, şübhə yeri qoymadan təsdiq edir ki, onlara uşaq kimi baxılması nə qədər yanlışdırsa, onları, mahiyyətcə səthi olmaqla getdikcə daha çox yerlərdə kök salan, böyüklərin bir versiyası olmalarını imitasiya etməyə təşviq etmək də o dərəcədə yanlışdır. Fəsildə bunu aydınlaşdırmağa ümid edilir ki, bu yaş qrupuna münasibətdə Bəhai icmasının qəbul etdiyi – Əmrin yazıları ilə formalaşan və gənc Ruhullah kimi nümunələrdən enerji alan – yanaşma, çoxunun yeniyetmələri üsyankar və böhrana meyilli kimi təsvir edən geniş yayılmış fərziyyə və nəzəriyyələrə əsaslanan yanaşmalardan kəskin surətdə fərqlənir.

Yuxarıdakı məqsədləri yadda saxlamaqla, fəsil erkən gəncliyin təbiətinə qısa bir nəzər salır və sonra bu yaş diapazonunda olan gənclərin artan agahlığının lazımi qaydada istiqamətləndirilməsi kimi meydanoxuyucu bir məsələ üzərində düşünməyi xahiş edir. Bunu edərkən fəsil bir xəbərdarlıq edir: bu səylər

bəzi proqramların tələsindən qaçmalıdır, o proqramlar ki, həyatın formalaşma fazasında olanların artan agahlığını başqalarına təmənnasız xidmətə yönəltmək əvəzinə, onu “nəfs”ə yönəldir və sonda onları “inadcıl nəfs”in əsirinə çevirir. 5-9-cu Bölmələr iştirakçıları Bəhai yazılarından müvafiq silsilə sitatlar üzrə keçməklə bu tələnin bəzi incə təhlükələri barədə ayıldır. Fəsil davam edib gəncliyə yeni qədəm qoyanların həyatlarına sosial mühitin təsirlərini nəzərdən keçirir, qarşılıqlı dəstək mühiti kimi “yeniyetmə qrupu” konsepsiyasını təqdim edir və bu cür qrupların animatorları kimi xidmət etməyə qalxanların qəbul edəcəkləri mövqeni müəyyən edir.

“Animator Kimi Xidmət Etmək” adlı üçüncü fəsil müəyyən bir mənada ikinci fəslin nə ilə bitdiyini ələ alır və iştirakçıları bu xidmət aktının təbiəti ilə tanış etməkdə davam edir. Yeniyetmə qrupunun bəzi xüsusiyyətlərini nəzərdən keçirdikdən sonra fəsil proqramın özəyini təşkil edən materialların müzakirəsinə dalır. Fəslin çox böyük bir hissəsi bu müzakirəyə həsr edilir və aparıcı onun məqsədini yaxşı başa düşməlidir ki, bu da sadəcə materialı iştirakçılara təsvir etmək deyil, əslində, ruhani gücləndirilmə prosesinin nələri ehtiva etdiyi və materialın bu prosesin dinamikasını necə bəsləmək istədiyi barədə onları bəsirətlə təchiz etməkdir. Materiallardan çıxarışlar bütün fəsil boyunca daxil edilir, lakin iki mətn – *Təyid Nəsimləri* və *İman Ruhu* – bütövlükdə təhlil edilir və onların nüsxələri bütün iştirakçıların əlində olmalıdır.

Ruhani gücləndirmə məsələsi, ümumən, aparıcılar tərəfindən xeyli dərəcədə fikir və düşünmə tələb edir. Doğrudan da, İnstitut kurslarının hərəkətə gətirdiyi təlim-tərbiyə prosesinə son nəticədə, mənəvi-əxlaqi və ruhani gücləndirmə vasitəsi kimi baxıla bilər, bir proses ki, cəmiyyətin bütün kəsimlərindən və hər cür mənşədən olan insanlar onun vasitəsilə qalxıb daha yaxşı bir dünya qurmaqda iştirak etməyə qabil edilə bilər. Burada istifadə edilən güc konsepsiyası üstünlük qurmaq və ya başqalarını kiminsə arzu və tələblərinə razı olmağa sövq etmək məqsədilə bağlı olan geniş yayılmış təriflərdən xeyli dərəcədə fərqlənir. Əksinə, burada məqsəd insan ruhunun güclərinin: birliyin, sevginin, təvazökar xidmətin, pak əməllərin axması üçün kanala çevrilməkdir. Belə bir prosesin irəli getməsi – xeyr, sürətləndirilməsi – üçün lazım olan dinamikaya necə töhfə vermək aparıcı kimi xidmət etmək aktı üçün mərkəzdə dayanır və bir-birinin ardınca qrupları kurslar ardıcıllığına cəlb etmək təcrübəsi ilə hər bir aparıcı bu aktın ehtiva etdiyi qarşılıqlı təsirdə olan çoxlu amillər barədə işartılar əldə edə bilir ki, bu amillərin də arasında heç biri həqiqi anlayış bəsləmək qədər güclü deyil.

Əlbəttə, bu kitabda aparıcının qayğısı bundan da çoxdur, bu, uzanıb növbəti nəsli də əhatə edir və gəncləri meydana çıxmaqda olan güclərini səmərəli istifadə etməyə qabil edəcək təlim-tərbiyə prosesinin təbiətinə də toxunur. Bu prosesin mərkəzində düşünmə və ifadənin bir-birini qarşılıqlı qüvvətləndirən gücləridir. Ağlın erkən gənclik dövründə kəskin şəkildə artan mücərrəd düşünmə ilə məşğul olmaq gücü, yeniyetmələr müvafiq elmi, əxlaqi və ruhani konsepsiyaları ətraflarındakı dünyanı təhlil etmələrinə və cəmiyyətə təsir etmək üçün ilkin cəhdlərinə tətbiq etməyi öyrəndikcə onlarda möhkəmlənir. Bununla belə, rasional təhlil gücü nə qədər vacib olsa da, onun ruhani qavrayışa ehtiyacı var. Təkcə mental güclərin istifadəsi ilə ələ gəlməyən idrak kanalları onun vasitəsilə açılır. Odur ki, ruhani gücləri başa düşməkdə və əgər sağlam əxlaqi seçimlər etmələrini istəyiriksə, qarşıladıqları vəziyyətlərdə ruhani prinsipləri müəyyən etməkdə yeniyetmələrə kömək edilməlidir. Bir şəxsin düşüncə və davranışını idarə edən mənəvi-əxlaqi strukturun şəxsin öz düşüncəsini ifadə etdiyi dil strukturu ilə sıx bağlı olması nəzərdə tutulan təlim-tərbiyə prosesinin təməl şərtidir. Kitab 5-in ilk iki fəslinin bu proses barədə hansı bəsirətləri təklif etməsindən asılı olmayaraq, üçüncü fəslin 5-dən 19-a qədər olan bölmələri onun müxtəlif ölçülərini, lazım olduqda, proqramda istifadə edilən mətnlərdən alınan misallardan istifadə edərək aydınlaşdırmağa çalışır. Hər bir aparıcının qrupu o bölmələr üzrə aparmağa hazırlaşarkən bu bölmələri diqqətlə nəzərdən keçirməsi yaxşı olardı. Ümid edilir ki, iştirakçılar öz öyrənmələrindən müxtəlif mədəniyyətlərdən olan yeniyetmələri gücləndirməkdə mətnlərin potensialı barədə anlayışla ayrılacaqlar.

Ona görə də məhz bu müzakirənin işığında iştirakçılara iki mətni bütövlükdə təhlil etmək imkanı verilir ki, bu mətnlərdən biri “bəhai ruhlu” dərslik kateqoriyasına düşür, digəri isə proqramın konkret Bəhai komponentini təmsil edir. Bu iki kateqoriya fəslin əvvəlində iştirakçılara təqdim edilir və Təyid Nəsimləri ilə İman Ruhu-nun onlar tərəfindən nəzərdən keçirilməsinin məqsədi xitab edilən mövzularda və konsepsiyalarda, istifadə edilən dildə hər iki mətnin proqramın yuxarıda təsvir edilən məqsədinə necə töhfə verdiyini görməkdə onlara kömək etməkdir. Məsələn, birinci mətndə baxılan təyid konsepsiyası – yəni, əgər kimsə layiqli hədəflərə doğru səy qoyarsa, o, ilahi təyidləri cəzb edəcək – gənc insanların ağıl və ürəklərində

hər yerdə əks-səda verir. Mətni öyrənməklə onların əldə etdikləri anlayış, onlar yeni və meydanoxuyucu bir işə başlayanda o işi çox vaxt müşayiət edən təlaşı və özünəinam çatışmazlığını “nəfs” üzərində həddən artıq vurğu edilməsini göstərən aqressiv davranış yaratmadan aşmaqda onlara kömək edir. Bu yolla, kitabda açılan sadə, lakin dərin mənalı hekayə, yeniyetmələrin öyrəndikləri başlıca məsələlərdən biri olmaqla, çoxlarını cəmiyyətin toxumasını parçalayan, yeniyetmələrin nəcib varlıq kimi əsl kimliklərini onlardan çalan dezinteqrasiya güclərindən ən azı bir qədər qoruyan bir yola salır.

Eynilə də, İman Ruhu-nda verilən konsepsiyaların aydınlaşdırılması həyatın bu mərhələsində ağlı məşğul etməyə başlayan fəlsəfi məsələlər üzərində dərindən düşünməkdə, həmçinin ruhani ilə maddi olan arasında mövcud olan sıx əlaqələri görməkdə hər cür mənşədən gələn yeniyetmələrə yardım edir. Bu konsepsiyaların arasında, məsələn, fiziki təkamül və insan ruhunun meydana çıxması konsepsiyaları vardır. Aparıcı bunu başa düşməlidir ki, Kitab 5-i öyrənən və animator olmağa can atan gənc insanlardan bir çoxu üçün, əgər onlar yeniyetmə olaraq özləri ruhani gücləndirilmə proqramını bitirməmişlərsə, İman Ruhu-nun nəzərdən keçirilməsi təqdim edilən konsepsiyaları sistematik olaraq araşdırmaq cəhətdən ilk fürsət olacaqdır və onun nələri nəzərdə tutması üzərində düşünmək üçün onlara vaxt verilməlidir.

İştirakçılar bu icmalın sonunda elmlə din arasında harmoniya prinsipi üzərində mətndə açıq şəkildə qeyd olunmuş bir konsepsiya kimi deyil, onun bütün müzakirəsinin əsasında duran bir konsepsiya kimi düşünməyə təşviq edilirlər. Təklif olunan budur ki, elm və dinə sivilizasiyanın onların vasitəsilə inkişaf etdiyi, bir-birini tamamlayan iki bilik və praktika sistemi kimi baxmaq. Bu düşünmənin vacibliyi iştirakçıların, xüsusilə bu xidmət sahəsinə daxil olmağa hazırlaşanların nəzərindən qaçmamalıdır. Və nəhayət, əgər gerçəklik barədə tam anlayış əldə edilməsi ruhani gücləndirilmə prosesinin tərkib hissəsidirsə, onda yeniyetmələrin mətnləri bu hər iki bilik mənbəyindən zəruri olaraq istifadə etməlidir.

Proqramda iştirak edən hər hansı yeniyetmə qrupunun əsas fokusunu materialların öyrənilməsi təşkil edərkən, onlar birlikdə başqa fəaliyyətlərlə də məşğul olacaqlar. Buraya xidmət layihələri, idman, incəsənət və sənət, arabir xüsusi tədbirlər daxildir. 25 və 26-cı Bölmələr bu fəaliyyətlərə aid bir neçə prinsip və ideya təqdim edir, amma çox da təfərrüatlara varmaqdan qaçır və qeyd edir ki, onların konkret xüsusiyyətləri yerli şəraitdən asılı olaraq meydana çıxacaqdır. Bununla belə, ümid edilir ki, proqramda xidmət layihələrinin tərtibinə və həyata keçirilməsinə vurğu ediləcəkdir, çünki xidmət öncə qeyd edilən ikili mənəvi-əxlaqi məqsədin özünü göstərməsi üçün bir meydan açır. Burada iştirakçılar başa düşməlidirlər ki, bu cür layihələr digər animatorlarla görüşlərdə tez-tez məşvərət mövzusu olacaqdır.

Bu fəsil, yeniyetmə qrupunun formalaşmasına necə kömək etmək, ilk bir neçə görüşü necə aparmaq, proqramın təbiəti, oğul və qızlarının tərəqqisi barədə valideynlərlə necə danışmaq barədə bəsirətləri bölüşərək animatorun işinə aid bir neçə məsələni müzakirə etməklə bitir. Bəri başdan, iştirakçılar başa düşməlidirlər ki, animator kimi səmərəli xidmət etmək üçün tələb olunan qadiriyyətlər davamlı təcrübə və Kitab 5-dən ayrılan budaq kursları öyrənməklə zaman keçdikcə inkişaf edir. Bu, yeniyetmələrin təlim-tərbiyəsinə müəyyən bir səviyyə təəhhüdə çağırır ki, onların çoxu 19 yaşın altında və 20 yaşlarının əvvəlində, ömürlərinin bahar çağında ona nail olmaq üçün qabiliyyət göstərmişlər. Odur ki, məhz onların sıralarından bir-birinin ardınca qrupları ruhani gücləndirilmə proqramına cəlb edərək getdikcə artan sayda bu ixtisaslaşmış xidmət yolu ilə gedənlər çıxacaq və onlar bu yolla növbəti nəslin vədinin həyata keçməsini təmin edəcəklər.



# Həyatın Bahar Çağı

Məqsəd

Yeniyetmələrin ruhani gücləndirilməsi üçün proqrama onları cəlb etməyin zəruri bir şərti kimi gəncləri fərqləndirməli olan bəzi xüsusiyyətlər barədə bir anlayış əldə etmək

## BÖLMƏ 1

12 və 15 yaş arasındakı dövr fərdin həyatında xüsusi bir vaxtdır, çünki məhz bu illərdə insan uşaqlıq dövrünü arxada qoyur və dərin dəyişikliklərə məruz qalır. Tam gənclik yaşına çatmamış, bu yaşda fərdlər əsasən "yeniyetmələr" deyə adlandırılırlar. Yeniyetmələrin ruhani və intellektual qabiliyyətlərini yüksəltməyə və öz icmalarının işlərində fəal iştirak etmək üçün onların hazırlanmasına çalışan proqramlara cəlb olunmaq ən əhəmiyyətli xidmət aktıdır. Bu kitabın üç fəsli, təcrübənin göstərdiyi kimi, yeniyetmələrin ruhani gücləndirilməsi üçün Ruhi İnstitutunun irəli sürdüyü belə bir proqramı tətbiq etmək istəyənlərdən tələb olunan konsepsiyalar, məharətlər, keyfiyyətlər və münasibətlər üzərində fokuslanır.

Proqramı təşkil edən fəaliyyətlər, ümumən, yerli səviyyədə kiçik qruplarda aparılır. Belə bir qrupun səylərini canlandıran bir şəxs kimi siz, nisbətən qısa bir müddətdən sonra 15 yaşına – o zaman ki, onlar öz üzərlərinə yeni məsuliyyətlər götürəcəklər – yetkinliyin astanasına çatacaq bir neçə gəncin ruhani və intellektual inkişafı ilə məşğul olacaqsınız. Bu birinci fəsildə biz yeniyetmələrin əlamətləri üzərində çox durmayacaq, Əmrin Yazılarının necə olmasını aşıladığı gənc insan tipi haqqında düşünəcəyik. Sizin öyrənəcəyiniz parçalardan o aydın olmalıdır ki, gəncliyin hər bir nəslini fərqləndirməli olan bir neçə xarakterik cəhətlər və onların həyatlarını formalaşdırmalı olan xüsusi qüvvələr vardır. Əlbəttə, bu tamamilə mümkündür ki, sizin özünüzün 18-19 yaşınız var və ya iyirmi yaşınızı yenicə adlamısınız və bu halda bu fəsildə təqdim edilən material sizin özünüzə də məqsədlərinizi və prioritetlərinizi nəzərdən keçirmək fürsəti verəcəkdir.

## BÖLMƏ 2

Başlamaq üçün, tezliklə işləyəcəyiniz yeniyetmə qrupu haqda düşünün. Növbəti üç il ərzində siz onlarla əsl dost kimi tez-tez görüşəcək və ideyaları öyrənməkdə və araşdırmaqda, sadə xidmət layihələri planlaşdırmaq və yerinə yetirməkdə və belə bir təcrübədən nə öyrəndikləri üzərində düşünməkdə onlara kömək edəcəksiniz. Dəyərdi ki, onların bu proqramı bitirmiş olacaqları üç illik dövrün sonu barədə irəlicədən düşünəsiniz. O müddətdə qrupda gücləndirilmiş olacağına və sizin gənc dostlarınızı fərqləndirəcəyinə ümid etdiyiniz xüsusiyyətləri özünüz üçün aydınlaşdırmağa kömək etməsi üçün aşağıdakı çalışmaları yerinə yetirin.

1. Sizin təsəvvür etdiyiniz gənclər məqsədlərinin ucalığı ilə fərqlənəcəklərmi? Onlar nəyi belə bir məqsəd hesab edərdilər? ______________________________
______________________________
______________________________

2. Enerjilərinin çoxunu onların nəyin üzərində cəmləşdirmələrinə ümid edirsiniz?
______________________________
______________________________
______________________________

3. Öz idealları naminə işləməyə onları nə motivasiya edərdi? ______________
______________________________
______________________________
______________________________

4. Bu gün bəşəriyyətin qarşısındakı meydan oxuyan məsələlərdən onların nə dərəcədə agah olmalarını gözləyərdiniz? Onlar dünyanı gözəl bir yerə çevirməyə gerçək bir töhfə verə biləcəklərinə inanardılarmı? ______________________________
______________________________

______________________________________________________________________________
__________________________________________________

5. Siz, təbii olaraq, gənc dostlarınızın birlikdə keçirdiyiniz müddətdə müəyyən bir öyrənmə halətinə girmələrini istəyəcəksiniz. Bu halət aşağıdakı bəyanatlarda öz əksini tapıb. Buraya daha iki və ya üçünü əlavə edə bilərsiniz?

- Onlar çalışqan olacaqlar və öyrəndiklərini həyata keçirməyə cəhd edəcəklər.
- Onlar əməllərinin nəticələri üzərində düşünmək vərdişinə malik olacaqlar.
- Onlar açıq fikirli olacaqlar və öyrənməyə təvazökarlıqla yanaşacaqlar.
- Onlar bəşəriyyətə xidmət etmək üçün qabiliyyətlərini yetişdirmək istiqamətində atəşli arzuya malik olacaqlar.
- Onlar etdikləri hər şeydə mükəmməlliyə çatmağa can atacaqlar.
- Elm və incəsənəti öyrənməkdə onlar çox ehtiraslı olacaqlar.
- Bir fərd olaraq, özlərinin intellektual və ruhani inkişaflarından nə qədər sevinc alardılarsa, o qədər də bəşəriyyətin tərəqqisi üçün işləməyi öyrənməkdən sevinc duyacaqlar.
- __________________________________________________________________
- __________________________________________________________________
- __________________________________________________________________

6. Aşağıdakı müddəalardan hansılar sizin təsəvvürünüzdə olan bu gənclərin davranış tərzini təsvir edir?

____ Onların meyarları dünyadakı əksər gənclərin qəbul etdiyi meyarlarla, aşağı-yuxarı, eyni olardı.

____ Onlar öz həyatlarını qurmaq və idarə etmək üçün kütləvi mediada meyar axtarardılar.

____ Onlar böyük çətinliklərə baxmayaraq, yüksək mənəvi-əxlaqi meyarlara uyğun yaşamaq üçün çalışanların izi ilə gedərdilər.

____ Onlar əməlləri ilə inancları arasında ziddiyyət olmasını, əgər belə ziddiyyətlər olardısa, görməyə qabil olardılar.

____ Onlar bəşəriyyətin birliyi, kişi və qadınların bərabərliyi, ədalət kimi ideallara inanardılar, lakin onların əməlləri bu ideallardan danışmaqda usta olan, lakin işdə onlara riayət etməkdə uğursuz olan cəmiyyətin qəbul olunmuş normalarını daha çox əks etdirərdi.

____ Onlar yüksək meyarlara riayət etməyən bir sosial mühitdə rahat yaşamaq üçün o yüksək meyarları tərk edərdilər.

7. Aşağıdakı ifadələr pak və ismətli bir həyatın bəzi nəticələrini ifadə edir. Sizcə, təsəvvür etdiyiniz gənclər üçün bu kimi nəticələr üzərində düşünmək nə dərəcədə vacib olacaq? Siyahıya bir neçə başqa nümunə əlavə edə bilərsinizmi?

- Davranışlarında yüngültəbiət olmamaq

- Bayağı və yanlış yönləndirilmiş həzzlərdən uzaq olmaq

- Dünyəvi həzzlərin insanın yüksək məqsədindən yayınmasına imkan verməmək

- İffət normalarına zidd olan dəblərə və şıltaqlıqlara uymamaq

- Saflığın yalnız nikahdankənar cinsi əlaqədən uzaq olmaq demək olmadığını düşünmək

- Birinin geyindiyi tərzdə mötədillik nümayiş etdirmək

- Danışıq tərzində mötədillik nümayiş etdirmək

- Əyləncə seçimində mötədillik nümayiş etdirmək

- Təvazökarlığı və mütiliyi ilə seçilmək

- Paxıllıqdan və həsəddən uzaq olmaq

- Saflığı, ədəbliliyi, təmiz düşüncəsi ilə seçilmək

- Aşağı ehtiraslara nəzarət etməkdə ayıq olmaq

- ____________________________________________

- ____________________________________________

- ____________________________________________

8. Gənc dostlarınızla keçirdiyiniz bir neçə il ərzində onların həm intellektual, həm də ruhani güclərinin nə qədər güclü olacağına ümid edirsiniz:

- çətinlikləri aşmaqda?

- məqsədlərinə çatmaq üçün səylərini davam etdirməkdə?

- yüksək mənəvi-əxlaqi meyarlara zidd hərəkət etməyi tələb edən təzyiqlərə müqavimət göstərməkdə?

## BÖLMƏ 3

İndi isə gəlin Əmrin Yazılarından bir neçə parçaya müraciət edək və onların gəncləri necə təsvir etdiyinə nəzər salaq. Həzrət Əbdül-Bəha buyurur:

**"Ey Əbdül-Bəhanın sevimliləri! İnsan həyatının öz bahar çağı var və bu dövrə valehedici büsat əta edilmişdir. Gənclik dövrü güc və həyat enerjisi ilə səciyyələnir və insan həyatının ən gözəl**

**vaxtıdır. Ona görə də siz gecə və gündüz çalışmalısınız ki, səmavi güc əldə edərək, parlaq niyyətlərlə ilhamlanaraq, Onun səmavi qüdrəti, uca mərhəməti və təyidi ilə yardım alaraq insan dünyasının bəzəyi, həqiqi elm və Allaha məhəbbətə vaqif olanlar arasında ən görkəmliləri olasınız. Siz insanlar arasında öz paklığınız və inqitanızla, məqsədinizin ucalığı, alicənablığınız, qətiyyətiniz, nəcib fikirliliyiniz, mətinliyiniz, məqsədlərinizin və ruhani keyfiyyətlərinizin yüksəkliyi ilə fərqlənməlisiniz ki, Allahın Əmrinin ucaldılması və təntənəsi üçün vasitə və Onun səmavi lütflərinin məşriqi olasınız; Camali-Mübarəkin – mənim həyatım Onun sevimlilərinə fəda olsun – nəsihətləri və öyüdlərinə uyğun davranasınız və Bəhai keyfiyyətləri və xasiyyətləri əks etdirməklə başqalarından seçiləsiniz. Əbdül-Bəha intizarla gözləyir ki, sizin hər biriniz insan kamillikləri çöllərində gəzən qorxmaz aslan və məziyyətlər çəmənliklərindən əsən müşk ətirli nəsim olasınız”.**[1]

1. Aşağıdakı cümlələri yuxarıdakı iqtibas əsasında tamamlayın:

   a. İnsan həyatının bahar çağına ____________________________ əta edilmişdir.

   b. Gənclik dövrü _________ və __________ _______________ ilə səciyyələnir.

   c. Gənclik dövrü insan həyatının _____ ___________ vaxtıdır.

   d. Gənclik çağında biz gecə və gündüz çalışmalıyıq ki, ____________ ________ əldə edərək, ____________ _________________ ilhamlanaraq, Onun __________ _____________, _______ ________________ və __________ ilə yardım alaraq insan dünyasının _________ olaq.

   e. Gənclik çağında biz gecə və gündüz çalışmalıyıq ki, ____________ ________ və ____________ ___________________ vaqif olanlar arasında ən görkəmliləri olaq.

   f. Gənclik çağında biz _________________ və _________________ fərqlənməliyik.

   g. Gənclik çağında biz ___________________ ucalığı ilə fərqlənməliyik.

   h. Gənclik çağında biz _________________, qətiyyətimiz, ____________ fikirliliyimiz, ___________________, _________________________ və ___________ keyfiyyətlərimizin yüksəkliyi ilə fərqlənməliyik.

   i. Gənclik çağında biz _____________ _______________ ucaldılması və təntənəsi üçün _____________ və Onun ______________ ___________________ ______________ olaq.

   j. Gənclik çağında biz Camali-Mübarəkin _________________________ və __________________ __________ davranmalıyıq.

   k. Əbdül-Bəha intizarla gözləyir ki, hər bir gənc ____________ _______________________ çöllərində gəzən _______________ ___________ və ______________________ çəmənliklərindən əsən _________ _____________ nəsim kimi olsun.

2. Geniş yayılmış bir inanc haqqında siz yəqin, bu və ya digər formada fikirləri eşitmisiniz ki, gənclərin işi əylənməkdir, çünki onlar onsuz da tezliklə həyatın çox ciddi məsələləri ilə üzləşəcəklər. Bu aşkarca Həzrət Əbdül-Bəhanın yuxarıdakı bəyanı ilə uyğun deyil. Bu geniş yayılmış baxışın əsasında duran bəzi fərziyyələr nələrdir? Bu materialı bu gün birgə öyrəndiyiniz dostlarınızla qrupda bu sualı müzakirə edin və qənaətlərinizi burada yazın.

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

# BÖLMƏ 4

Həzrət Əbdül-Bəhanın aşağıdakı duası Onun gənclərə bəslədiyi bəzi ümidləri ifadə edir:

**"Sən Ey Mehriban Allah! Mərhəmətlə bu körpə quşların hər birinə bir cüt səmavi qanad əta eylə və onlara ruhani güc ver ki, bu sonsuz fəzada pərvaz etsinlər və Əbha Mələkutunun zirvəsinə yetişsinlər.**

**"İlahi! Bu kövrək fidanları qüvvətləndir ki, hər biri hədsiz təravət və lətafət içində olan barlı-bəhrəli ağaca çevrilsin. Öz ilahi qoşunlarının köməyilə onlara qələbə və zəfər bəxş eylə ki, cəhalət və azğınlıq ordusunu darmadağın etsinlər, insanlar arasında yoldaşlıq və hidayət bayrağını ucaltsınlar, bahar nəsimi tək insanların ruh ağaclarına təravət bəxş etsinlər, onları canlandırsınlar və yaz yağışı kimi, o diyarın çəmənliyini yaşıl və bərəkətli etsinlər.**

**"Sən Qüvvətli və Qüdrətlisən; Sən Bəxşedən və Sevənsən".**[2]

1. Aşağıdakı cümlələri yuxarıdakı iqtibas əsasında tamamlayın:

   a. Erkən gənclik yaşlarında olanları Həzrət Əbdül-Bəha quş balalarına bənzədir ki, onların bir cüt __________________________ ehtiyacları vardır və Allaha iltimas edir ki, onlara ___________________________ versin ki, onlar bu sonsuz fəzada ________________________ və Əbha Mələkutunun ______________________________.

   b. Erkən gənclik yaşlarında olanları O, kövrək _________________ bənzədir və Allahdan rica edir ki, onları qüvvətləndirsin ki, hər biri ____________ ________________ və ____________ _________ _______ _________________ ağaca çevrilsin.

   c. O, Allahdan diləyir ki, onlara zəfər bəxş etsin ki, ________________ və _______________ ________________ darmadağın etsinlər, _______________ _________________ ________________ və ______________ __________________ ucaltsınlar.

   d. O dua edir ki, onlar dirçəldici __________ _________________ kimi ___________________ _________ ağaclarına təravət bəxş etsinlər, __________ ________________________ və ________ _____________ kimi, o diyarın çəmənliklərini ____________ və __________________ etsinlər.

2. Bu duada Həzrət Əbdül-Bəha Allahdan rica edir ki, gənclərə ruhani güclər bəxş etsin. Aşağıdakılardan hansılarını siz ruhani güc ilə əlaqələndirirsiniz:

__ Məqsədin ucalığı

__ Allaha təvəkkül

__ İsmətlilik

__ Hiyləgərlik

__ Rəqabət

__ Həmrəylik

__ Dürüst xasiyyətlilik

__ Dünyəvi iddialılıq

__ Sosial məqama can atmaq

__ Allaha məhəbbət

__ Cah-calala meyil

__ Alicənablıq

__ Parlaqlıq

__ Verilmiş işi həll etmək qətiyyəti

__ Nəcib fikirlilik

__ Səxavətlilik

__ Başqalarına nəzarət etmək istəyi

__ Səbatlılıq və qətiyyət

__ Təvazökarlıq

__ Nailiyyətlərindən qürrələnmək

__ Təkəbbür

__ Niyyətin paklığı

3. Bu duada Həzrət Əbdül-Bəha Allaha iltimas edir ki, gəncləri cəhalət və azğınlıq ordusunu dağıtmağa qabil etsin. Aşağıdakılardan hansıların belə qüvvələrlə mübarizədə gənclərə kömək edəcəyini müəyyən edin:

__ doğrunu yalandan ayırmaq bacarığı

__ başqalarını manipulyasiya etmək bacarığı

__ dərin fikirləri aydın ifadə etmək bacarığı

__ təəssübü etiraf etmək və aşmaq bacarığı

__ maddi vəsaitləri lazımi istifadə etmək bacarığı

__ şəxsi məqsədlərinə çatmaq üçün başqalarına nəzarət etmək bacarığı

__ aşağı təbiətin ehtiraslarına nəzarət etmək bacarığı

__ fikir birliyinə töhfə vermək bacarığı

__ mühakimələrində qərəzsiz olmaq bacarığı

__ ədaləti irəlilətmək bacarığı

4. Bu duada Həzrət Əbdül-Bəha Allahdan rica edir ki, gəncləri yoldaşlıq və hidayət bayrağını ucaltmağa qabil etsin. Gənclərin bu səylərində aşağıdakılardan hansıların onlara kömək edəcəyini müəyyənləşdirin:

__ dostluq bağları yaratmaq bacarığı

__ başqalarına diqqətlə qulaq asmaq bacarığı

__ çətinlikləri sakit və təmkinli qarşılamaq bacarığı

__ başqalarının səhvlərini və qüsurlarını müəyyən etmək bacarığı

__ başqalarının səhvlərinə və qüsurlarına göz yummaq bacarığı

__ cəmiyyətə təmənnasız xidmət etmək bacarığı

__ başqalarının uğuruna sevinmək bacarığı

__ başqalarına ümid aşılamaq bacarığı

__ başqaları ilə əməkdaşlıq etmək bacarığı

__ başqalarının rifahına fikir vermədən öz marağını irəlilətmək bacarığı

__ öz icmanın rifahını irəlilətmək bacarığı

# BÖLMƏ 5

Son iki bölmədə bizim öyrəndiyimiz sitatlar gənclərin malik olmalı olduqları bəzi xüsusiyyətlər haqqında bizə bəsirət verir. Aydındır ki, gənc insanlar 15 yaşına çatan zaman onlardan çox şey gözləniləcək. Doğrudan da, biz bilirik ki, yazılar 15 yaşa yetkinliyin başlanğıcı kimi isnad edir. Məhz bu yaşda oruc və namaz kimi qanunlara riayət olunması hər bir fərd üçün vacib olur. Yetkinliyə keçmək barədə Həzrət Əbdül-Bəha buyurur:

> **“Körpə uşağın bədəni yetkinlik yaşına çatana qədər hər bir mərhələdə böyüyərək və inkişaf edərək müxtəlif fiziki mərhələlərdən keçir. Bu mərhələyə çatanda artıq o, ruhani və əqli kamillikləri təzahür etdirmək qabiliyyəti əldə etmiş olur. İdrak, ağıl və bilik işığı onda üzə çıxır və onun ruhunun gücləri açılır”.**[3]

Bir şəxs yetkinlik yaşına çatdıqda, Həzrət Əbdül-Bəha bizə deyir:

> **“o, şeylərin gerçəkliklərini və daxili həqiqətləri dərk edir. Həqiqətən də, onun idrakında, hisslərində, əqli-nəticələrində və kəşflərində yetkinlik çağından sonrakı ömrünün hər günü özündən bir il əvvələ bərabərdir”.**[4]

1. Gənclər haqqında çoxlu fikirlər vardır ki, Həzrət Əbdül-Bəhanın yuxarıdakı bəyanları işığında nəzərdən keçirilə bilər. Aşağıdakılardan hansı, sizin fikrinizcə, 15 yaşındakı gənc insana şamil edilə bilər? O:

__ həyat və ölümün mənası üzərində düşünmək üçün ruhani qabiliyyətə malikdir.

__ dərin mövzuları yalnız o zaman müzakirə edə bilir ki, onlar zarafat donuna bürünüb.

__ onun həyatına təsir edən qüvvələri müəyyənləşdirmək və analiz etmək üçün əqli qabiliyyətə malikdir.

__ işləri çalışqanlıqla yerinə yetirmək qabiliyyətinə malikdir.

__ çətin çağırışları aşmaq üçün ruhani qabiliyyətə malikdir.

__ uşaqların ruhani təlim-tərbiyəsi üçün dərslər aparmaq qabiliyyətinə malikdir.

__ Əmrin təlimlərini və prinsiplərini bəlağətli və inandırıcı dillə izah etmək. qabiliyyətinə malikdir.

__ valideyn dəstəyinə və məhəbbətinə ehtiyacı yoxdur.

__ Bəhai qanunlarına riayət etmək məsuliyyətini götürə bilər.

__ ictimai prosesləri başa düşmək üçün intellektual qabiliyyətə malikdir.

__ cəmiyyətə vacib və əhəmiyyətli xidmət göstərə bilər.

2. Aşağıdakı duanı əzbərləmək arzusunda ola bilərsiniz:

**"Ya Rəbb! Bu gənci işıq saçan eylə və Öz nemətini bu fəqir varlığın üzərinə yağdır. Ona həqiqi bilik bəxş eylə, hər dan yeri açılanda ona yeni güc əta eylə və onu Öz mühafizə çadırında qoru, ta ki, o, səhvlərdən azad olsun, özünü Sənin Əmrinə xidmətə həsr etsin, yolunu azmışlara yol göstərsin, biçarələri yönəltsin, əsirləri azad etsin, qafilləri oyatsın ki, hamı Sənin zikrin və tərifinlə bərəkətlənsin. Sən Qüdrətli və Qüvvətlisən".**[5]

## BÖLMƏ 6

Gənc insanlar 15 yaşı adlayıb yetkinlik yaşının astanasına qədəm qoyanda müəyyən fiziki, əqli və ruhani güclər diqqət mərkəzinə keçir. Uşaqlığın münasibətlərini, fikirlərini və vərdişlərini arxada qoyaraq, onlar yeni qabiliyyətlər yetişdirməlidirlər. Bu gücləri Allahın Əmrinə xidmətə yönəltmək hər bir gəncin həyatının erkən gəncliyində başlamalıdır. Həzrət Bəhaullah təsdiq edir:

> **"Mübarəkdir o kəs ki, gəncliyinin erkən çağında və həyatının ən gözəl vaxtında əvvəlin və sonun Rəbbinin Əmrinə xidmətə qalxar və qəlbini Onun məhəbbəti ilə bəzəyər. Belə bir fəzlin təzahürü göylərin və yerin yaranmasından daha heyrətamizdir. Mübarəkdir möhkəm olanlar və xoş halına səbatlı olanların".**[6]

Hər bir gənc nəslin Əmrə göstərdiyi xidmət tərəqqi üçün bir zərurətdir. Onların verdiyi töhfənin əhəmiyyətini vurğulayaraq, Şövqi Əfəndinin adından yazılmış bir məktubda deyilir ki, Allahın Əmrinin məqsədlərini irəlilətməklə məşğul olanlar arasında "o, təmənnasız xidmət ruhunun saxlanması üçün bütün məsuliyyəti onların çiyinlərinə qoyur". "Bu ruh olmadan," məktubda belə davam edir, "heç bir iş müvəffəqiyyətlə yerinə yetirilə bilməz".

Xidmət meydanı üçün gəncləri daha da uyğun edən səciyyəvi cəhətlərə gəldikdə isə, Ümumdünya Ədalət Evi bütün Milli Ruhani Məhfillərə ünvanlanmış bir müraciətində yazır:

> **"Gənclərin ağır şərtlər altında dözümlülüyü, onların həyat gücü və enerjisi, yerli vəziyyətə onların uyğunlaşmaq, yeni çətinliklərə sinə gərmək, ziyarət etdikləri adamlara öz mehribanlıq və şövqlərini ötürmək bacarığı, Bəhai gəncinə məxsus davranış meyarı ilə**

**birləşərək, onları düşünülmüş layihələri yerinə yetirməkdə qüdrətli alətə çevirir. Doğrudan da, bu fərqli keyfiyyətləri ilə onlar hər bir təşəbbüsün öncülü və istər yerli, istərsə də milli olsun, iştirakçıları olduqları istənilən bir təşəbbüsün aparıcı qüvvəsi ola bilərlər”.**[7]

Və bütün dünyadakı gənclərə müraciət edərək, Ədalət Evi daha ətraflı izah edir:

**“Hərçənd sizin gerçəklikləriniz şəraitlərin müxtəlifliyi ilə formalaşsa da, həyatınızın bu mərhələsinə xas olan konstruktiv dəyişikliklərə nail olmaq istəyi və mənalı xidmət qabiliyyəti nə hər hansı bir irq və ya millətlə məhdudlaşır, nə də maddi imkanlardan asılıdır. Paylaşdığınız bu parlaq gənclik dövrünü hamı təcrübədən keçirir...”**[8]

Aşağıdakı cümlələri yuxarıda verilmiş sitat əsasında tamamlayın:

a. Gəncliyinin erkən çağında Allahın Əmrinə xidmətə qalxan və qəlblərini Onun məhəbbəti ilə bəzəyən kəslər ____________________.

b. Allahın Əmrini irəlilətməklə məşğul olanlar arasında fədakar xidmət ruhunun saxlanması üçün məsuliyyət ___________________________ çiynindədir.

c. Saxlanması gənclərin çiynində olan fədakar xidmət ruhu olmadan, heç bir iş ____________________________________________________.

d. Gənclərin ağır şərtlər altında dözümlülüyü, onların ____________________ və _____________ layihələri yerinə yetirməkdə onları qüdrətli alətə çevirir.

e. Layihələri yerinə yetirmək üçün qüdrətli alət kimi, gənclər yerli vəziyyətə ________________, yeni çətinliklərə ______________________, öz mehribanlıq və şövqlərini ziyarət etdikləri adamlara _______________ bacarıqlarını istifadə edə bilərlər.

f. Öz fərqli keyfiyyətləri ilə gənclər hər bir təşəbbüsün _____________, iştirakçısı olduqları hər bir işin ___________________________ ola bilərlər.

g. Gənclərin gerçəkliklərini formalaşdıran şəraitlər dünyanın müxtəlif yerlərində fərqli olsa da, _________________ bu mərhələsinə xas olan _________________ dəyişikliklərə nail olmaq istəyi və ______________________ qabiliyyəti hər hansı bir irq və ya millətlə məhdudlaşmır.

# BÖLMƏ 7

Bir sıra konsepsiyalar gənclərin həyata keçirdikləri xidmətlərlə ümumi şəkildə bağlıdır, onların arasında spontanlıq, coşqu və xəyallarının tuta bildikləri hər hansı məqsəd arxasınca getmək azadlığı da vardır. Bu konsepsiyaları xidmətlə bağlamaq üçün müəyyən əsas olsa da, biz ehtiyatlı olmalıyıq ki, onları həddən artıq vurğulamayaq. Bu çox asandır ki, gənclərin fəaliyyətinin bir sıra sevincgətirici, coşqulu hadisələrə qədər azaldılmasına vərdiş edilsin və bu zaman prosesin təbiətini anlamaq dəyərinə və sistematik hərəkət etmək intizamını öyrənmək ehtiyacına fikir verilməsin. Kəndlərin və qonşuluqların ruhani əsaslarını möhkəmləndirmək – məsələn, uşaqların ruhani təlim-tərbiyəsi, icma həyatının möhkəmlənməsi və insan resurslarının inkişafı – üçün Əmrin təlim və prinsiplərinin tətbiq olunduğu sistemli prosesləri düşünün. İndi bu kursu oxuyan dostlarınızla birlikdə gənclərin bu proseslərə töhfə verə biləcəyi bəzi xidmət hərəkətlərini xatırlayın. Bu fəaliyyətlər sevinc yaratmırlarmı? Onlar müəyyən dərəcədə spontanlığa icazə vermirlərmi? Onlar intizamlı şəkildə təşəbbüs göstərməklə yaradıcılığı təşviq etmirlərmi?

___________________________________________________________________________

___________________________________________________________________________

___________________________________________________________________________

## BÖLMƏ 8

Biz tez-tez eşidirik ki, gənclik dövrü hazırlıq dövrüdür. Bu fikir, həqiqətən, doğrudur. Bu gün dünyada ehtiyac olan böyük dəyişiklikləri nəzərdə tutaraq Ümumdünya Ədalət Evi yazır ki, "cəmiyyətin fəaliyyətində baş verməli olan transformasiya böyük dərəcədə gənclərin miras kimi təhvil alacağı dünya üçün etdikləri hazırlıqların effektivliyindən asılı olacaqdır". Elə isə bizim soruşmalı olduğumuz sual budur ki, gənclər yetkinliyə keçiddə çiyinlərinə götürməli olacaqları məsuliyyətlər üçün özlərini ən yaxşı şəkildə necə hazırlaya bilərlər. Ədalət Evinin yazdığı bir məktub belə izah edir:

> **"İstənilən bir şəxs, bəhai və ya qeyri-bəhai olsun, gənclik illərində onun həyatının istiqamətini müəyyən edən çoxlu qərarlar verməli olacaq. Bu illərdə o, çox güman ki, həyatında bir peşə seçəcək, təhsilini tamamlayacaq, həyatı təminatı üçün vəsait qazanacaq, evlənəcək və öz ailəsini yetişdirməyə başlayacaq. Hər şeydən daha mühümü isə, məhz bu dövrdə onun ağlı daha çox axtarışda olur və insanın gələcək davranışını istiqamətləndirəcək ruhani dəyərlər qəbul olunur".[9]**

Bunun işığında, Şövqi Əfəndinin adından yazılmış bir məktub gələcəyə hazırlaşmalarının bir hissəsi olaraq gənclərin öz intellektual və ruhani qabiliyyətlərini inkişaf etdirmək ehtiyacına işarə edir. "Siz yaxşıca hazırlıqlı olmalısınız", məktub bildirir, "Siz həm intellektual, həm də ruhani tərəflərinizi eyni dərəcədə inkişaf etdirməlisiniz".

Bu sual çox vaxt təhsil almaqla – bu istər akademik, istər peşə, istərsə də ixtisas təhsili olsun – Əmrə xidmət arasındakı münasibətlərə aid digər sualların baş qaldırmasına səbəb olur. Xüsusilə də, bəzən bu aydın olmur ki, gənclər bunların hər birinə nə qədər enerji sərf etməlidirlər. İfrat mövqelərdən biri budur ki, gənclər özlərini tamamilə təhsilə həsr etsinlər və Əmrə xidmətlə ciddi şəkildə məşğul olana qədər daha çox həyat təcrübəsi qazansınlar. Doğrudur, "bütün hallarda insanın öz imkanları daxilində təhsil almasına, dolanışığını təmin edəcək peşə və ya ixtisasa yiyələnməsinə lazımi əhəmiyyət verilməlidir". Bununla belə, Ümumdünya Ədalət Evinin açıqladığı kimi, "gəncliyin məhsuldar illərini yalnız" bir peşə və ya ixtisas ilə məşğul olmağa hazırlıq mərhələsi kimi müəyyən etmək:

**"gənclərin malik olduqları o qədər bol yaradıcı enerjiyə göz yummaq olardı. Nəhayət, Əmrin nə qədər erkən qəhrəmanları Məhbublarının yolunda ən böyük əməllərə nail olan gənc kişi və qadınlar olmuşlar".[10]**

Digər bir ifratçılıq da budur ki, gənclər hər hansı bir formal təhsili yaddan çıxarsınlar və enerjilərini bütünlüklə, xüsusilə də bu böyük fürsətlər vaxtında xidmət sahəsinə sərf etsinlər. Xidmətin hər bir gəncin həyatında mərkəzi olmalı olması, əvvəlki bölmələrdə öyrəndiyimiz parçalar da daxil olmaqla bir çox parçalardan aydın olur. İntensiv bir xidmət müddətinin, dərslərdə fasiləni ehtiva edib-etməməsindən asılı olmayaraq, "onların hazırlanmasının dəyərli komponenti" ola biləcəyi də aydındır. Eyni zamanda, Ümumdünya Ədalət Evi qeyd edir:

**"Xidmət yolunda verəcəyi çox şey olanlardan böyük şeylər gözləmək düzgün olsa da, dostlar yetkinliyə doğru inkişafın nədən ibarət olduğuna dair dar bir baxışdan çəkinməlidirlər. Hərəkət azadlığı və boş vaxtın mövcudluğu bir çox gəncə icmanın ehtiyacları ilə birbaşa əlaqəli şəkildə xidmət etməyə imkan verir, lakin onlar iyirmi yaşlarına irəlilədikcə üfüqləri genişlənir. . . . Bir çoxları üçün prioritet**

**önlərindəki imkanlara uyğun olaraq əlavə akademik və ya peşə təhsili olacaq və cəmiyyətlə qarşılıqlı əlaqə üçün yeni məkanlar açılacaq. . . . Onların yetkin həyatlarının istiqaməti ilə bağlı verdikləri mühüm qərarlar müəyyən edəcək ki, Allahın Əmrinə xidmət onların gənclik illərinin qısa və yaddaqalan bir fəsli, yoxsa onların yer üzündəki varlığının sabit mərkəzi, bütün hərəkətlərin diqqət mərkəzində olduğu bir obyektiv olub".**[11]

Təhsil və xidmət arasındakı əlaqəni daha ətraflı nəzərdən keçirməzdən əvvəl, siz burada dayanıb, gənclik dövrünün hazırlıq dövrü olmasının nə demək olduğunu necə başa düşdüyünüzü əks etdirən qısa bir bəyanat yaza bilərsiniz.

_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

# BÖLMƏ 9

Son bölmədə sizin yazdığınız bəyanat, şübhəsiz, gənclərin özlərini onlara miras kimi ötürülmüş dünya üçün akademik təhsil, yaxud peşə və ya sənət yönümlü təlim almaqla adekvat şəkildə hazırlamalarının nə qədər vacib olduğunu vurğulayır. Necə ki, siz də gördünüz, insan təhsil aldığı müddətdə Əmrə xidməti "gözlədə" bilməz. İnsanın yaşı artdıqca, belə bir münasibət daimiləşir, belə halda o, tam ciddi şəkildə xidmət etmək üçün müvafiq zamanın yetişəcəyini həyatı boyu gözləməklə ömrünü başa vura bilər. Təhsil almaqla xidmət arasındakı münasibətə belə bir baxış təhsilin yalnız kitab öyrənməkdən ibarət olması kimi müəyyən olunması halında baş qaldıra bilər. Bunun yerinə, biz xidmətə biliyin tətbiq olunduğu, intellektin inkişaf etdiyi bir meydan kimi baxanda, bu cür düşüncədən asanlıqla qaçılır və bu halda xidmət gələcəyə hər hansı sağlam bir hazırlıq prosesinin yalnız bir hissəsi kimi deyil, onun mərkəzində duran bir məsələ kimi qavranılır. Doğrudan da, xidmət erkən gənclik illərində başlayanda, bu, insanı kursu düzgün seçməyə və istiqaməti aydın saxlamağa qadir edərək onun bütün həyatı boyu rəhbər prinsipə çevrilir.

Bunu anlamaq, təbii olaraq, gənclərdə xidmət üçün onların qabiliyyətlərini yüksəltməklə bağlı lazım hazırlığın mahiyyəti barədə suallara yol açır. Asanlıqla bu cür düşünmək olar ki, gənclərin həmyaşıdları ilə bir yerdə vaxt keçirmək kimi təbii arzularının həyata keçdiyi tədbirlər də daxil olmaqla, bəhai icmasının müxtəlif yığıncaqlarında iştirak edərək, gənclər qabiliyyətlərini inkişaf etdirəcək və özlərini xidmət həyatı üçün adekvat şəkildə hazırlayacaqlar. Lakin yazılar göstərir ki, belə bir qeyri-formal təhsil prosesi zəruri olsa da, kifayət deyildir.

Əgər biz Şövqi Əfəndinin məktublarına diqqətlə baxsaq, görərik ki, o, ümidini ifadə edir ki, gənclər təlimləri "yaxşı öyrənmiş və hazırlıqlı" olacaqlar və onlar Əmr haqqında "hərtərəfli" və "əsaslı" bilik əldə edəcəklər. Bundan əlavə, o, gəncləri təşviq edir ki, "fəal, bütün ürəklərini qoyaraq və davamlı iştirakları ilə" öz icmalarının fəaliyyətlərindən öyrənsinlər. Bununla əlaqədar o izah edir ki, icma həyatı "əvəzedilməz bir

laboratoriya" təqdim edir ki, orada gənc insanlar Əmri öyrənməklə əldə etdikləri "prinsipləri canlı və konstruktiv hərəkətə çevirə" bilərlər. O göstərir ki, məhz "o canlı orqanizmin həqiqi bir hissəsi olmaqla" onlar "Bəhai Təlimləri boyunca keçən gerçək ruhu tuta" bilərlər. Beləliklə, formal bir təlim-tərbiyə prosesi lazımdır ki, xidmət üçün özlərini təchiz etmələrində gənclərə yardım etsin, elə bir proses ki, icma həyatının gerçəkliyinin içində olsun. Fəaliyyət xatirinə fəaliyyət, öyrənmək xatirinə öyrənmək tələbi ödəmir.

Ümumdünya Ədalət Evinin müraciətlərinin çoxu da buna bənzər dildən istifadə edir. Müraciətlərdən biri aydın edir ki, "öyrənmə ilə xidmət birləşəndə və paralel olaraq yerinə yetiriləndə" anlayış yüksək dərəcədə artır. "Orada, xidmət meydanında", mesajda deyilir, "bilik tətbiq edilərək yoxlanılır, praktikadan suallar meydana çıxır və anlayışın yeni səviyyələri əldə edilir". Bütün planet üzrə ölkələrdə formal öyrənmə kursları vasitəsilə Əmrin insan resurslarının inkişaf etdirilməsi kimi aydın bir məqsəd üçün təlim institutları yaradılmışdır. Sayı getdikcə artan insanlar hər yerdə xidmət qabiliyyətlərini inkişaf etdirmək üçün sistematik təlim-tərbiyə prosesinə cəlb olunmuşlar və gənclər də, həmişə, bu prosesin önündə getmişlər. Təlim institutu qurumu ilə bağlı Ədalət Evinin adından yazılmış bir məktub izah edir:

> **"Bu, öyrənməni, sitayişi, təbliği, icma quruculuğunu və ümumiyyətlə, cəmiyyəti transformasiya etmək istəyən digər proseslərə cəlb olunmağı bir yerdə toxuyan uzlaşmış və sevincli həyat tərzini bəsləyərək fərdi gözəl davranış və özünü tərbiyələndirməyin xidmət kontekstində inkişaf etdirildiyi təlim-tərbiyə prosesinə cəlb etməyə çalışır. Təlim-tərbiyə prosesinin mərkəzində Allahın Kəlamı ilə əlaqə dayanır ki, o Kəlamın gücü öz ürəyini təmizləməkdə və "inqita ayağı" ilə xidmət yolunda getməkdə hər bir fərdin cəhdlərini dəstəkləyir."[12]**

Ədalət Evinin adından yazılmış başqa bir məktub təsdiq edir:

> **". . . institutun kursları fərdi - inadkar eqonu boğmaq, fərdi öz məhdudiyyətlərinin fövqünə qaldırmaq və onu dinamik icma quruculuğu prosesinə qoşmaq məqsədi daşıyan xidmət vasitəsilə keyfiyyət və münasibətlərin, məharət və bacarıqların tədricən əldə edildiyi bir yola istiqamətləndirmək istəyir".[13]**

Dünya üzrə gənc insanlar kontingentini nəzərdə tutaraq Ədalət Evi yazır:

> **"Konkret şərtlərdən asılı olmayaraq, onların hamısı bir nəfər kimi, öz vaxt və enerjilərini, istedad və bacarıqlarını icmalarının xidmətinə həsr etmək arzusu ilə dolacaqlar. Fürsət verildikdə, çoxları həyatlarının bir neçə ilini sevinclə böyüməkdə olan nəsillərin ruhani təlim-tərbiyəsinə həsr edəcəklər. Odur ki, dünyanın gənc insanlarında cəmiyyəti dəyişdirmək üçün açılmasını gözləyən qabiliyyət xəzinəsi gizlənir. Bu qabiliyyətin azad olunmasına isə hər bir təsisat müqəddəs bir vəzifə kimi baxmalıdır".[14]**

## BÖLMƏ 10

Əvvəlki iki bölmədə gördüyümüz kimi, hər hansı bir vəziyyəti nəzərdən keçirdikdə, onu elə tərkib hissələrə bölməkdən ehtiyatlı olmalıyıq ki, həyatımızın aspektlərini bir-birindən ayıraraq parçalamayaq və bu da lazımsız ziddiyyətlərə gətirib çıxarmasın. Ümumiyyətlə, insan ağlı qarşısındakı dünyanı fraqmentlərə bölməyə meyillidir. İstər fiziki, istər sosial, istərsə də ruhani gerçəklik olsun, bu, bütövlüyü ilə qavranılmaq üçün həddən artıq genişdir. Belə olan halda, bu məqsədəuyğun sayıla bilər ki, onu başa düşmək üçün hissələrə bölək. Bununla belə, gerçəkliyin bütövlüyünü nəzərə almadan bunu etdikdə, çətinliklər meydana çıxır. Müxtəlif irqlərə, rənglərə, millətlərə və dinlərə aid insanlar arasındakı münaqişələr mövcudluq haqqında fraqmentar konsepsiyadan yarana bilən çox problemlərə aid misallardır - çünki bəşərin birliyi gerçəkdir və onun irqi, etnik, milli xüsusiyyətlərə görə parçalanması insan ağlının məhsulu və tarixi şəraitin nəticəsidir.

Əgər biz ehtiyatlı olmasaq və sonda həyatımıza belə fraqmentar bir yanaşmanı qəbul etsək, əsas etibarilə uydurma olan hər cür dixotomiya yarada bilərik. İş, asudə vaxt, ailə həyatı, ruhani həyat, fiziki

sağlamlıq, intellektual məşğuliyyətlər, fərdi inkişaf, kollektiv tərəqqi və s. o parçalar olur ki, onlar birlikdə bizim mövcudluğumuzu təşkil edir. Biz belə bir parçalanmanı gerçəklik kimi qəbul etdikdə, həyatımızın bu müxtəlif aspektlərinin tələblərinin nə olduğuna cavab axtarmağa cəhd edərkən, biz bilmirik ki, hansı tərəfə üz tutaq. Açıq-aşkar bir-birinə zidd olan məqsədlər qarşısında çaşıb qalırıq: Əmrə xidmət etmək üçün mən ailə həyatımı fədamı etməliyəm? Mənim Əmrə xidmətim uşaqlarımı yaxşı tərbiyə etməyimə mane olmurmu? Bunlar yarana biləcək saysız-hesabsız suallara aid sadəcə iki misaldır.

Bizim özümüzün yaratdığımız bu dixotomiyaları həll etmək üçün biz vaxtımızı bəzən müxtəlif tələblər arasında bərabər bölməyə cəhd edirik. Başqa hallarda, biz prioritetləşdirir və enerjimizi xüsusi bir dövrdə ən mühüm hesab etdiyimiz məqsədlər üzərində cəmləşdiririk. Vaxtın və enerjinin diqqətlə bölüşdürülməsi, əlbəttə, zəruridir. Lakin bu yalnız o zaman səmərəli olur ki, həyatımızın çoxlu aspektlərinin qarşılıqlı bağlılığının fərqində oluruq. Əgər bir bütövü görə bilməsək, bütün bu hissələr arasında yaranmış gərginlik təşvişə və çaşqınlığa gətirib çıxara bilər.

Aşağıda həyatın bir-birini gücləndirməli olan, lakin bəzən bir-birilə ziddiyyət təşkil etdiyi düşünülən müxtəlif aspektləri cütlər şəklində göstərilmişdir. Hər bir cütlük altında verilmiş hər bir cümlə üçün, onun həyatı, bütövlüyü ilə qəbul edən fikir tipinə yönəlik olması və ya fraqmentar baxışa meyilliliyi barədə qərar verin və bunu “B” və “F” hərfləri ilə qeyd edin:

1. Ailə və iş

____ Əgər mən işdə gərgin işləsəm, mənim ailə həyatım bundan ziyan çəkəcək.

____ Mən işdə əldə etdiyim nailiyyətləri və qarşılaşdığım çətinlikləri çox vaxt ailəmlə müzakirə edirəm.

____ Əlbəttə, qadınlar karyeralarında yüksələ bilərlər, amma bunun əvəzini həmişə uşaqlar ödəməli olurlar.

____ Əgər mən uşaqlarımı yaxşı böyütmək istəyirəmsə, peşəmi yaddan çıxarmalıyam.

____ Mən öz peşəmdə mükəmməlliyə can ata və ailə məsuliyyətlərimi də vicdanla yerinə yetirə bilərəm.

2. Təhsil və Əmrə xidmət

____ Akademik nailiyyət xidmət meydanına daxil olmağın zəruri şərtidir.

____ Təhsildə bizim öyrəndiyimiz bilik xidmət meydanında qiymətli bir dəyərdir, xidmət səhnəsində qazandığımız təcrübə isə bizim biliyimizi dərinləşdirir.

___ Əgər biz gerçəkdən özümüzü Əmrə həsr etmək istəyiriksə, təhsil almağı buraxmalıyıq.

____ Ən böyük istəklərimizdən biri Əmrin təlimlərini öyrənmək və onları dünyanın yaxşılaşdırılmasına kömək edən işlərdə tətbiq etməyi öyrənməkdir.

____ İcmalarımızın rifahını irəlilətmək üçün xidmət yolunda inkişaf etdirdiyimiz qabiliyyətlər bizə uyğun təhsil sahəsi seçməkdə kömək edəcək.

3. İntellektual inkişaf və ruhani keyfiyyətlərin inkişafı

____ Həqiqətin müstəqil axtarışı intellektin yetişdirilməsini, həmçinin ruhani keyfiyyətlərin əldə edilməsini tələb edir.

____ İntellektual inkişaf ədaləti, dürüstlüyü və təəssübün olmamasını tələb edir.

____ Ruhani cəhətdən inkişaf etmək üçün insan intellektini yaddan çıxarmalıdır.

____ Bizim ağlımız və ürəyimiz bir-birindən ayrı deyil; onlar vahid bir gerçəkliyin – bizim ruhumuzun – bir-birini tamamlayan və bir-birilə qarşılıqlı təsirdə olan cəhətlərini təmsil edir.

____ Ruhani keyfiyyətlər şüurlu bilik və yaxşı əməllər etməklə inkişaf etdirilir.

4. Maddi həyat və ruhani həyat

____ Ruhani cəhətdən inkişaf etmək üçün biz maddi zövqlərdən imtina etməliyik.

____ Ruhani məsələlər biz qocalana qədər bir kənara qoyulmalıdır; gənclik dövrümüzdə hər bir fürsətdən istifadə etməliyik ki, maddi cəhətdən irəli gedək.

____ Ruhani məsələlərə diqqət yetirməzdən əvvəl insanların maddi ehtiyacları təmin olunmalıdır.

____ Bu maddi dünyada həyatın məqsədi ruhani keyfiyyət və gücləri inkişaf etdirməkdir.

____ Bu maddi müstəvidə həyatın məqsədi daim inkişaf edən bir sivilizasiyanı irəlilətməkdir.

____ Biz bu dünyanın bizə verdiyi bütün nemətlərdən zövq almalıyıq, lakin imkan verməməliyik ki, dünyəvi arzular bizim ürəyimizi qəsb etsin, Allaha daha da yaxınlaşmağa mane olsun.

## BÖLMƏ 11

Bu fəsildə biz yeniyetmələrin tərifini verən sifətlərdən daha çox, yüksəlib Yazıların göstərdiyi səviyyəyə çatmalı olan gənc kişi və qadınların xüsusiyyətlərini nəzərdən keçiririk. Biz bu araşdırmanı bu xüsusiyyətlərdən bəziləri barədə bizə bəsirətlər verən iki sitata baxmaqla başladıq. Sonra gördük ki, 15 yaş fərdin həyatında xüsusi bir yaşdır, çünki o, yeni güc və qabiliyyətlərin diqqət mərkəzinə gəldiyi yetkinlik dövrünün astanasıdır. Biz gənc insanların Əmrin həyatında necə əhəmiyyətli bir rol oynaya biləcəklərini və onların nəhəng qabiliyyətlərinin Dinə xidmətə yönəldilməsinin necə vacib olmasını bilirik. Biz, həmçinin gənclərin gələcək həyata şüurlu şəkildə hazırlaşmaları ehtiyacını etiraf etdik və gördük ki, xidmətin özü, elə onların təhsili kimi də, bu hazırlıq prosesinin mühüm bir hissəsidir və hər ikisi, həm həyat vəsaiti qazanmaq üçün bilik və məharətlər əldə etməkdə və həm də onların öz icmalarına xidmət etmək üçün lazım olan qadiriyyətlərinin yüksəldilməsində lazımdır.

Burada fasilə vermək və indiyə qədər öyrəndiklərimizin üzərində düşünmək faydalı ola bilər. Aşağıda bir neçə müddəa verilmişdir. Hər birini oxuyun və doğru olub-olmadığına qərar verin. Hərçənd, cavab bəzi hallarda açıq-aşkar görünə bilər, biz ümid edirik ki, siz bütün çalışmaya lazımi diqqət verəcəksiniz. Burada məqsəd budur ki, bizim indiyə kimi keçdiyimiz material barədə sizin fikirlərinizi toplamağa kömək edəcək bir sıra ideyalara baxasınız.

____ Fərd üçün 15 yaşı adlamaq yetkinlik yaşına çatmaq deməkdir, lakin bu daha çox rəmzi bir faktdır və insanın həyatına elə də əhəmiyyətli bir şəkildə təsir etmir.

____ Əksər gənclər yetkin deyillər və məsuliyyət götürə bilməzlər; onlar asanlıqla yayındırıla bilərlər və onlara güvənmək olmaz.

____ Gənclər Əmrin işi üçün məsuliyyət götürməyə həvəslidirlər, lakin təcrübəsiz və yetkin olmadıqlarından, onlar böyük şeyə nail ola bilməzlər.

____ Gənclərin potensialı vardır ki, qalxsınlar, Əmrə və bəşəriyyətə sabitlik və fədakarlıqla xidmət etsinlər.

____ Gənclər öz icmalarına xidmətdə sistematik hərəkət etmək üçün lazım olan iradə gücü və həsretmə ruhu nümayiş etdirə bilərlər.

____ Erkən gənclik vaxtlarında Əmrə xidmətə qalxan kəslər çox bəxtəvərdirlər.

____ Gənclər əsas diqqətlərini təhsil almağa yönəltməlidirlər, qalan vaxt Əmrə xidmətə həsr oluna bilər.

____ Ən yüksək dərəcə akademik təhsil almayınca, gənclər cəmiyyətə səmərəli xidmət edə bilməzlər.

____ İnsan fəaliyyətinin bütün sahələri gənclərə açıqdır. Onlar istedad və vəziyyətlərinə uyğun olanları seçməli, oraya xidmət ruhunda daxil olmalı və mükəmməllik üçün çalışmalıdırlar.

____ Gənclərin kifayət qədər təcrübə və bilikləri yoxdur ki, qarşılaşdıqları insanlarla Əmr haqqında mənalı söhbətlər etsinlər; onlar başqa yolla xidmət etsələr, daha yaxşı olar.

____ Gənclərin kifayət qədər təcrübə və bilikləri yoxdur ki, qarşılaşdıqları insanlarla Əmr haqqında mənalı söhbətlər etsinlər; bunun yerinə, nümunəvi davranışa təşviq olunmalıdırlar.

____ Əmrin təlimlərini başa düşmək və onları yaşıdları ilə bölüşmək üçün gənclərin böyük potensialları vardır.

____ Əmrin təlimlərini başa düşmək və onları istər gənc, istər yaşlı, cəmiyyətin bütün təbəqələrindən olan insanlarla bölüşmək üçün gənclərin böyük potensialları vardır.

____ Gənclər Əmrin təlimlərini başqaları ilə bölüşmək üçün lazım olan bilik və bacarıqları əldə etməyə şövqlə can atırlar.

____ Gənclər Əmrin ən böyük resurslarından biridir və lazımi öyrənmə kursları və davamlı təşviqlə onlara kömək olunmalıdır ki, öz icmalarına və bəşəriyyətə xidmət etməyə qabil olsunlar.

____ Gənclərə elə xüsusi fəaliyyətlər lazımdır ki, onlara əylənməyə imkan versin; uzun müddət ciddi olmaq onlar üçün çətindir.

____ Sistematik olmağı öyrənmək həyatda sonralar, o zaman gəlir ki, spontanlıq öz dövrünü başa vurur.

____ Gənclərin çətin vəziyyətlərdə davam gətirmək və yeni şəraitə uyğunlaşmaq bacarığı onların qarşısında çoxlu xidmət meydanları açır.

____ Gənclərin araşdırıcı təfəkkürü vardır və öyrənməklə və icmanın həyatında tam iştirak etməklə öz suallarına cavab tapa bilərlər.

____ Öz icmalarımız daxilində potensial şəkildə olan qüvvələr gənclərin nümayiş etdirdiyi fədakar xidmət ruhu ilə açıla bilər.

____ Allah Kəlamının qüdrəti paklıq və təmkinlə xidmət yolunda getməkdə gəncləri gücləndirir.

____ Gənclərin institut kurslarında oxumaqla və müvafiq xidmət aktlarında iştirak etməklə inkişaf etdirdiyi münasibət və ruhani keyfiyyətlər, məharət və bacarıqlar onlara icma quruculuğunun dinamik prosesinə qəti şəkildə töhfə verməyə imkan verir.

____ Dünya gənclərində olan cəmiyyəti transformasiya etmək qabiliyyətinin anbarı onların öyrənməni və xidməti birləşdirən sistemli təlim-tərbiyə prosesində iştirakı vasitəsilə istifadə edilə bilər.

## BÖLMƏ 12

Ümid olunur ki, son bölmədəki çalışma, sizin fikrinizi gənclik dövrü üzərində toplamağa kömək etdi və həyatın bu dövrü haqqında sizdə yaranan təsəvvür, öyrənmə ilə birləşən fəal xidmətlərdən biri – həm də gələcəyə ciddi hazırlıq – oldu. Gəlin bu mövzunu daha ətraflı nəzərdən keçirək.

Xidmət, təhsil və hazırlaşmaq arasında bizim müzakirə etdiyimiz qarşılıqlı təsir konkret kontekstdə açılmalıdır. Xüsusilə də, bu, Əmrin yazılarında öngörülən iki transformasiya prosesinə töhfə verməlidir: Fərdin aydın intellektual-ruhani inkişafı və cəmiyyətin transformasiyası. Biz bilirik ki, Həzrət Bəhaullahın Vəhyinin "ali və fərqli funksiyası" "yeni insan irqi yaratmaqdır" və hər birimiz də gündəlik olaraq çalışırıq ki, öz fikir və əməllərimizi Müqəddəs Mətndə təsvir olunan fərdlərin fikir və əməlləri ilə uyğunlaşdıraq. Yazılar eyni dərəcədə də cəmiyyətin strukturunun dərin transformasiyasını vurğulayır. Həzrət Bəhaullah bizə buyurur ki: "Tezliklə bugünkü nizam yığışdırılacaq və onun yerinə yeni bir nizam açılacaq". "Bütün insanlar", O bəyan edir, "hər zaman inkişafda olan sivilizasiyanı irəlilətmək üçün yaradılmışlar".

Bu ikili transformasiya ancaq şüurlu səylər nəticəsində baş verəcək və bu çox mühümdür ki, gənc insanlar bunun mənalarını öz həyatlarında başa düşsünlər və həm öz şəxsi inkişafları üçün, həm də cəmiyyətin transformasiyasına töhfə vermək üçün güclü məqsəd hissi ilə dolsunlar. Belə bir ikili mənəvi-əxlaqi məqsəd təbii olaraq xidmət həyatında öz ifadəsini tapacaqdır.

Aşağıdakı sitatlar bu mənəvi-əxlaqi məqsəd hissinin bir aspektinə - bizim özümüzün intellektual və ruhani inkişafımıza işıq salır:

> "**Tək Haqq Allahın Özünü zahir etməkdə məqsədi bütün bəşəri doğruluğa və səmimiliyə, möminliyə və etibarlılığa, təslimiyyətə və Allahın İradəsinə tabe olmağa, dözümlülüyə və lütfkarlığa, dürüstlüyə və hikmətə çağırmaqdır. Onun məqsədi hər bir insanı müqəddəslik xalatı ilə bəzəmək və onu pak və xeyir əməllər naxışı ilə zinətləndirməkdir".**[15]
>
> "**Allahın yolunda yaşanmış həyatın təməl daşı mənəvi kamillik arxasınca getmək və Onun gözündə xoşa gələn keyfiyyətlərə malik olan xasiyyət əldə etməkdir".**[16]
>
> **"Bilik əldə etmək, yüksək ruhani kamilliyə nail olmaq, gizli həqiqətləri açmaq və hətta ruhi sifətlərini təzahür etdirmək insana əta edilmişdir".**[17]
>
> **"Allahın insanı yaratmaqda məqsədi ona öz Yaradanını tanıtmaq və Onun Hüzuruna nail etmək olmuşdur və hər zaman da belə olacaqdır".**[18]

1. Aşağıdakı cümlələri yuxarıda verilmiş sitatların əsasında tamamlayın:

a. Tək Haqq Allahın Özünü zahir etməkdə məqsədi bütün bəşəri ______________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
____________________________________________________________________
çağırmaqdır.

b. Allahın məqsədi hər bir insanı __________________________________________
__________________________________________________________ bəzəmək və
________________________________________________________________________
______________.

c. Allahın yolunda yaşanmış həyatın təməl daşı ________________________________
______________________________________________________________ və
______________________________________________________________________________
_______________________________.

d. Bu bizim vəzifəmizdir ki, _________ ________ ___________, ___________ __________
________________ nail olaq, ___________ ____________________ açaq və ____________
__________________ təzahür etdirək.

e. Allahın bizi yaratmaqda məqsədi _______ ______ __________________________
__________________ və _________ _______________ _______ _________ olmuşdur və hər zaman da belə olacaqdır.

2. İnsan ruhuna xas olan imkanlar barədə baxış, fərdin məqsəd hissini formalaşdırmağa kömək edir. Bunun necə baş verdiyini izah edə bilərsinizmi? ____________________________
__________________________________________________________________________________
___________________________.

3. Fərdin məqsəd hissi bunu bilməklə qüvvətlənir ki, bu yer həyatı Allahın hüzuruna doğru əbədi bir səyahətin kiçik bir hissəsidir. İzah edə bilərsinizmi, niyə? _________________
__________________________________________________________________________________
__________________________________________________________________________________
___________________________________________________.

Mənəvi-əxlaqi məqsəd hissinin digər bir aspektinə, yəni cəmiyyətin transformasiyasına töhfə verməyə növbəti blokda verilmiş sitatlar işıq salır:

**"Bu Məzlum şəhadət verir ki, fani insanların tam yoxluqdan varlıq aləminə gəlməsində məqsəd odur ki, onlar dünyanın yaxşılaşması üçün çalışsınlar və razılıq və harmoniya içində birgə yaşasınlar".**[19]

**"Və fərdin şərəfi və fərqliliyi bundan ibarətdir ki, o, dünyanın bu qədər insanları arasında ictimai xeyir mənbəyi olsun. Bundan da böyük bir nemət təsəvvür etmək mümkündürmü ki, bir insan, öz daxilinə baxdıqda görə ki, Allahın saxlayıcı fəzli ilə öz qardaşları üçün o sülh və firavanlıq, xoşbəxtlik və fayda mənbəyi olub? Xeyr, tək olan haqq Allaha and olsun, bundan böyük səadət, bundan kamil ləzzət ola bilməz".**[20]

**"Öz məsuliyyətlərini yerinə yetirməyə qalxan insan necə də alidir, necə də şərəflidir; o necə də bədbəxt və miskindir, əgər o, cəmiyyətin firavanlığına göz yumur və qiymətli həyatını özünün xudbin maraqları və şəxsi mənfəəti arxasında boşuna xərcləyirsə".**[21]

"**Özünüzü öz qayğılarınızla məşğul etməyin; qoy sizin fikirləriniz bəşəriyyətin xoşbəxtliyini bərpa edən və insanların ürəklərini və qəlblərini pak edən şeylər üzərində cəmləşsin".**[22]

**"O kəslər ki, Allah adamıdırlar, dünyanı yenidən canlandırmaqdan, onun həyatını nəcibləşdirməkdən və insanlarını ruhən dirçəltməkdən başqa heç bir məqsədləri yoxdur".**[23]

Aşağıdakı cümləni yuxarıda verilmiş sitatın əsasında tamamlayın:

a. Bizim tam yoxluqdan varlıq aləminə gəlməyimizdə məqsəd budur ki, biz _____________
________________________ ________ _______________ və ____________ ____ _____________
_________ ________ ____________.

b. Fərdin şərəfi və fərqliliyi bundan ibarətdir ki, ________________________________
____________________________________________________________________________
_______________________________________________________________________.

c. Bundan da böyük bir nemət təsəvvür etmək mümkündürmü ki, bir insan, öz daxilinə baxdıqda görə ki, _____________________________________________________
______________________________________ ilə o, __________________________
____________________________________________________________________________
___________________________________________________.

d. _________________________________________________________________________
insan necə də şərəflidir ____________________________________________
____________________________________________________________________________
_____________________________________________________, necə də bədbəxt və miskindir o, əgər ______________________________________ göz yumur və
____________________________________________________________________________
____________________________________________________________________________
________________________________________________.

e. Biz özümüzü _________________________________________________________ məşğul etməməliyik, lakin fikirlərimiz______________________________________
____________________________________________________________________________
____________________________________________ cəmləşdirməliyik.

f. O kəslər ki, Allah adamıdırlar,_____________________________________________
____________________________________________________________________________
_______________ və _______________________________________ _________________
başqa bir məqsədləri yoxdur.

2. Fərdin məqsəd hissi, qismən də, onun vahid bir ailədə birləşməsinin real bir imkan olduğu bir vaxtda, inkişafının bu mərhələsində bəşəriyyətin qarşısında açılan böyük fürsətlər barədə baxışla formalaşır. Bunun necə baş verdiyini izah edə bilərsinizmi? ____________________________
________________________________________________________________________________
________________________________________________________________________________
_____________________________________________________.

3. Fərdin məqsəd hissi ilə bəşərin İlahi Sivilizasiyaya aparan uzun təkamül yolunda olmasını anlamaq arasında da bir əlaqə vardır. İzah edə bilərsinizmi, niyə? ______________________
________________________________________________________________________________
_________________________________________________________________________.

# BÖLMƏ 13

Son bölmədə olan çalışmaların göstərdiyi kimi, yazılarda nəzərdə tutulan fərddə və cəmiyyətdə dəyişikliklərin təbiəti gənc insanların malik olmalı olduqları məqsəd hissi üçün fundamentaldır. “Onların həqiqi və batini varlıqlarının mədənində gizli qalmış” inci kimi keyfiyyətlər əldə etmək, maddi və ruhani cəhətdən çiçəklənən dünya sivilizasiyasının qurulmasına töhfə vermək üçün onlar Həzrət Bəhaullahın çağırdığı transformasiyanın nəhəngliyini başa düşməlidirlər. Əlbəttə, dünyanın hər yerində insanlar bu gün dəyişikliyə olan ehtiyacdan danışırlar. Bizim başa düşməli olduğumuz şey budur ki, Həzrət Bəhaullahın Vəhyinin təsiri altında fərddə və cəmiyyətdə baş verməli olan transformasiya çoxlu insanların hətta təsəvvür edə bildiklərindən belə çox-çox böyükdür.

Gəlin fərdi səviyyədə baş verəcək dəyişikliyin miqyası barədə bir neçə sitatın üzərində düşünməklə bir işartı da olsa, tutmağa çalışaq. Həzrət Bəhaullah bizə buyurur:

> **“Xarakterinə görə bənzərsiz bir insan irqi meydana çıxacaq ki, inqita ayaqları ilə göydə və yerdə olanların altında addımlayacaq, sudan və gildən yaradılmış hər şeyin üzərinə müqəddəslik əbası atacaq”.**[24]

Və başqa bir parçada O buyurur:

> **“Söylə: Öz dünyəvi arzularının arxasınca düşən və ya ürəyini bu dünyanın şeylərinə bağlayan Bəha əhli sayılmaz. Mənim həqiqi ardıcılım o kəsdir ki, əgər təmiz bir qızıl vadisinə qədəm qoysa, oradan buludlar kimi yan keçər, nə geri qayıdar, nə də dayanar. Belə bir insan, əlbəttə ki, Məndəndir. Onun libasından səma Əhli müqəddəslik ətri duyar”.**[25]

Daha bir parçada O bəyan edir:

> **“Allahın dostları bu gün bir mayadırlar ki, dünyanın insanlarını cana gətirməlidirlər. Onlar elə bir etibar, elə bir doğruluq və mətinlik, elə əməllər və xasiyyət nümayiş etdirməlidirlər ki, bütün dünya onların nümunəsindən fayda götürsün”.**[26]

Daha sonra O izah edir:

> **“Belə pak və müqəddəs ruhların nəfəsində nəhəng potensial gizlənib. Bu potensial o qədər böyükdür ki, bütün yaradılmış şeylərə öz təsirini göstərir”.**[27]

Həzrət Əbdül-Bəha bizə buyurur:

> **“Ey Allahın dostları! Böyük səy göstərin ki, dünyanın bütün millətləri və cəmiyyətləri, hətta düşmənlər belə, sizə etibar etsinlər, sizə əmin olsunlar və sizə ümid bağlasınlar. Belə ki, əgər bir insan yüz min dəfə yanlış etsə, hələ də o, bağışlanmağa ümid etsin, nə qəm yesin, nə də qüssə çəksin. Budur Bəha əhlinin davranışı və rəftarı! Budur əzəmət yolunun təməli! Qoy sizin davranış və rəftarınız Əbdül-Bəhanın nəsihətlərinə uyğun olsun”.**[28]

Yeni insan varlığını xarakterizə edən xasiyyətlərin şəfəqi, Yazılarda təsvir edildiyi kimi, gözqamaşdırıcıdır və bu “yeni insan irqi”nin güc və qabiliyyətlərinin şüalarından işartılar bizi sarsıdır. Belə parçaları oxuduqdan sonra biz müxtəlif yollarla reaksiya verə bilərik. Biz belə düşünməyə meyil edərdik ki, yazıların qoyduğu meyarlar bizim üçün o qədər əlçatmazdır ki, həddən artıq zəhmət çəkib onlara uyğun yaşamaq mənasızdır və bunun nəticəsində biz nəzərə çarpmadan qabiliyyətsizlik uçurumuna düşürük; belə olan halda, biz özümüzü belə bir inamla yatırda bilərik ki, sadəcə yaraşmayan hərəkətlərdən qaçmaq kifayətdir. Lakin insanda güclü məqsəd hissi olanda, yuxarıdakı kimi parçalar sabit təşviq mənbəyi olur və insanı daha yüksək zirvələrə sövq edir.

Biz bundan başqa, Həzrət Əbdül-Bəhanın Şəxsində, Atasının təlimlərinin Kamil Nümunəsində daha bir ilham mənbəyinə malik olmaqla da bəxtiyar olmuşuq. Hərçənd fərqindəyik ki, Həzrət Əbdül-Bəha Özünə məxsus fəzada qərar tutub və heç bir insan Onun uca məqamına yetişməyə ümid belə edə bilməz, biz Onda hər bir bəhai idealının təcəssümünü görürük və Onun nümunə olduğu davranış meyarlarına can atırıq. Siz və sizin dostlarınız bu kursu öyrənərkən, yuxarıdakı sitatlardan ifadələr seçməyin və Həzrət Əbdül-Bəhanın hər bir sitatda qeyd olunan keyfiyyətləri əks etdirən həyatından olan epizodlar barədə düşünməyin faydalı olduğunu görə bilərsiniz. Məsələn, biz “inqita ayağı” ilə gəzməyi göz önünə gətirməyə çalışarkən, Onun bütün yaranmışlardan ayrılaraq bu dünyada yaşamağın nə olduğunu bizə göstərən həyatı ağlımıza gəlir. Biz “müqəddəslik ətri” barədə düşünəndə, bilirik ki, bu Onun “libası”ndandır ki, “Mələyi-Əla” onun şirinliyini duyar və biz də Onun tam müqəddəsliyini nümayiş etdirən hadisələri yada salırıq.

# BÖLMƏ 14

İndi isə gəlin cəmiyyət səviyyəsində baş verməli olan dərin transformasiya prosesinə nəzər salaq. Həzrət Bəhaullah buyurur:

> **“Canıma and olsun, tezliklə dünyanın və onda olanların büsatını pozar və başqa bir büsat qurarıq”.**[29]

Daha sonra O təsdiq edir:

> **“Bu Ən Əzəmətli, bu yeni Dünya Nizamının təsirindən dünyanın tarazlığı pozulub, məxluqatın gözünün bənzərini görmədiyi bu misilsiz, bu ecazkar Quruluşun təsirindən bəşərin müvazinətli həyatı kəskin dəyişikliyə uğrayıb”.**[30]

Həzrət Əbdül-Bəha da təsdiq edir:

> **“...ədalət və möminlik yer üzünü bürüyəcək; nifrət və düşmənçilik yox olacaq; xalqlar, irqlər və millətlər arasında ixtilafların bütün səbəbləri aradan qalxacaq və vəhdəti, harmoniyanı və həmrəyliyi təmin edən şeylər təşviq ediləcək. Qafil oyanacaq, kor görəcək, kar eşidəcək, lal danışacaq, xəstə şəfa tapacaq, ölülər diriləcək və müharibə yerini sülhə verəcək. Düşmənlik sevgiyə çevriləcək, mübahisə və dartışmaların səbəbləri tamamilə aradan götürüləcək və bəşəriyyət həqiqi səadətə qovuşacaq; bu dünya İlahi Səltənətin güzgüsünə çevriləcək; bəşəriyyət yuxarıdakı səltənətin taxtına çevriləcək”.**[31]

Başqa bir məqamda O izah edir:

> **“İnsan nəslinin erkən tarixində onun ehtiyacları üçün tətbiq olunan şeylər bu günün, yenilik və tamamlama dövrünün tələblərinə nə cavab verə, nə də onları ödəyə bilər. Bəşər özünün əvvəlki məhdudiyyət və ibtidai təlim dövründən çıxmışdır. İnsan artıq bu gün yeni məziyyət və güclərlə, yeni əxlaq və yeni qabiliyyətlərlə dolmalıdır. Onu yeni nemətlər, bəxşişlər, kamilliklər gözləyir və artıq onun üzərinə enməkdədir”.**[32]

Və O bizə belə nəsihət edir:

> **“...biz cani-dildən çalışmalıyıq ki, asılılıqlar dünyasının bu qaranlığı qovulsun, Mələkutun işıqları bütün üfüqlərdən saçılsın, insanlıq aləmi nurlansın, Allahın surəti insanların qəlb aynasında əks olunsun, Allahın qanunu möhkəm bərqərar olsun, dünyanın bütün diyarları Allahın ədalətli hifzi altında sülhdən, rahatlıqdan və dinclikdən həzz alsınlar”.**[33]

Fərdlə olduğu kimi, yaranmalı olan sivilizasiyanı bütün calalı ilə təsəvvür etmək bizim üçün çox çətindir. Doğrudan da, onun xüsusiyyətlərini təsvir etmək çətin ki mümkün olsun. Amma biz tələb olunan transformasiyanın böyüklüyündən sarsılıb heyrətə düşə bilmərik, o transformasiya ki, bizim fikrimizcə möcüzə ilə, bizim tərəfimizdən səy qoyulmadan baş verəcək. Bizim gözlərimiz Həzrət Bəhaullahın dünya nizamına dikilməlidir və biz bunu anlamalıyıq ki, hətta cüzi bir hərəkət bunun qurulmasına töhfə verə bilər. Cəmiyyətdə baş verəcək dəyişikliyin ölçüsü barədə düşünmək üçün aşağıdakı cümlələrdəki boş yerləri verilmiş söz və ya frazalardan istifadə edərək doldurun.

büsatı pozulmaq, qurulmaq, bürümək, yox olmaq, aradan qalxmaq, təşviq edilmək, vermək, çevrilmək, aradan götürülmək, qovuşmaq, çevrilmək, qovulmaq, nurlanmaq, saçılmaq, bərqərar olmaq, həzz almaq

a. O gün yaxınlaşır ki, dünyanın və onda olanların ______________________________.

b. O gün yaxınlaşır ki, indikinin yerinə yeni bir Nizam ____________________.

c. Ədalət və möminlik yer üzünü __________________.

d. Nifrət və düşmənçilik ___________________.

e. Xalqlar, irqlər və millətlər arasında bütün ixtilaf səbəbləri ___________________________.

f. Birlik, harmoniya və razılığı təmin edən şeylər ___________________________.

g. Müharibə yerini sülhə ________________________.

h. Düşmənçilik məhəbbətə ___________________.

i. Mübahisə və ixtilafın əsasında duran səbəblər tamamilə _________________________.

j. Bəşəriyyət həqiqi səadətə ___________________.

k. Bu dünya İlahi Səltənətin güzgüsünə _______________.

l. Asılılıqlar dünyasının qaranlığı __________________.

m. İnsanlıq aləmi ____________________.

n. Mələkutun işıqları bütün üfüqlərdən ___________________.

o. Allahın qanunu möhkəm ________________________________.

p. Dünyanın bütün diyarları Allahın ədalətli hifzi altında sülh, rahatlıq və dinclikdən _______________________.

## BÖLMƏ 15

Son iki bölmədəki parçalar və çalışmalar Həzrət Bəhaullahın Vəhyinin nəticəsi olaraq, fərddə və cəmiyyətdə baş verəcək dərin transformasiya haqqında bizə bəsirət verdi. Onun öngürdüyü transformasiyanın nəhəngliyini əlavə olaraq nəzərdən keçirmək üçün aşağıdakı fikirləri oxuyun. Bunların hər biri fərdin və ya cəmiyyətin ədalət, insaf və ya lütfkarlıq kimi tərifəlayiq sifətlərini ifadə edir. Amma əvvəlki bölmələrdəki parçalar şübhə yeri qoymur ki, Həzrət Bəhaullah bəşəriyyəti fərdi və kollektiv davranışın daha yüksək səviyyəsinə nail olmağa çağırmışdır. Hər bir cümlənin ifadə olunmasını elə dəyişin ki, bu, Onun Vəhyinin qoyduğu meyarı daha yaxın nümayiş etdirsin. Birinci cümlə nümunə olaraq sizə kömək etmək məqsədilə verilmişdir.

a. İnsan özünün paxıllıq hisslərini nəzarətdə saxlamalı və ona tabe olmamalıdır.

b. Biz ürəyimizdən paxıllığın hər bir izini belə silib atmalı və başqalarının nailiyyətlərinə səmimi olaraq sevinməliyik.

a. Qarşılaşdığımız hər kəslə, istər dost olsun, istərsə də yad, nəzakətli olmağımız kifayətdir.

b. ______________________________________________________________________

a. Biz Allahın bizə verdiyi var-dövlət üçün şükür etməliyik və istəniləndə xeyriyyə məqsədilə ianə verməliyik.
b. ______________________________________________________________________

a. İnsan çalışmalıdır ki, başqaları ilə münaqişəyə girməsin.

b.______________________________________________________________________

a. Mənəviyyatlı bir həyat yaşamaq o deməkdir ki, biz heç kəsə zərər vurmamalıyıq.

b.______________________________________________________________________

a. Sülh şəraitində yaşamaq üçün biz müxtəlif mədəniyyətlərdən, mənşələrdən və dinlərdən olan insanlara dözümlü olmağı öyrənməliyik.

b. ______________________________________________________________________

a. İnsanlar öz haqları üçün ayağa durmağı öyrənməlidirlər.

b. ______________________________________________________________________

a. Bu hökumətlər üçün zəruridir ki, bizim gələcək liderlərimizi hazırlayan məktəblərə mümkün olan ən yaxşı proqramlar hazırlamaq məqsədilə lazım olan resursları ayırsın.

b. ______________________________________________________________________

a. Cinayətkarları islah etmək üçün həbsxanalar modernləşdirilməlidir.

b. ______________________________________________________________________

İndi isə aşağıdakı parçaların işığında yazdığınız cümlələr üzərində düşünün. Birinci parça bizim ürəklərimizin dünyəvi arzulardan necə pak olmalı olduğu barədə düşünməyə kömək edir:

> **"Ey Yer Oğlu! Həqiqətən, bil, o qəlbdə ki, bir zərrə həsəd qala, əlbəttə, Mənim əbədi Cəbərutuma heç vaxt çatmaz və Mənim pak Mələkutumdan müqəddəsliyin şirin rayihələrini duymaz".**[34]

Bizim bir-birimizlə necə rəftar etməyimiz barədə aşağıdakı sitat müəyyən bir bəsirət verir:

> **"Məhəbbət və xeyirxahlıq ruhu elə şiddətli olmalıdır ki, aralarındakı fərq nə olursa olsun, yad özünü dost, düşmən isə həqiqi qardaş hiss etsin".**[35]

Səxavətli olmağa dair lazımi münasibətə bu sitat işıq salır:

> **"Ey Torpaq Uşaqları! Zənginləri yoxsulların gecəyarısı ahlarından xəbərdar edin. Məbada, qəflətdən həlak olalar və Sərvət Ağacından binəsib qalalar. Səxavətlilik və comərdlik Mənim xasiyyətlərimdəndir. Özünü Mənim xasiyyətimlə bəzəyənin xoş halına".**[36]

Bizim başqaları ilə qarşılıqlı fəaliyyətimizin təbiətinə dair biz oxuyuruq:

> **"Məhəbbət carçısı ol, bütün insan nəslinə mehriban ol. İnsan övladını sev, kədərlərinə şərik ol. Sülh yaradanlardan ol. Dostluğunu təklif et, etibara layiq ol. Hər bir yaraya məlhəm, hər bir xəstəyə dərman ol. Qəlbləri bir-birinə bağla. Hidayət ayələrini oxu. Rəbbə sitayişlə məşğul ol, insanları düz yola yönəlt. Dilini aç və təbliğ et. Qoy üzün Allaha məhəbbət atəşindən parlasın. Bir an belə dincəlmə, faydasız bir nəfəs belə çəkmə. Onda sən Allahın məhəbbətinin nişanəsi və rəmzi, Onun fəzlinin bayrağı olarsan".**[37]

Mənəvi-əxlaqi davranış barədə isə oxuyuruq:

**"Boşuna sitayişin kifayət hesab olunduğu günlər sona yetdi. O zaman yetişib ki, ləkəsiz pak əməllə dəstəklənən təmiz niyyətdən başqa heç nə Ən Uca taxta yüksələ bilməz və Onun nəzərində qəbul olunmaz".**[38]

Müxtəlif mənşələrdən olan insanlarla rəftara dair bu sitat bizə bəsirət verir:

**"Dünyanın bütün xalqları, tayfaları və dinləri ilə son dərəcə doğruluq, düzlük, vəfalılıq, mehribanlıq, xeyirxahlıq və dostluqla ünsiyyət edin, ta ki, bütün varlıq aləmi Bəhanın fəzlinin müqəddəs vəcdi ilə dolsun, ta ki, cəhalət, düşmənlik, nifrət və kin dünyadan yox olub getsin və dünyanın xalqları və tayfaları arasındakı qaranlıq və yadlaşma Birlik Nuruna yer versin. Başqa xalqlar və millətlər sizə xəyanət etsələr, siz onlara sədaqətlilik göstərin, onlar sizə ədalətsiz davransalar, siz onlara ədalətlilik göstərin. Onlar sizdən uzaq gəzsələr, siz onları cəzb edin, onlar sizə düşmənçilik göstərsələr, siz onlara dost olun, onlar sizin həyatınızı zəhərləsələr, siz onların qəlblərini xoşhal edin, onlar sizə yara vursalar, siz onların yaralarına məlhəm olun. Səmimi olanın sifətləri bunlardır. Doğruçu olanın sifətləri bunlardır".**[39]

Aşağıdakı sitat bəşərin birliyindən xəbərdar olmağın sosial münasibətlərə necə təsir göstərdiyini başa düşməyə kömək edir:

**"Mən ümid edirəm ki, sizlərin hər biri ədalətli olacaq, fikirlərinizi bəşərin birliyinə yönəldəcəksiniz; heç vaxt qonşunuza ziyan verməyəcək, heç kəs haqqında pis danışmayacaqsınız; bütün insanların haqqına hörmət edəcək, başqalarının marağı üçün öz marağınızdan daha çox narahat olacaqsınız".**[40]

Təlim-tərbiyəyə əli yetmək məsələsinə gəldikdə isə, bu sitat bu məsələyə aiddir:

**"Həzrət Bəhaullah elan edib ki, təlim-tərbiyənin çatışmazlığı və cahillik bəşəriyyətin arasında ayrılıq səddi olduğundan, hamı təlim-tərbiyə almalıdır. Bu şərtlə qarşılıqlı anlaşmazlıq aradan qalxar, bəşərin birliyi irəliləyər və qabağa gedər. Ümumi təhsil universal bir qanundur".**[41]

Haqq-ədalətin icrası barədə biz oxuyuruq:

**"İlahi sivilizasiya isə, cəmiyyətin hər bir üzvünü elə tərbiyələndirir ki, onda əhəmiyyətsiz sayda bir neçə nəfərdən başqa heç kəs cinayət etmək istəməyəcək. Beləliklə, insanların zora və tənbehə əsaslanan tədbirlərlə cinayət etməsinin qarşısının alınması ilə onlara təlim-tərbiyə vermək, maarifləndirmək, ruhani cəhətdən inkişaf etdirmək arasında böyük fərq var ki, onlar heç bir cəza və ya qisas qorxusu olmadan, cinayət törətməkdən qaçarlar. Onlar, həqiqətən də, cinayət törətmək əməlinin özünə böyük rüsvayçılıq, ona ən ağır cəza kimi baxacaqlar".**[42]

Yuxarıdakı parçalar üzərində düşündükdən sonra siz yazdığınız müddəalara yenidən baxmaq və onları necə genişləndirə biləcəyinizi nəzərdən keçirmək istəyə bilərsiniz.

## BÖLMƏ 16

Biz fərdləri özlərinin ruhani və intellektual inkişafı və cəmiyyətin rifahına töhfə verməyə sövq edən ikili mənəvi-əxlaqi məqsəd hissi barədə danışdıq. Biz gördük ki, bu gün gənclər üçün olduqca zəruri olan bu məqsəd hissi fərddə və cəmiyyətdə Yazılarda öngörülən transformasiyanın təbiəti və ölçüsü barədə anlayışla necə möhkəmlənir. Bizim başa düşməli olduğumuz bir şey də budur ki, bu iki dəyişmə prosesləri son nəticədə bir-birilə çox sıx bağlıdır. Özünün potensialını inkişaf etdirmək və cəmiyyətin rifahı üçün işləmək bir-birindən ayrıla bilməz, çünki şəxsin mənəvi-əxlaqi meyarları və davranışı onun ətrafını formalaşdırır və öz növbəsində də, cəmiyyətin strukturundan dərindən təsirlənir. Əmrin Vəlisinin adından yazılmış məktubda deyilir:

**“Biz insanın qəlbini bizi əhatə edən mühitdən ayıra və deyə bilmərik ki, bunlardan biri islah olundusa, hər şey yaxşılaşacaq. İnsan dünya ilə üzvi şəkildə bağlıdır. Onun daxili həyatı ətraf mühiti yaradır və özü də mühitin ciddi təsirinə məruz qalır. Biri digərinə təsir edir və insan həyatındakı hər bir daimi dəyişiklik bu qarşılıqlı təsirin nəticəsində meydana çıxır”.**[43]

Yuxarıdakı sitata əsasən, aşağıdakı müddəaların doğru olub-olmadığına qərar verin:

____ Fərdlər yalnız o zaman transformasiya olunacaqlar ki, cəmiyyət tamamilə islah olunsun.

____ Cəmiyyətin xəstəlikləri tamamilə o zaman aradan qalxacaq ki, fərdlər ruhani olacaqlar.

____ Sadəcə qanunlar gerçəkdən qüvvəyə minəndə, fərdlərin necə davranmasından asılı olmayaraq, cəmiyyət zülmdən azad olacaq.

____ Hər bir fərd ədalətli olmağa cəhd etsə, cəmiyyət zülmdən azad olacaqdır .

____ Hətta cəmiyyət daxilində işləyən qanun sistemi ədalətsiz olsa belə cəmiyyətin bütün üzvləri ədalətli ola bilər.

____ Fərdin əxlaqı onun ətrafındakı sosial mühitə təsir edir.

____ Ədalətli strukturların yaradılması, insaflı və həqiqəti axtaran fərdlərin tərbiyə olunması nəticəsində ədalətli cəmiyyət yaranacaqdır.

____ Ətrafındakı sosial mühitin təsirindən heç kəs qaça bilməz.

____ İnsanlar, ruhani güclərin köməyilə, mühitin mənfi təsirinə müqavimət göstərə bilərlər.

____ Hər bir kəs bəşərin birliyini qəbul etdikdə, təəssübkeşlik aradan qalxacaq.

____ Təəssübkeşlik yalnız o zaman yox olacaq ki, cəmiyyət öz qanunlarında və təsisatlarında ayrı-seçkiliyin hər bir izini aradan qaldırsın.

____ Ədalətli qanunlar qüvvəyə minəndə, insanlara həqiqəti axtarmaq və başqa insanlarla sevgi və yoldaşlıq ruhunda ünsiyyət öyrədiləndə təəssübkeşliyin hər bir forması aradan qalxacaq.

____ Hər kəs inananda ki, bəşəriyyət birdir, biz birlik əldə edəcəyik.

____ Dünyada birliyin qurulması fərdin və cəmiyyətin strukturunun transformasiyasını tələb edir.

## BÖLMƏ 17

Son bölmədə təqdim olunmuş ideyalar bizi yenə də xidmət məsələsinə qaytarır, çünki məhz xidmət meydanında biz potensialımızı inkişaf etdirir və cəmiyyətin dəyişməsinə təsir edirik. Sosial transformasiya prosesində iştirak etmək xidmətə həsr olunmuş bir həyatı nəzərdə tutduğundan, bu bir qədər dəqiqləşdirmə tələb edir. Lakin daha çox düşünmə tələb edən şey xidmətin, fərdin intellektual və ruhani inkişafı ilə əlaqəsidir. Aşağıda fəaliyyətlərin siyahısı verilmişdir. Bir çox ruhani keyfiyyətlər bunların hər birinin həyata keçirilməsində və onun səmərəliliyini təmin etməkdə bir araya gəlməlidir. Bu xüsusi çalışmanın məqsədi üçün hər bir fəaliyyətə xüsusilə uyğun görünən bir və ya iki keyfiyyət və ya münasibəti seçin və bunların hər hansı fəaliyyətin yerinə yetirilməsində fərdin qabiliyyətinə necə töhfə verdiyini təsvir etməyə çalışın.

a. Qonşuluqda və ya kənddə müntəzəm dua görüşü keçirmək: _____________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________

b. Əmrin təlimlərindən irəli gələn ruhani mövzuları müzakirə etmək və yoldaşlıq bağlarını möhkəmləndirmək üçün dostların və qonşuların evlərinə davamlı ziyarət proqramında iştirak:
________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
________________________________________________________________

c. Kənddə və ya qonşuluqda uşaqların ruhani təlim-tərbiyəsi üçün müntəzəm dərslər keçirmək:
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_______________________________________________________________

d. Öz fəaliyyətlərinə rəhbərlik edən bir animatorla yanaşı, uzun müddət ərzində kiçik bir yeniyetmə qrupunun səylərinə yardım etmək:
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_______________________________________________________________

e. İnstitut tərəfindən irəli sürülən təlim-tərbiyə proqramlarında gəncləri olan valideynlərə mütəmadi baş çəkmək və onların oğul və qızlarının inkişafı üçün əsas olan mövzularda onları söhbətə cəlb etmək:
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
___________________________________________________________________

Yuxarıdakı çalışma bizə kömək etdi ki, ruhani keyfiyyətlərin və münasibətlərin xidmət aktları yerinə yetirməkdə fərdin qabiliyyətinə necə töhfə etməsi üzərində düşünək. Lakin bu da eyni dərəcədə doğrudur ki, insan xidmət edərkən bu cür keyfiyyətləri inkişaf etdirib möhkəmləndirə bilir. Aşağıda bizim hamımızın əldə etməyə çalışdığımız bir neçə ruhani keyfiyyət verilmişdir. Hər bir qrup üçün yuxarıdakı fəaliyyətlərdən birini seçin və onun bu fəaliyyəti yerinə yetirən şəxsdə o keyfiyyətlərin inkişafına sizin fikrinizcə hansı yollarla töhfə verə biləcəyini təsvir edin.

a. Doğruluq, etibarlılıq və ədalət: ________________________________________________
_________________________________________________________________________________
_____________________________________________________________________

b. Dözümlülük və lütfkarlıq: ____________________________________________________
_______________________________________________________________________________
_________________________________________________________________

c. Paklıq, səmimilik və nur saçmaq: ______________________________________________
_________________________________________________________________________________
_____________________________________________________________________

d. Cəsarət, Allaha inam və təvazökarlıq: __________________________________________
_________________________________________________________________________________
_____________________________________________________________________

e. Allahın İradəsinə tabe olmaq və təslimiyyət: ______________________________________
_________________________________________________________________________________
_________________________________________________________________________________

## BÖLMƏ 18

Xidmət bizim mövcudluq vəziyyətimizlə sıx bağlıdır. Biz təmənnasız xidmət ruhu ilə ruhlananda, malik olduğumuz hər bir qarşılıqlı əlaqə, etdiyimiz hər bir əməl – peşə həyatımızda, başqaları ilə rəftarımızda, Bəhai icmasının üzvləri kimi – bunun təsirinə məruz qalır. Bununla belə, bizim hansı xidməti etdiyimizdən asılı olmayaraq, bir faktın dəqiq fərqində oluruq ki, Həzrət Bəhaullahın Müjdəsinin dünyanın insanlarına çatdırılması üçün strukturlu bir plan vardır, o Müjdə ki, bəşəriyyətin birliyini bəyan edir, birliyə çağırır, elə qanun və prinsiplər, ruhani və sosial təlimlər verir ki, yalnız onlar keçmişdə görünmüş hər hansı bir cəmiyyət modelindən kəskin surətdə fərqlənən bir gələcək cəmiyyət modelini qura bilər. Həzrət Əbdül-Bəhanın Özü tərəfindən tərtib edilməklə bu plan dünyanın ruhani dirçəlişindən az bir məqsəd daşımır və bu fərqli mərhələlərlə açıldıqca və getdikcə daha çox insanlar onun həyata keçirilməsində iştirak etdikcə, "cəmiyyətin tanış savaşına görünən bir alternativ meydana çıxır". Buna, İlahi Plana biz özümüzü həsr etməliyik. Əmrin Vəlisi bu plana "İsmi-Əzəmin yaradıcı gücü ilə nə vaxtsa yaranan ən əzəmətli Plan" deyə istinad edir. Əmrin Vəlisi bununla bağlı bizə deyir:

> **"...dünyanın dörd bir yerində və müxtəlif xalqların arasında maneələri yararaq, özünün faydalı işlərinin miqyasını dəfedilməz bir tərzdə genişləndirərək, ona xas olan gücün inkaredilməz əlamətlərini daha da açaraq, hər keçən günlə güc yığaraq bütün planetin ruhani fəthinə doğru irəlilədikcə, o, ön mövqeyə çıxır".[44]**

İlahi Plan vasitəsilə, Həzrət Bəhaullahın Vəhyinin işığı fərdi və kollektiv həyatı transformasiya edərək dünyanın hər yerinə nüfuz edəcək. Bundan əlavə, Şövqi Əfəndi bir daha təsdiq etmişdir ki:

> **"Allahın Özünün bəşər üçün tərtib etdiyi planın təkamülündə son və zirvə mərhələsi öz növbəsində, miqyasına, təbiətinə və gücünə görə bəşər tarixində bənzərsiz bir sivilizasiyanın doğulması üçün bir nişanə olacaqdır - elə bir sivilizasiya ki, gələcək nəsillər bir səslə onu Həzrət Bəhaullahın Zühur Dövrünün Qızıl Əsrinin ən gözəl meyvəsi kimi elan edəcəklər..."[45]**

İlahi Planın açılmasında hər bir mərhələ Əmrin Başçısının işə saldığı qlobal Planlardan biri ilə əlamətdardır. Hər bir Planın müəyyən tələbləri var və o, əvvəlki planda əldə edilmiş nailiyyətlərə və öyrənilmiş dərslərə əsaslanır. Ardıcıl Planlar üzrə göstərilmiş səylər nəticəsində, bizim məşğul olduğumuz təşəbbüs üçün "ümumbəşəri əhəmiyyət kəsb edən müxtəlif prinsiplər, konsepsiyalar və strategiyalar" "hərəkət çərçivəsi"nə çevrilmişdir. Məhz bu çərçivə bizim kollektiv fəaliyyətimizə forma verir və gördüyümüz işdə ardıcıl olmağımızı təmin edir. Gələcək kurslarda bu inkişaf edən çərçivənin mahiyyətini araşdırmaq imkanınız olacaq. Hələlik dərk etmək vacibdir ki, onun mövcudluğu yerli səviyyədə "fərdlərin genişlənən nüvəsi" üçün "Yeni Dünya Nizamının məqsədinə doğru" əhalinin hərəkətini yaratmağa imkan verir. Bunun işığında, Ümumdünya Ədalət Evi tərəfindən 2013-cü ildə planet boyunca keçirilmiş silsilə gənclər konfranslarının iştirakçılarına yazılmış müraciət izah edir:

> **"Bir çox onilliklərdən sonra, Həzrət Bəhaullahın Vəhyi barədə daha da adekvat anlayış əldə etmək və onda qorunan prinsipləri tətbiq etmək üçün bu geniş yayılmış icmanın dünyanın hər yerində qoyduğu əmək təcrübə ilə cilalanmış qüdrətli bir hərəkət çərçivəsinin meydana çıxması ilə nəticələnmişdir. İndi onun belə yaxşı bərqərar olmuş metod və yanaşmaları ilə tanış olduğunuz üçün sizin bəxtiniz gətirmişdir. Bu metod və yanaşmaların tətbiqində qətiyyət göstərməklə, sizlərin çoxunuz artıq ilahi təlimlərin cəmiyyətqurucu gücünün əlamətlərini özünüz görmüşsünüz. İştirak etdiyiniz konfransda siz, Həzrət Bəhaullahın çağırışına cavab vermək və o gücü azad etməyə kömək etmək istəyən hər bir gənc insanın verə biləcəyi töhfəni nəzərdən keçirməyə dəvət olunursunuz".[46]**

Elə həmin müraciətdə daha sonra deyilir:

> **"Kollektiv hərəkətin təqdim etdiyi imkanlar icma quruculuğu işində – dünya üzrə intensiv fəaliyyət mərkəzlərinə çevrilmiş bir çox klasterlərdə, qonşuluqlarda və kəndlərdə sürət yığan bir prosesdə – xüsusilə aşkar görünür. Gənclər, çox vaxt bu yerlərdə işin ön sıralarında olurlar - yalnız Bəhai gənclər deyil, həm də Bəhailərin təşəbbüsünün müsbət təsirini görə bilən və birlik və**

**ruhani transformasiyanın əsasında dayanan baxışı tutan eyni fikirli gənclər. Bu cür yerlərdə, Həzrət Bəhaullahın Vəhyini həssas ruhlarla paylaşmaq və Onun mesajının bugünkü dünya üçün nəticələrini araşdırmaq zərurəti çox iti bir şəkildə hiss edilir. Cəmiyyətin əhəmiyyətli hissəsinin passivlik və apatiya təlqin etdiyi, yaxud daha pisi, özünə və başqalarına ziyan vuran bir davranışı təşviq etdiyi bir zamanda, ruhani cəhətdən zənginləşdirici icma həyatı modelini bəsləmək və saxlamaq üçün əhalinin qabiliyyətini yüksəldənlər tərəfindən aşkar bir təzad nümayiş etdirilir".**[47]

Və Ədalət Evi başqa bir müraciətdə Bəhai gənclərinin və xidmət həyatının zirvələrində onlara qoşulmaq istəyənlərin nəzərlərini yüksəldir:

**"Gənc inananların hər bir nəslinə onların ömürlərində bir dəfə misli olmayan bir fürsət düşür ki, bəşəriyyətin taleyinə bir töhfə versinlər. İndiki nəsil üçün də o məqam gəlib ki, düşünsün, nemət və bərəkətlərin bolluqla axacağı bir xidmət həyatı yaşamaq üçün birdəfəlik və qəti bir qərar verib öhdəlik götürsün. Müqəddəs Astanada biz dualarımızda Camali-Qədimdən diləyirik ki, yolundan sapmış və çaşmış bəşərin arasından aydın bir baxışa malik pak ruhları çıxarsın: fikirlərini başqalarının səhvləri üzərində cəmləşdirməklə dürüstlüyü və təmizliyi pozulmamış, özlərinin hər hansı qüsurları səbəbilə hərəkətsiz qalmamış gənclər; o gənclər ki, Sərkər Ağaya baxacaq, «uzaq qalmış kəsləri dostların yaxın çevrəsinə gətirəcəklər»; o gənclər ki, cəmiyyətin uğursuzluqlarından agah olmaları sövq edir ki, onun transformasiyası üçün işləsinlər, daha özlərini ondan uzaqlaşdırmasınlar; o gənclər ki, nəyin bahasına olursa olsun, ədalətsizliyin çoxsaylı təzahürlərinin yanından ötüb keçməyəcəklər, əksinə, çalışacaqlar ki, «ədalətin işığı öz şəfəqini bütün yer üzünə salsın»".**[48]

Yuxarıdakı sitatlar gənc insanların İlahi Plana xidmət edənlərin ön sıralarına çıxmalarının nə qədər qəti bir zərurət olması barədə sizdə heç bir şübhə yeri qoymur. Bu bölməni bitirmək üçün Ümumdünya Ədalət Evinin Latın Amerikası boyunca 2000-ci ildə keçirilən silsilə konfranslara yazdığı aşağıdakı müraciət üzərində düşünmək faydalı olardı:

**"Bu gənc nəsil cəmiyyətin işlərini yürütmək üçün məsuliyyətləri öz üzərinə götürdükcə, çaşdırıcı təzad mənzərəsi ilə qarşılaşacaq. Bir tərəfdən bu region haqlı olaraq intellektual, texnoloji və iqtisadi sahədə nailiyyətləri ilə öyünə bilər. Digər tərəfdən isə, o, geniş yayılmış yoxsulluğu azalda bilmədi və ya insanları udmaqla təhdid edən zorakılıq dəryasının dalğalarından qaça bilmədi. Niyə – və bu sual açıqca verilməlidir – bu cəmiyyət böyük sərvətə malik olmasına baxmayaraq, onun əsaslarını parçalayan bu ədalətsizlikləri aradan qaldırmaq iqtidarında olmadı?**

**"Bu sualın cavabı, onillərin rəqabət tarixinin də tam sübut etdiyi kimi, siyasi ehtirasda, sinif maraqlarının müxalif ifadə formalarında və ya texniki vasitələrdə tapıla bilməz. Tələb olunan şey ruhani canlanmadır ki, onsuz siyasi, iqtisadi və texnoloji vasitələrin uğurlu tətbiqi mümkün deyil. Lakin katalizatora ehtiyac vardır. Amma əmin olun ki, sizin sayınızın az olmasına baxmayaraq, belə bir katalizatorun verilə biləcəyi kanallar məhz sizsiniz".**[49]

1. Bu sonuncu müraciət soruşur ki, niyə belə bir intellektual, texnoloji və iqtisadi sərvətə malik olan bir cəmiyyət onu parçalayan ədalətsizliyi aradan qaldırmağa qadir olmadı və göstərir ki, bunun cavabı siyasi ehtirasda, sinif maraqlarının müxalif ifadə formalarında və ya texniki vasitələrdə tapıla bilməz. İçində yaşadığınız cəmiyyət haqqında düşünün və aşağıdakılardan hər birinə aid misal verin:

   a. Cəmiyyəti xarakterizə edən siyasi ehtiras: ________________________________
   ______________________________________________________________________________
   ______________________________________________________________________________
   ______________________________________________

   b. Sinif maraqlarının cəmiyyətdə müxalif ifadə formaları: ______________________
   ______________________________________________________________________________

______________________________________________________________________________
__________________________________________________

c. Cəmiyyətin istifadə etdiyi texniki vasitə: ___________________________
______________________________________________________________________________
______________________________________________________________________________
__________________________________________________

2. Ümumdünya Ədalət Evinin fikrincə, siyasi, iqtisadi və texnoloji vasitələrin cəmiyyətin xəstəliklərinin aradan qaldırılması səylərində uğurlu tətbiqinin zəruri şərti nədir?
________________________________________________________________________
________________________________________________________________________

3. Ümumdünya Ədalət Evi deyir ki, cəmiyyətin ruhani canlanması üçün nə lazımdır?
______________________________________________________________________________
___________________________________________________________

4. Ədalət Evi deyir ki, Əmrin Müjdəsinin çatdırıla bilməsi üçün kanalı kimlər təşkil edir?
______________________________________________________________________________
_____________________________________________________________

İndi isə başınızda yuxarıdakı fikirlərlə, İlahi Planın yerinə yetirilməsində iştirakın cəmiyyətin ruhani dirçəlişində kanallar kimi hərəkət etməkdə gənc insanları necə qabil etdiyini bu kursu öyrənən dostlarınızla müzakirə edin.

## BÖLMƏ 19

Şübhə yoxdur ki, son bölmənin axırında aparılan müzakirə Əmrin irəli getməsində gənc insanların oynamalı olduqları mühüm rol üzərində sizin bir daha düşünməyinizə səbəb oldu. *Allah Yanımızdan Keçir* kitabından olan aşağıdakı parçada, Şövqi Əfəndi Əmrin o erkən mübarizlərinin təsvirini verir ki, onların qəhrəmanlıqları bəşəriyyəti neçə əsrlər boyu ruhlandıracaqdır. Onların özlərinin çoxu gənc olduğundan, bu yerinə düşərdi ki, onların yüksək keyfiyyətlərini təsvir etmək üçün Əmrin Vəlisinin istifadə etdiyi sözlər üzərində düşünək. Bunu etməzdən əvvəl həmin parçanı aşağıdakı lüğət vasitəsilə oxumağın faydalı olduğunu görərsiniz:

Meteor təkin: yəni meteor kimi, parlaq quyruqvari cisim, səmada peyda olur və sürətlə hərəkət edib keçir
Ötüb keçmə: səmanı eninə yarıb keçmə
Tutqun: qaranlıq və toran
Peyk: başqa bir göy cisminin orbitində fırlanan göy cismi
Qalaktika: Çox böyük ulduzlar sistemi
Şüalandırma: işıq şüaları saçma
Gözqamaşdırıcı: son dərəcə qızarmış, son dərəcə parlaq
Körpə: yenicə doğulmuş
Savaş: qələbə üçün vuruşmaq
Ləpirçi: pioner, çığır açan, ilk addım atan
Fitnə: gizli məkrli plan
Pozğunluq: mənəviyyatsızlıq, əxlaqsızlıq
Dəfedilməz: qarşısıalınmaz, sürətlə, tamlıqla
Təqva: möminlik, dərin iman

Atəşli: alovlu (hiss)
Şir cəsarətilə: qorxmaz şir kimi
İmtina: özündən keçmə
Qətiyyət: məqsəddə möhkəmlik
Qranit təkin: çox möhkəm, əyilməz
Nəhəng: heyrətli dərəcədə böyük
Ehtiram: hörmət və itaətkarlıq
Təlaş: qorxu, çaşqınlıq

Əmrin Vəlisi yazır:

> **"Heyrətli bir dramanın ilk pərdəsinin epizodlarını müşahidə etdikcə biz, onun Baş Qəhrəmanının, Həzrət Babın Şiraz üfüqündə meteor təkin qalxan, İranın tutqun səmasında cənubdan şimala ötüb keçən, faciəvi bir tezliklə enərək şərəf həşəməti içində əbədiyyətə qovuşan fiquru göz önünə gəlir. Biz Onun peyklərini, həmin üfüq üzərinə qalxan, həmin gözqamaşdırıcı parlaqlıqla yanan işığı şüalandıran, elə həmin sürətlə də özlərini yandıran və öz növbəsində Allahın doğulmaqda olan Dininin davamlı olaraq qüvvə toplamasına əlavə təkan verən Allahdan məst olmuş qəhrəmanlar qalaktikasını görürük...**
>
> **"Eyni zamanda həm xalqı, həm din xadimlərini, həm şahı və həm də hökuməti əhatə edən şiddətli ruhani savaşın salnaməsinə əməlləri işıq saçan bu qəhrəmanlar, Həzrət Babın seçilmiş həvariləri, Əbədiyaşarın Hərfləri və onların yoldaşları, Yeni Günün ləpirçiləri idilər, o kəslər ki, bu qədər fitnə-fəsada, cəhalətə, pozğunluğa, qəddarlığa, xurafata, qorxaqlığa qarşı yüksək, sönməz və sarsıdıcı ruhla, heyrətləndirici dərəcədə dərin bir biliklə, gücünə görə dəfedilməz bir bəlağətlə, atəşinə görə misli olmayan bir təqva ilə, şiddətinə görə şir cəsarətilə, paklığına görə özündən imtina müqəddəsliyi ilə, möhkəmliyində qranit kimi qətiyyətlərilə, miqyasına görə nəhəng baxışla, Həzrət Peyğəmbərə və Onun İmamlarına düşmənləri heyrətə gətirən ehtiramları ilə, onların əleyhdarlarını təlaşa salan inam gücü ilə, onların həmvətənlərinə meydan oxuyan və həyatlarında çevriliş edən iman dərəcəsi və davranış qaydaları ilə durmuşdular".[50]**

1. Aşağıdakı cümlələri tamamlayın:

   a. Əbədiyaşarın Hərfləri və onların yoldaşları ______________ ___________ savaşa cəlb olunmuşdular.

   b. Bu savaşda, eyni zamanda həm __________, həm ______ __________________, həm ________ və həm də _______________ əhatə olunmuşdular.

   c. Əmrin erkən qəhrəmanları fitnə-fəsada, cəhalətə, pozğunluğa, qəddarlığa, xurafata, qorxaqlığa qarşı _____________, _____________ və _________________ ruhla, _____________________ ________________ _____________ _____ biliklə, _____________ _________ _________________ ______ bəlağətlə, ____________ ________ __________ _____________ ________ təqva ilə, __________________ ________ _____ cəsarətilə, ___________________ ______ özündən imtina müqəddəsliyi ilə, ____________________ ____________ _______ qətiyyətlərilə, _________________ ______ ____________ baxışla, Həzrət Peyğəmbərə və Onun İmamlarına ___________________ _____________ ____________ ehtiramları ilə, _____________ _____________________ __________ _________ inam gücü ilə, _____________ ______________________ ___________ ___________ və ____________________ _____________ ______ iman dərəcəsi və davranış qaydaları ilə durmuşdular.

2. Əmrin erkən qəhrəmanları hansı məqsədlə Əmrin Vəlisinin yuxarıda təsvir etdiyi ruhani savaşa girmişdilər?

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
__________________________________________________

3. İlahi Planın icrasında iştirak edən indiki dövrün gəncləri, öz sələfləri kimi ruhani savaşa cəlb olunmuşlarmı?

______________________________________________________________________________
____________________________________________________________

4. Onların savaşı Əmrin erkən qəhrəmanlarının savaşını necə xatırladır?

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________

5. Bugünkü gənclər, qəhrəmanlıq dövründəki bacı və qardaşları kimi, cəlb olunduqları bu savaşda öz qalibiyyətlərini necə təmin edə bilərlər?

________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

Növbəti bölməyə keçməzdən əvvəl, Ümumdünya Ədalət Evinin yazdığı bir müraciətdən aşağıdakı parça üzərində düşünmək istəyə bilərsiniz:

> **"Həzrət Babın uca şəxsiyyəti, cəmi iyirmi beş yaşında ikən, Özünün inqilabi mesajını dünyaya çatdırmaq üçün ayağa qalxanda, Onun təlimlərini qəbul edib yayanlar arasında hətta onun Özündən yaşca kiçik olan xeyli gənclər vardı. Onların, *Dan Yerinin Şəfəqləri* kitabında bütün göz qamaşdırıcı parlaqlığı ilə əbədiləşdirilmiş qəhrəmanlığı gələcək əsrlərdə bəşər tarixinin salnaməsini işıqlandıracaqdır. Beləliklə, bir model başladıldı ki, bu modeldə gənclərin hər bir nəsli dünyanı yenidən qurmaq üçün eyni ilahi impulsdan ilham alaraq, bəşəriyyətin həyatını transformasiya edəcək getdikcə açılan prosesin ən son mərhələsinə töhfə vermək imkanını əldə edir. Bu bir modeldir ki, Həzrət Babın dövründən indiyə qədər heç bir fasiləsi olmamışdır".[51]**

## BÖLMƏ 20

Böhran və qələbənin bir-birini əvəz edən dövrləri ilə, hər bir nəslin gəncləri dan yeri müjdəçilərinin açdıqları cığırla getmiş və Həzrət Bəhaullahın müjdəsini bəşəriyyətə çatdırmaq üçün çalışaraq Bəhai fəaliyyətlərinin önündə getmişlər. Ümumdünya Ədalət Evi yazır:

> **"Bəhai Erasının başlanğıcından bəri gənclər Allahın Vəhyinin bəyanında həyati rol oynamışlar. Həzrət Babın Özü Missiyasını elan edəndə cəmisi iyirmi beş yaşı vardı, o zaman ki, Əbədiyaşarın Hərflərindən çoxu daha da gənc idilər. Sərkər Ağa cavan bir oğlan ikən, İraqda və Türkiyədə Atasına xidmətdə çox ağır məsuliyyətləri çiyinlərinə götürməli olmuşdu; Onun qardaşı, Ən Pak Budaq, Ən Böyük Məhbəsdə iyirmi iki yaşında ikən həyatını fəda etdi ki, Allahın bəndələri «canlansınlar və yer üzünün bütün sakinləri birləşsinlər». Şövqi Əfəndi Vəlilik kürsüsünə dəvət olunanda Oksfordda tələbə idi, Həzrət Bəhaullahın On İllik Yürüş zamanı ölməz şöhrət qazanan Cəngavərlərinin də çoxu gənc insanlar idilər".[52]**

1984-cü ildə yazılmış bir müraciətində Ədalət Evi son vaxtların qəhrəmanlarına ehtiramını ifadə edir:

> **“Məsələn, keçən yay Şirazdakı hadisələrə baxın ki, yaşları 18-25 arasında olan altı qadın cəlladların dar ağacından asılmışdılar. Onların hamısını öz dinlərindən döndərməyə cəhd etmişdilər; lakin bu gənc qadınların heç biri öz Məhbublarından imtina etməmişdi. Müəllimlərinin və mollaların istintaq və təhqirlərinə məruz qalan və öz imanlarında durduqları üçün məktəblərdən çıxarılan uşaqların və gənclərin təkrar-təkrar göstərdikləri heyrətləndirici dözümlülük ruhundan bəhs edən hekayətlərə baxın. Bundan əlavə, bu cür davranış özündə belə bir əlamət də daşıyır ki, onların icmasına qoyulan belə qəddar məhdudiyyətlər altında gənclər öz güclərini bütün ölkə boyu Bəhai təsisatlarının ixtiyarına verərək valehedici xidmətlər göstərmişlər. Heç bir təmtəraqlı nitq onların ruhani öhdəlik və sədaqətliliyinə bu təmiz fədakarlıq və özünü həsretmə əməllərindən daha layiqli bir şəkildə şəhadət verə bilməzdi. Əslində, yer üzündə heç bir yerdə iman, bəhailərdən bu qədər böyük qurban tələb etmir. Nə də bir yerdə İrandakı Bəhai gəncləri qədər fədakarlıq qədəhini bu qədər həvəslə və sevinclə əllərində tutanlar tapıla bilər. Ona görə də bunu gözləmək əsaslı olmazdımı ki, sizlər, belə bir qeyri-adi vaxtda yaşayan yeniyetmələr və gənclər, sizin İranlı yoldaşlarınızın belə qorxmazlığına şahid olaraq və belə hərəkət azadlığına malik olduğunuz halda «qarşısıalınmaz külək kimi» Bəhai fəaliyyətləri meydanına atılasınız?”[53]**

Dünyadakı Bəhai gənclərinin həyatından xüsusi əhəmiyyəti olan epizodlar üzərində düşünmək imkanı hər bir nəslə missiya hissi əldə etməkdə kömək edə bilər. Hələ uşaq yaşlarında Bəhai uşaq dərslərində və ya evdə onlara nəql edilmiş hekayələr vasitəsilə bu görkəmli şəxsiyyətlərlə yaxın bağlar yaranmışdır, lakin on iki ilə on beş yaş arasında olan dövrdə və əlbəttə, bütün gənclik dövründə bu ehtiyacı qarşılamaq üçün daha yaxşı düşünülmüş səylər tələb olunur. Diqqətlə seçilmiş misallar, bəzən faciəvi, bəzən də az dramatik olan misallar yeniyetmələrin qazanmağa çalışmalı olduqları cəsarət, qətiyyət, coşqu və fədakar xidmət kimi keyfiyyətləri nümayiş etdirə bilər.

1. Sizin fikrinizcə, Əmrin ya erkən tarixindən, ya da yeni tarixindən yeniyetmələrə üzərində düşünməli olduqları bir neçə epizod seçin.

   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________

2. Nə üçün məhz bu epizodları seçdiyinizi izah edin.

   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________

## BÖLMƏ 21

Yuxarıda verilən sitatlardan kiçik misallar gətirməklə görmək mümkündür ki, Əmrin erkən mübarizlərinin və onların ardınca gedən qəhrəman insanların həyatı məqsəd hissi ilə fərqlənirdi. Eyni dərəcədə bu da aydındır ki, onların hər biri yaşadıqları tarixi anın əhəmiyyəti barədə anlayışa, həmçinin, bəşəriyyətdən tələb olunmaqda olan dəyişikliyin ölçüləri barədə baxışa malik idilər. Və bu məqsəd hissinin

ilahi müjdənin yayılmasına həsr edilmiş bir həyatda öz ifadəsini tapması da şübhəsizdir. Amma yenə də, biz onların göstərdiyi qəhrəmanlıq əməlləri və onların çoxunun etdikləri ən yüksək fədakarlıqlar üzərində düşündükdə, inana bilmirik ki, onları başqalarından fərqləndirən yalnız bu keyfiyyətlər idi. Onların həyatını daha çox xarakterizə edən nə idi? Onları hansı bir ehtiras idarə edirdi və onları fədakar bir xidmətin belə yüksək zirvələrinə qalxmağa nə sövq edirdi? Onların ürəklərində belə parlaqlıqla yanan Allaha məhəbbət deyildimi? Onlar öz Məhbublarının gözəlliyindən məst olmamışdılarmı? Biz əgər növbəti gənclər nəslində gözəlliyə cəzbolunma hissi bəsləməsək, əgər biz həqiqi biliyin axar sularından içmək üçün onlarda daxili-fitri bir həvəs yetişdirməsək və öz Yaradanları ilə daxili münasibət qurmalarına kömək etməsək, onların ruhani güclənməsinə öz töhfəmizi verməyə ümid edə bilərikmi? Gəlin özümüzü aşağıdakı sözlərdə qərq etməklə bu fəsli bitirək:

**“Zira sadiq aşiq və vəfalı dost Məhbubun hüzuruna yetişən kimi, Məşuqun camalının nurundan və aşiqin qəlbinin istisindən bir od alovlanar və bütün pərdələri və hicabları yandırar. Bəli, onun nəyi varsa, ürəkdən tutmuş dərisinə qədər, elə alova bürünər ki, Yardan başqa heç nə qalmaz”.**[54]

**“Ey Dostlar! Fani gözəllikdən ötrü əbədi gözəllikdən keçməyin və bu torpaq dünyasına könül bağlamayın”.**[55]

**“Bil ki, həqiqi alim o kəsdir ki, Mənim Vəhyimi tanıyıb və Mənim bilik dəryamdan içib, Mənim məhəbbətimin səmasında pərvaz edib, Məndən başqa hər şeyi atıb və Mənim ecazkar bəyanımın Səltənətindən nazil olanlardan möhkəm yapışıb. O, hətta, bəşərə bir göz, bütün xilqətin bədəninə bir ruhdur. Həmd olsun Mərhəmət Sahibinə ki, onu nurlandırdı, Onun böyük və qüdrətli Əmrinə xidmətə qaldırdı. Həqiqətən, belə bir insan Mələyi-Əladan və Mənim Qüdrət və Qüvvət Sahibi Adımla Mənim möhürlü Şərabımdan içən Əzəmət Çadırının sakinlərindən xeyir-dua alıb”.**[56]

**“Ey Allahın ordusu! Əgər görsəniz ki, bir kəs bütün diqqətini Allahın Əmrinə tərəf çevirib; onun yeganə məqsədi Allah Kəlamının təsir yaratması üzərində cəmləşib; o, gecə və gündüz təmiz niyyətlə Əmrə xidmət edir; onun əməllərində zərrə qədər eqoizm və ya şəxsi niyyətlər izi yoxdur – əksinə, o, Allaha məhəbbət çöllərində sərgərdandır və yalnız Allahın irfan kasasından içib, tamamilə Allahın şirin rayihələrinin yayılması ilə məşğuldur və Allahın Mələkutunun müqəddəs ayələrinə heyrandır – yəqin bilin ki, bu insana göylər tərəfindən dəstək və qüvvət veriləcək; belə ki o, dan ulduzu kimi, əbədi fəzl səmalarından əbədi olaraq parlayacaq. Amma o, zərrə qədər də nəfsi istək və xudbinlik göstərsə, onun səyləri heç bir nəticə verməz və o, sonda məhv olar və ümidsiz qalar”.**[57]

**“Yəqin bil ki, ilahi İnayətin əli səni Mələkutun Taxtına cəzb edib, ilahi müjdələr səndə elə bir sevinc və şadlıq yaradıb ki, sən İlahi Camalın Üzündən hicabı götürmüsən və niqabı qaldırmısan və bəsirətinlə Parlaq Çöhrəni görmüsən və bu ilahi Əmrin paklıq və müqəddəslik sirlərindən agah olmusan!**

**“İndi Allaha məhəbbətlə dolub-daşan ürəklə, tam şadlıqla Allaha dua et və bu hidayət və bu uca bəxşiş üçün Allaha şükür et. Və bil ki, həqiqətən, sənin Rəbbinin bəxşiş qoşununun dəstələri səni hər tərəfdən əhatə edəcək, o zaman ki, sənin qədəmin Onun Yolunda möhkəm olacaq”.**[58]

**“İlahi! İlahi! Sənin bu bəndən, Sənə tərəf gəlib, Sənin məhəbbət səhranda divanə olub, Sənin xidmət yolunda addımlayır, Sənin lütfünü gözləyir, kəramətinə ümid edir, mələkutuna təvəkkül edir və Sənin bəxşiş şərabından məst olub. Ey mənim Allahım! Onun Sənə məhəbbətindəki hərarətini, Səni tərif etməkdə sabitliyini, Sənə eşqindəki vurğunluğunu artır.**

**“Həqiqətən, Sən Ən Səxavətlisən, bol fəzl Sahibisən. Səndən başqa Allah yoxdur, Bağışlayan, Mərhəmətli Allah”.**[59]

İSTİNADLAR


1. Həzrət Əbdül-Bəha, *Gənclər üçün Bəhai Duaları və Lövhləri*-ndə (Vilmett: Bahá'í Publishing Trust, 1978), № 38, s. 30.
2. Həzrət Əbdül-Bəha, *Bəhai Duaları: Həzrət Bəhaullahın, Həzrət Babın və Həzrət Əbdül-Bəhanın Bəyan Etdiyi Dualardan Seçmələr*-də (Vilmett: Bahá'í Publishing Trust, 2002, 2017 nəşri), s. 246–47.
3. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Vilmett: Bahá'í Publishing, 2010, 2015 nəşri), № 225.9, s. 394.
4. Həzrət Əbdül-Bəha, 11 aprel 1985-ci il tarixində Ümumdünya Ədalət Evinin adından bir fərdə yazılmış məktubdan, *1963–1986 Ümumdünya Ədalət Evinin Müraciətləri: Həlledici Əsrin Üçüncü Epoxası*-nda çap edilib (Vilmett: Bahá'í Publishing Trust, 1996), № 426.3a, s. 665.
5. Həzrət Əbdül-Bəha, *Bəhai Duaları*-nda, s. 248.
6. Həzrət Bəhaullah Ümumdünya Ədalət Evinin dünya Bəhailərinə 1982 Rizvan müraciətindən, *1963–1986 Ümumdünya Ədalət Evinin Müraciətləri*-ndə çap edilib, № 321.5a, s. 538.
7. 25 may 1975-ci il tarixində Ümumdünya Ədalət Evinin adından bütün Milli Ruhani Məhfillərə ünvanlanmış məktubdan, yenə orada., № 162.34, s. 310.
8. 1 iyul 2013-cü il tarixində Ümumdünya Ədalət Evi tərəfindən qarşıdan gələn dünya üzrə 114-cü gənclər konfransının bütün iştirakçılarına ünvanlanmış məktubdan, *Hərəkət Çərçivəsi: 2006-2016 Ümumdünya Ədalət Evinin Seçilmiş Müraciətləri və Əlavə Material*-da çap edilib (West Palm Beach: Palabra Publications, 2017), № 27.3, s. 176.
9. 10 iyun 1966-cı il tarixində hər ölkədəki bəhai gənclərinə müraciətdən, *1963-1986 Ümumdünya Ədalət Evinin Müraciətləri*-ndə çap edilib, № 37.2, s. 92.
10. 23 fevral 1995-ci il tarixində Ümumdünya Ədalət Evinin adından seçilmiş Milli Ruhani Məhfillərə ünvanlanmış məktubdan.
11. Ümumdünya Ədalət Evinin Qitə Müşavirləri Heyətlərinin Konfransına 29 dekabr 2015-ci il tarixində ünvanladığı müraciətdən, *Hərəkət Çərçivəsi*-ndə çap edilib, № 35.39, s. 226.
12. 23 aprel 2013-cü il tarixində Ümumdünya Ədalət Evinin adından bir Milli Ruhani Məhfilə ünvanlanmış məktubdan, yenə orada., № 52.3, s. 296.
13. 19 aprel 2013-cü il tarixində Ümumdünya Ədalət Evinin adından fərdlərin kiçik bir qrupuna ünvanlanmış məktubdan, yenə orada., № 51.9, s. 293.
14. Ümumdünya Ədalət Evinin 12 dekabr 2011 tarixində bütün Milli Ruhani Məhfillərə ünvanladığı müraciətdən, yenə orada., № 20.21, s. 138.
15. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Vilmett: Bahá'í Publishing Trust, 1983, 2017 nəşri), CXXXVII, hissə 4, s. 338.
16. 8 dekabr 1923-cü il tarixində Şövqi Əfəndinin bir Bəhai icmasına yazdığı məktubdan, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib edilmiş "Etibarlılıq: Başlıca Bəhai Fəziləti"-ndə, *Seçmələrdən Seçmələr*-də çap edilib (Maryborough: Bahá 'í Publications Australia, 1991), cild. 2, № 2075, s. 345.
17. *Həzrət Əbdül-Bəha Londonda: Müraciətlər və Söhbətlərin Qeydləri* (London: Bahá'í Publishing Trust, 1987), s. 66.
18. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XXIX, hissə 1, s. 78.
19. Həzrət Bəhaullah, Etibarlılıq-da, *Seçmələrdən Seçmələr*-də çap edilib, cild. 2, № 2032, s. 332.
20. Həzrət Əbdül-Bəha, *İlahi Sivilizasiyanın Sirri* (Vilmett: Bahá'í Publishing, 2007, 2016 nəşri), hissə 5, s. 5.
21. Yenə orada., hissə 6, s. 6.
22. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XLIII, hissə 4, s. 105.
23. Yenə orada., CXXVI, hissə 2, s. 306.
24. Həzrət Bəhaullah, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *İlahi Sivilizasiyanın Gəlişi* (Vilmett: Bahá'í Publishing Trust, 2006, 2018 nəşri), hissə 48, s. 47.
25. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, LX, hissə 3, s. 133.
26. Həzrət Bəhaullah, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *İlahi Sivilizasiyanın Gəlişi*, hissə 39, s. 34.
27. Yenə orada., hissə 39, s. 34–35.
28. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá'í Publishing Committee, 1915, 1940 nəşri), cild. 2, s. 436. (səlahiyyətli tərcümə)
29. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXLIII, hissə 3, s. 354.
30. Yenə orada., LXX, hissə 1, s. 154.

31. Həzrət Əbdül-Bəha, *Bəzi Suallara Cavablar*-da (Vilmett: Bahá'í Publishing, 2014, 2016 nəşri), № 10.8, s. 58.
32. 17 noyabr 1912-ci il tarixində edilən söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Vilmett: Bahá'í Publishing, 2012), hissə 4, s. 618.
33. Həzrət Əbdül-Bəhanın 29 avqust 1912-ci il tarixində etdiyi söhbətdən, yenə orada., hissə 4, s. 405.
34. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Vilmett: Bahá'í Publishing Trust, 2003, 2012 nəşri), Farsca № 6, s. 24.
35. *Həzrət Əbdül-Bəhanın Əhd və Vəsiyyətnaməsi* (Vilmett: Bahá'í Publishing Trust, 1944, 2013 nəşri), s. 26–27.
36. *Gizli Kəlamlar*, Farsca № 49, s. 39.
37. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 10.2, s. 41–42.
38. Həzrət Bab, *Dan Yerinin Şəfəqləri: Bəhai Vəhyinin Erkən Dövrləri haqqında Nəbilin Narrativi* (Vilmett: Bahá'í Publishing Trust, 1932, 2018 nəşri), s. 93.
39. *Həzrət Əbdül-Bəhanın Əhd və Vəsiyyətnaməsi*, s. 27–28.
40. Həzrət Əbdül-Bəhanın 17 noyabr 1912-ci il tarixində etdiyi söhbətdən, *Paris Söhbətləri: Həzrət Əbdül-Bəha tərəfindən 1911-ci İldə Parisdə Edilən Çıxışlar*-da çap edilib (Vilmett: Bahá 'í Publishing, 2006, 2016 nəşri), № 49.17, s. 199−200.
41. Həzrət Əbdül-Bəhanın 17 noyabr 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 7, s. 417.
42. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 105.2, s. 186.
43. 17 fevral 1933-cü il tarixində Şövqi Əfəndi tərəfindən bir fərdə ünvanlanmış məktubdan, *Sosial Hərəkət: Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən Tərtib Edilmiş Seçmə*-də (Vilmett: Bahá'í Publishing Trust, 2020), № 90, s. 44.
44. 1955-ci ilin aprelində Şövqi Əfəndi tərəfindən dünya bəhailərinə yazılmış məktubdan, *1950-1957 Bəhai Dünyasına Müraciətlər*-də çap edilib (Vilmett: Bahá'í Publishing Trust, 1971, 1999 nəşri), s. 76.
45. 4 may 1953-cü il tarixində Şövqi Əfəndi tərəfindən yazılmış məktubdan, yenə orada., s. 155.
46. 1 iyul 2013-cü il tarixində Ümumdünya Ədalət Evi tərəfindən qarşıdan gələn dünya üzrə 114-cü gənclər konfransının bütün iştirakçılarına ünvanlanmış məktubdan, *Hərəkət Çərçivəsi*-ndə çap edilib, № 27.2, s. 175.
47. Yenə orada., № 27.6, s. 177.
48. 8 fevral 2013-cü il tarixində Ümumdünya Ədalət Evi tərəfindən dünya bəhailərinə yazılmış məktubdan, yenə orada., № 22.4, s. 147.
49. Paraqvayda gənclər qurultayında yığışmış gənclərə Ümumdünya Ədalət Evinin 8 yanvar 2000 tarixində ünvanladığı müraciətdən, *Dönüş Nöqtəsi: 1996-2006 Ümumdünya Ədalət Evinin Seçilmiş Müraciətləri və Əlavə Material*-da çap edilib (West Palm Beach: Palabra Publications, 2006), № 20.3–4, s. 123–24.
50. Şövqi Əfəndi, *Allah Yanımızdan Keçir* (Vilmett: Bahá'í Publishing Trust, 1974, 2019 nəşri), s. 4–6.
51. 1 iyul 2013-cü il tarixində Ümumdünya Ədalət Evi tərəfindən qarşıdan gələn dünya üzrə 114-cü gənclər konfransının bütün iştirakçılarına ünvanlanmış məktubdan, *Hərəkət Çərçivəsi*-ndə çap edilib, № 27.1, s. 175.
52. 10 iyun 1966-cı il tarixində hər ölkədəki bəhai gənclərinə müraciətdən, *1963-1986 Ümumdünya Ədalət Evinin Müraciətləri*-ndə çap edilib, № 37.1, s. 92.
53. 3 yanvar 1984-cü il tarixində Ümumdünya Ədalət Evinin dünyanın bəhai gənclərinə yazdığı məktubdan, yenə orada., № 386.6, s. 616.
54. *İlahi Məhbubun Çağırışı: Həzrət Bəhaullahın Seçilmiş Sirli Əsərləri* (Hayfa: Bəhai Dünya Mərkəzi, 2018), № 2.76 s. 46.
55. Gizli Kəlamlar, farsca № 14, s. 26.
56. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri* (Vilmett: Bahá'í Publishing Trust, 1988, 2005 nəşri), № 14.4, s. 207–8.
57. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 35.7, s. 103–4.
58. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá'í Publishing Committee, 1909, 1930 nəşri), cild. 1, s. 182.
59. Həzrət Əbdül-Bəha, *Bəhai Duaları*-nda, s. 173.



# Vədverici Bir Yaş

## Məqsəd

On iki ilə on beş yaş arasındakı gənc insanların sonsuz potensiallarını araşdırmaq və onların ruhani güclənmələri üçün əlverişli olan bir mühitin yaradılmasının əhəmiyyətini başa düşmək

## BÖLMƏ 1

Əvvəlki fəsildə biz gəncləri fərqləndirməli olan bəzi səciyyəvi xüsusiyyətləri nəzərdən keçirdik. Bu fəslin məqsədi yeniyetmələrin böyük potensialı və onların həyatlarını formalaşdıran qüvvələr üzərində düşünməkdir. Sizin burada nəzərdən keçirəcəyiniz konsepsiyalar onillərin təcrübəsi ilə tədricən inkişaf etdirilərək formalaşmışdır. On iki ilə on beş yaş arasında olan gənclərin xüsusi ehtiyacları Bəhai icması tərəfindən xeyli vaxt əvvəl etiraf edilmişdir. Bu yaş qrupuna aid gənclərin təlim-tərbiyəsi sahəsindəki erkən cəhdlərdən başlayaraq və sonra da onların qabiliyyətlərini necə açmaq və onların çağlayan enerjilərini necə yönəltməyi öyrənmək səylərindən bizim bu kitabda nəzərdən keçirdiyimiz yeniyetmələrin ruhani gücləndirilməsi proqramı tədricən meydana çıxmışdır. Siz daha gənc olanda dostlarınızdan biri ilə birlikdə, bir qrup yeniyetmə ilə bu işi görərkən və ya başqaları ilə birlikdə onun yanaşmalarını və mövzularını müzakirə etmək üçün kəndinizdə və ya qonşuluğunuzda valideynlərə baş çəkərkən bu proqramda iştirak etmiş ola bilər və beləliklə bu proqramla tanış olmuş ola bilərsiniz. Sizin indi öyrənməkdə olduğunuz materialın məqsədi, bu yaş qrupundan olan və həyatlarının həlledici mərhələsində istiqamət tapmaqda olduqca vədverici olan bir neçə gəncə kömək etməyə sizi qabil edərək ilk başda üç, bəlkə də daha çox illərinizi bu tərifəlayiq xidmət sahəsinə həsr etməkdə sizə kömək etməkdir.

Yeniyetmələrin ruhani gücləndirilməsi proqramı ilə əlaqədar Ümumdünya Ədalət Evi yazır:

**“Yeniyetmələrin ruhani güclənməsi üçün proqramın sürətlə yayılması Bəhai icmasında mədəniyyət dəyişikliyinin daha bir ifadəsidir. Qlobal trendlər bu yaş qrupunun coşqun fiziki və emosional dəyişikliklərin burulğanında batan, laqeyd və “özünəqapalı” bir problematik obrazını təbliğ edərəkən, Bəhai İcması – onlara münasibətdə özünün istifadə etdiyi dil və qəbul etdiyi yanaşma ilə – yeniyetmələrdə altruizm, iti ədalətlilik hissi, kainat haqqında biliklər öyrənməyə can atma və daha yaxşı bir dünya qurulmasına töhfə vermək arzusu görməklə qətiyyətlə əks tərəfə irəliləyir. Bütün dünya böyunca ölkələrdə proqramın iştirakçısı kimi yeniyetmələrin öz fikirlərini ifadə etdikləri hər bir hekayə bu baxışın doğruluğunu təsdiq edir. Hər bir əlamət ondan xəbər verir ki, onların özünüifadə qabiliyyətlərini yüksəldərək və bütün həyatları boyu onlara xidmət edəcək mənəvi strukturları möhkəmləndirərək proqram, cəmiyyətdə işləyən konstruktiv və destruktiv qüvvələri analiz etmək, bu qüvvələrin onların fikir və hərəkətlərinə göstərdiyi təsiri başa düşmək, onların ruhani qavrayışını itiləməkdə onlara kömək edən gerçəkliyi araşdırmaqda onların genişlənən şüurunu istiqamətləndirir. Onlara intellektual, ruhani və psixoloji güclərə malik olduqları bir yaşda onların nəcib bir varlıq kimi həqiqi kimliklərini onlardan çalan qüvvələrlə mübarizə aparmaq və ümumun rifahı üçün işləmək üçün lazım olan alətlər verilir”.**[1]

Ədalət Evinin yuxarıdakı parçada qeyd etdiyi konsepsiya və ideyaların çoxu bu fəslin öyrənmə fokusundadır və siz bu öyrənmədə irəli getdikcə, onlar sizin fikrinizdə daha da aydınlaşacaqdır. İndilik isə, aşağıdakı suallara cavab vermək istəyə bilərsiniz:

1. Qlobal trendlər yeniyetmələrin aid olduğu yaş qrupunun hansı obrazını təbliğ edir? ________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

2. Bəhai icması bu yaş qrupunda olanlarda nə görür? ______________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

3. Yeniyetmələrin genişlənən şüurunu gerçəkliyin tədqiqinə cəlb etməklə, onların ruhani gücləndirilməsi proqramı nə etməkdə onlara kömək edir?
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

4. Yeniyetmələrin proqram vasitəsilə əldə etdikləri alətlər onların nə etmələrinə imkan verir?

5. 12 ilə 15 yaş arasında olan gənc insanlar nə üçün xüsusi bir qrup təşkil edirlər?

6. Yuxarıdakıların işığında və artıq tanıdığınız bir neçə yeniyetməni xatırlayaraq, bu gənc nəslin bəzi xüsusi ehtiyaclarını müəyyən edə bilərsinizmi?

7. Sizi məhz bu xidmət sahəsinə daxil olmağa nə sövq edir?

## BÖLMƏ 2

Həzrət Bəhaullah bizə buyurur ki, insan yetkinliyin erkən mərhələsinə 15 yaşında çatır ki, bu zaman namaz və oruc kimi qanunlar onun üçün vacib olur. Bu cəhətdən baxdıqda, bu yaşdan öncə gələn illər xüsusi əhəmiyyət kəsb edir. Məhz bu bir neçə ilin içində uşaqlıqdan gəncliyə keçid baş verir. Bu keçidlə bağlı olan birdən və sürətli dəyişikliklər – fiziki, intellektual və emosional – dəyişikliklər davranışa bir sıra yollarla təsir göstərir.

12 yaşına çatanda artıq keçid prosesinin əlamətləri meydana çıxmağa başlayır. Çoxlu gənclər bu yaşdan sonrakı üç-dörd ildə həyatlarının başqa dövrlərində olduğundan daha çox böyüyürlər. Onlar boy atır, çəkiləri artır və hormonal dəyişikliklərə məruz qalırlar. Oğlanlarda səsləri qalınlaşır, qızlar isə gənc qadının bədən formasını almağa başlayırlar. Hər ikisi uşaq vermək üçün fiziki bacarığa malik olmaqla cinsi yetkinlik dövrünə qədəm qoyurlar.

Fərdin bu dövrdə yaşadığı fiziki və emosional dəyişikliklər bir-birilə əlaqəlidir. Yeni güclərin üzə çıxması və bunları əldə saxlamağa həvəs yöndəmsizlik, həssaslıq və narahatlıq hissləri ilə müşayiət olunur. Bu emosiyalar fərddə ziddiyyətli davranışa səbəb ola bilər. Biri utancaq görünə bilər, eyni zamanda da, arada bir, kifayət qədər ünsiyyətcil ola bilər; tək olmaq istəyər, eyni zamanda da diqqəti xoşlayar. Bəzi hallarda inanılmaz cəsarətə malik ola bilər, başqa zaman isə daha çox qorxaqlıq göstərə bilər. Özünün şəxsi istedadları və bacarıqları üzrə getdikcə daha çox narahatlıq, eyni zamanda da insanın dünyadakı yeri barədə yüksəlmiş agahlıq hissi, xüsusən də, öz yaşıdları və böyüklərlə münasibətləri kontekstində özünü göstərir. Başqalarının onun zahiri görünüşünə münasibəti, onun fikirlərinə reaksiyaları əhəmiyyət kəsb etməyə başlayır.

Bundan əlavə, biz 15 yaşına çatmazdan əvvəlki bir neçə il ərzində bizim anlayışımızda fərdi və kollektiv həyat haqqında təməl konsepsiyalar formalaşır. Bizim analiz etmə gücümüz möhkəmlənir və bizə öyrədilən şeylərin çoxunu sual altına ala bilər və ətrafımızdakı dünyanın əvvəllər nəzərimizdən qaçmış təzadlarını görməyə başlayarıq. Biz daha əvvəlki kimi böyüklərin qoyduğu meyarlara qeyri-iradi olaraq əməl etməyə o qədər də meyilli olmuruq. Bu keçid dövründə insan təbiətcə çox vaxt fəlsəfi olan suallara daimi cavab axtarır və sürətlə yeni agahlıq inkişaf edir.

Meydana çıxmaqda olan güclərini səmərəli şəkildə tətbiq etməkdə gənc insanlara kömək olunması üçün, bir tərəfdən onların uşaqlıq dövrünü uzada biləcək yollarla onlarla davranmaqdan, digər tərəfdən isə, bir çox cəhətlərinə görə səthi olan böyüklük imitasiyasını təşviq etməkdən qaçmaq çox mühümdür – bu bir meyildir ki, əfsuslar olsun ki, getdikcə daha çox cəmiyyətlərdə kök atmaqdadır. Həzrət Əbdül-Bəha buyurur:

> “**Bir müddətdən sonra o, gənclik dövrünə daxil olur ki, bu zaman onun yeni səviyyəsi üçün tətbiq oluna bilən tələbat onun əvvəlki halı və ehtiyaclarını üstələyir. Onun müşahidə qabiliyyətləri genişlənir və dərinləşir, onun əqli qabiliyyətləri yetkin olur və oyanır, uşaqlığın məhdudiyyətləri və mühiti onun enerji və nailiyyətlərini daha məhdudlaşdıra bilmir”.**[2]

Gənclik və uşaqlıq arasındakı fərq barədə sizin anlayışınızı yüksəltmək üçün aşağıdakı sualları qrupunuzda müzakirə edin:

1. Müşahidə qabiliyyətlərinin genişlənməsi və dərinləşməsi nə deməkdir? Öz izahınızı bir neçə misalla aydınlaşdıra bilərsinizmi? ______________________________

   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________

2. Yeniyetmələrin əqli qabiliyyətləri uşaqlarınkından necə fərqlənir? ____________________

   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________

3. Yeniyetmələrin enerjisini məhdudlaşdıra bilməyən bəzi uşaqlıq məhdudiyyətləri hansılardır?

   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________________________
   ______________________________

## BÖLMƏ 3

Hər bir fərd on beş yaşdan dərhal öncəki illərdə müəyyən bir təlim-tərbiyə almalı və yetişdirilməlidir ki, bu təlim-tərbiyə fitri qabiliyyətləri yeniyetməlik dövründə üzə çıxarsın. Belə bir təlim-tərbiyə ehtiyacı, xüsusən də onda aydın olur ki, fərdin bir çox fikir və davranış modellərinin on beş yaşınadək formalaşması və oturuşması etiraf olunsun. Həzrət Əbdül-Bəhanın izah etdiyi kimi:

> **“Yetkinlik dövrü keçdikdən sonra insanı öyrətmək və xasiyyətini cilalamaq həddən artıq çətin olur. O zaman, təcrübənin göstərdiyi kimi, onun bəzi vərdişlərini dəyişmək üçün hər bir səy qoyulsa da, bunun heç bir faydası olmur. O bəlkə də, bu gün nəyisə düzəldə bilər, amma bir neçə gün keçdikdən sonra o unudur və özünün vərdiş etdiyi əvvəlki şəraitə və öyrəşdiyi tərzlərə qayıdır”.**[3]

Siz “yetkinlik” sözü ilə tanışsınız ki, bu, on ikiyaşından on səkkiz yaşına qədər dövrü göstərməklə fərqinə varmadan geniş istifadə olunur. Bəzən “erkən yetkinlik” ifadəsi işlədilir ki, bu bizim, ümumən, “yeniyetmə” adlandırdığımız yaş dövrünü nəzərdə tutur. Bu mənada biz burada o qədər də dəqiqlik göstərmirik və on iki ilə on beş yaş arasında olan gənclərə istinad etmək üçün terminləri bir-birinin yerində istifadə edirik. Yetkinlik dövründə təlim-tərbiyənin vacibliyi üzərində düşünmək üçün aşağıdakı müddəaların doğru olub-olmadığına qərar verin:

___ Hətta uşaqlıqda yaxşı təlim-tərbiyə olmasa belə, yetkinlik dövründəki lazımi tərbiyə əvvəllər oturuşmuş istənilən arzuolunmaz davranış tərzini düzəltməyə kömək edə bilər.

___ Yalnız uşaqlıqda mənəvi-ruhani tərbiyə almış fərdlər öz potensiallarını bütünlüklə inkişaf etdirə bilərlər.

___ Yetkinlik dövründə lazımi diqqət və qayğı olmadan fərd asanlıqla yanlış yola gedə bilər, hətta baxmayaraq ki, o, uşaqlığı boyunca mənəvi-əxlaqi və ruhani tərbiyə almışdır.

___ Məhz yetkinlik dövründə fərdlər həyatlarını cəmiyyəti irəli aparan qüvvələrlə uyğunlaşdırırlar ya da sosial dezinteqrasiya qüvvələrinin onları sovurub aparmasına imkan verirlər.

# BÖLMƏ 4

Yetkinlik dövründə artan şüur iki istiqamətdə yönəldilə bilər: ya Allahın İradəsinə təslim olmağa və bəşərə fədakarcasına xidmətə, ya da nəfsin və ehtirasın zindanında əsirliyə. Həzrət Əbdül-Bəha belə aydınlaşdırır:

> **“Yaradılmış hər bir şeyin fərdiyyəti ilahi hikmətə əsaslanır, zira Allahın yaradılışında heç bir qüsur yoxdur. Lakin şəxsiyyətin daimi heç bir elementi yoxdur. Bu, insanda olan müəyyən qədər dəyişə bilən keyfiyyətdir ki, hər iki istiqamətdə gedə bilər. Çünki əgər o, tərifəlayiq məziyyətlər əldə edirsə, bu, insanın şəxsiyyətini möhkəmlədir və onun malik olduğu gizli qüvvələri üzə çıxarır; lakin əgər o, qüsur əldə edirsə, şəxsiyyətin gözəlliyi və sadəliyi itəcək və Allahın verdiyi keyfiyyətlər nəfsin kəsif mühitində batacaqdır”.**[4]

Biz elə bir zəmanədə yaşayırıq ki, aqressiv materialistik mədəniyyət cəmiyyətin hər bir sahəsinə nüfuz edir. Bu yayılan materialist mədəniyyətin bütün mahiyyətinə hopan həddən artıq özünlə məşğulluq, yeniyetmələrin qabiliyyətlərinin inkişafında onlara kömək etməyə cəhd etdikcə, bizim qarşımıza bir sıra meydanoxuyucu çətinliklər çıxarır, çünki hətta gənclərin potensialını açmağa və onların enerjilərini ümumi rifaha yönəltməyə çalışan səmimi səylər kökündə fərdiyyətçi olan bir dünyagörüşünün mənfi təsirinə məruz qala bilər. Məsələ mürəkkəbdir. Hazırkı dünya sistemi məqsədli həyat yaşamaq üçün tələb olunan təmkindən geniş sayda insanları məhrum edir; ona görə də burada insanın mənəvi-əxlaqi möhkəmliyinə inama bel bağlanmalıdır. İndiki dünya sistemi insanların yüksək çağırışını gizlədir; odur ki, insanın özünün nəcib arzularının həyata keçməsi haqq qazandırılası bir narahatlıqdır. Bu, insan kütlələrini ruhun həyatından xəbərsiz qoyur; ona görə də insanın öz potensialını açması diqqət verməyi haqq edir. Bundan əlavə, eqonu vurğulayan proqramlar heç də vəziyyəti düzəltmir. Çox vaxt bu baş verir ki, özünü realizə etmə, özünü açma, özünü dəyərləndirmə adı altında bu cür proqramlar fərdi romantikləşdirir və nəfsi bəsləyir. Bizim qarşımızda duran meydanoxuyucu məsələ gənc insanda həqiqi ruhani həssaslıq tərbiyə etməkdir ki, onların incə ürəkləri Əzəmətli Camala cəzb olunmaqla həyəcana gəlsin və özünü unutmaqla bəşəriyyətə xidmətin yüksək ideallarına yönəlsin. Həyatlarının bu formalaşma fazasında bizim onların təlim-tərbiyə ehtiyaclarına qayğımız inadcıl nəfsin özünü təsdiq etməsinin qarşısını almalıdır. Bu məsələnin təbiətini araşdırmaq üçün növbəti bir neçə bölmədə sizdən xahiş edilir ki, yazılardan “nəfs”ə aid olan bəzi parçalar üzərində düşünəsiniz. Lakin ilk olaraq siz “inadcıl nəfsin özünü təsdiq etməsi” ifadəsinin mənası üzərində qrupunuzda

müzakirə aparmağın faydalı olmasını düşünə bilərsiniz. İnsan necə təmin edə bilər ki, xidmət, nəfsin üstün bir mövqeyə keçdiyi bir meydana çevrilməsin?

## BÖLMƏ 5

Sitatların aşağıda verilən ilk qrupu "fərdiyyət"in o aspektlərinə aiddir ki, Allaha xoşdur və inkişaf etdirilməlidir:

> **"Ey mənim bəndələrim, əgər Mənim səxavət və fəzlimin sizdə əmanət qoyulmuş möcüzələrindən agah olsanız, şübhəsiz, yaradılmış hər şeydən əlinizi üzərsiniz və özünüzü tanımağa nail olarsınız ki, bu da əslində Məni tanımaq deməkdir. Və bu halda Məndən başqa heç kəsə ehtiyac duymazsınız, Mənim inayət dəryamı və kəramət dənizimi zahiri və batini gözünüzlə özünüzdə Mənim Əbha adımdan parlayan günəş kimi açıq və aşkar görərsiniz".[5]**

> **"Sən Səni zikr edənlərin zikrindən, Səni vəsf edənlərin vəsfindən, Səni tərifləyənlərin tərifindən ucasan, çox ucasan! Sən öz bəndələrinə Sənin qüdrətini və calalını ucaltmağı əmr etməklə, onlara mərhəmət göstərdin, ta ki, onlar öz daxili varlıqlarında gizlədilmiş məqama – özlərini tanımaq məqamına yüksələ bilsinlər".[6]**

> **"Birinci Taraz və ilk təcəlli budur ki, insan özünü tanımalı, nəyin onu ucalığa, nəyin alçaqlığa, nəyin izzətə, nəyin zillətə, zənginliyə və yoxsulluğa apardığını bilməlidir".[7]**

> **"Ey Ruh oğlu! Səni zəngin yaratdım, nə üçün yoxsulluğa yuvarlanırsan? Səni əziz yaratdım, nə üçün özünü zəlil tutursan? Səni elm cövhərindən zahir etdim, nə üçün məndə deyil, başqalarında elm axtarırsan? Səni məhəbbət gilindən yapdım, necə Məndən başqası ilə məşğulsan? İndi dön özünə bax ki, Məni özündə qüvvətli, qüdrətli və qəyyum tapasan".[8]**

Aşağıdakı cümlələri yuxarıdakı sitatların əsasında tamamlayın:

1. Allahın Öz səxavətinin və fəzlinin hansı möcüzələrini bizim qəlbimizə əmanət qoyduğunu dərk edəndə biz _______________ _____ ___________ _____________ ____________ və _____________ _______________ ______ _____________.

2. Biz özümüzü tanıyanda ________________________________________________________ ___________________________ və öz batini və zahiri gözlərimizlə ______________________ ____________________________________________________________________________________ _____________________________________________________________________.

3. Allahın qüdrətini və calalını ən yüksək dərəcədə vəsf etmək üçün bizə hökm etdiyi hər bir vəzifə ancaq Onun bizə mərhəmətinin bir əlamətidir ki, _____________________________________ _____________________________________________________________________________ _________________ yüksələ bilək.

4. Biz özümüzü tanımalı və nəyin bizi ___________ və ya _______________, ___________ və ya ___________, _________________ və ya __________________ apardığını bilməliyik.

4. Biz ___________ və _______ yaradılmışıq. ______ cövhərindən zahir olmuşuq və _________________ gilindən O bizi ___________. O bizdən istəyir ki, öz baxışlarımızı özümüzə yönəldək ki, ______ ______________ ____________, ____________ və ___________ __________.

Yuxarıdakı sitatlar bizim həqiqi "mən"imizə və onun təbiətini anlamağımızın vacibliyinə aiddir. Biz, əlbəttə, başa düşməliyik ki, bizim varlığımızın nəcibliyi barədə bilgi bizi özümüzü böyütməyə deyil, Allahın

və Onun bəndələrinin qarşısında mütiliyə aparır. Öz həqiqi mənimizi tanımağımızın nəfsimizlə mübarizə aparmağımızda bizə necə kömək etdiyini qrupunuzda müzakirə edin.

## BÖLMƏ 6

Sitatların ikinci qrupu "nəfs"in istəklərinə yol verməyin nəticələri barədə xəbərdarlıq edir.

**"Hər bir qeyri-kamil ruh məncildir və ancaq öz xeyrini düşünür".[9]**

**"Lakin əgər o, cüzi bir nəfsani arzu və özünə məhəbbət əlaməti göstərərsə, onun səyləri heçə aparacaq və o məhv olacaq və sonda ümidsiz bir halda qalacaq".[10]**

**"Xüsusilə, sən özünü təkəbbürdən xilas etmək istəməlisən. Bu keyfiyyət, qürur dünyada bir çox mühüm insanların məhvinə səbəb olmuşdur. Əgər insan bütün tərifəlayiq xüsusiyyətlərə malik olsa da, eqoist olarsa, o zaman bütün bu fəzilətlər və gözəl xüsusiyyətlər yox olar və son nəticədə ən pis qüsurlara çevrilər".[11]**

**"Həm burada, həm də o biri dünyada, öz arzularının qulu olmaqdan, sənin əldə etdiyin şey, ancaq məyusluq olacaq; fanatizmdən, axmaq və biganəyə inanmağından sənin qazandığın ancaq ikrah və səfillik olacaq".[12]**

**"Bu gün dünyanın bütün xalqları öz mənafelərini güdür, ancaq öz maddi maraqlarını irəlilətmək üçün ən güclü şəkildə səy qoyur və çalışırlar. Onlar ilahi həqiqətə, insanlıq aləminə deyil, özlərinə sitayiş edirlər."[13]**

**"Bu sınaqlar, necə ki, sən yazmısan, qəlbin aynasından nəfsin ləkələrini təmizləyir, ta ki, Həqiqət Günəşi Öz şüalarını orada saçsın; zira nəfs pərdəsindən daha güclü bir əngəl yoxdur, bu pərdə nə qədər nazik olsa da, sonda o, insanı tamamilə təcrid edəcək və onu əbədi fəzl payından məhrum edəcək".[14]**

**"Bax, günəş bütün xilqətə necə şüa saçır, lakin yalnız pak və cilalanmış səthlər onun calal və nurunu əks etdirə bilər. Zülmətə bürünmüş qəlb həqiqətin parlaq təcəllisindən heç bir pay almır; və nəfsin torpağı o işıqdan istifadə edə bilmədiyi üçün böyütmək qabiliyyəti yoxdur".[15]**

**"Bu zülmətdə ləzzət tapan, özü ilə məşğul olan, nəfsin və ehtirasın əsiri, bu maddi dünyanın bataqlığında düşüb qalan ruh necə də alçalmışdır!"[16]**

"Özünü düşünmək", "özünü sevmək", "özünə sitayiş", "özü ilə qürrələnmək", "öz maraqlarına üz vermək" və "nəfs və ehtirasın əsirliyi" bizim şəxsiyyətimizin Allahdan olan sifətlərini boğan bir mühitin yaranmasına səbəb olur. Yuxarıdakı parçaların işığında, özü ilə məşğul olmağın bizim ruhani böyüməmizi və mənəvi inkişafımızı necə saxladığını və xidmətin səmərəliliyini necə azaltdığını bir neçə cümlə ilə təsvir edin.

## BÖLMƏ 7

Sitatların üçüncü qrupu inadkar “nəfs”lə necə davranmaq haqqında Yazılarda olan çoxlu nəsihətlərdən kiçik misallardır:

> **“Bu gün Əbha Mələkutunun təyidləri özündən imtina edənlər, öz fikrini unudanlar, öz şəxsiyyətlərini bir kənara atanlar və başqalarının rifahı barədə düşünənlərlədir. Özünü itirən bütün kainatı və onun sakinlərini qazanmışdır. Özü ilə məşğul olan kəs qəflət və peşmançılıq səhrasında sərgərdandır. Özünüidarənin universal açarı özünü unutmaqdır. Həyat sarayına yol özündən imtinadan keçir”.**[17]

> **“O bizə şeylərin mahiyyətinə nüfuz etmə gücü əta etmişdir; lakin biz özümüzdən imtina etməliyik, biz pak ruha, pak niyyətə malik olmalı və cani-dildən çalışmalıyıq ki, hələ insan aləmində ikən, əbədi şərəfə nail olaq”.**[18]

> **“Ona görə də şeytani “nəfs”in pərdələri eşq odunda yanmalıdır ki, ruh təmizlənsin və paklaşsın və beləliklə, Onun məqamını tanısın ki, Onsuz dünya yaradılmazdı”.**[19]

> **“Özün haqda bütün fikirləri tərk et və çalış ki, ancaq Allahın İradəsinə tabe və təslim olasan. Yalnız bu yolla biz Allahın Mələkutunun sakinləri ola və əbədi həyata çata bilərik”.**[20]

> **“Əlinizdən gələn hər şeyi edin ki, özünüzdən bezar olasınız və Calallı Camala bağlanasınız; və elə ki siz bəndəliyin bu zirvələrinə yetişdiniz, bütün yaranmış şeylərin sizin kölgənizdə toplaşdığını görəcəksiniz. Bu, nəhayətsiz bir fəzldir; bu, ən uca səltənətdir; bu, ölümsüz həyatdır. Bundan başqa hər şey sonda aşkar fəlakətdən və acı itkidən başqa bir şey deyil”.**[21]

> **“Ona görə də, Ey dost, özünə biganə ol ki, Yeganəni tapasan və bu fani dünyadan kənara uç ki, cənnət məskənində yuva tapa biləsən. Gərək sən yox olasan ki, varlıq odunu yandırasan və eşq yoluna qəbul ediləsən”.**[22]

> **“Gəlin, özümüz haqda bütün fikirləri kənara qoyaq; gəlin gözlərimizi yer üzündə hər şeyə yumaq, gəlin nə öz əziyyətlərimizi bildirək və nə də bizə edilmiş haqsızlıqlardan şikayətlənək. Əksinə, gəlin özümüzü unudaq, səmavi fəzl şərabından içərək öz sevincimizi car çəkək və özümüzü Əbha gözəlliyində qərq edək”.**[23]

> **“Ey dünyanın insanları! Nəfsinizin həvəsi ardınca getməyin, çünki o, israrla günahkarlığa və ehtirasa çağırır; əslində bütün yaradılmış şeylərin Maliki olan Kəsin ardınca gedin, o Kəs ki, sizə möminlik göstərməyi və Allah qorxusu nümayiş etdirməyi hökm edir”.**[24]

Yuxarıda verilmiş parçaların təlqin etdiyi münasibətlər, nəfsin bütləşdirilməsi və bu gün əksər cəmiyyətlər üçün səciyyəvi olan özünü məmnun salmağa mübtəlalıqla kəskin bir təzad təşkil edir. Bu parçalarda öz nəfsimizə münasibətdə inkişaf etdirməyi öyrənməli olduğumuz bəzi münasibətləri müəyyənləşdirin. Sizə kömək etmək üçün iki misal verilmişdir:

- Biz özümüzdən imtina etməyi, öz fikirlərimizi unutmağı, şəxsiyyətləri kənara qoymağı və başqalarının rifahı barədə düşünməyi öyrənməliyik.

-Biz özündən imtina edən olmağı öyrənməliyik.

-Biz ____________________________________________ öyrənməliyik.
________________________________________________________________

-Biz ____________________________________________ öyrənməliyik.

_________________________________________________________________

-Biz _______________________________________________ öyrənməliyik.
_________________________________________________________________

-Biz _______________________________________________ öyrənməliyik.
_________________________________________________________________

-Biz _______________________________________________ öyrənməliyik.
_________________________________________________________________

-Biz _______________________________________________ öyrənməliyik.
_________________________________________________________________

Sizin müəyyən etdiyiniz münasibətlərin nəcib varlıq kimi yetişməyə necə töhfə verməsini və xidmət aktlarını necə qüvvətləndirməsini qrupunuzda müzakirə edin.

## BÖLMƏ 8

Sonda, Həzrət Əbdül-Bəhanın aşağıdakı sözləri fədakarlıqla cəmiyyətin dəyişməsinə töhfə vermək bacarığı arasındakı qarşılıqlı əlaqəni bizə xatırladır.

> **"İnsan kütlələri nəfs və dünyəvi arzularla məşğuldur, rəzalət dünyasının dəryasında batmışlar və təbiət dünyasının əsiridirlər, o ruhlardan başqa ki, maddi dünyanın zəncir və qandallarından azad olmuşlar və yel qanadlı quşlar kimi, bu intəhasız fəzada pərvaz edirlər. Onlar ayıq və sayıqdırlar, təbiət dünyasının qaranlığından qaçırlar, onların ən ülvi arzuları insanlar arasından yaşamaq uğrunda mübarizənin aradan qaldırılmasında, qəlblərdə ruhaniyyətin və uca səltənətə məhəbbətin işıq saçmasında, insanlar arasında son dərəcə mehribanlığın olmasında, dinlər arasında sıx və yaxın əlaqələrin həyata keçməsində və fədakarlıq idealının gerçəkləşməsində cəmləşmişdir. Onda insan aləmi Allahın Mələkutuna çevriləcək".[25]**

> **"Ey Allahın ordusu! Bu gün bu dünyada hər bir xalq öz keyfinin və xülyasının hökmü ilə gah ora, gah bura üz tutaraq və şəxsi həvəsinin ardınca gedərək öz səhrasında sərgərdan qalıb. Yer üzünün bütün bu saysız-hesabsız kütlələrinin arasında yalnız İsmi-Əzəmin icmasıdır ki, insan fitnə-fəsadından azad və pakdır və təmənnalı məqsədi yoxdur. Onların hamısının arasında yalnız bu insanlar Allahın Təlimlərini yerinə yetirərək, xudbin istəklərdən azad niyyətlərlə ayağa qalxaraq yeganə bir məqsəd üçün zəhmət çəkir və çalışırlar: bu rəzil torpaq dünyasını səmaya, bu dünyanı Mələkutun güzgüsünə, bu dünyanı başqa bir dünyaya çevirmək və bütün bəşəri möminliyə və yeni həyat tərzinə gətirmək".[26]**

> **"Siz ey Allahın sevimliləri! Bu Bəhai Zühur dövründə Allahın Əmri xalis ruhdur.**
> **Onun Əmri bu maddi aləmə mənsub deyil. Onun məqsədi nə mübahisə, nə də müharibə, nə nifaq və nə də utancverici hərəkətdir; o nə başqa inamlarla dartışmaq üçündür, nə də millətlərlə münaqişə etmək üçün. Onun yeganə ordusu Allah sevgisi, tək sevinci Onu tanımağın nəfis şərabı, yeganə savaşı Həqiqətin izahıdır; Onun bircə savaş yürüşü inadkar xudbinliyə, insan ürəyinin şeytani həvəslərinə qarşıdır. Onun qələbəsi təslimiyyət və itaət, onun əbədi şərəfi özündən imtinadır".[27]**

Yuxarıdakı parçalar, Həzrət Əbdül-Bəhanın "Allahın ordusu"nda olanlar kimi baxdığı insanların – o kəslər ki, onlara O, "Allahın sevimliləri" kimi müraciət edir, o kəslər ki, "maddi dünyanın zəncir və qandallarından azad olmuşlar", – bəzi fərqləndirici xüsusiyyətlərini təsvir edir. Aşağıdakı çalışmadakı boş yerləri doldurduqca bu fərqlər üzərində düşünün:

a. İnsan kütlələri _______ ____ ____________ __________________ məşğuldurlar, ___________ ________________ _______________ batmışlar və __________ _______________ əsiridirlər.

b. Maddi dünyanın zəncir və qandallarından azad olan və yel qanadlı quşlar kimi bu intəhasız fəzada pərvaz edən ruhlar _______ ____ ________________, onlar ___________ ______________ __________________ ___________, onların ən ülvi arzuları _____________ _____________ _____________ _____________ ________________ aradan qaldırılması, _____________ ___________________ ____ _____ _____________ _______________ ____________ saçmasında, ____________ _____________ ______ __________ _____________________ olmasında, ________ ____________ _____ ___ _________ __________________ həyata keçirilməsi və ______________ _______________ ____________________ cəmləşmişdir.

c. Bu gün, bu dünyada, hər bir xalq ___ ___________ və _______________ __________ ____ ________________________üz tutaraq və _________ _______________ arxasınca gedərək, ___ ______________ _______________ _________.

d. ______ __________ ancaq İsmi-Əzəmin icmasıdır ki, _________ ___________________ ________ və pakdır və _______________ ___________ yoxdur. Onların hamısının arasında _________ ___ ____________ Allahın Təlimlərini ________ ______________, xudbin istəklərdən _______ _______________ _______ ____________ yeganə bir məqsəd üçün _________ _______ ___ ____________: bu rəzil torpaq dünyasını ________, bu dünyanı _____________ ______________, bu dünyanı _________ ____ ____________ çevirmək və bütün bəşəri ____________ ___ ______ ________ __________ ______________.

e. Allahın Əmri ___ ________ _________ ____________ _______ ruhdur. Onun Əmri ___ ________ ________ mənsub deyil. Onun məqsədi nə ___________, nə də ___________, nə _______ və nə də _____________ ______________; o nə başqa ___________ ___________ üçündür, nə də _____________ ____________ _______ üçün. Onun yeganə ordusu _________ ___________, tək sevinci _____ _____________ ________ ___________, yeganə savaşı _____________ ___________; onun bircə savaş yürüşü __________ _____________, insan ürəyinin _________ _________________ __________. Onun qələbəsi ______________ ___ ________, onun əbədi şərəfi ____________ _______________.

# BÖLMƏ 9

Həzrət Bəhaullahın nazil etdiyi dualardan aşağıdakı çıxarışları əzbərləyə bilərsiniz:

> **"Onları, Ey mənim Rəbbim, Sənin Özünün Məzhərin olan Kəs qarşısında acizlik hissi ilə ilhamlandır və Öz qənilik və zənginliyinin bol əlamətləri qarşısında öz təbiətlərinin yoxsulluğunu etiraf etməyi öyrət ki, onlar Sənin Əmrinin ətrafında toplaşsınlar və Sənin mərhəmət əbanın ətəyindən yapışsınlar və Sənin iradənin razılığı ipindən tutsunlar".[28]**

> **"Sonra, Ey mənim Allahım, bəndələrinin nəfs və arzu libaslarını çıxar və lütf et ki, Sənin adamlarının gözləri elə zirvələrə dikilsin ki, onlar öz arzularında Sənin əbədi calalının nəvazişli nəsimlərinin əsməsindən başqa heç nə görməsinlər və özlərində Sənin Özünün Mərhəmətli Zatının təzahürlərindən başqa heç nə görməsinlər, ta ki, yer və orada olanlar Sənə yad olan hər şeydən və ya Sənin Zatından başqa nəsə təzahür etdirən istənilən şeydən təmizlənsin".[29]**

## BÖLMƏ 10

Sizin yeniyetmələri yetişdirmək marağınız dərinləşdikcə, siz yeniyetmə dövrünü təsvir etməyə çalışan çoxlu nəzəriyyələrlə tanış olacaqsınız. Sizin təkrar-təkrar qarşılaşacağınız sözlərdən biri fərdi kimliyə, qavrayışa, emosiyalara, valideynlərlə münasibətlərə, avtoritetə reaksiya və sairəyə aid olan "böhran" sözü olacaq. Siz bu nəzəriyyələrə tənqidi yanaşmalısınız, ondan da artığı, məbada, böhran vəziyyətinə hər bir yeniyetmənin mütləq düşməli olduğu zəruri hal kimi baxasınız. Bu hər bir gəncin həyatı üçün həqiqətənmi zəruridir ki, bu və ya digər şəkildə sarsıntılı çevrilişlə xarakterizə olunsun? Bütün insanlıq tarixində yeniyetmələr bu cür böhranlardan əziyyət çəkmişlərmi və hətta bu gün də onlar hər bir mədəniyyətdə və cəmiyyətdə belə böhranlardan keçirlərmi?

Bu suallara cavab verməyə çalışarkən, siz bilməlisiniz ki, gənc insanları öyrənən ən geniş yayılmış araşdırmalar "mən"ə, özünü məmnun salmağa, bioloji dəyişikliyə, cinsi oyanıqlığa və maddi nailiyyətlərə – karyeraya, gəlirə, sosial statusa – ifrat dərəcədə diqqət ayıran çərçivələr daxilində aparılmışdır. Çox vaxt onlar sinfi, irqi və cinsi kimlik üzərində həddən artıq fokuslanır və insan ruhunun Allah verən keyfiyyətlərinə etinasız yanaşırlar. Bu araşdırmalardan sizin əldə etdiyiniz bəzi anlayışlar, əlbəttə, sizin kömək etməyə ümid etdiyiniz yeniyetmə qruplarının xarakterik cəhətlərini başa düşməyə çalışdıqca, sizə yardımçı olacaqdır. Lakin bu şübhə altındadır ki, bu araşdırmalardan ruhlanmaqla edilən səylər gənclərə bugünkü cəmiyyətin normalarına uyğunlaşmağa kömək etməkdən daha artıq nəsə edə bilsin, elə bir cəmiyyət ki, onun materialist görüşü, bizim bildiyimiz kimi, ruhani həssaslığı dağıtmağa can atır. Bunun əksinə olaraq, sizin yeniyetmələr haqqında mənimsədiyiniz konsepsiya "hər zaman inkişafda olan sivilizasiyanı irəli aparacaq", "birlik quran" və "ədalətin müdafiəçiləri" olacaq fərdlərin ruhani kimliyinin inkişafını nəzərdə tutur.

Bu mənada, yadda saxlanılması vacib olan şey budur ki, başqa insanlar tərəfindən gənc insanların necə görünməsinin onlara hədsiz dərəcədə böyük təsiri var. Beləliklə, yeniyetmələr barədə cəmiyyətdə geniş yayılmaqda olan qaranlıq mənzərə təbliğ olunacaq arzuolunmaz davranış tərzi üçün şərait yaratmağa kömək edir. Məsələn, Ziqmund Freydə aid olan bir fikri götürün ki, yeniyetməlik müvəqqəti mental xəstəlikdir və ya Anna Freydin belə bir fərziyyəsini ki, yeniyetməlik dövründə normal olmağın özü anormallıqdır. Belə bəyanatlar insanların gözündə yeniyetmələrin həqiqi qabiliyyətini görməyə mane olan pərdələrin yaranmasına səbəb olmurmu? Hansı dəlil bu alimləri belə aşağılayıcı bir qənaətə gətirmişdir? Əlbəttə, bir sıra pedaqoqlar vardır ki, yeniyetməliyi pozitiv istilahlarla təsvir etmişlər, amma onların fikirləri bu məsələ barəsində diskurslarda üstünlük təşkil etmir. Yeniyetmələr barədə valideynlərin, eləcə də müəllimlərin düşüncəsində hakimlik edən təsəvvürlər üsyankarlıq, irrasionallıq və qeyri-ciddilikdir. Öz təfəkküründə belə konsepsiyalar bəsləyən, damarlarında bu ideyalar axan bir cəmiyyət, biz soruşa bilərik, bu kitabın birinci fəslində təsvir olunan gənc olmaqda yeniyetməyə necə kömək edə bilər?

## BÖLMƏ 11

Yuxarıdakı müzakirə kontekstində biz təklif etmək istərdik ki, siz aşağıdakı mövqeni qəbul edəsiniz:

Hər hansı bir yeniyetmə qrupunda arzuolunmaz davranış – normal böyümə prosesi üçün xarakterik olan ardıcıl böhran və qələbə mərhələlərindən təbii olaraq nəticələnən davranış xaricində – inkişaf edən zaman bu cür davranışın səbəbləri sosial mühitdə, bəlkə də, oyanmaqda olan beyinlərin əvvəllər tamamilə etibar etdikləri böyüklərin həyatında aşkar etdikləri qabarıq ziddiyyətlərdə və ya uşaqlıq vərdişlərini arxada buraxmaq istəyən fərdin rasionallığını böyüklərin etiraf etməkdə bacarıqsızlıqlarında axtarılmalıdır.

Bu mövqe, əlbəttə, yeniyetmələrin davranışında impulsivliyin və ya itaətsizliyin tamamilə olmaması barədə mübahisə etmir. Demək istənilən budur ki, əksər hallarda, bu yaşla bağlı olan bir çox mənfi xüsusiyyətlərin məsuliyyəti sosial mühitin, xüsusilə, böyüklərin davranışının üzərinə düşür. Bizim irəli sürdüyümüz iddianın nələri nəzərdə tutduğunu araşdırmaq üçün siz qrupunuzda aşağıdakı müddəaların gerçəkliyini müzakirə edə və həmin fikri daha da izah edən əlavə müddəalar qura bilərsiniz:

- Yeniyetmələr onları özlərinin riayət etmədikləri meyarlara əməl etməyə çağıran böyüklərə qarşı çıxırlar.

- Öyüdvermə formasında edilən məsləhətə qarşı onlar itaətsizlik göstərirlər.

- Dünya onların intellektual qabiliyyətlərinin inkişafına mane olan yüngül fəaliyyətlərdən başqa bir şey təklif etmədikdə yeniyetmələr qeyri-ciddi olurlar.

- Böyüklər onların üzərinə çox ciddi qaydalar qoyduqda onlar intizama çox ikrahla yanaşırlar, xüsusən də əgər uşaqlıqda onlara məhdudiyyətsiz azadlıq verilibsə.

- Onların ətrafındakı böyüklər onların qərarlarının nəticələri haqda düşünməyə necə kömək etməyi bilmədikdə onlar impulsiv görünürlər.

- Onlara cəmiyyətə təmənnasız xidmət deyil, özlərinin vacib insan olduqları öyrədiləndə onlarda qürur əmələ gəlir.

- Daimi təbliğat onları fiziki arzularını qane etməyə şirnikləndirəndə onlar öz nəfslərinin cilovunu buraxırlar.

________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________

## BÖLMƏ 12

Ümumdünya Ədalət Evi "hər şeyə icazə verən cəmiyyət"in "prinsipsizliyi və əxlaqsızlığı"ndan və gənclərin bunun təsirindən qorunmalı olmasından bəhs etmişdir:

> **"...Allahın Əmri, bəhailərin, xüsusilə də bəhai gənclərin, hər şeyə icazə verən cəmiyyətin prinsipsizliyi və əxlaqsızlığına qarşı durduqları, onların riayət etməyə çalışdıqları yüksək davranış meyarlarının onlara inam, özünə hörmət və həqiqi xoşbəxtlik verərək ruhani prinsiplərə dayandığı müşahidə ediləndə ölçüsüz fayda əldə edəcəkdir. Digər tərəfdən isə, əgər Əmrin ardıcılları cərəyan edən dalğaya sadəcə təslim olsalar, ona ancaq çox böyük ziyan gəlməsindən başqa bir şey əldə edilməyəcək".[30]**

Aşağıdakı parçada, Əmrin Vəlisi belə bir cəmiyyətin təbiəti və onun bizim hamımıza etdiyi təsir barədə dərin bir baxış verir:

> **"Həqiqətən, indi cəmiyyətdə tüğyan edən bəlaların əsas səbəbi ruhaniyyətin olmamasıdır. Dövrümüzün materialistik sivilizasiyası bəşəriyyətin enerji və marağını o qədər qəsb edib ki, insanlar, ümumiyyətlə, özlərini gündəlik maddi mövcudluqlarının gücləri və şərtlərindən yuxarı qaldırmağa zərurət hiss etmirlər. Bizim fiziki mövcudluğumuzun ehtiyac və tələbatlarından ayırmaq üçün ruhani adlandırmalı olduğumuz şeylərə kifayət qədər tələb yoxdur".[31]**

Mənəvi tənəzzülün bir sıra əlamətləri vardır ki, bu gün dünyada işləyən destruktiv qüvvələri təsvir edərkən Əmrin Vəlisi onları ayırd edir. Öz yazışmalarında onun, altını cızaraq qeyd etdiyi şərtlər arasında nigaha qarşı məsuliyyətsiz münasibət və nəticə olaraq boşanmaların çoxalması, ailə möhkəmliyinin zəifləməsi və valideyn nəzarətinin aşkar və tədrici şəkildə azalması, bu dünyanın şöhrəti, zənginliyi və ləzzətləri arxasınca tələşlı qaçış, əyləncə düşkünlüyü, incəsənət və musiqinin bayağılaşması, ədəbiyyat və mətbuatın meyarının silinməsi, irqi ədavət və vətənpərvərlik təkəbbürü vardır. Bu xəstəliklərə qarşı heç kəs sığortalanmasa da, bunlar yeniyetmələrə ayrı bir təsir göstərir. Məsələn, boşanmanın nəticələri üzərində düşünün. Heç şübhəsiz, valideynləri boşananda yeniyetmələr çox dərin məyusluq yaşayır və birlik içində olan ailə ocağının həsrətini çəkirlər. Amma məhz yeniyetmə olan zaman valideynlərinin nigahı pozulanda onlar günahkarlıq, qəzəb, utanma və alçalma kimi hisslərdən sarsılırlar. Onlar valideynlərini məsul tutsalar da, ailənin bədbəxt taleyi üçün özlərini də günahlandırmaya bilmirlər. Evlilik və ailə həyatına qarşı şübhə toxumları onların beyninə əkilir və ətraflarında olan cəmiyyətdə artan boşanmaların çoxalması onların bədbinliyini möhkəmləndirir.

1. Yuxarıda qeyd edilən bəzi sosial şərtlərin yeniyetmələrin gerçəkliyi qavramasını, özləri haqqında necə düşünmələrini, həyata baxışlarını, hiss və emosiyalarını, düz və səhvi ayırd etmək bacarıqlarını, başqalarına qarşı onların davranışlarını, cəmiyyətin təsisatlarına onların inamını necə formalaşdıra biləcəyi üzərində düşünmək faydalı olardı:

    a. Hər şeyə icazə verən cəmiyyətin mənəvi prinsipsizliyi və korlanmışlığı:
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ___________

    b. Ailə həmrəyliyinin zəifləməsi və valideyn nəzarətinin tədricən azalması:
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________

    c. Bu dünyanın şöhrəti, zənginliyi və ləzzətləri arxasınca tələşlı qaçış və əyləncə düşkünlüyünə həvəs: ______________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________

    d. İncəsənət və musiqinin bayağılaşması, ədəbiyyat və mətbuatın meyarının silinməsi:
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________
    ______________________________________________________________________

f. İrqi ədavət və vətənpərvərlik təkəbbürü:

2. Tənəzzül edən sosial şərtlərin yeniyetmələrin həyatına təsiri üzərində düşündükdə sizin ürəyinizi və beyninizi hansı hisslər doldurur? Bu cür təsirlərdən xəbərdar olmaq onların əsl təbiətinə xas olan qabiliyyətləri inkişaf etdirmələrinə kömək etməkdə sizin səylərinizi necə möhkəmləndirir?

## BÖLMƏ 13

Diqqəti dezinteqrasiyaya məruz qalan dünyanın əlamətlərinə çəkmək bu gün cəmiyyətdə işləyən konstruktiv qüvvələrin əhəmiyyətini danmaq demək deyil. Edilməli iş ondan ibarətdir ki, yeniyetmələrin ruhani güclərinin yetişdirilə biləcəyi mühit yaradılsın və beləliklə də, onlara lazımi sosial qüvvələr öz təsirini göstərmiş olsun. Onları cəmiyyətin ziyanlı ünsürlərindən tamamilə təcrid etməyə cəhd etmək əbəsdir. Bunun yerinə, onları əhatə edən dünyanın onların fikir və hisslərinə təsir etdiyi yolları qiymətləndirməyə və analiz etməyə onları qabil etmək üçün kömək edilməlidir. Bununla bağlı olaraq, təbliğat məsələsinə xüsusi diqqət verilməlidir, çünki əksər cəmiyyətlərdə, təbliğat yeniyetmələrin dəyərlərinin, münasibət və baxışlarının formalaşmasına getdikcə daha çox təsir edir. Bu məqamı işıqlandırmaq üçün reklamın bəzi xüsusiyyətlərinə qısaca bir nəzər salmaq kifayət edər.

Təbliğatı idarə edən materialist qüvvələr gerçəkliyi təhrif edir. Reklamlarda təqdim edilən obrazlar, məsələn, mükəmməl, lakin əlçatmaz görüntü oyanış dövründə olan yeniyetmənin hissləri ilə oynayır. Bir sıra reklamlar bir-birinin ardınca o mesajları daşıyır ki, qızların əsas məşğuliyyəti kişiləri cəlb etməkdir. Bundan da əlavə, kişiliyi sırf fiziki güc şərtləri ilə ölçmək meyli çox vaxt hətta o dərəcədə qabardılır ki, zorakı və riskli hərəkətlərə üz verilir və seksual macəralar və “nailiyyətlər” təşviq edilir. Zəiflik kimi müəyyən olunan hər şey acımadan rədd edilir və aqressiv davranış sistematik olaraq təbliğ olunur. Maraqlıdır ki, qızlar tərəfindən qəbul olunması nəzərdə tutulan xüsusi bir tip sərtlik, tərslik və ya özbaşınalıq da aşılanır.

Heç bir şübhə ola bilməz ki, gənc insanlara ünvanlanmış reklamların çoxunun əsas məqsədi elə bir mədəniyyət yaratmaqdır ki, onlar ona mənsub olmağa can atsınlar. Bu mədəniyyətdə onlar ümumi bir dillə danışacaq, eyni davranışa malik olacaq və ən vacibi, tükənməz çeşidə malik olan məhsulları istehlak edəcəklər. Hələ bundan da mühümü, onlar elə bir dəyər sisteminə daxil ediləcəkdilər ki, bu sistem onların həyatlarının qalan hissəsi üçün istehlak modelini müəyyən edəcəkdir. Bunu qeyd etməyə dəyər ki, “tineycer” termini bir neçə onillik bundan əvvəl cəmiyyətin bu seqmentinin təqdim etdiyi vədverici bazardan istifadə etmək məqsədilə “icad” edilmişdir.

Oyanmaqda olan hissləri tamamilə istismar etmək üçün reklamla təbliğ olunan mədəniyyət seksuallığı gənc insanın həyatının mərkəzinə qoyur. Seksuallıqla heç bir əlaqəsi olmayan alkoqolsuz içki kimi məhsullar gənclərin beynində romantik münasibətlər illüziyası yaratmaq üçün istifadə olunur. Kosmetik məhsulları təqdim etmək üçün şəxsi qüsurluluq hissləri və bədən qoxusuna, yaxşı olmayan dəriyə və dəbdə olmayan geyimə görə rədd edilmə qorxusu və narahatlığı təlqin edilir və şəhvaniyyəti və utancaqlıqdan azad olmağı vəd edən yeni dəb yaradılır. Hətta avtomobillər seksual çaları olan “cazibədar”, “yaraşıqlı”, “idarə olunması

şirin" kimi istilahlarla təsvir olunur. Son bir neçə onillik ərzində mənəvi meyarlar tənəzzül etdiyindən mənəvi cəhətdən etiraz doğuracaq məzmuna malik reklam daha da açıq-aşkar olmuşdur. Tədricən, belə görünə bilər ki, konsumerizmin bəzi aspektləri öz-özlüyündə seksual fəaliyyətin hansısa formasına çevrilir.

Qlobal "tineycer" bazarının genişlənməsində markaların rolu xüsusi olaraq qeyd edilməlidir. Bu bazarın potensialından necə istifadə etməyi araşdıran tədqiqatlar göstərir ki marka ikonalarına sitayiş konsumerizmin qüdrətli ünsürlərindən biridir. Belə görünür ki, marka yeniyetməliyin qeyri-müəyyənlik dünyasında bir lövbər olur. Bundan da o yana, çox vaxt o, reklamla olduqca cəlbedici edilən qlobal gənclər mədəniyyətinə giriş üçün bir pasport kimi görünür. Bu marketinq fəndlərinin irəli apardığı mədəniyyət, əlbəttə, millətlərin yoxsulluğunu nəzərə almır; bu, dünya əhalisinin ancaq kiçik bir hissəsinin həzz aldığı bolluq təsəvvürləri yaradır ki, hər zümrədən olan yeniyetmələri istehlak mallarının nəhayətsiz ləzzət mənbəyi olmasına inandırsın.

Yeniyetmə marketini öyrənən bəzi araşdırmalarda gənc insanlar onlara xüsusi tip məhsulları almağa meyilləndirən münasibətlərə görə kateqoriyalara bölünmüşlər – o kateqoriyalar ki, reklamın onları daha böyük səmərəliliklə hədəfə almasına imkan verir. Məsələn, bu xüsusi araşdırmaların birində yeniyetmələr altı qrupa bölünmüşdür. "Resigned" (İtaətkarlar), bu qrupa aid olanlar öz talelərini möhürlənmiş kimi qəbul edən və minimum səylə keçinənlərdir. "Thrills and Chills" (həyəcan və risk axtaranlar), o kəslər ki, ləzzət axtarırlar, sosial və siyasi maraqları yoxdur və onların beyni asanlıqla marka obrazları ilə doldurula bilər. "Bootstrappes (Ayağızirehlilər, təkbaşına, başqalarının köməyi olmadan uğur qazananlar), onların əvvəlki qruplardan yeganə fərqi onların inadkarlığında və çox işləməklərindədir, onlar üçün mallar və xidmətlər irəliləmək və rəqabətdə qalmaq üçün bir vasitədir. "Quiet achivers" (Asta gedənlər), növbəti qrupdur ki, onlar təbiətcə konformistdirlər və siyasi və sosial etirazdan qaçırlar. Onlar öz ailələri ilə sıx bağlı olurlar və məhsulun keyfiyyəti və faydası ilə maraqlanan alıcılardır. "Upholders" (Tərəfdarlar"), o kəslər ki, onlar da konformistdirlər, amma elmə həvəsli deyillər, onların beynində idman statistikası, komandaların adları və oyunçular çox vaxt siyasi və iqtisadi məsələləri sıxışdırıb çıxarır. Və sonuncular "World Savers" (Dünya Xilaskarları) o kəslərdi ki, dünyada müsbət dəyişikliklər etməyi arzulayırlar və onların əhəmiyyəti ondadır ki, onlar marketoloqların sosial məsələləri mala çevirməsinə səbəb olurlar.

Elə görünür ki, marka və konsumerizmin caynağından heç nə qurtara bilməz. Xüsusilə sürətlə dəyişən sosial media arenasında bir insanın həyatının hər bir sahəsi istehlak üçün material ola bilər. Görünüşdə "paylaşım", "dostluq" və "şəbəkə qurmaq" vasitəsilə dünyanı daha yaxşı bir yerə çevirmək üçün yaradılmış platformalar əslində nüfuzunu daha da dərinləşdirən çaşdırıcı reklamlar üçün kanal rolunu oynamış və onların əhatə dairəsini genişləndirmişdir. Lakin burada verilən analiz, əlbəttə, nə qədər fikirləri qarışdırsa da, öz-özlüyündə reklamı lənətləmək demək deyil. Bunun məqsədi sizin təbliğatı – kommersial, siyasi, etnik, mədəni – ciddi surətdə yoxlamaq bacarığınızı yüksəltməkdir ki, siz yeniyetmələrin fikrinə və davranışına bunun təsirini müəyyən etməkdə onlara kömək edə biləsiniz. Aşağıdakı çalışmalar bu kompleks məsələ üzərində bundan sonra fikirləşməkdə sizə kömək edə bilər:

1. Reklam adi məhsulu sevincli həyəcan mənbəyinə çevirmək üçün dil və təsvirdən istifadə edir. Obyektlərə və hadisələrə onların dəyərindən daha böyük əhəmiyyət vermək üçün rəmzlərdən istifadə olunur. Məsələn, içki, sadəcə içki kimi – bir şey ki, susuzluğu yatırır – təsvir oluna bilməz, o, sevinc və nailiyyət müjdəçisi kimi təsvir olunur. Moda sənayesinin istifadə etdiyi rəmzlər geyimi və kosmetikanı cazibədar və qlamur edir. Gənclik enerjisini, coşğusunu göstərən rəmzlər konfet satır. Macəra və idman rəmzləri alkoqolun təşviqinə kömək edir. Siz bir neçə xüsusi reklamlar, ifadələr və obrazlar haqqında fikirləşə bilərsinizmi ki, onlardan, hər hansı bir şeyi onun əslində ola bilmədiyi bir şey etməkdə istifadə olunsun?
   ______________________________________________________________________________
   ______________________________________________________________________________
   ______________________________________________________________________________
   ______________________________________________________________________________
   ________________________________________

2. Hər hansı bir məhsulu almaqla yaranmış xoşbəxtlik illüziyası, əslində, çox qısa olmalıdır, yoxsa biz malik olduğumuzla qane olarıq. Ona görə də reklam davamlı olaraq arzu yaratmalı və təmin etməlidir

ki, biz qətiyyən qane olmayaq və malik olduğumuzla kifayətlənməyək. Bu necə həyata keçirilir?

3. Biz qeyd etmişdik ki, hətta sosial məsələlər bəzən istehlak malına çevrilə bilər. Buna aid siz bir neçə misal gətirə bilərsinizmi?

4. Mövcud media mühitində ülvi istəklər, təəssüf ki, kommersiya məqsədləri üçün istifadə olunur. Bizdə nəcib hisslər doğuran söz və ifadələr məhsulların reklamı üçün istifadə olunur, bəşəriyyətin ruhani irsinin müxtəlif istiqamətləri satın alınmalı mal kimi qəbul edilir. Buna bəzi nümunələr verə bilərsinizmi?

5. Bölgənizdəki yeniyetmələrin məşğul olduğu sosial media platformalarını düşünün. Onların bu cür platformalarda iştirakı qurduqları dostluqların təbiətinə, özlərinə baxışlarına, ümid və istəklərinə necə təsir edir? Bu baxımdan, aşağıdakı ifadənin doğruluğunu nəzərdən keçirin: Yeniyetmələr sosial mediaya cəlb olunmaqla, qeyri-iradi şəkildə özlərini məhsul kimi qəbul edə və təqdim edə bilərlər.

## BÖLMƏ 14

Burada bir xəbərdarlıq etməyə ehtiyac vardır. Bugünkü cəmiyyətin gənclərə təsiri nə qədər zərərli olsa da, öz səylərinizdə onları həddən artıq vurğulamaq yanlış olardı. Belə bir vərdiş qazanmaq çox asandır ki, yeniyetmələrə ətraf mühitin bəlalarından daima mühafizə olunması lazım gələn zərif varlıqlar kimi baxılsın. Belə bir yanaşma heç vaxt onların ruhani güclənməsinə gətirib çıxara bilməz. Siz səylərinizi onda cəmləşdirməlisiniz ki, onların sosial dəyişikliyin qətiyyətli agentləri kimi hərəkət etmək və daha yaxşı cəmiyyət qurmağa öz töhfələrini vermək potensialları reallaşsın. Hətta bugünkü narahat dünyada yeniyetmələrin hər bir mədəniyyətdən olan çoxlu nümunələri vardır ki, onlar yaşadıqları mühitin acınacaqlı şərtlərini aşıblar və ardıcıl olaraq xidmət şövqü, öyrənmək həvəsi, iti ədalət hissi və altruizmə güclü meyil kimi keyfiyyətlər nümayiş etdiriblər.

Bir sıra pedaqoqlar yeniyetməlik kimi keçid dövründə özünü büruzə verən anadangəlmə intellektual və ruhani gücləri təsvir etmişlər. Məsələn, onlardan çox az bir hissəsi nəzəri problemlərə gənclərin nümayiş etdirdikləri marağı xüsusilə qeyd edir. Bir pedaqoq, öz sədaqətini və enerjisini həm hələ doğru hesab edilən

şeylərin qorunub saxlanmasına, həm də özünün regenerativ əhəmiyyətini itirmiş şeylərin inqilabi yolla düzəldilməsinə verə bilən hər bir yeniyetmə nəslini "təkamül prosesində həyati regenerator" adlandıraraq onların sosial dəyişikliklərdə oynadıqları rolu vurğulayır. Başqa bir mütəfəkkir yeniyetməlik yaşında olanları "tam formalaşmış, lakin hələ də böyüməkdə olan, bütün varlığı ilə qəbuletmə qabiliyyətinə malik orqanik qəbuledicilərə" oxşatmışdır. O onların çevrilmə potensialına diqqət çəkir və təhsilin müxtəlif qavrayış üsullarından, eləcə də gənclərin istənilən təcrübəyə gətirə biləcəyi intensivlikdən istifadə etməli olduğunu iddia edir və qeyd edir ki, belə bir intensivlik "varlığın bütövlüyü ilə birlikdə", insan cəmiyyətini "canlı, firavan, həqiqətən mehriban, nəşə ilə dolu və vəcdli və coşğulu bir orqanizmə çevirər". "Bu transformasiya möcüzəsidir", o yazır, "və bu, yeniyetməliyin potensialıdır".

Bu bir neçə istinad, son bir neçə bölmədə aparılan analizlərlə birlikdə göstərir ki, siz yeniyetməlik konsepsiyasını ifadə edəndə necə də ehtiyatlı olmalısınız. Bu məsələ üzərində siz qarşıdan gələn illərdə, heç şübhəsiz, müxtəlif baxışları ciddi və tənqidi nəzərdən keçirəcəksiniz, amma insan həyatında bu mühüm dövrün əhəmiyyəti barədə sizin özünüzün anlayışınız əsasən bu və bundan əvvəlki fəsildə Yazılardan verilmiş parçalarla formalaşacaqdır. Heç bir şübhə ola bilməz ki, sizin qənaətləriniz sizin özünüzün yeniyetmə qrupları ilə təcrübənizlə bir daha təsdiq olunacaqdır.

## BÖLMƏ 15

Ruhi İnstitutunun yeniyetmələrin öyrənməsi üçün inkişaf etdirdiyi dərsliklər toplusu, xüsusilə də onların ilk bir neçəsi onun əsas silsiləsinin kitablarına bənzər şəkildə, başlanğıcda aldadıcı olaraq sadə görünə bilər. Sadəlik, əsasən istifadə olunan dildə və müvafiq çalışmalardadır. Lakin baxılan konsepsiyalar həm mürəkkəbdir, həm də dərindir. Tövsiyə olunan materialın müzakirəsi "uşaq" materialı olmaqdan çox uzaqdır və əslində, onları öyrənən gənclərin çoxunu onda olan məsələlər üzərində dərindən düşünmək sınağı qarşısında qoyacaq. Onların belə edə bilmək qabiliyyətlərini sizin başa düşməyinizə kömək etmək üçün, bu və növbəti iki bölmədə biz sizə bir neçə yeniyetmənin özlərinin ifadə etdikləri bir neçə fikri təqdim edirik ki, onların da hamısı bu və ya digər yolla zorakılığa məruz qalmışlar. Belə yeniyetmələrin zorakı davranışlarının mediada o qədər təsvirləri verilir ki, biz gərək onların itki və ümidin ifadə olunduğu bəzi dilə gətirilməmiş hekayələrinə qulaq asaq.

Birinci hekayəni on üç yaşlı bir oğlan söyləyir – onun həqiqi kimliyini gizlətmək üçün onu Piter adlandıraq – o, zorakılığın və müharibənin təsirini səkkiz yaşında olan vaxtda görmüşdür. On üç yaşına çatanda o, məktəbdə və gənclər təşkilatlarında sülh işini irəlilətməyə başladı və bəzi yaşıdlarından acı istehzalar da daxil olmaqla, bunun nəticələrini qəbul etdi.

*Bunların heç biri məni narahat etmirdi. Mənim ailəm inanırdı ki, icmanın qayğısına qalmaq vacibdir və əlimizdən gələn köməyi etməliyik. Baxmayaraq ki, mənim on üç yaşım vardı, mən görürdüm ki, bizim qarşılaşdığımız ən böyük problem zorakılıq və müharibə idi. Hər şeydən daha çox sülhə ehtiyac vardı. Əlbəttə, uşaq üçün sülh yaratmağa çalışmaq çox çətindir, amma hər hansı bir şeyin nə vaxtsa baş verməsi üçün cəhd etmək yeganə yoldur...*

*Mənim ölkəmdə bu uzun illər ərzində o qədər yalan danışılıb ki, insanlar bilmirlər ki, daha nəyə və kimə inansınlar. Onlar heç də həmişə qəzetlərə, radio və ya televiziyaya, siyasətçilərə, silahlı qruplaşmalara inana bilməzlər – lakin onlar zorakılıqdan, onun bizə təsirlərindən və bizim sülhə necə ehtiyacımız olmasından danışan uşaqlara qulaq asanda, onlar hər halda inanırlar ki, həqiqəti eşidirlər...*

*Bəzi insanlar deyirlər ki, onlar yoxsullar naminə vuruşurlar, lakin bu yoxsullar müharibədə hamıdan daha çox əziyyət çəkiblər. Məncə bəzi insanlar həm də qisas üçün və ya hakimiyyət üçün vuruşurlar və ya hesab edirlər ki, başqa seçim yoxdur. Bəzi gənc insanlar silahlı qruplaşmalara ona görə qoşulurlar ki, onlar kasıbdırlar və başqa çıxış yolu görə bilmirlər.*

Piter və onun ailəsi vətəndaş müharibəsi zamanı təhdid olunmuş və evlərini tərk etmək məcburiyyətində qalmışdılar. Atası öz ofisi ilə yaşadıqları yeni şəhər arasında gedə-gəlirdi, amma bu nisbi sakitliyi saxlamaq mümkün olmadı. Atasının sülh proseslərini fəal dəstəkləməsi sonda onun öldürülməsi ilə nəticələndi:

*Mən fikirləşirdim ki, müharibəni başa düşürəm, çünki mən münaqişənin lap ortasında yaşayırdım. Küçələrdə bütün gecə döyüşlər davam edirdi. Mən tez-tez atəş səsindən oyanırdım. Səhər mən məktəbə gedəndə, bunun əlamətini gördüm – səkidə qan, güllələrdən deşik-deşik olmuş binalar. Və mən atamın ofisindən çox da uzaqda olmayan morqda müharibənin qurbanlarını da görmüşdüm.*

*Mən müharibə barədə inamla danışırdım, sanki müharibənin nə demək olduğunu bilirdim – lakin mənim atam öldürüləndə təkcə qəm-qüssədən ölmürdüm, həm də mən o zaman müharibənin nə olduğunu başa düşdüm. Döyüşmək istəməyəndə nə hisslər keçirildiyini mən bilirdim. Başa düşdüm ki, sən nə qədər də sülh istəsən, müharibə şəxsən sənə toxunanda sən də zorakılığa tərəf addım atırsan. Bu elə həmin o tələdir ki, mənim ölkəmdə o qədər insan ona düşüblər...*

*Bundan sonra heç nə artıq əvvəlki kimi deyildi. Evimiz suyu sovrulmuş dəyirmana bənzəyirdi. Olduqca yaxşı tanıdığım küçələr indi yad olmuşdu. Heç nə heç harada əminlikdə deyildi. Mən fikirləşirdim ki, sülh üçün bütün səylərim heç nəyə dəymədi, çünki mən atamı qoruya bilmədim. Bizim şəhərimizi udan dəhşətli zorakılıq axırda mənim də ailəmin ürəyini qırdı – və mən bunu dayandırmaq iqtidarında deyildim. Mən özümü töhmətləndirdim. Mən özümdən soruşdum, "Mən nə etmişəm ki, atam belə qəddarcasına həlak olsun?"*

Ailə yenə də təhdid olunmaqda davam edirdi. Piter bir tapança aldı ki, öz əzizlərini qorusun. Bir dəfə axşam, atasının öldürülməsindən on gün sonra onun bütün ailə üzvləri evin yuxarı mərtəbəsindəki otaqda toplaşmışdılar. Piter aşağıya, mətbəxə düşəndə bağda əlində tapança olan yad bir adam gördü, o, ikinci mərtəbədəki pəncərəyə baxırdı:

*Mən bilirdim ki, mən tapançamı götürə və o adamı vura bilərdim... Bununla da atamın öldürülməsinin qisasını ala bilərdim. Mən ailəmi qoruya bilərdim. Və demək olar, bu ölkədə onu güllələdiyim üçün heç kəs məni töhmətləndirə bilməzdi... Baxmayaraq ki, bütün bunlar doğru idi, amma mən heç nə etmədim... Mənim atam istəyirdi ki, mən sülh üçün işləyim. İndi mən necə qəddar ola bilərdim? Mənim atama hörmət və məhəbbət göstərməyimin yeganə yolu, mənim ailəmi salamat saxlamağın yeganə yolu sülh yaratmağa çalışmaq idi. Onu öldürmək nə mənə, nə mənim ailəmə, nə də ölkəmə sülh gətirəcəkdi. Faktiki olaraq, onu öldürməklə mən hər şeyi itirə bilərdim. Mən heç də ondan yaxşı olmazdım.*

Piter onların həyatinə soxulmuş yad adama sakitcə baxdı. Bir az keçəndən sonra naməlum bir səbəbdən, adam döndü və çıxıb getdi. Çox keçmədən Piter tapançadan canını qurtardı və qərara aldı ki, bir daha tapança almasın.

Növbəti hekayəni oxumazdan öncə, siz Piteri fərqləndirən bəzi keyfiyyətləri müəyyən edə və dərin məsələlər barəsində onun düşünmə qabiliyyəti barədə bir neçə söz deyə bilərsiniz.

____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
________________________

## BÖLMƏ 16

Meri – bu da şərti bir addır – bir mühitdə böyümüşdü ki, orada daim münaqişə təhdidi vardı; o, bir qrup dostlarla razılaşmamağın ona nəyə başa gəldiyini erkən yaşlarında öyrənmişdi:

*Mənim on bir yaşım olanda mən səssiz tənhalıq yaşayırdım, çünki bir mübahisədə mən tərəf saxlamaqdan imtina etmişdim. Mənim bir qrup dostum sinfimizdə bir qızı oğurluqda günahlandırırdı və bundan böyük bir münaqişə qopmuşdu. Mən ya bu qızın tərəfini saxlamalı idim, ya da əleyhinə olmalı idim, mənim bütün dostlarım isə ona qarşı idilər. Hamı düşünürdü ki, mən onların tərəfində olacağam, amma o qızın oğru olması barədə kifayət qədər dəlil yox idi. Mən əmin ola bilmirdim. Mən dostlarımın əleyhinə getmək istəmirdim, hərçənd bir şey də söyləmədim. Hamı mənim bu hərəkətimdən "dəli" oldu və bütün il boyu heç kəs mənimlə danışmadı.*

Meri bir oğlanla dostluq edirdi və baxmayaraq ki, başqa qızlar o oğlana görə ona "sataşırdılar", amma yenə də o oğlana isti münasibət bəsləyirdi. Onlar uzun-uzadı bir yerdə gəzişər və gələcəkləri barədə danışardılar, o vaxta qədər ki, bir dəfə Meri oğlanı əlində tapança təmizləyən gördü – o bilmirdi ki, oğlanın tapançası var.

*Mən içəri girəndə, sanki qeyri-adi heç nə etmirmiş kimi, mənə gülümsədi. Mən həmişə zorakılığa nifrət etmişəm, silaha, müharibəyə nifrət etmişəm. Onun kimi insanların etdiyi kimi, o buna haqq qazandırmağa cəhd etdi, amma mən ona dərhal dedim ki, bizim aramızda hər şey bitib. "Mən özüm və uşaqlarım üçün bu cür həyat istəmirəm," – dedim. Mən elə gənc idim ki, bu indi zarafat kimi görünür, amma onda elə bil ki, mənim dünyam dağılırdı.*

Merinin qiymətləri bu insidentdən sonra aşağı düşməyə başladı və bu onun anasının narahatlığına səbəb oldu. Sonra Meri müəllimlərindən biri ilə danışdı:

*Dostum barəsindəki bütün hekayəni danışdım, tapança barədə, dostlarımın məni dindirməməsindən, qızların mənə sataşmaqlarından, mənim utanmağım və sınmış ürəyim barədə ona hər şeyi danışdım. O mənə gülmədi, yaxud mənə uşaq kimi baxmadı və istehza etmədi.*

*"Sən başa düşməlisən ki," – o mənə dedi, – "gələcəyin sənin öz əlindədir. Sənin gələcəyin səndən başqa heç kəsə məxsus deyil, nə sənin valideynlərinə, hələ üstəlik, nə də ki, bu oğlana. Bu sənindir və sən nə istəsən, öz gələcəyin barədə edə bilərsən!"*

On dörd yaşı olanda Meri artıq məktəbdə öz yaşıdları və daha gənc şagirdlər arasında sülh işini irəli aparan lider şagird idi. O günlərdə onun beynini məşğul edən fikirlərdən bəziləri bunlardır:

*Biz bilirdik ki, yoxsulluğa son qoymaq müharibəyə son qoymağa kömək edə bilərdi, amma biz bu barədə bir şey edə bilmirdik. Biz bilirdik ki, işsizliyi azaltmaq kömək edə bilərdi, amma biz burada da heç nə edə bilmirdik. Biz güllə yağışını və bıçaq "oynamasını" saxlaya bilmirdik. Biz zorakılığa son qoya bilmirdik. Amma inanırdıq ki, biz öz aramızda sülh yaratmağa başlaya bilərik...*

*Mən bilirdim ki, sülh uğrunda işləmək təhlükəli ola bilərdi və mən qeyri-adi olan hər şeyə qarşı həssas idim. Bəzən nəsə pis bir şeyin baş verməsi qorxusu, xüsusən də, mənim ailəmin başına gələ bilməsi qorxusu məni çulğalayır və məni nəzarətdən çıxarırdı. Üstəlik, digər uşaqlar da məndən asılı idilər və mən elə hiss edirdim ki, mənim doğulmamış uşaqlarım da məndən asılıdırlar. Mən nə qədər qorxsam da, geri çəkilə bilməzdim, mən yalnız ehtiyatlı olmalı və sağ qalmağa çalışmalı idim.*

Merinin fərqləndirici keyfiyyətlərindən bəziləri hansılardır?

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

# BÖLMƏ 17

Burada nəcib fikirlərini və zərif duyğularını ifadə edən digər üç gənc insanın da hekayələri verilir. Birincisi on altı yaşlı qızın dilindən nəql edilir ki, o, on iki yaşında banda savaşına düşən və ölümcül bıçaqlanan yaxın dostunun itkisini yaşamışdı. O heç vaxt öz dostunu unutmamış və qərara almışdı ki, özünü sülh işinə həsr etsin. Sonralar o, zorakılığa məruz qalmış uşaqlara kömək etməyə başlamışdı.

*Səkkiz-doqquz yaşında çox gənc uşaqlar bandalara qoşulmuşdular, çünki onlar düşünürdülər ki, bu hünərdir və ya bandalar onları küçədə müdafiə edəcəkdi. Əksər hallarda onlar sadəcə çalışırdılar ki, evdəki zorakılıqdan canlarını qurtarsınlar, amma küçədə bundan da pis şeylər gördülər.*

*Mən avtobusa minməliyəm ki, “..”-ya gedim, amma sürücülərin çoxu mənim nə iş görmək istədiyimi bilirlər. Onlar gediş haqqı kimi məndən ancaq verə bildiyim qədər alırlar və çox vaxt da pulsuz gedirəm. “..”-ya yol uçurumlu yarğanların təhlükəli dərəcədə yaxınlığında olan daxmaların yanından yuxarı qıvrılıb keçirdi. Təpələr yarğanlarla əhatə olunmuşdu, burada tikinti üçün sökülüb aparılmış daşların yeri boş qalmışdı. Bu cür işlər çox ağırdır, həddən artıq əziyyətli və məşəqqətlidir və bunun üçün çox da az ödəyirlər, amma köçkün ailələrdən olan uşaqlar belə yerlərdə işləyirlər. Onların ailələri elə bir yoxsulluq həddinə düşüblər ki, uşaqları məktəbdən çıxırlar və pul qazanmaq üçün istənilən işi görürdülər.*

*Yoldan çıxaraq mən topuğa qədər batmaqla sürüşkən palçıqla gedirəm və çirklənmiş və iy verən çayın üzərindəki körpünü keçirəm. Məktəb nazik dəmir örtüklü dam altında bir neçə uçuq-sökük otaqlardan və balaca tikililərdən ibarətdir. Taxta partalar köhnə və sınıq-salxaqdır. Sinif otaqlarının hər tərəfi zibillə doludur. Elektrik yoxdur. Sinif otaqlarından ancaq birində bacadan günəş işığı düşür. Heç bir pəncərə yoxdur. Döşəmə palçıqdandır. Yağış damda elə səslə şaqqıldayır ki, eşidilmək üçün ancaq qışqırmalısan, hər yerdən su sızır. Otaqlardan birinin divarını uşaqların çəkdiyi gözəl ev rəsmləri bəzəyir ki, bunlar da ətrafla kəskin təzad təşkil edir. Bəlkə də bu rəsmlər onların nə vaxtsa yaşadıqları evlərinin, ya da gələcəkdə arzusunda olduqları evlərin şəkilləridir...*

*Valideynlərin əksəriyyətinin üzü kədərlidir. Onlar uşaqlarını pis sözlərlə çağıraraq onlarla aqressiv danışırlar. Lakin vorkşop vaxtı onlar bəzən dəyişilməyə başlayırlar. Onların bəzisi elə düşünür ki, özlərini yaxşı aparmağa uşaqları məcbur etmək üçün onları döymək lazımdır, ancaq sonra başa düşürlər ki, uşağı döymək də uşağın əldən çıxmasına və küçələrə düşməsinə səbəb olur.*

Növbəti abzas on bir yaşında evdən qaçmış, narkotikə alışmış və bir dostunun mətanətli köməyilə xilas olmuş və sonda sülh naminə gənclər hərəkatına qoşulmuş bir qızın sözlərinə yer verir:

*Bizim həyatımızın, həqiqətən də, nəyə bənzədiyini izah etmək olduqca çətin idi. Mən belə bir fikri yaxın buraxmağa qorxuram ki, sən nə qədər də sülh yaratmaq üçün çalışsan, yenə də geriyə, zorakılığa yuvarlana bilərsən... Mən həmişə bu cür həyatdan canımı qurtarmaq arzusunda olmuşam. Bunu etiraf etmək çətindir, amma indi də mən yenidən sülh hərəkatından aralanmağa doğru gedirəm. Mən özümü aldadırdım və özümü dostlarıma elə göstərirdim ki, guya hər şey yaxşıdır. Bu doğru deyil. Bəzən mən “hallanıram”. Evdə hər axşam dava var. Əgər onlar mənə qışqırmırlarsa, demək anam və ögey atam bir-birlərinə qışqırırlar. Mən buna dözə bilmirəm və baş götürüb küçələrə qaçıram, orada da gənc insana ziyan verən o qədər şeylər var ki... Mən, eyni zamanda iki yolla gedirəm, amma hələ də arzu edirəm ki, kaş həmişə sülh yolu ilə gedəydim. Mən hesab edirəm ki, mənim savaşımın və sağ qala bilməyimin bir dəyəri olmalıdır... Mən inanıram ki, əgər daha çox böyüklər əməkdaşlıq etmək istəsəydilər, bizim öyrəndiklərimizə qulaq assaydılar və bizimlə işləsəydilər, gənclər sülh işinə daha çox kömək edə bilərdilər. Əgər bizim evimizdə sülh olsaydı, bu çox böyük başlanğıc ola bilərdi.*

Son parça on beş yaşında bir oğlana aiddir ki, onun qardaşı inqilabçı qrup tərəfindən oğurlanmışdı. Bir müddətdən sonra ailəsi ondan xəbər tutdu – bu zaman o, əsir saxlanılırdı və onunla əlaqə saxlamağa ailəyə icazə verilmişdi:

*Mən inamlı olması və ümidini kəsməməsi üçün ona şeirlər göndərmişəm. Mən ona deyirəm ki, onun məsləhətinə qulaq asır və səylə oxuyuram. Lap bu günlərdə o mənə cavab yazanda mən çox şad oldum. O deyirdi ki, "mən çox şadam ki, sən məktəbdə müvəffəqiyyət qazanırsan... mən məhz burada düz etmədim. Mən dərslərimin çoxunu oxumadığım üçün peşmanam... Mən, doğrudan da, kitab oxumağı sevmirdim, məsələn, ... , amma burada müxtəlif mövzularda otuzdan çox kitab oxumuşam, hələ oxuyası nə qədər də var. Hətta lüğət də əldə etmişəm ki, bilmədiyim anlaşılmaz sözlərə baxım... Bütün bunları mən öz xoşluğumla əvvəllər heç vaxt etməzdim..."*

*Hərçənd belə görünür ki, o salamatdır, amma mən yenə də nigaranam. Əgər mənim qardaşımı saxlayan insanlarla danışa bilsəydim, onlardan xahiş edərdim ki, mərhəmətli olsunlar və səbəb olduqları iztirabları başa düşsünlər.*

*Mən düşünürəm ki, əgər biz sülhə nail olmaq istəyiriksə, bağışlamaq əsasdır. Bağışlama olmadan müharibə sona yetməz. Bu bizim kimi iztirab və əziyyət çəkmiş insanlar üçün xüsusilə mühümdür ki, bağışlasınlar.*

*Məncə mən nə üçün çalışıram, – budur – mən bağışlama üçün çalışıram.*

Bu bölmədə istinad etdiyimiz gənclərin təcəssüm etdirdikləri bəzi sifətləri qrupunuzda müzakirə edin və bir neçə fikrinizi yazın.

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
__________________________________________

## BÖLMƏ 18

Nəhayət, yeniyetməliyin, nə qədər qısa olsa da, təbiətini araşdırmaq, Əmrin gənc qəhrəmanı Ruhullahın həyatına etinasız qala bilməz, o kəs ki, on iki yaşında ikən, şəhidlik camından sevinclə içmişdi. Yeddi yaşında ikən, Ruhullaha, atasını, Allah Əmrinin Əli Vərqanı və böyük qardaşını Müqəddəs Torpağa ziyarət zamanı müşayiət etmək şərəfi nəsib olmuşdu. O müqəddəs mühitdə Ruhullah ruhani cəhətdən yaxşı inkişaf etmiş və Həzrət Bəhaullahın hüzurunun işığına qərq olmuşdu. Bir gün, belə danışırlar ki, Həzrət Bəhaullah Ruhullahdan soruşur: "Bu gün sən nə etmisən?"

O cavab verir: "Mən dərs alırdım... [hansısa müəllimin yanında]

Həzrət Bəhaullah daha sonra soruşur: "Hansı mövzunu öyrənirdin?"

"[Peyğəmbərlərin] Qayıdışına aid" – deyə o cavab verir.

"Bunun nə demək olduğunu izah edərsənmi?" – Həzrət Bəhaullah soruşur.

O cavab verir: "Qayıdışla gerçəkliklərin və keyfiyyətlərin qayıdışı nəzərdə tutulur".

"Bunlar dəqiq sənin müəlliminin sözləridir," – Həzrət Bəhaullah buyurur. "İndi bu məsələ barəsində sənin öz anlayışını öz sözlərinlə mənə de".

“Bu, bu ilki bitkidən çiçəyi qoparmaq kimidir,” – Ruhullah cavab verir. Növbəti ilin çiçəyi dəqiq ona oxşayacaq, lakin eyni çiçək olmayacaq”.

Ruhullahın ağıllı cavabı Həzrət Bəhaullahı məmnun etdi. O, tez-tez onu “Cənabi Mübəlliğ” deyə çağırardı.

Bir sıra başqa hekayələr də vardır ki, Ruhullahın üstün keyfiyyətlərinə işıq salır. Bu, şübhəsiz, doğrudur ki, on iki yaşında, kövrək bir yaşda ikən onun yetişdiyi fədakarlıq zirvəsinə baxanda aydındır ki, o adi uşaq ola bilməzdi. Əmrə sədaqəti və Məhbubun yolunda fədakarlıq etməyi, əlbəttə, şəhidliklə bağlamaq lazım deyil. Amma özünün bir hissəsi aşağıda verilmiş məşhur şeirində Ruhullah necə bir iştiyaq və sonsuz nəşə ilə fədakarlıq etməyin sirrini təsvir edir.

İçir mənə İlahi səxavət camından
Xilas eylə məni zəiflik və günahdan
Mənim günahım, gerçəkdən, olsa da böyük
Rəbbimin mərhəməti ondan da böyük.

İlahi ziyafət saqisi, xoş gəlirsən sən
Buyur gəl, təravətləndir ruhumu mənim
Və Sevgili Məhbubun yolunda
Layiq gör, eylə canımı fəda mənim.

Sizin tezliklə təşkil edəcəyiniz qrupdakı yeniyetmələr Ruhullahın həyatını yaşamayacaqlar. Lakin bu və bundan əvvəlki bir neçə bölmədə istinad edilmiş parçalar bir insanın lap erkən gəncliyindən necə bir alicənablıq göstərə biləcəyinin göstəricisidir. Bu fəslin əvvəlində ifadə olunan fikrə qayıdırıq ki, yeniyetmələrdə artan agahlıq iki istiqamətdən birinə yönəldilə bilər – Allahın İradəsinə təslim olmağa və bəşərə fədakar xidmətə ya da “mən”in və ehtirasın zindanında əsirliyə. Sonrakı bir neçə bölmədə bizim apardığımız müzakirələrdə biz yeniyetməliyin təbiətini, yeniyetmələrin potensialını və ətraf mühitin onların həyatına təsirini araşdırdıq. İndi bu sizin üçün yetişmiş bir imkan ola bilər ki, dayanasınız və sizin indi yeniyetmələrə xas hesab etdiyiniz keyfiyyətlər barədə və onların ruhani və intellektual güclərinin inkişaf etdirilməsi üçün nələrin lazım olması haqqında bir neçə abzas yazasınız.

## BÖLMƏ 19

Bu fəslin böyük bir hissəsini yeniyetmələrin potensiallarının araşdırılmasına həsr etdikdən sonra biz indi yeniyetmələrin ruhani gücləndirilməsi proqramında sizin iştirakınız barədə bir neçə söz deməliyik. Bu yaş həddində olanların ən güclü arzularından biri yaşıdlarından ibarət bir qrupa mənsub olmaqdır. Gənclər onları başa düşən və onlara simpatiyası olan dostlarına məsləhət üçün müraciət etməklə arxayınlıq əldə edirlər. Ona görə də üzvlərinin müntəzəm olaraq görüşdüyü və hərəkət etmək və öyrənmək üçün sistematik olaraq yönəldildiyi "yeniyetmə qrupu" konsepsiyası ətrafında bu proqramın təşkil edilməsi haqlı ehtiyaca təbii cavabdır. Görüşlərin atmosferi nəşəli, mehriban və dostcasına olmaqla, qeyri-ciddi də olmamalıdır. Bu daha çox, Əmrə və bəşəriyyətə xidmət həyatının tələb etdiyi keyfiyyət və münasibətlərin yüksəlməsinə töhfə verməlidir. Belə bir ortamda qrupun üzvləri ittiham və rişxənddən azad olaraq, öz fikirlərini ifadə edə bilər və onların fikirlərini məşğul edən sorğulayıcı suallara cavablar axtararlar. Onlar qulaq asmağı, danışmağı, düşünməyi, analiz etməyi, qərar verməyi və qərarlar əsasında da hərəkət etməyi öyrənirlər.

Hər bir qrupda gənclərə dost olan və qabiliyyətlərinin inkişafında onlara kömək edə biləcək onlardan böyük bir şəxsə ehtiyac vardır. Belə bir funksiya daşıyanlar yeniyetmə qruplarının "animator"ları kimi tanınırlar. Onların iştirakı hər bir qrupun üzvlərinə ümidli olmaqda kömək edir və onlarda belə bir inamı saxlamağa yardım edir ki, onları əhatə edən cəmiyyətdə işləyən mənəvi tənəzzül güclərindən özlərini nəinki qoruya bilərlər, həm də onun yaxşılaşmasına töhfə verə bilərlər. Baxmayaraq ki, animator kimi xidmət etmək heç bir konkret yaş qrupunun müstəsna imtiyazı deyil, lakin on yeddi yaş və onun üzərində olanlar əla animator olmağa daha səriştəlidirlər, çünki onlara daha asan gəlir ki, yeniyetmələrlə uşaq kimi deyil, özlərinə bərabər surətdə davransınlar, onları suallar verməyə təşviq etsinlər, aydınlıq axtarsınlar və gerçəkliyin araşdırılmasına cəlb etsinlər. Aşağıdakı parçada, Həzrət Əbdül-Bəha ümidini ifadə edir ki, yeniyetmə ruhlar belə bəslənə bilərlər:

> **"Əbdül-Bəhanın ümidi budur ki, dərin anlayış məktəbindəki o gənc ruhlar onlara sevməyi öyrədən bir kəs tərəfindən bəslənəcək. Qoy onların hamısı ruhun yetişdiyi qədərincə mübhəm sirləri dərk etsinlər; elə dərindən dərk etsinlər ki, onların hər biri Əbha Mələkutunda nitq əta edilmiş ötən bir bülbül kimi Səma Səltənətinin sirlərini tərənnüm etsinlər və həsrətli aşiq kimi Məhbubun vüsalı üçün çəkdikləri iztirab və ehtirasdan bəhs etsinlər".**[32]

Yeniyetmə qrupu uşaq sinfi deyil. Bunda dərnəyin bəzi xüsusiyyətləri var, lakin onun birinci dərəcəli funksiyası onun üzvlərinin bir-birinə qarşılıqlı dəstək verdiyi bir mühit kimi xidmət etməsidir, elə bir mühit ki, onlar orada ruhani qavrayışlarını, onları bir Bəhai gənci kimi xarakterizə edən davranış və düşüncə tərzlərini inkişaf etdirə bilsinlər. Ruhi İnstitutunun müxtəlif kurslarında iştirak etdikdən sonra, sizin dərnək üzvü kimi birbaşa təcrübəniz var və çox güman ki, üçüncü kursu keçdikdən sonra bəzi uşaq dərsləri də aparmısınız. Aşağıdakı səciyyəvi xüsusiyyətlərə nəzər salın. Hər biri üçün, bu kursda iştirak edən yoldaşlarınızla uşaq dərsi, yeniyetmə qrupu və dərnək arasında hansı oxşarlıqları və fərqləri tapa biləcəyinizi müzakirə edin.

- Fəaliyyətin təbiəti
- İştirakçılar arasındakı münasibətlər
- Görüşlərin atmosferi
- Xidmət aktını həyata keçirənin – yəni, müəllimin, animatorun və ya aparıcının – rolu

## BÖLMƏ 20

Siz bu xidmət sahəsinə özünüzü həsr edərkən tezliklə görəcəksiniz ki, sizin səylərinizin uğuru və səmərəliliyi, xeyli dərəcədə, sizin formalaşmağına kömək etdiyiniz bir yeniyetmə qrupunun üzvləri ilə qurduğunuz münasibətlərin keyfiyyətindən asılıdır. Əlbəttə, siz onlara qulaq asmaq, onlara məsləhət vermək və yeri gələndə onlara təsəlli vermək üçün hazırlıqlı olacaqsınız. Onların bütövlüyünə və dürüstlüyünə sizin möhkəm inamınız, sizin onlara hörmət və səmimi sevginiz onları kamilliyə can atmaq üçün motivasiya

edəcək. Siz onların rifahı və tərəqqisi üçün cüzi də olsa himayəçilik, moizəçilik və avtoritar nəzarətin – o münasibətlər ki, yeniyetmələrin çiçəklənməsi üçün heç bir yer qoymur – izi olmadan öz öhdəliyinizi nümayiş etdirməli olacaqsınız. Və siz hər bir imkandan istifadə edəcəksiniz ki, onların ürəklərində və beyinlərində həqiqi imanın əsaslarını möhkəmləndirəsiniz və parlaq gələcək barədə onlara ümid aşılayasınız. Həzrət Əbdül-Bəha bizə nəsihət edir:

> **“Hər şeydən əvvəl, həyatınızı bir-biriniz üçün fəda etməyə, ümumi rifahı şəxsi rifahınızdan üstün tutmağa hazır olun. Heç nəyin sarsıda bilməyəcəyi münasibətlər qurun; elə məhfil yaradın ki, onu heç nə dağıda bilməsin; elə bir idraka malik olun ki, heç nəyin məhv edə bilmədiyi zənginlik əldə etməkdən dayanmasın. Əgər məhəbbət mövcud olmasaydı, onda gerçəklikdən nə qalardı? Bu Allaha məhəbbət atəşidir ki, insanı heyvandan üstün edir. Vasitəsilə dünyadakı bütün tərəqqinin nail olunduğu bu fövqəl gücü qüvvətləndirin”.**[33]

Aşağıdakı münasibətlərin yeniyetmə qrupunun üzvlərini necə gücdən sala biləcəyini və hansı fikirlərin, hisslərin və davranışın belə bir meyildən qaçmaqda animatora kömək edəcəyini müzakirə edin.

Himayəçilik:

Moizəçilik:

Avtoritar nəzarət:

## BÖLMƏ 21

Yeniyetmələrin istənilən bir qrupunun üzvləri ilə sizin münasibətinizə habelə, çox böyük dərəcədə, sizin göstərdiyiniz nümunə təsir göstərəcək. Gənc bir insanın həyatında nümunənin təsirini həddindən artıq əhəmiyyətli görmək olmaz. Odur ki, bu mənada, öz qəlblərimizi təmizləmək üçün bizim öz səylərimiz daha çox əhəmiyyət kəsb edir. “Tüğyan edən materializm, insanların ruhlarını dünyəvi şeylərə

bürüyən bağlılıq, onların fikirlərini yayındıran qorxu və həyəcanlar, onların vaxtlarını alan həzlər və yüngül əyləncələr, baxışlarını qaraldan təəssüblər və düşmənçiliklər, ruhani qabiliyyətlərini iflic edən apatiya və keyhallıq nəhəng maneələr arasındadırlar ki," – Əmrin Vəlisi təsdiq edir, – "Həzrət Bəhaullahın xidmətində ola biləcək hər bir potensial döyüşçünün yolunda dayanır". Daha sonra o bizə xatırladır ki, bu cür qüvvələrə qarşı bizim dura bilmək bacarığımız bizim özümüzün "bu çirklərdən" nə dərəcədə təmizlənməyimizdən, "bu xırda məşğuliyyətlərdən və bu yeyici narahatlıqlardan" qurtulmağımızdan, "bu təəssüb və antaqonizmlərdən" azad olmağımızdan, "özümüzdən boşalmağımızdan," və "Allahın şəfaverici və saxlayıcı qüvvəsi ilə dolmağımızdan" asılıdır.

Yeniyetmələrin ruhani gücləndirilməsinə töhfə vermək səyləriniz üçün Əmrin Vəlisinin nəsihətləri nələri nəzərdə tutur?

____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
______________________________________

## BÖLMƏ 22

Yeniyetmələrin həqiqi dostu, həmçinin onların hikmətli məsləhətçisi kimi, bu çox mühüm olacaq ki, siz həm sevincli vaxtlarda, həm də çətinliklərdə onların yanında olasınız. Əgər onlar mükəmməlliyin daha da yüksək zirvələrinə çatsın istəyiriksə, onların daim təşviqə ehtiyacları olacaq. Siz onların qüsurları və səhvləri üzərində deyil, nə dərəcədə onların nailiyyətləri üzərində fokuslanacaqsınızsa, o qədər də onlara kömək edə biləcəksiniz. Siz onları təşviq edəcəksiniz, lakin əlbəttə, elə yox ki, bu onların eqosunu şişirtsin. Siz müvəffəqiyyətlər üzərində fokuslanacaqsınız, eyni zamanda da, əgər görsəniz ki, onlar elə bir vəziyyətdədirlər ki, mənəvi bütövlüklərini güzəştə gedə bilərlər, onda məsləhət verməkdən çəkinməyəcəksiniz.

Qrupla sizin aranızda dostluğun təbiəti üzərində düşünmək üçün Əmrin Vəlisinin adından yazılmış bir məktubdan aşağıdakı çıxarışı oxuyun. Hərçənd bu, Əmrin təsisatlarının fərdə münasibətini təsvir edir, amma yeniyetmə qrupunun animatoru kimi sizin səylərinizə də aiddir.

> **"Əmrdə inananlar, əksərən gənc insanlardır və əgər onlar səhv edirlərsə, bu heç onun yarısı qədər də əhəmiyyətli deyil, nə qədər ki, onların ruhu onlara hər zaman bunu et, onu etmə deməklə əzilmiş ola!"[34]**

Gənc insanın ruhunun nə üçün onun səhvlərini dəfələrlə ona xatırlatmaqla və davamlı olaraq ona "bunu et, onu etmə" deyilməklə əzilə biləcəyini müzakirə edin. Bəzi fikirlərinizi burada yazın.

____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________

Təşviq necə gəldi təriflə eyni şey deyil; bu, səmimi olmalı, riyakarlıqdan uzaq olmalıdır, əks halda bu ya qürura səbəb olar, ya da etibarsızlığa gətirər. Aşağıda Həzrət Əbdül-Bəhanın Əmrə xidmət etmək səylərində inananları necə təşviq etməsinə dair bir neçə misal verilir:

**“Həqiqətən, mən Allaha təriflər edirəm ki, sizi Allahın Əmrinə Onun böyük üzümlüyündə xidmətdə təyid vermişdir”.**[35]

**“Həqiqətən, mən Ulu Rəbbimə insanlar arasında Onun adını bəyan etmək üçün sizi seçdiyinə görə, sizi Əbha Gözəlliyinə cəlb etdiyi üçün və Onun Əmrini qalib etməkdə sizi gücləndirdiyi üçün şükr-səna edirəm”.**[36]

**“Həqiqətən, Allah səni Özünün mərhəmət dənizində qərq edəndə səni bütün günahlardan pak etdi və sənə iman qədəhindən və saf bilik şərabından içirdi. Əhsən! Əhsən! Zira sən öz iradənin Allahın iradəsi qarşısında yox olmasını arzu etdin, Allaha məhəbbətinin böyüməsini, Allahı tanımaq biliyinin artmasını və Allahın yolunda dönməz olmağı istədin”.**[37]

**“Ey mənim ruhani sevgili dostlarım! Həmd olsun Allaha! Siz hicabı atmısınız və şəfqətli Məhbubu tanımısınız, bu məskəndən məkansız səltənətə tələsmisiniz. Siz çadırlarınızı Allahın aləmində qurmuş, Onu, Qəyyumu tərif etmək üçün şirin səslərinizi ucaltmış və qəlbə işləyən nəğmələr oxumusunuz. Afərin! Min dəfə afərin! Zira siz zahir olmuş İşığı görmüş və yenidən dünyaya gəlmiş varlığınızda səslərinizi qaldırmışsınız: «Mübarəkdir Rəbbimiz, yaradanların ən gözəli!»”**[38]

**“Siz ey səmimilər, siz ey müştaqlar, siz ey maqnit kimi cəzb olunmuşlar, siz ey Allahın Əmrinə xidmətə, Onun Kəlamını ucaltmağa və Onun şirin rayihələrini hər yana yaymağa qalxmış kəslər! Mən sizin üslubu gözəl, dili bəlağətli, mənası dərin məktubunuzu oxudum və Allahı tərif edir və Ona şükür edirəm ki, O sizin köməyinizə gəlmiş və sizi qabil etmişdir ki, Onun geniş üzümlüyündə xidmət edəsiniz”.**[39]

**“Sənin məktubun ətirli gül dəstəsi kimi idi və ondan iman və əminlik ətri yayılırdı. Əhsən! Əhsən ki, sən üzünü görünməz Mələkuta çevirmisən. Əla! Əladır ki, sən Qüdrət Sahibinin Camalına cəzb olunmusan. Afərin! Afərin! Sən necə də xoşbəxtsən ki, bu ən böyük bəxşişə çatmısan!”**[40]

Həzrət Əbdül-Bəhanın dostları tərifləmək tərzindən ruhlanaraq tezliklə kömək etməyə başlayacağınız qrup üzvlərini necə təşviq edəcəyinizi bir neçə cümlə ilə təsvir edin:

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

## BÖLMƏ 23

Və sonda bunu da xatırlamağınız lazımdır ki, yeniyetmə qrupu üzvləri ilə dərin, mehriban dostluq bağları yaratmaqda və mükəmməlliyə çalışmağa onları təşviq etməkdə sizin səylərinizin bəhrəsi hansı dərəcədə nəşəli bir mühit yaratmağınızdan asılıdır.

**“Sevinc bizə qanad verir! Sevincli anlarda bizim gücümüz daha canlı, ağlımız daha iti olur, anlamağımız isə tutqun olmur. Biz dünyanın öhdəsindən daha yaxşı gəlir, faydalı olduğumuz sahəni tapmağa daha yaxşı qabil oluruq”.**[41]

Qrup üçün nəşəli bir atmosfer yaratmaq üçün sizin özünüz sevinc hiss etməlisiniz. Sizin tezliklə cəlb olunacağına ümid etdiyiniz qrupun bir hissəsini təşkil edə biləcəyi haqqında ilkin fikrə sahib olduğunuz bir neçə yeniyetmə haqqında düşünün. Onların haqqında sizin ağlınıza gələn hansı fikirlər sizə sevinc gətirir?

______________________________________________________________________________

Belə bir qrupun görüşlərini, üzvlərin özbaşınalığına gətirməmək şərtilə, sevinclə doldurmaq üçün hansı praktiki tədbirlər görə bilərsiniz?

______________________________________________________________________________

Bu düşüncələri fikrimizdə tutaraq, gəlin Ümumdünya Ədalət Evinin adından yazılmış bir məktubdan parçanı oxuyaq:

> **"Hər bir fərdin axtardığı daxili sevinc, keçici emosiyadan fərqli olaraq, xarici təsirlərdən asılı deyil; bu, yəqinlikdən və dərk edilmiş bilikdən doğan, daimi olanla səthi olan arasında fərq qoymağı bacaran təmiz ürəklə bəslənən bir haldır".**[42]

Gəlin bu fəsli öyrənməyimizi Həzrət Əbdül-Bəhanın aşağıdakı sözləri üzərində düşünməklə tamamlayaq:

> **"İnsanın ən böyük bəxşişi universal məhəbbətdir ki, o, mövcudatın əbədiliyini saxlayan maqnitdir. O, gerçəklikləri cəzb edir və həyatı sonsuz nəşə ilə doldurur. Əgər bu məhəbbət insanın ürəyinə nüfuz edərsə, kainatın bütün qüvvələri onda görünəcək, çünki bu ilahi bir qüvvədir ki, onu ilahi məqama aparır və insan onunla nurlanmayınca tərəqqi edə bilməz. Gerçəkliyin məhəbbət gücünü artırmağa, ürəklərinizi daha böyük cazibə mərkəzləri etməyə, yeni ideal və münasibətlər yaratmağa çalışın".**[43]

## İSTİNADLAR

1. Ümumdünya Ədalət Evinin dünya Bəhailərinə 2010 Rizvan müraciətindən, *Hərəkət Çərçivəsi: 2006-2016 Ümumdünya Ədalət Evinin Seçilmiş Müraciətləri və Əlavə Material*-da çap edilib (West Palm Beach: Palabra Publications, 2017), № 14.16, s. 82.
2. 17 noyabr 1912-ci il tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri Zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Vilmett: Bahá'í Publishing, 2012), hissə 3, s. 617.
3. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Vilmett: Bahá'í Publishing, 2010, 2015 nəşri), № 111.7, s. 192.
4. *İlahi Fəlsəfəyə Dair Həzrət Əbdül-Bəhanın Fikirləri* (Boston: The Tudor Press, 1918), s. 131–32.
5. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Vilmett: Bahá'í Publishing Trust, 1983, 2017 nəşri), CLIII, hissə 6, s. 370.
6. Yenə orada., I, hissə 5, s. 3.
7. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri* (Vilmett: Bahá'í Publishing Trust, 1988, 2005 nəşri), № 4.7, s. 34–35.
8. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Vilmett: Bahá'í Publishing Trust, 2003, 2012 nəşri), Arabic № 13, s. 6–7.
9. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 34.2, s. 100.
10. Yenə orada., № 35.7, s. 104.
11. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá'í Publishing Committee, 1909, 1930 nəşri), cild. 1, s. 136. (səlahiyyətli tərcümə)
12. Həzrət Əbdül-Bəha, *İlahi Sivilizasiyanın Sirri* (Vilmett: Bahá'í Publishing, 2007, 2017 nəşri), hissə 186, s. 136.
13. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 68.3, s. 147–48.
14. Yenə orada., № 155.4, s. 253.
15. Həzrət Əbdül-Bəhanın 26 may 1912-ci il tarixində tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 3, s. 205.
16. Həzrət Əbdül-Bəhanın 11 iyun 1912-ci il tarixində etdiyi söhbətdən, yenə orada., hissə 4, s. 258.
17. Həzrət Əbdül-Bəha, *Bəhai Mətnləri: Həzrət Bəhaullahın, Babın və Həzrət Əbdül-Bəhanın Söhbətlərindən Seçmələr* (Nyu-York: Bahá'í Publishing Committee, 1928), № 992, s. 548.
18. Həzrət Əbdül-Bəhanın 11 iyun 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 6, s. 261.
19. *İlahi Məhbubun Çağırışı: Həzrət Bəhaullahın Seçilmiş Sirli Əsərləri* (Hayfa: Bəhai Dünya Mərkəzi, 2018), № 2.22, s. 21.
20. 28 oktyabr 1911-ci il tarixində edilmiş söhbətdən, *Paris Söhbətləri: Həzrət Əbdül-Bəha tərəfindən 1911-ci İldə Parisdə Edilən Çıxışlar*-da çap edilib (Vilmett: Bahá 'í Publishing, 2006, 2016 nəşri), № 15.12, s. 53.
21. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 36.5, s. 111.
22. *İlahi Məhbubun Çağırışı*, № 2.19, s. 19.
23. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 195.5, s. 327.
24. Həzrət Bəhaullah, *Kitabi-Əqdəs: Ən Müqəddəs Kitab*-da (Vilmett: Bahá'í Publishing Trust, 1993, 2013 nəşri), hissə 64, s. 42–43.
25. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 223.1, s. 388–89.
26. Yenə orada., № 35.4, s. 102.
27. Yenə orada., № 206.9, s. 354.
28. *Həzrət Bəhaullahdan Dualar və Meditasiyalar* (Vilmett: Bahá'í Publishing Trust, 1987, 2008 nəşri), XXXVI, hissə 4, s. 47.
29. Yenə orada., CLXXXIV, hissə 2, s. 324.
30. 23 noyabr 1983-cü il tarixində Ümumdünya Ədalət Evinin adından bir fərdə yazılmış məktubdan, *Hidayət Nurları: Bəhai İstinad Sənədi*-ndə çap edilib (New Delhi: Bahá'í Publishing Trust, 1988, 2010 nəşri), № 1206, s. 359–60.
31. 8 dekabr 1935 tarixində Şövqi Əfəndinin adından yazılmış məktubdan, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib olunmuş *Dua və Mömin Həyatı: Həzrət Bəhaullahın, Babın və Həzrət Əbdül-Bəhanın Yazılarından, Şövqi Əfəndinin Məktublarından və Ümumdünya Ədalət Evinin Çıxarışlardan Seçmələr*-də çap edilib (Vilmett: Bahá'í Publishing, 2019), № 71, s. 30.
32. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 107.1, s. 188.

33. *İlahi Fəlsəfəyə Dair Həzrət Əbdül-Bəhanın Fikirləri*, s. 112.
34. 30 iyun 1957-ci il tarixində Şövqi Əfəndinin adından bir Milli Ruhani Məhfilə yazılmış məktubdan, “Milli Ruhani Məhfil”-də, *Seçmələrdən Seçmələr*-də çap edilib (Maryborough: Bahá’í Publications Australia, 1991), cild. 2, № 1502, s. 128.
35. *Əbdül-Bəha Abbasın Lövhləri*, cild. 1, s. 11. (səlahiyyətli tərcümə)
36. Yenə orada., s. 18. (səlahiyyətli tərcümə)
37. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá’í Publishing Committee, 1915, 1940 nəşri), cild. 2, s. 266–67. (səlahiyyətli tərcümə)
38. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 236.4, s. 439.
39. Yenə orada., № 199.1, s. 332–33.
40. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá’í Publishing Committee, 1916, 1930 nəşri), cild. 3, s. 530. (səlahiyyətli tərcümə)
41. Həzrət Əbdül-Bəhanın 22 noyabr 1911-ci il tarixində etdiyi söhbətdən, *Paris Söhbətləri*-ndə çap edilib, № 35.2, s. 135.
42. 19 aprel 2013-cü il tarixində Ümumdünya Ədalət Evinin adından fərdlərin kiçik bir qrupuna ünvanlanmış məktubdan, *Hərəkət Çərçivəsi*-ndə çap edilib, № 51.7, s. 292.
43. *İlahi Fəlsəfəyə Dair Həzrət Əbdül-Bəhanın Fikirləri*, s. 111–12.



# Animator kimi xidmət etmək

**Məqsəd**

Yeniyetmələrin ruhani gücləndirilməsi proqramını formalaşdıran konsepsiyalar üzərində düşünmək

# BÖLMƏ 1

Bu kitabın ikinci fəslində biz erkən yetkinlik dövründə gənc insanın həyatında sosial mühitin əhəmiyyətini müzakirə etdik. Buna görə də, yeniyetmələrin ruhani gücləndirilməsi proqramı "yeniyetmə qrupu" konsepsiyası ətrafında qurulmuşdur. Biz dedik ki, yeniyetmə qrupu uşaq sinfi deyil. Bunda dərnəyin bəzi elementləri olsa da, onun əsas məqsədi qrup üzvlərinin qarşılıqlı dəstək mühiti kimi xidmət etməkdir, elə bir mühit ki, onlar orada ruhani qavrayışlarını və həyatları boyunca onları xarakterizə edəcək fikir və davranış tərzlərini inkişaf etdirə bilsinlər.

Yeniyetmələr qrupu ən azı həftədə bir dəfə müntəzəm olaraq görüşür və üç illik periodda hər il keçirilən bir neçə düşərgədə iştirak edir. Üzvlərin qrup şəklində birlikdə keçirdikləri vaxt, on iki ilə on beş yaş arasında olanlar üçün xüsusi olaraq hazırlanmış materialların öyrənilməsinə yönəldilir. Gənclər, həmçinin icmada xidmət layihələri ilə bağlı məşvərət edir, planlaşdırır və onları icra edir, idmanla məşğul olur və yaxın ətraflarına uyğun drama və incəsənət kimi mədəni fəaliyyətləri yerinə yetirirlər. Hər biri bir neçə gün davam edən düşərgələrdə onlar bir qrup kimi intensiv təlim-tərbiyə alır və proqramdan keçən qonşuluq və ya kənddən olan digər qruplarla birlikdə kollektiv tədbirlərdə və fəaliyyətlərdə iştirak edirlər. Bu fəsildə, sizin yaxından tanış olmalı olduğunuz ruhani gücləndirmə proqramının müxtəlif aspektlərini nəzərdən keçirəcəyik.

# BÖLMƏ 2

Gəlin ilk növbədə qrupun üzvlüyünə baxaq. İcmanın yeniyetmələri proqrama maraq göstərəndə, adətən, mümkündür ki, sayı on-on beş arasında gənclərdən qrup təşkil olunur. Əksər yeniyetmələrin yaşı on iki ilə on üç arasında variasiya etsə də, bəzilərinin yaşı on ikinin bir az altında, bəzilərininki isə on dörd ola bilər. Təcrübə deyir ki, yaşları neçə olursa olsun, proqram o zaman səmərəli olur ki, qrup üzvləri bütün üç illik dövrdə bir yerdə davam edir və qrup olaraq da proqramı bitirirlər. O zamana çatanda istəyənlər yenə bir yerdə təlim-tərbiyə prosesinin növbəti mərhələsinə keçə və institut kurslarının əsas ardıcıllığını öyrənə və beləcə bu kursun onların qarşısında açdığı xidmət yolu ilə gedə bilərlər.

Bəzi konkret yerlərdə, qrupa qoşulan yeniyetmələr artıq Bəhai uşaq dərslərində iştirak etmiş olanlardır, lakin bunu yadda saxlamaq lazımdır ki, çox hallarda, proqramla qarşılaşan gənc insanlar Bəhai Dini ilə heç vaxt qarşılaşmamış olurlar. Yaş fərqindən əlavə, çox vaxt burada mənşə və təcrübə baxımından da fərqlər olacaqdır. Heç bir qrup heç vaxt homogen olmur və animator müvafiq olaraq, gənclərin fərqlənən maraqlarını cavab vermək çətinliyi ilə üzləşir. Bu çətinliyin öhdəsindən gəlmək böyük çeviklik və yaradıcılıq tələb edir və hər dəfə siz qrupla görüşəndə bu meydanoxuyucu məsələni həll etmək üçün hazırlaşmalısınız. Məsələn, siz aşağıdakı hallarda nə edərdiniz?

- Sizin kömək etdiyiniz yeniyetmə qrupunda bəzi üzvlərin oxuyub dərk etməkdə çətinlikləri var.
- Qrupun daha azyaşlı üzvləri siz onlarla ayrıca işləmək istədikdə özlərini "utanmış" hiss edirlər.
- Bir və ya iki nisbətən yaşlı üzv qrupun bəzi fəaliyyətlərini kifayət qədər meydanoxuyucu hesab etmir.
- Qrupun bəzi üzvləri hansısa konkret faəliyyətdə iştirakdan yayınırlar.
- Qrupun ancaq bir neçə üzvü materialı keçməkdə başqalarına nisbətən daha sürətli temp nümayiş etdirirlər.
- Qızlar və oğlanlar müəyyən fəaliyyətlərdə birlikdə iştirak etməyə o qədər də meyilli deyillər.
- Bir neçə üzvün, deyək ki, gəzintiyə getmək üçün pul verməkdə kifayət qədər vəsaiti olmur.

- Bir və ya iki üzv qrupun fəaliyyətlərində müntəzəm iştirak etmir.

- Görüş zamanı üzvlərdən biri yersiz zarafat edir.

- Qrupun bəzi üzvləri öz kiçik bacı və ya qardaşlarını da görüşə gətirirlər.

- Bir və iki üzv qrup müzakirələrində iştirak etmir.

Bu və buna bənzər halları qrupunuzda müzakirə edin. Əlbəttə, xidmətin bu sahəsində siz təcrübə topladıqca, siz bu cür meydanoxuyucu məsələləri digər animator yoldaşlarınızla dövri düşünmə-təhlil görüşlərində təkrar-təkrar araşdıracaq və yeni bəsirətlər əldə edəcəksiniz.

____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
____________________________________________________________________________
________________________

## BÖLMƏ 3

Öyrənilməsi proqramın mərkəzində dayanan kitablar — Kitab 2-dəki tövsiyəyə əməl edərək bəzilərini oxumuş ola bilərsiniz — həm dil, həm də araşdırılan konsepsiyalar baxımından, çətinlik dərəcəsinə görə, sərbəst bir şəkildə təşkil edilmişdir. Onlar iki kateqoriyaya bölünür. Birinci kateqoriyaya aid olanlar mövzulara Bəhai nöqteyi-nəzərindən baxır, lakin bunun metodu dini göstəriş şəklində deyil. Bu mənada onları "Bəhai ruhlu" material adlandırmaq olar. Onlar proqramın əsas hissəsini təşkil edir. Digər kateqoriya isə, sayca daha az olmaqla, açıq şəkildə Bəhai komponenti təqdim edən dərsliklərdir. O komponenti biz növbəti bölmədə nəzərdən keçirəcək və burada Bəhai ruhlu dərsliklərin təbiəti üzərində diqqətimizi cəmləşdirəcəyik.

Ümumiyyətlə, bu tipli təlim-tərbiyə materialları bu inamla hazırlanır ki, Həzrət Bəhaullahın Vəhy dəryasında saysız-hesabsız hikmət mirvariləri vardır ki, onlar hələ Onun Məqamını etiraf etməsələr də, maraqlanan fərdlərə təklif edilməlidir. Siz artıq bu konsepsiya ilə, Kitab 2-nin ikinci fəslindən, "Ruhyüksəldici Söhbətlər"dən, bu cür əldə edilmiş ruhani biliyi və bəsirətləri gündəlik söhbətlərinizə daxil etmək bacarığınızı inkişaf etdirmək üçün Həzrət Əbdül-Bəhanın söhbət və Lövhlərindən olan parçaları öyrəndikcə tanış olmusunuz.

Sizin öz təcrübənizdən bildiyiniz kimi, o fəsildə araşdırılan mövzuları başqaları ilə müzakirə etdikdə, müəyyən hallarda sizin ilhamınızın mənbəyini təbii bir yolla qeyd edə bilərsiniz, hərçənd, bəzən siz düşünə bilərsiniz ki, yaxşısı bu olardı ki, bunu etməyəsiniz – bu da hər bir halın tələblərinə uyğun olaraq edilə bilər. Eyni prinsip Bəhai ruhlu materiala da şamil olunur. Bununla bağlı Ümumdünya Ədalət Evinin adından yazılmış məktubda qeyd edilir:

> **“Bəhai sosial-iqtisadi inkişafını idarə edən əsas prinsiplərdən biri budur ki, dostlar Həzrət Bəhaullahın Təlimlərini azad və qeyd-şərtsiz olaraq bəşəriyyətə verməlidirlər ki, hər yerdə insanlar onları təxirəsalınmazlıq tələb edən sosial məsələlərə tətbiq edə bilsinlər və öz fərdi və kollektiv həyatlarını həm maddi, həm də ruhani cəhətdən yaxşılaşdırsınlar. Allah Kəlamına əlin yetişməsi Həzrət Bəhaullahın bu gün üçün Allahın Məzhəri olaraq qəbul edilməsindən asılı olmamalıdır. Bundan əlavə, Onun Təlimləri bazasında yaradılmış proqramın əsasında duran ilham Mənbəyinin aşkar qeyd edilməsindən özünü saxlamaq da, əgər şərait tələb etsə, da heç də yersiz olmazdı. Bunun işığında, Əmrin təlim və prinsiplərindən istifadə edərək təlim-tərbiyə materialları yaradarkən dostların baxa biləcəkləri bır sıra seçimlər vardır”.**[1]

Ədalət Evinin adından yazılmış başqa bir məktub isə qeyd edir:

> **“Sizə çatdırmaq xahiş edilmişdir ki, Bəhai ruhlu kurrikulum materialında Bəhai Yazılarından sitat verərkən müəllifin qeyd edilməsinə, əgər qeyd etməməkdə bir hikmət görünürsə, heç bir tələb yoxdur”.**[2]

Beləliklə, bütün Bəhai ruhlu material Həzrət Bəhaullahın bilavasitə Vəhyinin təsiri altında inkişaf etdirilir və hər bir bu cür material toplusunun təbiəti və onun nəzərdə tutulan istifadəsi Əmrin açıqca qeyd edilməsi dərəcəsini diktə edir. Bəzilərində bu kifayət qədər məqsədəuyğundur ki, Müqəddəs Mətnlərdən parçalar daxil edilsin. Başqalarında isə, Bəhai təlimləri heç bir sitat gətirilmədən də izah edilə bilər. Hər iki halda da, mənbəyə istinad göstərilə də bilər, göstərilməyə də bilər. Lakin bunu başa düşmək mühümdür ki, Əmrin açıq şəkildə qeyd edilmədiyi hallarda, öyrətmə-öyrənmə təcrübəsinin konteksti bunu aydın göstərir ki, material, doğrudan da, Həzrət Bəhaullahın Vəhyindən ilhamlanaraq hazırlanmışdır.

Bizim burada baxdığımız Bəhai ruhlu materiallar çox geniş surətdə Allah Kəlamının gücündən həm Yazılardan birbaşa sitatla, həm də Əmrin təlimlərini intellektual, əxlaqi və ruhani mövzulara daxil edərək istifadə edir. Mətnlərin özləri istinadları göstərmir və bu, ümumiyyətlə, qrupun vəziyyətinin işığında, onun meyil və maraqlarından asılı olaraq, animatorun özünün ixtiyarına buraxılmışdır ki, sitatların mənbəyini göstərmək qərarı versin və əgər məqsədəuyğundursa, bunu hansı məqamda etsin. Aşağıda, adətən, yeniyetmə qruplarında ilk olaraq öyrənilən *Təyid Nəsimləri* kitabından çıxarılmış bir parça verilir. Bunu oxuyun və ardınca gələn sualları müzakirə edin.

Qodvinin Çişimba adlı bir sinif yoldaşı və yaxın dostu var. O, tez-tez Mulenqalar ailəsinə qonaq gəlir və bu gün o, şam yeməyinə qalıb. Süfrə ətrafında söhbət bir mövzudan digər mövzuya keçir. Musonda səbirsizliklə təyid mövzusunu müzakirəyə gətirmək istəyir. Nəhayət, bir müddət sükut anı yaranır. “Roza və mən təyid haqqında danışırdıq,” – deyə Musonda sözünə başlayır.

“Bu da mənim balaca bacım,” – boğazını arıtlayaraq Qodvin deyir, lakin onun fikirləşdiyinin əksinə olaraq Çişimba maraq göstərir.

“Bu sözlə nə başa düşürsən?” – o Musondadan soruşur.

Musonda, eynilə təəccüblənərək, Rozaya baxır və ümid edir ki, suala o cavab verəcək.

“Təyid... Allah bizim gördüyümüz işlərə təyid verir və bizə kömək edir” – deyə Roza cavab verir.

Çişimba bir müddət heç nə demir. Onun gözlərində kədər var. “Bir neçə ay bundan əvvəl mənim atam işini itirdi,” – deyə o danışmağa başlayır. “Atam işində dürüst və məsuliyyətlidir və bunu hamı bilir. On səkkiz il ərzində o bir şirkətdə gözətçi işləyirdi və gözlənilmədən onu işdən çıxardılar. Biz hamımız bunun səbəbini bilirik. Atam şirkətdə iki il də işləsəydi, o, oradan təqaüdə çıxacaqdı və şirkət ona təqaüd ödəməli olacaqdı. Bizim indiyədək yığdığımız vəsait o qədər də çox deyil. Baxmayaraq ki, mənim böyük qardaşım bizə kömək edir, görünür, növbəti il mən məktəbə gedə bilməyəcəyəm, çünki mən otaq və yemək üçün pul ödəyə bilməyəcəyəm. Mən, həqiqətən, məktəbə getməyi çox istəyirəm. Fikirləşirəm ki, Allah mənə nə üçün kömək etmir”.

Hamı cənab Mulenqa tərəfə baxaraq gözləyir ki, bu suala o cavab versin.

Cənab Mulenqa gülümsəyərək deyir: “Biz cəhd göstərəndə Allahın bizə kömək etməsi o demək deyil ki, həyat asandır. Sənin həyatın çətinliklərlə dolu olacaq və təəssüf ki, onların çoxu ədalətsizlikdən yaranacaq. Lakin sən həmişə gərgin işləməlisən və hətta işlərin bir müddət sən istədiyin kimi getməsə də, sən Allahın təyidinə əmin olmalısan. O sənə xüsusən, ədalətsizliyə qarşı mübarizə cəhdində xeyir-dua verəcək”. O, Çişimbaya tərəf dönərək deyir: “Sənin ailən mehriban və əməksevərdir. Mənim ürəyim deyir ki, sizin vəziyyətiniz dəyişəcək. Sən məktəbi oxuyub qurtaracaqsan. Mənə inan”.

20-ci və 21-ci Bölmələrdə biz *Təyid Nəsimləri*-nə müəyyən bir təfsilatla baxacağıq, lakin indilik siz aşağıdakı sualları qrupunuzda müzakirə etmək istəyə bilərsiniz:

1. Yuxarıdakı söhbətdə müzakirə olunan əsas ruhani konsepsiya nədir?

2. Konsepsiya yeniyetmələrin başa düşə biləcəyi bir yolla təqdim olunmuşdurmu?

3. Bu kitabın ikinci fəslində biz “mən”i həddən artıq vurğulamağın təhlükəsi haqqında düşündük. O fəsildə təsvir edildiyi kimi, çalışmağın və Allahın təyidini cəzb etməyin vacibliyini vurğulayan təlim-tərbiyə prosesi özünü realizə etmə, özünü kəşf etmə və özünə hörmət hissiyyatlarının ətrafında təşkil olunan bir prosesdən necə fərqlənir?

4. Bəhai ailəsindən olanlar da daxil olmaqla, mənşəyindən asılı olmayaraq bütün yeniyetmələr burada nəzərdən keçirilməkdə olan bu tip Bəhai ruhlu materialın öyrənilməsindən faydalanırmı? Niyə?

## BÖLMƏ 4

İkinci kateqoriyaya daxil olan mətnlər Bəhai uşaq dərslərində alınmış ruhani təlim-tərbiyənin davamı üçün məzmun yaradır. Bunlar təməl Bəhai inanclarına onların münasibətində açıq-aşkardır və bu inancların hansı tərzdə icma həyatı kontekstində hərəkətə çevrilməli olduğunu müzakirə edir. Həzrət Bəhaullahın bu dövr üçün Allahın Məzhəri kimi məqamı, Onun bəşəriyyətlə bağlı məqsədinin yekun reallaşmasına mütləq

inam, Onun qanunlarına itaət etməklə əldə etdiyimiz hüdudsuz azadlıq və sevincə əminlik və Onun Əhdinin qüdrətinə yəqinlik – bunlar dərsliklərdə mövzuların necə işləndiyini bildirən inanclar arasında yer alır.

Bu kateqoriya materiallar üzərində düşünərkən siz Əmrin Vəlisinin adından yazılmış aşağıdakı parçanın sizə kömək edəcəyini görəcəksiniz:

> **"...müasir gəncliyin üzləşdiyi təhlükələr getdikcə daha da böyüyür və təxirə salınmadan həll olunmasını tələb edir. Lakin təcrübənin açıqca göstərdiyi kimi, doğrudan da, kədərləndirici və dolaşıq olan bu vəziyyətin əlacı ənənəvi və ekkleziastik dində tapılası deyil. Kilsənin ehkamçılığına birdəfəlik heç kəs inanmır. Gəncliyə nəzarət edə biləcək və bu zəmanənin tüğyan edən materializminin tələlərindən onu nə xilas edə biləcək olan şey həqiqi, konstruktiv və canlı bir Dinin gücüdür ki, onu bu dünyaya Həzrət Bəhaullah nazil etmişdir. Din, keçmişdə olduğu kimi, hələ də dünyanın yeganə ümididir, lakin dinin o forması yox ki, dini liderlər əbəs yerə təbliğ edirlər. Həqiqi dindən ayrılmış əxlaq qaydaları öz təsirini itirir və insanın fərdi və sosial həyatına daha rəhbərlik və nəzarət edə bilmir. Lakin həqiqi din həqiqi etik normalarla birləşəndə, mənəvi-əxlaqi tərəqqi sadəcə bir ideal olaraq qalmır, mümkün olur".[3]**

Yuxarıdakı parça bunu aydın göstərir ki, ənənəvi dinin təsirinin azalmasının əksinə olaraq, canlı Dinin gücü gəncləri bu gün cəmiyyətdə o şiddətlə "tüğyan edən materializmin tələlərindən" qoruya bilər. Bu güc həm gənc insanların öyrəndikləri şeylərin məzmununda, həm də onların öz ruhani qabiliyyətlərini inkişaf etdirmələri üçün onlara edilən kömək tərzində əks olunmalıdır. Bu fikirlərə baxmağı davam etdirmək üçün, burada nəzərdən keçirilməkdə olan kateqoriyaya aid olan kitablardan biri olan *İman Ruhu*-ndan bir çıxarışı nəzərdən keçirək.

*İman Ruhu* təbiəti etibarilə fəlsəfi olan mövzulardan bəhs edir, çünki yaxşı məlumdur ki, gənc insanlar bu yaş dövründə mövcudluğun fundamental suallarından yapışıb qalırlar və əgər sonralar çaşqınlıqdan və hətta imanın itməsindən qaçmaq istənilirsə, bu suallar lazımi şəkildə cavablandırılmalıdır. İnsanın zəkasını çətinə salan çoxsaylı çaşdırıcı sualların cavabları məhz Bəhai təlimlərində tapılmalıdır: insan varlığının həqiqi təbiəti, xeyir və şər, azad iradə və tale, təkamül və insan ruhunun meydana çıxması, insan zəkası və iman ruhu. *İman Ruhu* kitabı bu mövzulara işıq salmaq üçün Yazılardan əldə edilmiş bəsirətlərdən, xüsusilə Həzrət Əbdül-Bəhanın *Bəzi Suallara Cavablar* kitabındakı dərin izahlarından əldə edilmiş bəsirətlərdən istifadə edir. Kitab hər bir mövzunu yeniyetmə qrupunun müntəzəm həftəlik görüşləri zamanı və daha sonra düşərgədə bir həftəsonunu birlikdə keçirdikləri zaman inkişaf etdirir. Aşağıdakı bölmə gənclərin öz animatorları Nataliya Petrovna ilə tale məsələsini müzakirə etdikləri dərsdən götürülmüşdür:

"Gəlin görək, indiyə kimi biz nə başa düşmüşük". Nataliya Petrovna deyir. "Bizim iradəmizdən asılıdır ki, yaxşı və ya pis iş görək və biz iradə gücümüzü istifadə etməliyik ki, nəcib həyat yaşayaq. Lakin azad iradəyə malik olmaq o demək deyil ki, biz hər şeyi nəzarət altında saxlaya bilərik. Elə şeylər var ki, bizimlə mütləq baş verməlidir və biz onlara nəzarət edə bilmirik. İndi isə mən sizdən başqa bir məsələ haqqında soruşmaq istəyirəm. Siz "tale" deyəndə nə başa düşürsünüz?"

"Mən fikirləşirəm ki, tale elə bir şeydir ki, nə olmasından asılı olmayaraq, biz onu dəyişə bilmərik," – İqor deyir.

"Yaxşı fikirdir. Kimsə bir neçə misal gətirə bilərmi?" – Nataliya soruşur.

"Biz valideynlərimizi seçmirik," – Nadya deyir.

"Biz harada doğulmağımızı da seçə bilmərik," – Anton deyir.

“Mənim valideynlərim həmişə deyirlər ki, böyük pianoçu olmaq mənim taleyimdir,” – Vadik deyir.

“Lakin sən pianoçu olmaya da bilərsən. Sən başqa bir məslək də seçə bilərsən,” – Marina deyir.

“Düzdür. Tale elə də sadə bir şey deyil,” – Nataliya deyir – “Çox gözəl bir analogiya var ki, taleyin necə işləməsini izah edir. Sizlərdən kimsə xalçanın necə toxunmasını görübmü?”

Hamının üzündə donuq bir ifadə var, ona görə də Nataliya davam edir: “Yaxşı, bir hana olur. Bu çərçivənin üzərində möhkəm ərişlər bir tərəfdən o biri tərəfə tarım çəkilir. Toxucu bu iplərin üzərində müxtəlif rəngli ilmələri toxuyur və naxış yaradır. Erkən inananlardan birinin eşitdiyinə görə, Həzrət Əbdül-Bəha buyurub ki, biz toxucu kimiyik. Bizə hana və ona bağlı əriş verilib. Bizə həmçinin iplər də verilib ki, onlarla bu xalçanı toxuyaq və bu iplər bizə anadangəlmə verilən istedadlar və güclərdir. Bu bizim taleyimizdir. Amma bu hananın üzərində toxunacaq naxışı özümüz seçirik. Biz öz hərəkətlərimizdə azadıq. Hər bir hərəkət bu bütöv naxışın bir hissəsidir. Bütöv iş isə bizim hansı insan kimi böyüyüb boya-başa çatmağımızdır. Azad iradə və qərarlılıq gücü ilə biz Allahın bizə əta etdiyi gücləri və istedadları inkişaf etdiririk”.

---

Düşüncələr:

Allah bizə müxtəlif istedad və qabiliyyətlər vermişdir. Kimsə biologiyanı yaxşı öyrənə bilər, bir başqası da musiqidə istedadlı ola bilər. Amma nəcib insan kimi böyümək üçün bizə hər şey verilib. Ona görə də qüsurlarımız üçün taleyimizi günahlandırmaq düzgün deyil. Biz bunu edəndə, özümüzü kamilləşdirməyə cəhd etməyi dayandırırıq. Aşağıdakı hallardan hər birində fərdin vəziyyətini dəyişdirməyə kömək edən fikirləri seçin:

a. Bir oğlan adətən, qeyri-sağlam yeməklər yediyi üçün tez-tez xəstələnir. O fikirləşir:

____ Zəif və xəstə olmaq mənim taleyimə yazılıb.

____ Mən bəhanə axtarmağı dayandırmalı və yemək vərdişlərimi dəyişməliyəm.

b. Bir qız oxumur, ona görə də imtahanlardan zəif qiymətlər alır. O fikirləşir:

____ Mən bəlkə də ən yaxşı tələbə deyiləm, amma səylə çalışacağam ki, yaxşı oxuyum.

____ Məktəbdə yaxşı oxumaq mənim taleyim deyil.

c. Bir kişi çətinliklə qarşılaşan kimi, spirtli içki içir. Ayıq olanda o fikirləşir:

____ Həyat məni içməyə məcbur edir.

____ Mən həyatımdakı problemlərin öhdəsindən gəlməyi öyrənə bilərəm; alkoqola mənim ehtiyacım yoxdur.

d. Bir qadının rəfiqələrini tənqid etmək vərdişi var. Ona görə də onlar ondan qaçırlar. O fikirləşir:

____ Məni heç kim xoşlamır.

____ Mən rəfiqələrimi tənqid etməkdən əl çəkməli və insanlarda yaxşı cəhətləri görməliyəm.

e. Bir nəfər imtahanda köçürmə edir və tutulur. O fikirləşir:

____ Mənim bəxtim yoxdur. Başqaları da köçürmə edir, amma heç vaxt tutulmurlar.

____ Mən belə bir şeyə necə yol verdim? Mən dürüstlük libası ilə bəzənməliyəm.

---

“Belə çıxır ki, cinayətkar olmaq heç kəsin taleyi deyil?” – İvan soruşur.

“Əlbəttə, yox,” – Nataliya Petrovna cavab verir – “Mənim indicə gətirdiyim analogiyada olduğu kimi, onlara verilmiş hana və iplərlə hər kəs gözəl naxışlar sala bilər. Fərqli olsaq da, bizim hamımızın qabiliyyətimiz var ki, xasiyyətimizi inkişaf etdirək və yaxşı adam olaq”.

İvan bütün deyilənlərlə razılaşır. Hələ onu nəsə yenə də narahat edir və amma bilmir ki, onu narahat edən dəqiq nədir. Birdən o öz-özünə deyirmiş kimi, səslənir: “Amma bütün bunlar çox çətindir”.

Heç kəs tam başa düşmür ki, İvan nəyi nəzərdə tutur.

“Nə belə çətindir?” – Nataliya soruşur.

“Güclü, yaxşı olmaq üçün həmişə bu qədər səy qoymaq,” – İvan cavab verir.

“Sən haqlısan, İvan,” – İvanın cavabı üzərində düşünərkən Nataliya deyir. “Amma yadında saxla ki, Allah həmişə bizə kömək edir. O bizi heç vaxt tək buraxmır. Bir yelkənli gəmini düşün; hərəkət etmək üçün gücü külək verir, bu, qayığın öz gücü deyil. Amma məhz kapitan küləkdən istifadə edir və gəmini istədiyi istiqamətə sürür. Bütün güclər Allahdandır. Onun köməyi olmasa, biz gücsüzük. Biz ancaq özümüzə baxdıqda, yalnız zəiflik görürük. Amma biz Allaha üz tutanda, Onun kömək və yardımını diləyəndə, Onun razı qaldığı şeyləri etmək üçün biz güc əldə edirik”.

Sonra isə aşağıdakı parçaları əzbərləmək üçün qrup cütlüklərə bölünür:

> **“Bənzərsiz Xaliq bütün insanları eyni bir maddədən yaratmış və onların mahiyyətini qalan bütün yaranmışlardan üstün etmişdir. Ona görə də müvəffəqiyyət və ya uğursuzluq, qazanmaq və ya itirmək, insanın öz çalışqanlığından asılıdır. O nə qədər çox çalışsa, o qədər də çox tərəqqi edəcəkdir”.**

**“Ey mənim Allahım! Ey mənim Allahım! Heçliyim və zəifliyimlə Sən məni görürsən, böyük bir məsuliyyət altına girmişəm, kütlələr arasında Sənin sözünü ucaltmaq və Sənin təlimlərini insanlar arasında yaymaq üçün ayağa qalxmaq əzmindəyəm. Əgər Sən Müqəddəs Ruhun nəfəsilə mənə kömək etməsən, mən necə müvəffəq ola bilərəm. Mənə kömək eylə, Sənin calal səltənətinin qoşunları ilə qələbə çalım və mənə təyidini nazil eylə ki, o, təkbaşına kiçik bir cücünü qartala, bir damlanı çaylara və dənizlərə, zərrəni isə səyyarə və günəşlərə çevirər! İlahi! Mənə Sənin müzəffər və güclü qüdrətinlə kömək et ki, dilim Sənin tərifini və əlamətlərini bütün insanlar arasında söyləsin və mənim ruhum Sənin məhəbbət və irfan şərabınla dolub daşsın.**

**Sən Qadir və İstədiyini Edənsən”.**

Baxmayaraq ki, siz 22-ci Bölmədə *İman Ruhu*-nun bütün mətnini öyrənəcəksiniz, bu sizin üçün faydalı olardı ki, dayanasınız və aşağıdakı məqamları müzakirə etməklə yuxarıdakı parçanı nəzərdən keçirəsiniz.:

1. Bu material tale konsepsiyasını necə təqdim edir? Bu ehkamçı bir yanaşmadırmı?
2. Bu konsepsiyanın ehkamçı təqdimatı necə ola bilərdi?
3. Ruhani konsepsiyaları araşdırmaq üçün gənclərə kömək etmək məsələsini bu material lazımi qədər vurğulayırmı, yoxsa ideyalar həddən artıq çərçivəli şəkildə təqdim edilmişdir?
4. Bu material tale və azad iradə ilə bağlı yazıların öz həyatlarında nələrə aid ola biləcəyini görməkdə onlara necə kömək edir?
5. Bu konsepsiyaları başa düşməyə çalışan gənclərin ifadə etdikləri, bir-birindən fərqli baxışlara və emosiyalara bu hekayə dözümlülük göstərirmi? Əgər varsa, bu özünü necə göstərir?
6. Əgər yeniyetmə qrupunun üzvlərinə bununla bağlı öz fikirlərini azad ifadə etmək imkanı verilməsəydi, nə baş verərdi?
7. Nataliya Petrovna fikrin aydınlığını inkişaf etdirmək üçün öz gənc dostlarına necə yardım edir?
8. Hekayədəki gənc insanlar arasında müzakirə olunan suallar, mənşələrindən asılı olmayaraq bütün yeniyetmələrə aiddirmi?

## BÖLMƏ 5

Erkən gənclik həyatın elə bir dövrüdür ki, bizim bu zaman şeylərin zahiri görüntüsünü aşıb arxasına baxmaq qabiliyyətimiz xeyli dərəcədə yüksəlir; şahidi olduqlarımız və təcrübə etdiyimiz şeylər barədə dərin anlayış əldə etmək istəyirik. Bu onu nəzərdə tutur ki, yeniyetmənin ruhani qavramaya ehtiyacı var; ruhani gücləri görməkdə, hər bir şəraitin ruhani gerçəkliyini görməkdə və müvafiq ruhani prinsipləri ayırd etməkdə onlara kömək edilməlidir. Əmrin Yazıları “daxili nəzər”, “bəsirət gözü” və “qəlb gözü” kimi fərasətlərə istinadlar verir. Aşağıdakı parçada, məsələn, Həzrət Əbdül-Bəha Tehrandakı Tərbiyyət Məktəbinə Öz nəsihətlərini verir:

> **“Qoy onlar ən qısa zamanda böyük tərəqqi etsinlər, gözlərini geniş açsınlar, bütün şeylərin daxili mahiyyətini kəşf etsinlər, hər bir sənət və bacarıqda mahir olsunlar, bütün şeylərin sirrini olduğu kimi dərk etməyi öyrənsinlər, – bu fərasət Müqəddəs Astanaya bəndəliyin ən aşkar nəticələrindən biridir”.**[4]

Həzrət Əbdül-Bəha ruhani qavramanı insanları heyvandan fərqləndirən güclərdən biri adlandırır:

> **“Bu açıq və aşkardır ki, insan heyvanlarla ümumi olan güclərə malikdir, lakin o, heyvandan əqli gücünə, ruhani qavrayışına, fəzilətlər əldə etməsinə, İlahi bəxşişləri, rəbbani feyzləri və səmavi mərhəmətin təzahürlərini almaq qabiliyyətinə malik olmaqla fərqlənir. Bu, insanın zinəti, fəxri və ucalığıdır. Bəşəriyyət bu ali məqama doğru can atmalıdır”.**[5]

Və O, bir ruhani fəzl kimi, bizim daxili nəzərimizə və batini qulağımıza istinad edir:

> **“O bizə maddi bəxşişlər və ruhani nemətlər əta edib – zahiri göz ki, günəş şüalarını görək, daxili nəzər ki, onunla biz Allahın calalını qavrayaq. O, zahiri qulaq yaradıb ki, səslərin təranəsini eşidək, batini qulaq yaradıb ki, Xaliqimizin səsini eşidək”.**[6]

Başqa bir halda isə O, bəsirət gözümüzü açmağın necə vacib olduğunu bizə xatırladır:

> **“Bizim ruhani qavrayışımız, bizim bəsirət gözümüz açıq olmalıdır ki, Allahın ruhunun əlamət və nişanələrini hər şeydə görə biləк. Hər şey bizə Ruhun işığını əks etdirə bilər”.**[7]

Bu parçada isə Həzrət Əbdül-Bəha ruhani qavrayışın idrakı gücləndirməsinin bir misalını təsvir edir:

> **“Tam məhvolma konsepsiyası insan tənəzzülünün amili, insanın miskinləşməsi və rəzalət səbəbi, insanın qorxması və alçalması mənbəyidir. O, insanın fikrinin dağınıqlığına və zəifləməsinə səbəb olmuşdur, halbuki, mövcudluğun başa düşülməsi və davamlılığı insanı yüksək ideallara doğru qaldırmış, bəşəriyyətin tərəqqisinin təməlini qoymuş və rəbbani fəzilətlərin inkişafına təkan vermişdir. Ona görə də insana layiq olan odur ki, tamamilə uydurma olan qeyri-mövcudluq və ölüm barədə fikirləri tərk etsin, özünü hər zaman yaşayan, yaradılışının ilahi məqsədində əbədi bir varlıq qəbul etsin. İnsan ruhunu tənəzzülə aparan fikirlərdən, o, üz döndərməlidir ki, günbəgün və saatbasaat insan gerçəkliyinin davamlılığının ruhani qavrayışı istiqamətində yüksəkliyə və zirvəyə doğru irəliləsin”.**[8]

Ruhani qavrayışın insan dərrakəsinə necə adi əqli güclərin təmrini ilə yetişilməsi mümkün olmayan yeni ölçülər gətirməsini aşağıda təsvir edə bilərsinizmi?

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
__________________________________

## BÖLMƏ 6

Ruhani qavrayışa malik olmağın zəruriliyini aydınlaşdırdıqdan sonra indi biz özümüzdən soruşmalıyıq – bunu necə inkişaf etdirək. Bu suala, əlbəttə, sadə cavab vermək mümkün deyil, lakin biz burada ancaq bir neçə müvafiq ideyanı araşdıra bilərik.

Bu aydındır ki, ruhani qavrayış pak qəlblərin keyfiyyətidir. Həzrət Əbdül-Bəha buyurur:

> **"İnsanın qəlbi nə qədər pak və təmiz olursa, bir o qədər o, Allaha yaxın cəzb olunur və Həqiqət Günəşinin nuru onun batinində nazil olur. Bu nur ürəkləri Allaha məhəbbət oduna yaxır, onlarda bilik qapılarını açır və ilahi sirlərin üzərindən mübhəmlik pərdəsini qaldırır və beləliklə, ruhani kəşflər mümkün olur".**[9]

Allahı tanımağın ruhani qavrayışın inkişafı üçün həyati vacib olması da açıq-aşkardır:

> **"Zira şeylərin gerçəkliyini dərk etmək varlıq səltənətində maddi üstünlüklər bəxş edir və zahiri sivilizasiyanın tərəqqisinə səbəb olur, Allahı tanımaq isə ruhani tərəqqinin və cəzbolmanın səbəbi, həqiqi baxış və bəsirət, bəşəriyyətin ucalığı, ilahi sivilizasiyanın zühuru, əxlaqın islahı və vicdanın nurudur".**[10]

Və daxili gözün güclənməsi üçün Allaha məhəbbət, aydındır ki, əvəzedilməzdir:

> **"Ey dostum! Allaha şükür et ki, gözünü Həqiqət Günəşindən tökülən parlaq şüalarla işıqlandırıb və ona görə ki, səni dirildib və səni həyat suyu və Allah məhəbbətinin atəşi ilə vəftiz edib".**[11]

> **"Allaha məhəbbətdən od kimi bəhs edilir, çünki o, pərdələri yandırır və su kimi bəhs edilir, çünki o, həyat mənbəyidir. Bir sözlə, Allaha məhəbbət bəşər aləminin fəzilətlərinin ən dərin gerçəkliyidir. Onun vasitəsilə insan təbiəti təmizlənir. İnsan Allaha məhəbbət ilə insan dünyasının qüsurlarından xilas olur. Allaha məhəbbət sayəsində insan fəzilətlər səltənətində irəliləyiş əldə edir. Allaha məhəbbət dünyanın işıqlanmasının səbəbidir".**[12]

Yuxarıdakı nəsihətlərin əhəmiyyəti üzərində düşünərkən aşağıdakı çalışmaların sizə kömək etdiyini görə bilərsiniz.

1. Hər bir şərtin ruhani qavrayışı necə yüksəltdiyini təsvir edən bir neçə cümlə yazın:

Qəlbin paklığı: ________________________________________________________________
__________________________________________________________________________________
__________________________________________________________________________________
____________________________________________________________________

Allahı tanımaq: ________________________________________________________________
__________________________________________________________________________________
__________________________________________________________________________________
____________________________________________________________________

Allaha məhəbbət: _______________________________________________________________
__________________________________________________________________________________
__________________________________________________________________________________
____________________________________________________________________

2. Aşağıdakı müddəaların doğru olub-olmadığına qərar verin:

___ Ancaq ağılla biz, Allahın Təlimlərinin köməyi olmadan, düzü səhvdən ayıra bilərik.

___ Məhz Allahın Məzhərlərini tanımaq və onların təlimlərinə itaət etmək həqiqəti qavramağa bizi qabil edir.

___ Qəlbin paklığı insanı sadəlövh edir.

___ Qəlb nə qədər pakdırsa, o qədər də ilahi sifətləri dəqiq əks etdirir ki, onların da işığı onu şeylərin mahiyyətini qavramağa qabil edir.

___ Allaha məhəbbət alovu nəfs pərdələrini yandırır və beləliklə, daxili gözü həqiqəti görməyə qabil edir.

___ Allaha məhəbbət gücü Onun iradəsinə tabe olmaqda və Onun məqsədini yerinə yetirməkdə aydın baxışla çalışmaqda bizə kömək edir.

___ Tam məhv olub getmə qorxusu bizim intellektual və ruhani bacarıqlarımızı zəiflədir və ona görə də biz mövcudluğumuzun davamlılığına inananda bizim ruhani qavrayışımız itiləşir.

___ İlahi Astanaya təmənnasız xidmət şeylərin daxili mahiyyətini görməkdə bizə kömək edəcək.

___ Daxili gözümüzlə biz ilahi təyidləri görə bilərik.

# BÖLMƏ 7

Öncəki bölmənin sonuncu sitatı bizim araşdırmağımıza xüsusi aidiyyəti olan təməl bir konsepsiyaya işarə edir, yəni daxili gözə şeylərin mahiyyətini görmək üçün bir sıra pərdələr mane olur. Ruhani qavrayışın inkişafı belə pərdələrin aradan götürülməsini tələb edir. Həzrət Əbdül-Bəha buyurur:

**"Allahın bütün fenomenal həyatda təzahür edən bəxşişləri bəzən insanı ruhani cəhətdən kor və aciz qoyan tutucu əqli və fani baxış pərdələri üzündən gizli qalır, lakin o örtüklər aradan götürüləndə və pərdələr yırtılanda, Allahın böyük əlamətləri görünür və o, dünyanı dolduran əbədi nuru görür. Allahın bəxşişləri tamdır və həmişə aşkardır. İlahi vədlər daim hazırdır. Allahın lütfləri hər yerdədir, lakin insan qəlbinin ayıq gözü pərdələnmiş olsa və qaralsa, o bu hər şeyi bürüyən əlamətləri inkar edəcək və ilahi kəramətin bu təzahürlərindən məhrum qalacaq. Ona görə də biz cani-dildən çalışmalıyıq ki, daxili baxışımızın gözünü bağlayan pərdə aradan götürülsün ki, biz Allahın əlamətlərinin təzahürlərini görə bilək, onun sirli fəzlini dərk edək və başa düşək ki, ruhani xeyir-bərəkətlə müqayisədə maddi nemətlər heç nədir".[13]**

**"Hər bir nəfs çalışmalıdır ki, insanların gözlərini örtən pərdələr yarılsın və günəş dərhal görünsün və bununla qəlb və göz işıqlansın".[14]**

Hərfi şərh, mövhumat, kor-koranə təqlid, nəfs, ehtiras və istək arxasınca getmə, xəsislik və paxıllıq, təəssüb – bunlar yazılarda qeyd olunan pərdələr arasındadır. Bizim maddi hisslərimiz də pərdə ola bilər:

**"Mən sizə onun üçün dua edirəm ki, sizin ruhani qabiliyyətləriniz və cəhdləriniz hər gün artsın, siz heç vaxt imkan verməyəsiniz ki, maddi hisslər pərdə olub Səmavi nurun parıltısını sizin gözlərinizdən kəssin".[15]**

**"Pərdələrdən biri hərfi şərhdir. Batini mənalara varmaq üçün güclü səy lazımdır".[16]**

**"Allaha şükür eylə ki, Calal Səltənətinə öz yolunu tapmısan, mövhumat pərdəsini parçalamısan və mübhəm sirlərin mahiyyəti sənə aşkar olub".[17]**

**"Mən Allaha ürəkdən yalvarıram ki, sənin daxili gözündəki pərdəni götürsün; Onun ən böyük dəlillərini sənə göstərmək üçün; və səni Ondan başqa hər şeydən inqita etmiş, məhəbbətinin alovu ilə alovlanmış, Onu zikr etməklə məşğul olan və hər şeyin həqiqətlərindən xəbərdar olan bir hidayət bayrağı etmək üçün ki, öz gözlərinlə görəsən, öz qulağınla eşidəsən və ata-babalarından heç birini təqlid etməyəsən. Rəbbinin Əmrinə bəsirətlə bax, çünki insanlar zülmət pərdələrinə bürünmüşdür".[18]**

**"...zira nəfsdən daha qalın pərdə yoxdur və bu pərdə nə qədər nazik olursa olsun, sonda o, insanı tamamilə bürüyəcək və əbədi nemətdəki payından onu məhrum edəcək".[19]**

**"Həmçinin, ehtiras və həvəsin arxasınca getmək gözləri ürəkdə doğulan minlərlə pərdəyə bürüyəcək ki, həm baxışı, həm də bəsirəti kor edəcək".[20]**

**"Ey anlayış övladları! Göz qapağı nə qədər zərif olsa da, insanın zahiri gözünü dünyanı və orada olan hər şeyi görməkdən məhrum edə bilərsə, onda fikirləşin ki, tamah pərdəsi onun daxili gözünə ensəydi, nələr baş verərdi. De: Ey insanlar! Buludların günəş işığına mane olduğu kimi, xəsislik və paxıllıq qaranlığı da ruhun nurunu gizlədir".[21]**

**"Ümid edirəm ki, siz yer üzündəki şeylərə baxmayaraq, açıq gözlərlə Haqq Günəşinə tərəf dönəcəksiniz...; Qoy o Günəş sizə Öz gücünü versin, təəssüb buludları Onun nurunu gözlərinizdən örtməsin! O zaman Günəş sizin üçün buludsuz olacaq".[22]**

Yuxarıdakı birinci parçada Həzrət Əbdül-Bəha buyurur ki, "Allahın bəxşişləri tamdır və həmişə aşkardır", "ilahi vədlər daim hazırdır" və "Allahın lütfləri hər yerdədir". O, daha sonra izah edir ki, "əgər qəlbin ayıq gözü pərdələnmiş olsa və qaralsa", o, Allahın böyük əlamətlərini inkar etmək həddinə gəlib çıxacaq və aşkar kəramətdən məhrum qalacaq.

1. Sizcə, Həzrət Əbdül-Bəhanın nəzərdə tutduğu bəxşiş və lütflər hansılardır? _______________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
____________________________________________________

2. İndi isə aşağıda adları çəkilən pərdələrin bizi bu bəxşiş və lütfləri görməkdən necə məhrum etdiyini təsvir edin:

   a. Müqəddəs mətnlərin hərfi şərhi:
   ___________________________________________________________________________
   ___________________________________________________________________________
   __________________________________________________________________________

   b. Mövhumat: _____________________________________________________________
   ___________________________________________________________________________
   ___________________________________________________________________________
   _______________________________________________________________

   c. Kor-koranə təqlid:
   ___________________________________________________________________________
   ___________________________________________________________________________
   ___________________________________________________________________________
   __________________________________________

   d. Nəfs: _________________________________________________________________
   ___________________________________________________________________________
   ___________________________________________________________________________
   ______________________________________________________________

   e. Ehtiras və istək arxasınca getmə: _____________________________________________
   ___________________________________________________________________________
   ___________________________________________________________________________
   ______________________________________________________________

f. Xəsislik və paxıllıq: ____________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
_____________________________________________________

g. Təəssüb: ____________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
____________________________________________________________

3. Aşağıdakı müddəaların doğru olub-olmadığına qərar verin:

___ Bizim daxili gözümüz, hətta əqli qabiliyyətlərimizin və cismani gözümüzün köməyi olmadan da qavrayır.

___ Bizim cismani duyğularımız və əqli qabiliyyətlərimiz ruhani gerçəklikləri qavramaqda bizə həmişə mane olur.

___ Allahdan olmayan hər şeydən cismani duyğuları təmizləmək həqiqəti qavramaqda bizim daxili qabiliyyətlərimizə kömək edir.

4. Nəhayət, ruhani qavramaya mane olan pərdələrin təbiəti barədə əlavə anlayış əldə etmək üçün Həzrət Əbdül-Bəhanın Yazılarından bu bəyan üzərində düşünün. İstəsəniz, bu sitatı əzbərləyin.

**"Bilin ki, gerçəkdən, Həqiqəti bürüyən çoxlu pərdələr vardır: əvvəla tünd pərdələr; sonra incə və şəffaf pərdələr; daha sonra isə baxanda insanın gözlərini qamaşdıran İşığın yaratdığı pərdə, yalnız öz şüalarına bürünən günəşin yaratdığı pərdə kimi, necə ki, biz ona baxanda baxışı kəsir və gözləri qamaşdırır.**

**Mən Allahdan rica edirəm ki, bütün pərdələri qaldırsın və bütün gözlərə işıq salsın ki, insan Həqiqət Günəşini görməkdən pərdələnməsin".[23]**

## BÖLMƏ 8

Sizə aşağıda, yeniyetmələrin öyrəndiyi Bəhai ruhlu digər bir materialdan – *Ümid İşartıları* dərsliyindən bir dərs təqdim edilir. Bu, valideynlərini itirdikdən sonra bacısını axtarmağa başlamış on iki yaşlı oğlan Kibominin hekayətidir. Kibomi Adumbu qəbiləsinə mənsubdur. Onun valideynləri Kunqu qəbiləsinin üzvləri tərəfindən vətəndaş müharibəsində öldürülmüşdülər. Bundan əvvəlki dərsdə Kibominin Kunqu tayfasından olan və onunla çox mehribanlıqla davranan bir qoca kişi ilə qarşılaşması təsvir olunur. Bu dərsdə isə o öz qəbiləsindən olan bir dəstə əsgərlə rastlaşır.

Bir az yeyəndən sonra Kibomi bir qədər enerji alır və indi o daha sürətli hərəkət edir. O öz kəndindən qaçanda, onda daha çox qorxu və qəzəb vardı. İndi insanlar haqqında onun hiss etdiyi xeyirxah hissləri o, bərpa etməyə başlayır. Qoca kişi Kunqu qəbiləsindən idi, amma o, mehriban və müdrik idi. O öz yeməyini onunla bölüşdü. Onun dediyi sözlər gözəl və ümidlə dolu idi: "Biz seçim etməliyik". "Biz sevmək üçün yaranmışıq, nifrət etmək üçün deyil".

Kibomi Nanqata istiqamətində çayın qırağı ilə gedir. Bir qədər getdikdən sonra o, səslər eşidir və dərhal böyük ağacın arxasında gizlənir. Bir qrup gənc yaxınlaşır. Onlar Adumbu dilində danışırlar. Kibomi öz dilini eşitməyə çox sevinir və yavaş-yavaş ağacın arxasından çıxır. Bu adamlar uniforma geyinmişlər. Onlar Adumbunun üsyan etmiş ordusunun əsgərləridir. Onların bəzisi çox gəncdir, biri isə lap Kibomi ilə bir yaşda kimi görünür. Əsgərlər onu görən kimi dayanırlar və silaha əl atırlar. "Dayanın!" – Kibomi deyir. "Mən də sizin kimi Adumbu qəbiləsindənəm".

"Burada təkbaşına nə edirsən?" – onların başçısı səbirsizliklə soruşur.

"Kunqular bizim kəndimizə hücum etdilər və mənim valideynlərimi öldürdülər. Mən qaçmağa məcbur oldum," – deyə Kibomi cavab verir.

"Elə isə gəl, bizə qoşul," – başçı təklif edir. "Biz kunquların dərsini verməliyik. Onlar sənin ailənə etdikləri üçün cavab verməlidirlər".

Kibomi həvəslənir. O bir az düşünür və bu təklifi az qala qəbul edir. Əsgər oğlan irəli çıxır və əlini ona uzadır. Kibomi onun gözlərinə baxır və onlarda olan ümidsizlikdən narahat olur. O tərəddüd edir. "Mən sizə sonra qoşularam," – titrək səslə o deyir. "Amma mən indi getməli və bacımı axtarıb tapmalıyam".

Əsgərlər gedəndə biri dönür və deyir: "Yadında saxla, əks-hücum yeganə yoldur". Kibomi cavab vermir.

**Suallar**

1. Kibomi kəndini tərk edəndə nə hiss etdi?
2. Qoca kişini görəndən sonra onun hissləri niyə dəyişib?
3. Kibomi niyə ağacın arxasında gizlənir?
4. Onun uniformada gördüyü cavan adamlar kimdir?
5. Başçı Kibomidən nə etməsini istəyir?
6. Kibomi əsgər oğlanın gözlərində nə görür?

**Fəaliyyətlər**

1. Kibomi onun özü kimi qorxusu və qəzəbi olan, vuruşma və öldürmək yolunu seçən əsgər oğlanın gözlərində ümidsizlik görür. Bizim hamımızda kədər və ümidsizlik məqamları olur. Belə vaxtlarda, biz qaranlıq yolu seçməməliyik, ümidimizi bərpa edən işığı axtarmalıyıq. Aşağıdakı duanı oxuyun və sözləri üzərində meditasiya edin:

**“O, Rəhmandır və Kərəm Sahibidir. Odur Şəfqətli, Ən Səxavətli! Ey Allah, mənim Allahım! Sən görürsən məni, Sən tanıyırsan məni; Sənsən mənim Pənahım və Sığınacağım. Heç kəsi axtarmadım Səndən başqa, nə də bir kəsi axtaracağam Səndən qeyri; Sənin məhəbbətinin yolundan başqa bir yolda addımlamadım, nə də ayrı bir yola qədəm qoyacağam. Ümidsizliyin zülmət gecələrində mənim intizar və ümid dolu gözlərim, Sənin hüdudsuz fəzlinin səhərinə dönür, sübh çağı isə üzülmüş qəlbim Sənin gözəlliyin və kamilliyinin zikri ilə təravətlənir və güclənir”.**

2. Siz bu duanı əzbərləmək istəyə bilərsiniz.

3. Aşağıdakı hallarda hansı fikrin və hərəkətin məyusluq yaradacağı, hansının ümidi bərpa edəcəyi barədə qərar verin.

| a. Siz fənlərdən birində imtahanı yaxşı vermirsiniz | Ümid | Məyusluq |
|---|---|---|
| - Siz öyrənməyi atırsınız və vaxtınızın çoxunu oynamaqla keçirirsiniz. | ☐ | ☐ |
| - Siz özünüzə küt deyirsiniz. | ☐ | ☐ |
| - Başqa bir tələbədən sizə kömək etməsini xahiş edirsiniz. | ☐ | ☐ |
| - Siz özünüzə səbirlisiniz və mövzunu başa düşmək üçün daha da gərgin çalışırsınız. | ☐ | ☐ |
| - Müəlliminizi sizə daha çox kömək etməməkdə günahlandırırsınız. | ☐ | ☐ |

| b. Siz özünüzü tənha hiss edirsiniz və sizə elə gəlir ki, sizin heç *bir dostunuz yoxdur.* | *Ümid* | *Məyusluq* |
|---|---|---|
| – Siz özünüzə qapılırsınız və çox vaxt kədərli olursunuz. | ☐ | ☐ |
| – Siz özünüz haqqında az vaxt düşünür və çox vaxtı başqalarının qayğısına qalırsınız. | ☐ | ☐ |
| – Siz bütün vaxtı başqalarının səhvləri üzərində düşünürsünüz. | ☐ | ☐ |
| – Siz başqalarında yaxşı cəhətlər axtarırsınız. | ☐ | ☐ |
| – Başqaları ilə danışmaq və dost olmaq üçün birinci addımı siz atırsınız. | ☐ | ☐ |

| | | Ümid | Məyusluq |
|---|---|---|---|
| c. | Siz bəzi qohumlarınız arasında paxıllıq və ədavət görürsünüz. | *Ümid* | *Məyusluq* |
| | – Siz də paxıllıq edir və onlarla vuruşursunuz. | ☐ | ☐ |
| | – Siz onlara qarşı daha çox alicənab olmağa çalışırsınız. | ☐ | ☐ |
| | – Siz ailə üzvləriniz üçün dua edirsiniz ki, onların arasında birlik olsun. | ☐ | ☐ |
| | – Siz öz ailənizdəki uşaqlara sevgi və alicənablıq öyrədirsiniz. | ☐ | ☐ |
| | – Siz özünüzə deyirsiniz ki, dəyişmələri üçün siz qohumlarınızla heç nə edə bilməzsiniz. | ☐ | ☐ |
| d. | Bir dostunuz sizi incidən nəsə edir. | Ümid | Məyusluq |
| | – Siz qərara alırsınız ki, qisas alasınız və onu incidəsiniz. | ☐ | ☐ |
| | – Siz dostunuzu bağışlayırsınız. | ☐ | ☐ |
| | – Siz qərara alırsınız ki, heç vaxt heç kimi o cür incitməyəcəksiniz. | ☐ | ☐ |
| | – Siz başqalarına deyirsiniz ki, dostunuz necə pis adamdır. | ☐ | ☐ |
| | – Dostluğu bitirirsiniz. | ☐ | ☐ |

Bu dərsdə yeniyetmələrin aşkar edə biləcəkləri bəzi ruhani həqiqətləri qeyd edin. İşığa və qaranlığa bənzədilən ümid və məyusluq mövzularına necə münasibət bəslənilir? Yeniyetmələrin ruhani qavrayışını itiləmək üçün bu hekayə və onu müşayiət edən fəaliyyətlər, sizin fikrinizcə, hansı yollarla kömək edir?

## BÖLMƏ 9

Yeniyetmələrin ruhani gücləndirilməsi proqramının müraciət etməli olduğu çoxlu mövzular arasında "ümid" və "təyid" iki nümunədir. Belə mövzuların diqqətlə müzakirəsi ruhani qavrayışı möhkəmləndirir və şüurun genişlənməsinə yardım edir. Həzrət Əbdül-Bəha buyurur:

> **"Müəyyən sütunlar vardır ki, Allahın Dininin sarsılmaz dayaqları kimi müəyyən olunmuşdur. Bunlardan ən qüdrətlisi öyrənmə və ağılın istifadəsi, şüurun genişlənməsi və kainatın gerçəkliklərinə və Qüdrətli Allahın gizli sirlərinə nüfuz etməkdir".[24]**

İnsan varlığı müxtəlif şüur səviyyələrində yaşaya bilər. İlahi iradə və məqsəddən agah olmaq, bizə və icmamıza təsir edən qüvvələri başa düşmək, əqli və ruhani gücümüzü yeni dünya qurmağa həsr etməyə çalışmaq – bunlar maddi qayğılar üzərində fokuslanmış bir həyatdan fərqli olaraq, daha yüksək bir şüur səviyyəsini nəzərdə tutur. Yeniyetmə qrupu animatorunun qarşılaşdığı ən böyük meydanoxumalardan biri qrup üzvlərinə daha yüksək şüur səviyyələrinə çatmaqda kömək etməkdir. Bunu edə bilmək üçün gənclər ruhani həyat üçün mərkəzi yerdə duran mövzularla bağlı konsepsiyaları başa düşməlidirlər. O cür də, animatorlar onların belə konsepsiyalar üzərində düşünmək, onları təhlil etmək və onları öz gerçəkliklərinə tətbiq etmək qabiliyyətlərini yüksəltməlidirlər. Ümid və təyid konsepsiyalarından başqa, daha hansı mövzular və müvafiq konsepsiyalar vardır ki, yeniyetmələr öz düşüncələrinin obyekti etməlidirlər?

________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
__________________________________________

## BÖLMƏ 10

Son bir neçə bölmədə biz ruhani qavrayış məsələsini və bununla bağlı olan bəzi sifətləri – pak qəlb, Allahı tanımaq və Allaha məhəbbət – nəzərdən keçirdik. Biz, həmçinin bizim "daxili gözlərimizlə" görməyimizə mane olan "pərdələr" haqqında düşündük və müəyyən konsepsiyaların bizim ruhani qavrayışımızı necə möhkəmləndirə və şüurumuzu necə genişləndirə biləcəyinə baxdıq.

Yetkinlik dövründə insan ruhuna xas olan güclər getdikcə daha yüksək səviyyədə aşkara çıxır. Bu güclər arasında düşünmə və fikri ifadə etmə gücləri xüsusilə mühümdür və onların yetişdirilməsi şüurun genişləndirilməsi qədər həyati əhəmiyyət kəsb edir. Dillə fikir arasında çox yaxın bir əlaqə vardır. Fikirləşmə gücü nitq vasitəsilə üzə çıxır və anlayışın yetişdirilməsi üçün nitq gücünün inkişaf etdirilməsi çox zəruridir. Özünü ifadə etmə gücünü inkişaf etdirmək və insanın gerçəkliyi anlamaq gücünü dərinləşdirmək paralel gedir. Anlayış, hər şeydən əvvəl, düşünmə və fikirləşmə tələb edir ki, bu iki fəaliyyət dillə ayrılmaz surətdə bağlıdır. Həzrət Bəhaullah buyurur:

> **"Ey Bəha əhli! Sənətlərin, elmlərin və incəsənətin mənbəyi düşünmə gücüdür. Hər bir səy göstərin ki, bu ruhani mədəndən elə hikmət və bəyan gövhərləri bərq vurub çıxsın ki, bütün yer üzü tayfalarının rifahına və harmoniyasına gətirsin".[25]**

İnsan anlayışının və ifadə gücünün, əlbəttə, İlahi bəyanın işığına ehtiyacı vardır. Həzrət Bəhaullah bizə buyurur:

> **"O sizin xilasınız üçün gəlib və bəlalar çəkib ki, siz bəyan nərdivanı ilə anlayış zirvəsinə ucalasınız..."[26]**

Özünüifadə güclərinin inkişaf etdirilməsi sadəcə oxumaq, yazmaq və nitq məharətlərinin inkişaf etdirilməsindən ibarət deyil. Bu bir neçə bacarıq tələb edir: yaxşı dərk etməklə oxumaq, fikirləri aydın və bəlağətlə təsvir etmək və konsepsiyaları müəyyən dəqiqlik dərəcəsi ilə ifadə etmək. Bu bacarıqları çalışdırmaqla və işlətməklə yeniyetmələr müvafiq elmi, mənəvi və ruhani konsepsiyaları, ətraflarında olan aləmin təhlilinə və üzərində onların gələcək sosial məfkurəsinin qurula biləcəyi şəxsi inancların ifadə olunmasına tətbiq etməyi öyrənirlər.

Həzrət Əbdül-Bəha izah edir ki, **"**çoxlu insan kütləsinin cəmiyyətin xroniki xəstəlikləri üçün təcili əlac ola biləcək bu həyati vacib vasitələrdən xəbərləri yoxdur" və indiki zamanda, O təsdiq edir, "qeyri-adekvat təhsilləri səbəbindən, insanların çoxunun istədiklərini ifadə etmələri üçün söz ehtiyatları çatışmır**".** Belə olan təqdirdə, erkən gəncliyindən öz fikrini ifadə etmə gücünü inkişaf etdirə bilənlər, bəşərin xroniki xəstəliklərinə əlac olan ilahi dərmandan agah olanlar necə də bəxtəvərdirlər ki, beyinlərini səmavi düşüncələrlə doldururlar və bu yolla anlayışlarını yüksəldir və şüurlarını genişləndirirlər.

*Sözün Gücündən İstifadə Edilməsi* dərsliyindən götürülmüş aşağıdakı dərsdə, artıq bir neçə öncəki kitabları keçmiş yeniyetmə qrupları ilə öyrənilən Bəhai ruhlu mətndə, gənc insanlardan ibarət qrup "söz" konsepsiyasını müzakirə edir. Bu dərsi öyrənin və bunun anlayışı necə artırdığını və şüur səviyyəsini necə yüksəltdiyini görməyə çalışın.

Aleqriasdakı gənclər qrupunun ilk aylar ərzində həyata keçirdiyi fəaliyyətlərdən ən fərəhləndiricisi ağac əkmək layihəsi idi. O zaman onlar məktəbin ətrafında əlli meyvə ağacı əkdilər və valideynlərini, dostlarını və qonşularını, Elizanın ətraf mühitin yaxşılaşdırılmasının vacibliyi və bizlərin bunda rolu haqda qısa bir çıxış edəcəyi mərasimə dəvət etdilər. Bu layihə, icma tərəfindən yüksək qiymətləndirildi, çünki əkilmiş ağaclar bar verəcək və kəndi gözəlləşdirəcəkdi.

Mərasimdən bir gün sonra, Aleqriası tərk etməzdən öncə, Eliza gənclərlə xüsusi bir görüş keçirməyi xahiş etdi. "Bu gün mən istərdim ki, biz növbəti aylar ərzində müzakirələrimizin mərkəzində olacaq mövzu haqda söhbət edək", Eliza böyük şövqlə söylədi. "Mövzunu təqdim etmək üçün, icazənizlə, sizlərə bir sual verim. Necə düşünürsünüz – Allah bizi niyə yaradıb?"

Mariella dərhal cavab verdi: "Allah bizi sevdiyi üçün yaratmışdır. "Sənin yaradılışını sevdim, odur ki, səni yaratdım". Mən bu sitatı uşaq olarkən öyrənmişəm və heç vaxt da yadımdan çıxmayıb".

"Əla," – deyə Eliza dilləndi. "Allah bizə olan qeyri-məhdud məhəbbətinə görə bizi yaratmış və bu məhəbbətdən hər birimizə ən gözəl hədiyyələr bəxş etmişdir. Onun bizə ən böyük hədiyyələrindən biri sözdən istifadə etmək bacarığıdır. Heç bir məxluqa söz danışmaq, sözü oxumaq, sözü yazmaq və onu anlamaq bacarığı verilməmişdir. Söz vasitəsilə biz bir-birimizlə ünsiyyət edir, fikirlərimiz və hisslərimizi bölüşürük. Ən başlıcası isə, İlahi təlimlər də sözlər vasitəsilə nazil edilmişdir. Biz bu təlimləri, Onun Məzhəri vasitəsilə nazil edilmiş İlahi Kəlamı dinləyərək və oxuyaraq anlayırıq. Müzakirələrimizin mövzusu kimi, mənim fikrimdə tutduğum mövzu da, elə sözün gücü barədədir".

"Mən eşitmişəm ki, söz qılıncdan daha kəsərlidir," – Karlotta dilləndi.

“Bu doğrudur,” – Antonio əlavə etdi. “Amma sözün gücə malik olması üçün o, əməllə müşayiət olunmalıdır. Yoxsa, söz sadəcə olaraq mənasızdır və əhəmiyyətini itirir və küləyə deyilmiş söz kimidir. Mənim çox sevdiyim sitatlardan birində deyilir ki, məbada, sözləri ilə əməlləri uyğun olmayan adamların yolu ilə gedəsiniz”.

“Bəli, sən kiminsə barəsində deyə bilərsən ki, o sənin ən yaxşı dostundur, lakin əməldə onun sənə ehtiyacı olduğu halda, sən ona yardım etmirsənsə, onda demək, sən elə də yaxşı dost deyilsən,” – Anna Mariya əlavə etdi.

Anna Mariyanın şərhi hamının təsəvvürünə qığılcım verdi və hamı boş sözlər və əməllə müşayiət olunan sözlərə aid misallar gətirməyə başladı.

Nəhayət, Eliza dedi: “Yaxşı, siz hamınız inanırsınız ki, əməl ilə müşayiət olunmuş söz qeyri-adi gücə malikdir. Sözlər təsəvvür olunmayası gücə malikdir – onlar dünyanı dəyişdirə bilər. Elə bunun üçün də daha yaxşı dünya qurmaq istəyən sizlər, sözlərdən düzgün istifadə etməyi öyrənməlisiniz. Bu – söz üzərində fikirləşmək, sözü anlamaq, ifadə edə bilmək, çatdırmaq və onu həyata keçirmək deməkdir”.

Gənclər Elizanın dedikləri üzərində düşünərək, bir müddət sükut içində oturdular. Birdən, Dieqonun ağlına bir fikir gəldi və o, sevinclə yerindən tullandı və qrupun qarşısına çıxıb dedi:

“Mən indi bilirəm, biz maddi və mənəvi tərəqqiyə necə nail ola bilərik: əməllə müşayiət olunmuş sözün gücü ilə”.

Sükut çökdü. Heç kəs bir söz belə demədi. Dieqo elə durduğu yerdə də qaldı və özünü çox narahat hiss etdi. O bilmirdi, otursun, yoxsa elə durduğu yerdə qalsın. Kömək istəyirmiş kimi o, Elizaya baxdı. Eliza astaca ayağa qalxıb ona yaxınlaşdı və onun əlindən tutaraq dedi:

“Sən çox dərin bir həqiqəti aşkar etdin. Vaxt keçdikcə, onun nə qədər vacib olduğunu öyrənəcəksən”.

**ÇALIŞMALAR**

1. Verilmiş sözlərdən istifadə edərək aşağıdakı cümlələri tamamlayın:

müşayiət, təsəvvür, ifadə, əməllər, ünsiyyət,
yaxşılaşmaq, əta etmək, yaratmaq, ətraf mühit,
əhatə, bəxş etmək, açıqlamaq, inandırmaq, dərin

a. Sözün gücü vasitəsilə biz özümüzü ____________ edə bilirik.

b. Culiya qardaşının mağazaya tək getməsini istəmirdi, o, qardaşını ___________________________ qərara aldı.

c. Həkim şad idi ki, gənc qadının səhhəti ______________ başlamışdır.

d. Yalnız bir neçə dəfə xahiş edəndən sonra, nəhayət, Enrik onu görüşlərdə danışmağa ______________ bildi.

e. Allah bizə həyat _______________ və biz onu boş yerə sərf etməməliyik.

f. Xuan Karlos həmişə söz verdikdə əlindən gələni edir ki, ona əməl etsin. Onun sözləri həmişə _______________________ ilə müşayiət olunur.

g. Bizi sevdiyi üçün Allah bizə çoxlu bəxşişlər verib. Sözdən istifadə etmək bacarığı Onun ____________________________ ən gözəl bəxşişlərindən biridir.

h. Kiçik hekayə bütövlükdə yazıçının ________________ məhsuludur.

i. Biz bir-birimizlə ___________________ edə bilmək üçün qulaq asmağı öyrənməliyik.

j. Sesiliya ____________________ vəziyyətindən çox narahatdır, buna görə də icmalarının mərkəzində bu mövzu ilə əlaqədar kurs keçməyi qərara aldı.

k. Hər dəfə həyata keçiriləsi hər hansı bir layihə olduqda, Dieqo insanları həvəsləndirməyi bacarır. O, ruh yüksəkliyi atmosferi _________________ bacarır.

l. Gün ərzində ağır işlədikdən sonra, Roberto o qədər yorğun idi ki, o yatağa getdi və heç kəs onu oyada bilməzdi. O __________________ yuxuda idi.

m. Mənim nənəm öz yaşını deməyi heç vaxt xoşlamazdı. Amma 100 yaşı tamam olanda, o öz yaşını ____________________________________.

n. Anna evinin ətrafında bağça salmışdı və beləliklə, müxtəlif rəngdə və formada güllər evi ____________________________

2. Aşağıda verilmiş frazalardan istifadə edərək cümlə tərtib edin:

Pak əməllər: __________________________________________________________________

__________________________________________________________________

Ətraf mühiti yaxşılaşdırmaq: ____________________________________________________

__________________________________________________________________

Böyük şövqlə: _________________________________________________________________

__________________________________________________________________

Sözü həyata keçirmək: __________________________________________________________

__________________________________________________________________

Deyilmiş sözlər haqqında düşünmək: ________________________________________________

____________________________________________________________________________

3. Söz yaxşılığa və pisliyə gətirəcək gücə malikdir və istifadə etdiyimiz sözdən asılı olaraq biz başqalarına yaxşı və ya pis məsləhət verə bilərik. Aşağıda təqdim olunmuş ifadələrin yaxşı məsləhət olanlarının qarşısında "Y", pislərin qarşısında isə "P" qoyun:

_____ Biz bir olmalıyıq və heç vaxt savaşmamalıyıq.

_____ Əgər ehtiyacın varsa, götür, yiyəsinin narahatlığına fikir vermə.

_____ Qeybət etmə.

_____ Elə vaxtlar olur ki, tənbəllik bizi tutur. Belə günlərdə yaxşı olar ki, heç bir iş görməyəsiniz.

_____ Bu günün işini sabaha qoyma.

_____ Görüşlərə bir az gecikməkdə heç bir pis şey yoxdur.

_____ İş nə qədər kiçik olsa da, əla yerinə yetirilməlidir.

_____ Arada bir yalan deməkdə qorxulu bir şey yoxdur.

_____ Heç kəs üçün heç nə etmə. Xeyri yoxdur.

_____ Həyatın məqsədi ancaq şənlənməkdir.

_____ Biz özümüzü kamilləşdirmək üçün gündəlik səylər etməliyik.

_____ İş cəzadır.

_____ Biz nə üçün qanunlara riayət etməliyik; bizim üçün əla olanı özümüz də bilirik.

_____ Bu dünyada bizim məqsədimiz Allahı tanımaq və Ona ibadət etməkdir.

_____ İşimizi xidmət ruhunda görərkən, biz Allaha ibadət etmiş oluruq.

_____ Biz öz həyatımızla məşğul olmalıyıq və başqalarının problemləri ilə özümüzü narahat etməməliyik.

_____ Sənin valideynlərin qocadırlar. Onlar indiki həyat haqqında axı nə bilirlər?

_____ Hərdən, bir azca spirtli içki içməyin heç kəsə ziyanı yoxdur.

_____ Həyat qısadır. Özünü işləməklə nə üçün öldürürsən?

1. Bu dərs "söz" məfhumu üzərində düşünməklə yeniyetmələrin şüurunu genişləndirir. Dərsdə buna necə nail olunur? ________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
______________

2. Yuxarıdakı dərsi nəzərdən keçirdikdən sonra, fikir gücü ilə nitq gücü arasındakı əlaqələri siz necə qavrayırsınız? ________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
__________________________

## BÖLMƏ 11

Yeniyetmələr asanlıqla oxumaq və oxuduqlarının mənasını yaxşı başa düşmək bacarıqlarını inkişaf etdirməlidirlər. Dünyanın çox yerlərində, bu yaş üçün geniş mövzularda akademik dərsliklərdən tutmuş komikslərə qədər ədəbiyyat vardır. Hərçənd bu böyük ədəbiyyat arsenalının bir çox ünsürləri yeniyetmələrin sağlam inkişafına yardım edir, lakin onların təsiri Yazılarda olan həqiqətlərin yeniyetmələrin ruhuna etdiyi təsirlə müqayisə oluna bilməz. Biz bilirik ki, bu Zühur Dövründə, Həzrət Bəhaullah hər bir sözə yeni qüdrət əta etmişdir. O təsdiq edir:

> **"Biz, Qüdrətli Hökmdarın əmrinə əsasən, şərəf Qələmimizin hərəkəti ilə hər bir insan cisminə yeni həyat üfürmüş, hər sözə yeni güc əta etmişik. Bütün yaradılmış şeylər bu cahanşümul canlanmanın əlamətlərini bəyan edir".**[27]

Yeniyetmələrdə özünüifadə gücünü inkişaf etdirmək üçün istifadə olunan material, hansı mövzu və ya konsepsiyalardan bəhs edirsə etsin, təqdim edilən mənalar Əmrin yazılarını yaxından əks etdirməlidir. Məsələn, bizim ədalət məfhumu haqqındakı anlayışımız, əgər o, Həzrət Bəhaullahın təlimləri ilə işıqlanarsa, ruhani gerçəkliklə əlaqəsini itirmiş dünyanın başa düşə bilmədiyi mənalar dərinliyinə nüfuz edə bilər. Yazılarda olan hikmət cəvahirlərini obrazlı və yaradıcı şəkildə işlənmiş təlim-tərbiyə materialının köməyilə kəşf etmək yeniyetmələrin zehinlərini işıqlandırır və onların ürəklərində fərəh hissi yaradır. Həzrət Əbdül-Bəha izah edir:

> **"Qoy sizin qəlbiniz Allahın Kəlamlarının işığı ilə nurlansın və Allahın sirlərinin xəzinəsi olasınız, zira ilahi təlimlərin ruhani dərkindən daha böyük könül xoşluğu və daha şirin bir sevinc yoxdur. Əgər insan Şekspir kimi şairlərdən birinin şeirlərinin mənasını başa düşürsə, o, məmnun olur və sevinir. Elə isə, Müqəddəs Yazıların həqiqətini dərk edəndə və Mələkutun sirlərindən agah olanda onun sevinci və ləzzəti necə də böyük olar!"**[28]

Aşağıda təqdim olunan çıxarışlar *Sözün Gücündən İstifadə Edilməsi* kitabından götürülmüşdür. "Tərəqqi" mövzusu bütün kitab boyu qırmızı xətt kimi keçir. Material gənc beyinlərə Əmrin təlimlərinə

uyğun olan tərəqqi konsepsiyası haqqında anlayış əldə etməkdə kömək etməyə çalışır. Sizdən xahiş edilir ki, tərəqqinin, deyək ki, bu günün kütləvi informasiya vasitələrində verilən mənası ilə aşağıdakı parçada ifadə olunan mənası arasındakı fərqi müəyyən etməyə cəhd edəsiniz:

Bir müddət bundan əvvəl kəndə hörmətli bir müəllim gəldi və dedi ki, “Aleqrias həm maddi, həm də ruhani tərəqqinin əldə olunduğu nümunəvi bir icma ola bilər”. Əvvəlcə, Dieqo dəqiq başa düşmədi ki, “maddi və ruhani tərəqqi” nə deməkdir, lakin o bütün kənd camaatının şövqünə şərik oldu. O vaxtdan, bu məsələ barədə o çox şey öyrəndi. O başa düşdü ki, fiziki cəhətdən balaca olsa da, o artıq uşaq deyil və arzu edilən maddi və ruhani tərəqqiyə çatmaqda o öz kəndinə kömək etməyə qadirdir.

Məhz belə söhbətlərin birində Dieqo qərara aldı ki, maddi və ruhani tərəqqi haqqında hər kəsin nə düşündüyünü soruşsun. Deməyə həmişə maraqlı bir şey tapan Mariela dərhal cavab verdi: “Maddi tərəqqinin nə demək olduğunu mən dəqiq bilirəm. Bu o deməkdir ki, biz yoxsuluq və bizi xoşbəxt edəcək şeyləri əldə edə bilmək üçün daha çox pula ehtiyacımız vardır”.

Marielanın şərhi hər kəsi şövqləndirdi və hamı öz fikrini bölüşməyə başladı. Onların dedikləri, aşağı-yuxarı belədir:

Antonio: “Mən hesab etmirəm ki, xoşbəxt olmaq üçün varlı olmalısan. Mən çox kasıb adam tanıyıram ki, xoşbəxtdirlər”.

Karlota: “Mənim qardaşım universitetdə oxuyur və indi tətildədir. O deyir ki, “xoşbəxt kasıb” ideyasını varlılar uydurublar ki, onlar üçün işləməyə bizi razı saxlasınlar”.

Anna Mariya: “Bu doğru ola bilər, amma mən bilirəm ki, xoşbəxtlik içdən gəlir və insanın malik olduğu şeylərin miqdarından asılı deyil”.

Dieqo: “Amma yenə də, kasıb olmaq heç də zarafat iş deyil. Biz əlimizdən gələni etməliyik ki, həyatımızı yaxşılaşdıraq”.

Antonio: “Lakin biz bunu etməyə çalışanda da xoşbəxt olmalıyıq. Mən həm özüm, həm də icmam üçün gərgin işləmək istəyirəm, eyni zamanda da bunu edərkən xoşbəxtlik hissi yaşamaq istəyirəm. Mən Karlotanın qardaşı ilə birlikdə vaxt keçirməkdən həzz alardım, amma o, varlılar və kasıblar barədə danışmağa başlayandan mən ona qulaq asmaq istəmirəm. Onda o qədər qəzəb var ki”.

Roberto: “Mən bilirəm ki, həqiqi xoşbəxtlik Allaha yaxın olmaqdan və Onun qanunlarına itaət etməkdən qaynaqlanır”.

Dieqo: “Bu düzdür, lakin unuda bilmərik ki, Allahı sevmək üçün biz insanları sevməli və onlara kömək etməliyik”.

Karlota: “Biz bunu da xatırlamalıyıq ki, Allahın qanunlarına itaət etmək, həm də bundan sonra insanların yoxsul olmayacağı yaxşı bir dünya qurmaq üçün bir yerdə işləmək deməkdir”.

Sonra birdən, Dieqo başa düşdü ki, onlar indiyə kimi ancaq maddi tərəqqidən danışıblar. “Bəs ruhani tərəqqi necə olsun?” o soruşdu. Lakin hamı artıq yorulmuşdu və qərara aldılar ki, müzakirəni növbəti dəfə davam etdirsinlər.

Gənclər maddi və ruhani tərəqqinin müzakirəsinə bir neçə görüş həsr etdilər. Bir aydan sonra, Elizanın gəlişindən bir az öncə, onlar xüsusi bir görüş təşkil etdilər ki, gəldikləri qənaətləri bir də nəzərdən keçirsinlər. Onlar öz fikirlərini Elizaya təqdim edəndə o son dərəcə məmnun oldu. O qənaətlərini aydın şəkildə formalaşdırmaqda və aşağıdakı bəyannaməni yazmaqda onlara kömək etdi:

**Gənclərin Bəyannaməsi**

Biz artıq uşaq deyilik və gələcəyimiz haqda ciddi düşünməliyik. Yaşadığımız dünya iztirablarla doludur və ixtilafdan əziyyət çəkir. Biz, müharibələrin və kasıblığın olmayacağı, insanların harmoniyada yaşaya biləcəyi yeni bir dünya qurmaq istəyirik. Yeni bir dünya qurmaq üçün, ilk növbədə biz öz icmamızdan başlamalıyıq. Məhz buna görə, biz bu gün, bizim balaca Aleqrias kəndinin maddi və mənəvi tərəqqisi haqda söhbət açırıq. Maddi həyatımızda tərəqqiyə nail olmaq üçün biz kənd təsərrüfatımızı inkişaf etdirməli, sağlamlığımızın qayğısına daha yaxşı qalmalı, daha çox sayda məktəblər açmalı və biznes və sənayedə fəal olmalıyıq. Əməyimizin bəhrəsi ilə biz, evlərimizi, kəndimizi və ətrafımızı füsunkar gözəllik məkanına çevirməliyik, harada ki, biz təmiz və sağlam ətraf mühitdən zövq ala bilərik.

Lakin ruhani tərəqqi olmadan, hamının rifaha çatmasına nail olmaq mümkün deyil. Ruhaniyyətsiz yalnız bir qisim insanlar varlanır, qalanları isə kasıb yaşamaqda davam edirlər. Məqsədlərimizə nail olmaq üçün biz, bir icma olaraq, bir olmalı, ədalətlə hərəkət etməli, əməkdaşlıq etməli və bir-birimizlə mehriban davranmalı, səxavətli, dürüst və etibarlı olmalıyıq. Ədalət, səxavətlilik, məhəbbət və mehribanlıq, dürüstlük və etibarlılıq elə ruhani keyfiyyətlərdir ki, biz onların vasitəsilə həm maddi, həm də ruhani tərəqqi əldə edirik.

Ruhani keyfiyyətlər bizə yalnız daha yaxşı dünya qurmaq üçün lazım deyil. Onlar, həm də həyatı yalnız yer üzü ilə bitməyən ruhumuza da lazımdır. Maddi və ruhani tərəqqi o deməkdir ki, biz hər gün maddi və ruhani həyatımızı daha da mükəmməlləşdirməyə çalışır, ədalət və sülh dünyası qurmaq üçün səylə işləyir və özümüzü sevinc və xoşbəxtlik dolu əbədi həyata hazırlayırıq.

Dieqo öz çıxışı üzərində bir neçə saat vaxt sərf etmişdi. Təbii ki, "Aleqriasın maddi və ruhani tərəqqisi" onun çıxış etmək istədiyi mövzu idi. Bununla belə, o istəmirdi ki, ağır bir nitq söyləsin, eyni zamanda öz dostlarına moizə oxumaq da istəmirdi. Beləliklə, o öz fikirlərini ifadə etməyə belə başladı:

Aleqriasın gənclər qrupunun üzvü olmaq mənim üçün çox şey deməkdir. Onun üzvləri mənim indiyə kimi olanlar arasında ən yaxın dostlarımdır və onlarla olduğum anlar mənim ən xoşbəxt anlarımdandır. Mən düşünürəm ki, görüşməyə başlayandan və bir yerdə bəzi işləri görəndən bizim hamımız dəyişmişik. Biz başlayanda, demək olar, uşaq idik və bizim bir araya gəlməyimiz bizə kömək etdi ki, məqsədli bir şəkildə həyatımızın növbəti mərhələsinə qədəm qoyaq. Bizim fəaliyyətlərimizin və müzakirələrimizin hesabına, biz gənclik dövrünə çaşqınlıq və ümidsizlik vəziyyətində daxil olmuruq. Biz indi bilirik ki, həyatda bizim məqsədimiz var və hədəflərimizə çatmaq üçün bir-birimizə kömək edəcəyik. Mən düşünürəm ki, bizim dostluğumuz həmişəlikdir.

Qrupumuzu yaradandan bəri bizim tez-tez üzərində düşündüyümüz ideyalardan biri Aleqriasın ruhani və maddi tərəqqisidir. Məncə, əvvəlcə bu bizim üçün sadəcə maraqlı idi ki, bu nə deməkdir. İndi isə, bizim çoxumuz üçün, icmamızın tərəqqisi bir şeydir ki, biz öz enerjimizi ona həsr etmək istəyirik. Ümid edirik ki, bizim şövqümüz "yoluxucu"dur və kəndimizdə hamıya öz təsirini göstərəcəkdir.

Bizi mehribanlıqla yönəldən Elizanın köməyilə biz indi tərəqqi haqqında bəzi vacib şeyləri bilirik. Biz bilirik ki, həmişə bir olmalıyıq, əks halda bütün səylərimiz boşa gedəcək. Biz bilirik ki, mükəmməllik üçün çalışmalıyıq; hər günümüz dünənimizdən daha yaxşı olmalıdır. Biz, həmçinin bilirik ki, nurlanmış sözlər və pak əməllər dəyişiklik gətirmək gücünə malikdir. Bəs sözlər nə üçün belə gücə malikdir? Ən mühüm səbəblərdən biri odur ki, onların köməyilə biz biliyi açır, əldə edir və ötürürük. Tərəqqinin əsasında bilik dayanır.

Bu yaxınlarda mən evimizin yanında otlayan inəklərə baxırdım. Öz-özümə düşündüm ki: "Bu inəklərin onlara lazım olan hər şeyləri var. Yemək üçün istədikləri qədər ot var. Otlaqdan axan balaca çay var ki, istədikləri vaxt oradan su içə bilərlər. İstədikləri vaxt ya günəşin altında, ya da kölgədə yata bilərlər. Bundan artıq onlara nə lazımdır?" Amma birdən anladım ki, onların malik olduqları ancaq bunlardır. Onların biliyi yoxdur, nə etdiklərini başa düşmürlər. Onlar təbiətin əsiridirlər. Və mən qərara aldım ki, qətiyyən inəklər kimi yaşamaq istəmirəm. Onda özümə dedim ki: "Əgər mən son dərəcə varlı və qüdrətli olsam, amma cahil qalsam, bəs onda necə? Bunun nə xeyri? Bütün o var-dövlət və güclə mən nə olacağam – əsirdən başqa heç nə – heç başa düşmədiyim şeyləri etməyə məni çəkən ehtirasların əsiri, tamahın əsiri, məndən daha varlı və güclü olan insanların əsiri". Məhz buna görə də bilik tərəqqinin əsasında dayanır. Bilik bizə azadlıq verir.

Aşağıdakı boş yerdə sizcə yeniyetmələrin tərəqqi mövzusu haqqında nəyi başa düşməli olduqlarını təsvir edən bir neçə abzas yazın:

## BÖLMƏ 12

Əmrin Yazılarında "nitq" çox vaxt "şəffaf", "bəlağətli", "nüfuzedici" və "təsirli" kimi ifadələrlə səciyyələnir və "mötədillik"ə, "müdriklik"ə və "anlayış"a ehtiyac olmasına işarə edən ifadələrlə müşayiət olunur. Bu cür xüsusiyyətlərə malik olan sözlərin "nəfs və ehtiras pərdələrini yandırmaq" və "düşmənçilik və nifrət odunu söndürmək" kimi qeyri-adi təsirlərə malik olması gözlənilir. Bundan əlavə, sözlər onları söyləyən insanın vəziyyətinə və ruhani keyfiyyətlərinə uyğun olaraq təsir göstərir.

> **"Söylə: İnsan nitqi öz təsirini göstərməyə can atan bir cövhərdir və mötədillik tələb edir. Onun təsirinə gəldikdə isə, bu, nitqin incəliyi ilə şərtlənir ki, bu da öz növbəsində, ürəklərin inqita etməsindən və paklığından asılıdır".[29]**

> **"Bundan əlavə, sözlər və nitqlər həm ifadəli, həm də nüfuzedici olmalıdır. Lakin heç bir söz, Allah xatirinə və vəziyyətin və insanların zəruri tələblərinə lazımi münasibətlə söylənməyincə, bu keyfiyyətlərlə dolmayacaq".[30]**

> **"Mən Allahdan diləyirəm ki, sizin başınızı Öz lütfünün mirvariləri ilə bəzəsin, ürəyinizdə Ona məhəbbət odunu yandırsın, dilinizi möminlərin toplantısında ən bəlağətli sözləri və ən heyrətamiz sirləri söyləmək üçün açsın, sizləri Əbha Cənnətinin çiçəkləri, baxışlarında birləşmiş və**

**düşüncələrində ahəngdar səma mələkləri etsin və insanlar arasında sizin üzlərinizdə Öz Mələkutunun müqəddəslik əlamətlərini zahir etsin”.**[31]

**“Əgər sən istəyirsənsə ki, sənin nitqin və bəyanın daşlaşmış ürəklərə nüfuz etsin, bu dünyaya məxsus bütün bağlılıqlardan xilas ol və üzünü Allahın Mələkutuna çevir”.**[32]

1. Yuxarıdakı parçalardan insan nitqinə güc verən bəzi ruhani keyfiyyətləri müəyyən edin:
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ____________________________________________

2. Sizcə, ruhani gücləndirmə proqramında yeniyetmələrin öyrəndikləri dərsliklərdəki konsepsiyaların tədqiqi onlarda bu keyfiyyətləri inkişaf etdirməyə necə kömək edir?
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ______________________________________________________________________
   ____________________________________________

# BÖLMƏ 13

Yazılar bizə deyir ki, nitq gücü yüksək məqsədlərin həyata keçməsinə yönəldilməlidir:

**“İndi o zamandır ki, Uca Qələmdən axıb gələn inqita suları ilə özünü pak edəsən və tamamilə Allah xatirinə, dəfələrlə nazil olan və ya zahir edilən şeylər üzərində düşünəsən və sonra, nə qədər ki bacarırsan, bəyanının hikməti və gücü ilə dünya xalqlarının ürəklərində közərən düşmənçilik və nifrət alovunu söndürməyə çalışasan”.**[33]

**“Bu bəndə hər bir çalışqan və təşəbbüskar ruha müraciət edib üz tutur ki, ürəyində Tək, Vahid, Qüdrətli və Comərd Allaha bəslədiyi sevgisinin gücü ilə var qüvvəsini qoysun, bütün diyarlarda şəraiti düzəltməyə qalxsın və ölüləri hikmət və bəyanın həyatverici suları ilə diriltsin”.**[34]

**“Hər bir sözə ruh əta edilmişdir, ona görə də, natiq ya şərhçi zamanına və yerinə müvafiq söz söyləməlidir, zira hər sözün yaratdığı təsir aydın və aşkardır. Böyük Varlıq buyurur: söz var atəşə, söz var işığa bənzər və hər ikisinin təsiri dünyada aşkardır. Ona görə də ziyalı və müdrik insan əvvəlcə süd kimi yumşaq sözlərlə danışmalıdır ki, insan övladları bəslənsin və tərbiyələnsin, insanın mövcudluğunun son məqsədinə yetişsinlər ki, o da həqiqi anlayış və nəciblik məqamıdır. Və eynilə, O buyurur: Söz var ki, bahara bənzəyir və biliyin qızılgül gülşəninin təzə-tər pöhrələrinin yaşıllaşmasına və çiçəklənməsinə səbəb olur, söz də var ki, öldürücü zəhər kimidir. Hikmətli insana yaraşan odur ki, son dərəcə yumşaqlıq və iltifatla danışsın ki, onun sözlərinin şirinliyi hər kəsi insanın məqamına yaraşan şeylərə yetişməyə sövq etsin”.**[35]

1. Aşağıdakı müddəaların doğru olub-olmadığına qərar verin. İfadə gücü yönəlməlidir:

   ___ mübahisədə qalib gəlməyə.

   ___ ortaya aydın dəlil qoymaqla həqiqəti izah etməyə.

   ___ insanların ürəyində düşmənçilik və nifrət odunu söndürməyə.

   ___ başqalarını manipulyasiya etməyə.

___ həqiqəti gizlətməyə.

___ kainatın sirlərini izah etməyə.

___ mürəkkəb məsələləri aydınlaşdırmağa.

___ anlaşılmazlıqları aydınlaşdırmağa və baxış birliyi yaratmağa.

___ öz fikrinin üstünlüyünü nümayiş etdirməyə.

___ tərif və rəğbət qazanmağa.

___ gerçəkliyi araşdırmağa.

___ insanların şəraitini yaxşılaşdırmağa.

___ məzlumların haqqını müdafiə etməyə.

2. İfadə gücünün inkişaf etdirilməsinin şəxsi transformasiya yollarında, habelə cəmiyyətin transformasiyasına onların töhfə vermək səylərində yeniyetmələrə necə kömək etməsi barədə bir neçə söz deyin.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

## BÖLMƏ 14

Özünüifadə gücünü inkişaf etdirmək üçün yeniyetmələrə kömək edərkən, biz heç vaxt unutmamalıyıq ki, məhz Allah Kəlamı insanın nitqinə güc verir və insanın qəlbinə və ağlına həqiqi anlayış əta edir. Burada dayanmağınız və aşağıdakı parçalar üzərində düşünməyiniz xahiş olunur:

> **"Bəyan Günəşi İlahi Vəhy məşriqindən parlaq işıq saçaraq Lövhələri və Səhifələri elə işıqlandırıb ki, bəyan səltənəti və anlayışın uca hökmranlığı sevinc və nəşə ilə vəcdə gəlib titrəyir və Onun nurunun parıltısı ilə şəfəq saçır..."[36]**
>
> **"De: Biz İlahi bəyan sularını ərşdən ona görə nazil etdik ki, sizin könüllərinizdə incə hikmət və bilik otları cücərsin".[37]**
>
> **"Sənin bəyanının nəsimi ilə anlayış göyü bəzəndi və Sənin qələmindən axan feyzlərlə hər bir çürüyən sümük canlandı".[38]**
>
> **"Ona görə də bu aydın və aşkardır ki, Allahın birinci bəxşişi Sözdür, onu açan və qəbul edən isə dərketmə gücüdür. Bu Söz mövcudat məktəbində birinci müəllim və Qüdrət Sahibinin zühurudur. Görünən hər şey ancaq bu hikmətin işığı ilə görünür. Aşkar olan hər şey ancaq bunun biliyinin əlamətidir. Bütün adlar onun adıdır və bütün məsələlərin başlanğıcı və sonu ondan asılıdır".[39]**

Yuxarıdakı sitatlardan bacardığınız qədər çoxunu əzbərləmək istəyə bilərsiniz.

# BÖLMƏ 15

Biz bəşəriyyətin mənəvi cəhətdən iflasla üzləşdiyi bir zamanda yaşayırıq. Əsrlərlə insanları yönəldən meyarlar davamlı surətdə öz təsirini itirir və tüğyan edən materializmin, ifrat relyativizm və azğın individualizm üzərində qurulmuş ideologiyanın dəyərləri ilə əvəz olunmaqdadır. Gəlin bu fenomen üzərində, onun gənc insanlara təsirini nəzərdən keçirməzdən öncə, düşünməyi davam etdirək.

Son bir neçə əsr boyunca tarixin gedişində bəşərin onu o qədər uzun müddət zülmdə saxlamış nə qədər zəncirlərdən – əgər bir neçəsini sadalasaq, ehkamçılıqdan, tiraniyadan, mövhumatdan – tədricən azad olmasını görmək mümkündür. Hələ nail olunmalı olan çox şey olsa da, dərin kök salmış təəssüblər aşılmış, ədalətin saxlanması üçün qanunlar yaradılmış, fərdlərin və qrupların hüquqları tanınmışdır. Təəssüf ki, bu dəyərli tarixi hərəkat indi ifratlarla və getdikcə də çox dərəcədə, yoluxmuşdur. İfrat relyativizm və azğın individualizm ön səhnəyə çıxmaqdadır, mütləqlərin mövcudluğu isə kənara sıxışdırılır. Bir şəxsin öz tərcihləri arxasınca getmək azadlığı ən yüksək ideal hesab olunur, nəticədə haqla nahaq arasındakı fərq görünməz olur. Geniş surətdə fərqlənən dəyərlər toplusuna əsaslanan davranış tərzləri getdikcə daha çox yerlərdə, bərabər tutulur və ənənəvi olaraq icma üzvlərini bir arada tutan bağların hamısı öz möhkəmliyini itirmişdir.

Belə bir mühitdə yeniyetmələr, adətən mənəvi-əxlaqi rəhbərliksiz buraxılır və düzlə səhv arasındakı fərqi ayırmaqda çətinlik çəkirlər. Allah Kəlamından başqa heç nə insan övladını, fərqləndirməyə qabil edən ruhani həssasiyyətləri bərpa edə bilməz. Həzrət Əbdül-Bəha bizə buyurur ki, məhz Allah Kəlamıdır ki, fikir və əxlaq aləmlərini işıqlandırır:

> **“...idrak və idealizmin ruhani aləmində də işıq mərkəzi olmalıdır və bu mərkəz əbədi, həmişə parlayan Günəş, Allah Kəlamıdır. Onun işıqları həqiqət işıqlarıdır ki, fikir və mənəviyyat aləmlərini nurlandıraraq, ilahi aləmin bəxşişlərini insanların üzərinə ehsan edərək bəşərin üzərinə səpilmişdir”.**[40]

Mənəvi seçimlər etməyə qabil olmaq üçün insana bır sıra qaydalar toplusundan daha çox şey lazımdır; gənc insanın beynində və qəlbində güclü sosial məqsədə yönəlik bütöv bir mənəvi struktur qurulmalıdır – elə bir struktur ki, ruhani konsepsiyaları, davranış tərzlərini və nəticələr barədə bilgini əlaqələndirsin və iradə və cəsarətlə saxlanılsın və davamlı olsun. Belə bir mənəvi struktur, belə görünür ki, fərdin beynində işləyəcək dil strukturu ilə sıx bağlı olmalıdır. Bu dil, əvvəlki bir neçə bölmədə deyildiyi kimi, kifayət qədər zəngin olmalıdır ki, gəncləri, dezinteqrasiya edən bir dünyada insanların dəyərlərini formalaşdıran güclü sosial, mədəni və ideoloji qüvvələri tanımağa və bu dəyərləri transformasiya etmək üçün lazım olan ruhani qüvvələrin təbiətini başa düşməyə qadir etsin.

İnsanın fikrini ifadə etdiyi dilin strukturu ilə onun fikir və davranışını idarə edən mənəvi struktur arasında sıx əlaqənin həm dilin, həm də mənəviyyatın öyrədilməsi metodu üçün mühüm tətbiqi mənaları var. Dili öyrətmək üçün istifadə olunan materialların məzmunu onları hazırlayan insanların dəyərlərinə uyğun olaraq mütləq fərqli olacaq. Bu materiallar aydın mənəvi mesajlar verə, mənəvi-əxlaqi cəhətdən təzadlı ola və hətta ruhani ziyan vura bilər. Mənəvi təlim-tərbiyənin məzmunu da təbliğ olunan mənəviyyat konsepsiyasından asılı olaraq variasiya edə bilər. Məsələn, kimsə, mənəvi konsepsiyaların, ruhani qavrayışı yüksəldən və sosial transformasiyaya məsulluq hissi bəsləyən dil və fikir elementlərinə lazımi diqqət vermədən davranışı yaxşılaşdırmağa yönəlmiş məziyyətlər, öhdəliklər, qaydalar və faktlar sırası kimi təqdim olunduğu cildlərlə təhsil materialı hazırlaya və ya müəyyən edə bilər. Tələbələrdən sadəcə olaraq onların bəyəndiklərini və üstünlük verdiklərini müzakirə etmələrini istəyən mənəvi təlim-tərbiyə proqramlarını da tapmaq olar ki, bunları aydınlaşdırmaqla onlar kim olduqlarını kəşf edəcəklər və öz potensiallarını həyata keçirəcəklər. Mənəvi təlim-tərbiyəni bu iki yanaşmadan hər hansı birinə qədər kiçiltməyin yeri yoxdur. Əlbəttə, yeniyetmələrin ruhani gücləndirilməsinə həsr olunmuş bir proqram yüksək mənəvi-əxlaqi meyardan kənar qaça bilməz, nə də bu meyarın fərddən birmənalı tələb etdiyi şeyə etinasız qala bilər. Eyni zamanda da, belə bir proqram, bizim öncə də qeyd etdiyimiz kimi, ruhani konsepsiyaların geniş müzakirəsinə imkan verməlidir. Lakin bu proqram daha da irəli getməlidir. Xüsusilə də, mənəvi-əxlaqi strukturun yaradılmasında o, dilin roluna diqqət verməlidir və biz növbəti iki bölmədə bu rol üzərində düşünəcəyik.

## BÖLMƏ 16

Ruhani gücləndirmə ilə məşğul olan təlim-tərbiyə proqramının istifadə etdiyi materiallar açıq və araşdırıcı, eyni zamanda da, son onilliklərdə mənəvi-əxlaqi təlim-tərbiyənin belə məruz qaldığı bir cür relyativizmdən qorunan bir dildə yazılmalıdır.

*Düz Yolda Addımlamaq* yeniyetmə proqramını təşkil edən digər bir Bəhai ruhlu dərslikdir. Bu, hər biri bir mənəvi mövzuya aid olan iyirmi hekayədən ibarətdir. Bir sıra mədəniyyətlərdə hekayələr müdrikliyi bir nəsildən digərinə ötürmək üçün istifadə olunur. Bu kitabda isə, bəzi məşhur hekayələri elə bir şəkildə yenidən yazmağa cəhd edilmişdir ki, onların ənənəvi olaraq ötürdükləri təzadlı mənalar aradan götürülsün. Hər bir dərsə, habelə, mənəvi-əxlaqi strukturun sağlam inkişafı üçün olduqca mühüm olan linqvistik məharət və bacarıqları yüksəltmək üçün çalışmalar da daxil edilmişdir. Aşağıda verilən dərs sizin bəlkə də yaxşı tanış olduğunuz bir təmsillə başlayır. Bu, aydın və birmənalı şəkildə mənəvi-əxlaqi ibrətə uyğun olan bir fikir və davranış tərzi yetişdirmək məqsədilə yenidən yazılmışdır. Dərsi oxuyun və onun daşıdığı mənəvi mesajın saxta mədəniyyət normalarını daimiləşdirməkdən necə qaçdığını müzakirə edin.

*Müdrik şəxsi yarınmaqla aldatmaq olmaz. Əlbəttə, hər kəs təriflə həvəslənir.*
*Lakin yadda saxlayaq ki, tərifə can atmaq bizim mühakiməmizi zəiflədir.*

Bir dəfə tülkü bir qarğanın dimdiyində pendir parçası ilə uçduğunu gördü. “Mən o pendiri almalıyam,” –tülkü öz-özünə dedi və ağacın budağına oturana qədər quşun kölgəsini izlədi.

“Hər vaxtın xeyir, əziz dostum,” – tülkü bacardığı qədər mehriban danışmağa başladı. “Sən bu gün necə də gözəlsən. Sənin lələklərin şəvə kimi qara, gözlərin isə daş-qaş kimi parlaqdır. Təbii ki, sənin səsin də çox gözəldir. Ah! Kaş sənin səsini eşidəydim”.

Bu sözlər sanki qarğanın tərifə olan susuzluğunu aradan qaldıran su kimi oldu. O, başını qürurla qaldıraraq ovsunlayıcı dostunun şərəfinə mahnı oxumaq üçün vəziyyət aldı.

Sözsüz ki, o, dimdiyini açan kimi pendir parçası ağzından düşdü. Tülkü pendiri havadaca tutdu və oradan qaçdı, qarğanınsa xoş olmayan səsi hələ də ətrafa yayılırdı.

**MÖVZUNUN QAVRANILMASI**

Aşağıdakı suallara tam cümlələrlə cavab verin.

1. Tülkü nə gördü? ______________________________________________
   ______________________________________________

2. Qarğanın dimdiyində nə var idi? ______________________________
   ______________________________________________

3. Pendiri almaq üçün tülkü nə etdi? ____________________________
   ______________________________________________

4. Qarğanın səsi doğrudanmı gözəl idi? __________________________
   ______________________________________________

5. Tülkü qarğaya tərif söyləyərkən səmimi idimi? ____________________________________
________________________________________________________________________________

6. Bu əhvalat harada baş vermişdir: şəhərdə, kənddə, yoxsa meşədə? ___________________
________________________________________________________________________________

**SÖZLƏR**

Bu sözlərdən istifadə edərək aşağıdakı cümlələri tamamlayın:

həvəsləndirmək, can atmaq, məftunedici

kölgə, tərif, razı qalmamaq, qürur,

xoş, mühakimə, zəifləmiş

1. ____________________________________________________________ Müəllim şagirdlərinin işgüzar olmasını fikirləşirdi və hər vaxt onlara deməyə __________________ var idi.

2. ____________________________________________________________

3. ____________________________________________________________ Armando və onun qardaşı sahədə işləyərək, orada gələcək planlarını müzakirə etməklə birlikdə _____________ bir gün keçirdilər.

4. ____________________________________________________________ Honq Mey səyahət etməyi xoşlayır və yeni yerləri görməyə ________________________ .

5. ____________________________________________________________ Onun çox gözəl səsi var idi və bunun üçün müəllimi onu musiqi məktəbinə getməyə ___________________.

6. ____________________________________________________________ İlk yağışdan dərhal sonra toxumu səpən fermer yaxşı ________________ nümayiş etdirdi.

7. ____________________________________________________________ Çandu imtahanda aldığı qiymətlə _________________ və qərara aldı ki, daha ciddi məşğul olsun.

8. ____________________________________________________________ Zonq Janqın ciddi çətinliyi var idi, lakin ____________________ çox olduğundan o heç kəsə ona kömək etməyə icazə vermirdi.

9. ____________________________________________________________ Günün axırına ağacın böyük _____________________ bağın üstünə düşürdü.

10. ______________________________________________________________ Bu ______________ bir hekayə idi və uşaqlar ona təkrar-təkrar qulaq asmaq istəyirdilər.

11. ______________________________________________________________ O, xəstəliyin nəticəsində çox ________________ idi, lakin vaxt keçdikcə güclənəcəyini bilərək tezliklə işləməyə başladı.

**MÜZAKİRƏ**

Biz necə əmin ola bilərik ki, təriflərlə aldanmırıq?

**ƏZBƏRLƏMƏK**

**"Özünü çox ayıqlıqla qoru ki, yalan və fırıldağın tələsinə düşməyəsən".**

Aşağıdakı sualları qrupunuzda müzakirə edin:

1. Əgər ehtiyatlı olmasaq, bu hekayəni elə danışmaq olar ki – və belə də danışılıbdır – o, tülkünün aydın hiyləsinə məftunluğu ifadə etsin. Hekayənin bu versiyası belə bir təəssürat yaratmaqdan necə qaçır?

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________

2. Əhvalatın çatdırmaq istədiyi mənəvi mesaj nədir?

______________________________________________________________
______________________________________________________________

3. Çatdırılan mesajla bağlı olan bəzi konsepsiyalar hansılardır?

______________________________________________________________
______________________________________________________

4. Mənəvi-əxlaqi konsepsiyaları yeniyetmələrin başa düşməsinə kömək üçün təmsildən bir alət kimi istifadə olunması nə dərəcədə səmərəlidir?

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
________________________________________

5. Çalışmalar yeniyetmələrdə hansı bacarıqları inkişaf etdirir?

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
________________________________________

6. Müzakirə çalışması – ayrıca deyil, hekayədə verilən mənəvi mesaj kontekstində nəzərdən keçirildikdə – düşünmə və analiz etmə güclərinə necə töhfə verir? O, ifadə güclərini necə yüksəldir?

7. Dərsin sonunda sitatın əzbərlənməsi bu gücləri necə möhkəmləndirir?

## BÖLMƏ 17

Yeniyetmələrə onların etdikləri seçimin əsasında duran mənəvi prinsipləri başa düşməkdə kömək etmək üçün bu vacibdir ki, onlara təqdim olunan vəziyyətlər onların içərisində olduqları gerçəkliyə yaxın olsun. Lakin bu o demək deyil ki, realist olmaq adı altında, insan varlığının aşağı təbiətinin təzahürlərinə diqqət çəkilsin. Misal gətirilən vəziyyətlər yeniyetmələr üçün başa düşülən və əlçatan olmaqla yanaşı, tənəzzül edən bir cəmiyyətdə heç də ən geniş yayılmış olmalı deyil, bəlkə əksinə, o fikir və davranış meyarlarını təqdim etməlidir ki, onları mükəmməlliyin yüksək səviyyələrinə ruhlandıra bilsin. Bu məqsədlə, onların ruhani gücləndirilməsində istifadə olunan materiallar bir tərəfdən himayəçilikdən, uşaq dilində danışmaqdan, digər tərəfdən isə yaxşı ədəb haqqında nəsihətnamə dilindən qaçmalıdır. *Mükəmməlliyin Öyrənilməsi* adlı Bəhai ruhlu başqa bir yeniyetmə dərsliyindən aşağıdakı dərsə nəzər salın. Bu dərsdə xanım Çen paklıq konsepsiyasını öz nəvələrinə təsvir edir və bir neçə çalışmanın köməyilə bu konsepsiyanın mənasının tam anlaşılmasına kömək edir.

Xanım Çen qeyd edir ki, mükəmməlliyin ikinci şərti təvazökarlığı, paklığı, pəhrizkarlığı, həyalılığı və təmiz fikirliliyi ehtiva edən ismətli və müqəddəs həyatdır. O, üzərində ismətli həyatın qurulmalı olduğu bünövrəni – paklığı təsvir etməyə başlayır:

“Bir güzgü təsəvvür edin. Əgər siz onun bütün tozunu təmizləsəniz, o, işığı əks etdirir. Eynilə də, qəlb həsəd, nifrət və qürur kimi çirklərdən təmizlənəndə, o pak olur və səmavi işığı əks etdirə bilir. Men-Tszı deyib ki, nəcib insan özünün uşaq kimi təmiz ürəyini heç vaxt itirmir. Əlbəttə, bu doğrudur, amma biz yadda saxlamalıyıq ki, uşağın ürəyi, o, məsum və zəif olduğu üçün təmizdir və uşağın paklığı hələ sınağa çəkilməmişdir. İndi siz elə bir yaşdasınız ki, daha sizə uşaq kimi baxmaq olmaz. Siz böyüdükcə, hikmətli və möhkəm olacaqsınız. Lakin hər biriniz ayıq olmalı və çox diqqətli olmalısınız ki, ürəyinizin təmizliyini itirməyəsiniz. Siz icazə verməməlisiniz ki, ürəyinizin güzgüsü bu dünyanın çirkləri ilə ləkələnsin. Və siz bunu ağıl və imanın gücü ilə etməlisiniz. Siz ancaq səy ilə və iradənizi ortalığa qoymaqla pak qala bilərsiniz”.

Sonra xanım Çen izah edir ki, paklıq konsepsiyası çox vaxt səhv başa düşülür və gənclərdən xahiş edir ki, aşağıdakı siyahıdan paklığı nəzərdə tutan sifətləri səhvən onunla bağlanılanlardan fərqləndirsinlər:

– Özü olmaq
– Səmimi olmaq
– Sadəlövh olmaq
– Riyakarlıqdan azad olmaq
– Aydın zəkalı olmaq
– Təmiz bədənli olmaq
– Axmaq olmaq
– Qürurdan azad olmaq
– Fanatik olmaq
– Sadə düşüncəli olmaq
– Hiyləgər olmamaq
– Təmənnasız olmaq
– Zəif olmaq
– Emosional olmaq
– Ziyalı olmaq
– Mehriban olmaq
– Təkəbbürlü olmamaq

Gənclər aşağıdakı sitatları əzbərləyir və ondan sonra gələn sualları nənə-babaları ilə müzakirə edirlər:

**“Mənim ilk nəsihətim budur: Pak, lütfkar, nurlu bir qəlbə malik ol ki, əzəli, əbədi və qədim bir səltənətə sahib olasan”.**

**“İnsan varlığının həyat tərzində birinci paklıq, sonra isə saflıq, təmizkarlıq və ruhun azad olmasıdır. Əvvəlcə çayın yatağı təmizlənməlidir ki, sonra şirin sular ondan axsın”.**

1. Riyakar odur ki, özünü dürüst göstərir, halbuki əslində belə deyil. Nə daha pisdir, çoxlu

2. zəifliklərə malik olmaq, yoxsa riyakar olmaq?

3. Bəzi çirklər hansılardır ki, biz fikirlərimizi onlardan təmizləməliyik?

4. Bu dünyada əslində kim daha çox şeyə nail olur, pak qəlbli, yoxsa qeyri-səmimi?

Aşağıdakı sualları qrupunuzda müzakirə edin?

1. Paklıq konsepsiyası haqqında ümumi yanlış anlayışları dağıtmaqda bu dərs necə kömək edir?

2. Xanım Çenin istifadə etdiyi dilin bəzi xarakteristik cəhətləri hansılardır?

3. Bu dərs ruhani mükəmməlliyə çatmağa çalışmaqda yeniyetmələrə necə kömək edir?

## BÖLMƏ 18

Son iki bölmədə, əgər qısaca deyilsə, biz mənəvi-əxlaqi strukturun yaradılmasında dilin rolunu nəzərdən keçirdik. Bizim biri *Düz Yolda Addımlamaq*, digəri isə *Mükəmməlliyin Öyrənilməsi*-ndən olan iki dərsə baxmağımız bizə kömək etdi ki, müəyyən mövzu və konsepsiyaların dil məharət və bacarıqlarını yüksəltmək üçün tərtib olunmuş çalışmalarla birlikdə müzakirəsinin sağlam mənəvi-əxlaqi seçimlərə kömək edən düşüncə tərzlərini necə möhkəmləndirdiyini görək. Lakin dil səriştəsini bu yolla yüksəltmək nə qədər vacib olsa da, biz yadda saxlamalıyıq ki, fərdin mənəvi-əxlaqi strukturu çoxlu qarşılıqlı əlaqədə olan amillərdən asılıdır. Xüsusilə də, burada müzakirə olunan düşüncə tərzlərini elmi düşüncədən ayırmaq çətindir. Gənc insanlar gerçəkliyin araşdırılmasına elmi tərzdə yanaşmağı öyrənməlidirlər. Odur ki, onların öyrənəcəkləri bir sıra mətnlər riyaziyyat və elm sahələrinə daxil olacaq – burada məqsəd onlara fənləri öyrətmək deyil, onların yaratdığı rasionallığı möhkəmləndirməyə çalışmaqdır. Bu kitabdan ayrılan və bir neçə illik bir dövrdə özlərini yeniyetmələrlə işləməyə həsr etmək istəyənlər üçün nəzərdə tutulan kurslarda bu mətnlər müəyyən bir təfərrüatla müzakirə olunacaqdır. İndilik kifayətdir ki, yeniyetmələrin cəlb olunacağı təlim-tərbiyə prosesinin bu ünsüründən sadəcə agah olasınız.

## BÖLMƏ 19

Ruhani qavrayışı inkişaf etdirmək, özünüifadə gücünü yüksəltmək, sağlam mənəvi struktur yaratmaq – bütün bunlar ruhani güclənmə prosesi üçün həyati vacibdir. Təəssüf ki, gücə malik olmaq deyəndə, bu, insan varlığının ruhani təbiəti ilə uyğun olmayan dəyərlərlə assosiasiya olunur. Güc məsələsi müzakirə ediləndə ağıla ilk öncə nəzarət, manipulyasiya, dominantlıq, idarə etmək, üstünlük və tabe etmə kimi təsəvvürlər gəlir. Lakin sizin məqsədiniz, yeniyetmələrə başqa bir gücdən istifadə etməkdə kömək etməkdir. Mənəvi güc məhəbbət, ədalət, bilik, anlayış, iti qavrayış və xidmətdən, hər şeydən daha əvvəl isə təvazökarlıqdan qaynaqlanır. Doğrudan da, təvazökarlıq bizim burada nəzərdən keçirdiyimiz gücləndirmə prosesi üçün zəruri

şərtdir, çünki bu ancaq Səmadan gələn köməklə mümkündür ki, cücü qartala çevrilsin, bir damcı su çaylara və dənizlərə, zərrə ulduz və günəşlərə dönsün. Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın nazil etdikləri dualardan çıxarışların üzərində düşünmək – o dualarla biz müəyyən keyfiyyətlər və sifətlər üçün Allaha yalvarırıq – ruhani və mənəvi güclənmənin təbiətinə dair bizə mühüm baxışlar verir:

**“Yalvarıram Sənə, Sən ey bütün adların Rəbbi və yerin və göyün Hakimi, izin ver ki, Sənə əziz olanların hər biri Sənin günlərində Sənin mərhəmət piyalən olsun, ta ki, onlar Sənin bəndələrinin ürəklərini canlandırsınlar. Onları həmçinin, ey mənim Allahım, gücləndir ki, sənin fəzl buludlarından yağan yağış və Sənin inayətinin bahar ətirli nəsimlərini yayan külək kimi olsunlar, ta ki, onların vasitəsilə Sənin yaratdıqlarının ürəklərinin torpağı yaşıllığa bürünsün və elə şeylər yetirsin ki, onların ətirlərini Sənin bütün səltənətin boyunca yaysın, ta ki, hər kəs Sənin Zühurunun Əbasının şirin rayihəsini alsın”.**[41]

**“Bizi gücləndir ki, Ey mənim Allahım, məxluqatın arasında Sənin əlamətlərini yayaq və səltənətində Sənin Dinini qoruyaq”.**[42]

**“Sonra məni gücləndir ki, ey mənim Allahım, yalnız Sənin xatirinə Sənin qanun və hökmlərindən yapışanların və gözləri Sənin üzünə dikilənlərin arasında sayılım”.**[43]

**“Sonra bizi gücləndir ki, ey mənim Allahım, özümüzü unudaq və Sənin Özünün, Ən Uca və Ən Yüksək Olanın Məzhəri olan Kəsdən möhkəm yapışaq”.**[44]

**“Sənin Adlarının Günəşi, Sənin sifətlərinin Məşriqləri xatirinə, yalvarıram Sənə, Sənə xidmətə qalxmağa və Sənin məziyyətlərini ucaltmağa qabil edən şeyləri mənə nəsib eylə”.**[45]

**“Məni, Sənin razılığına nail olmuş kənizlərdən biri olmağa qadir eylə”.**[46]

**“Bu uşaqları hifz eylə, təlim-tərbiyə almaqda onlara yardım et və onları insanlıq aləminə xidmət etməyə qabil eylə”.**[47]

**“Elə isə, ey mənim Məhbubum, Sənin Əmrində məni möhkəm olmağa qabil edən şeyləri nazil eylə ki, inanmayanların şübhələri sənə dönməyimə mane ola bilməsin”.**[48]

**“Sonra məni qadir eylə ki, Sənin hüzurunda həqiqət taxtına çatım, Öz mərhəmət nişanələrini mənə əta eylə və qoy Sənin o bəndələrinə qoşulum ki, nə qorxu bilərlər, nə də qəmə düşərlər”.**[49]

**“Ey mənim Allahım, Öz bəndənə kömək et ki, Sənin Sözünü ucaltsın, bihudə və uydurma olanı rədd etsin, haqqı bərqərar etsin, müqəddəs ayələri yaysın, təcəlliləri zahir etsin, səhər şəfəqlərinin möminlərin ürəyində doğmasına səbəb olsun”.**[50]

**“Onları Sənin insanların arasında fərqlənməyə layiq gör ki, Sənin sözünü ucaltsınlar və Sənin Əmrini irəli aparsınlar. Onlara kömək eylə ki, ey mənim Allahım, Sənin istəyini və razı qaldığın şeyləri yerinə yetirsinlər”.**[51]

## BÖLMƏ 20

Son bir neçə bölmə üzərində apardığımız müzakirələrimizi yadda saxlayaraq – gerçəkliyin dərk edilməsi üçün mütləq şərt olan ruhani qavrayışın təbiətini nəzərdən keçirməyimiz; uca məqsədlərə nail olmaq üçün olduqca vacib olan özünüifadə güclərini araşdırmağımız; dillə mənəvi-əxlaqi struktur arasındakı münasibətləri təhlil etməyimiz, hansı ki seçim etməkdə olduqca mühümdür; və mənəvi güclənmə prosesi üzərində bizim düşüncələrimiz – gəlin indi yeniyetmələrin öyrəndiyi iki kitabı müəyyən bir təfsilatla nəzərdən keçirək. Bu və növbəti bölmədə biz *Təyid Nəsimləri*-nə baxacaq, 22-ci və 23-cü bölmələrdə isə

*İman Ruhu*-nu nəzərdən keçirəcəyik. Hər iki mətn, ümumən, ruhani gücləndirmə proqramının birinci ilində qruplar tərəfindən öyrənilmək üçün götürülən mətnlər arasındadır.

Bəhai ruhlu *Təyid Nəsimləri* mətni on üç yaşı yenicə tamam olmuş gənc bir qız olan Musondanın və tətil zamanı ona qonaq gəlmiş böyük kuzeni Rozanın hekayəsidir. Qızlar, Musondanın qardaşı Qodvin və onun dostu Çişimba ilə öz gələcəkləri haqda düşünür, ümid və imkanlarını müzakirə edirlər. Bu kitab barəsində çoxlu ideyalar var ki, sizin qrupunuz müzakirə etməlidir. Lakin ondan öncə, siz kitaba bir daha bütünlüklə nəzər salmalı, sonra onu yenidən daha diqqətlə oxumalı və çalışmaları yerinə yetirməlisiniz. Kitabla yaxından tanış olduqdan sonra aşağıdakı icmalı nəzərdən keçirin.

Heç şübhəsiz, sizin də gördüyünüz kimi, bütün kitab boyu haqqında danışılan əsas məsələ "təyid"dir. İstər hekayənin əsas obrazlarının müzakirələrində, istərsə də ilahi təyidin işləməsini nümayiş etdirən hadisələrdə toxunulan bu mövzuya aid aşağıda parçalar verilir. Hər biri dərslərdən çıxarılmış parçalar, onların kitabda təqdim edildiyi qaydada verilmişdir. Təyid konsepsiyasına hər bir parçada necə münasibət bəslənildiyini və dərsi keçdikcə yeniyetmənin bu mövzunu başa düşməsinin necə inkişaf edəcəyini verilən boş yerlərdə yazmaqla təsvir edin.

______________________________________________________________________

"Mən xidmət haqqında fikirləşirəm. Mən elə bir iş görmək istəyirəm ki, başqa insanlara kömək edə bilim. Mən tibb bacısı olmaq istərdim, amma bunun üçün çox oxumaq lazımdır, bu həm də pul tələb edir və mən düşünmürəm ki, valideynlərimin də kifayət qədər pulları vardır" - deyə Musonda izah edir.

"Düzdür, Musonda, lakin sən cəhd göstərə bilərsən," Roza deyir. "Belə bir söz var «təyid». Mən onu bir neçə həftə bundan əvvəl dərslərimin birində öyrənmişəm. Müəllimimiz deyir ki, Allah bizə təyid verir və bizim etdiyimiz işlərdə bizə kömək edir. İndi mən bu sözü çox xoşlayıram. Mən əminəm ki, sən ürəkdən tibb bacısı olmaq istəsən, Allahın təyidini alacaqsan".

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

Həmin axşam qızlar yataqda olanda Musonda Rozadan pıçıltı ilə soruşur: "Roza, sən təyid haqqında danışdın. Bu o deməkdirmi ki, əgər mən dərsimi oxumaqda əlimdən gələni etsəm, Allah bizə pul göndərər ki, mən tibb bacısı olmaq üçün oxuya bilim?"

Roza Musondaya tərəf çevrilir və ona baxaraq deyir: "Məncə, bu tam belə deyil. Bilmirəm, bəlkə biz əvvəlcə cəhd etməliyik və sonra baxıb görməliyik ki, hansı qapılar açılır. Lakin mən bilirəm ki, Allah bizim hər birimizə müəyyən istedadlar verir. Biz əvvəlcə görməliyik ki, bizim hansı istedadlarımız var, sonra isə onlardan necə istifadə etməyi öyrənməliyik," Roza cavab verir.

Qodvinin Çişimba adlı bir sinif yoldaşı və yaxın dostu var. O, tez-tez Mulenqalar ailəsinə qonaq gəlir və bu gün o, şam yeməyinə qalıb. Süfrə ətrafında söhbət bir mövzudan digər mövzuya keçir. Musonda səbirsizliklə təyid mövzusunu müzakirəyə gətirmək istəyir. Nəhayət, bir müddət sükut anı yaranır. “Roza və mən təyid haqqında danışırdıq” – deyə Musonda sözünə başlayır.

“Buyurun, bu mənim balaca bacımdır” – boğazını arıtlayaraq Qodvin deyir, lakin onun fikirləşdiyinin əksinə olaraq Çişimba maraq göstərir.

“Bu sözlə nə başa düşürsən?” – o, Musondadan soruşur.

Musonda, eynilə təəccüblənərək, Rozaya baxır və ümid edir ki, suala o cavab verəcək.

“Təyid... Allah bizim gördüyümüz işlərə təyid verir və bizə kömək edir” - deyə Roza cavab verir.

Çişimba bir müddət heç nə demir. Onun gözlərində kədər var. “Bir neçə ay bundan əvvəl mənim atam işini itirdi”. - deyə o danışmağa başlayır. “Atam işində dürüst və məsuliyyətlidir və bunu hamı bilir. On səkkiz il ərzində o bir şirkətdə gözətçi işləyirdi və gözlənilmədən onu işdən çıxardılar. Biz hamımız bunun səbəbini bilirik. Atam şirkətdə iki il də işləsəydi, o, oradan təqaüdə çıxacaqdı və şirkət ona təqaüd ödəməli olacaqdı. Bizim indiyədək yığdığımız vəsait o qədər də çox deyil. Baxmayaraq ki, mənim böyük qardaşım bizə kömək edir, görünür, növbəti il mən məktəbə gedə bilməyəcəyəm, çünki mən otaq və yemək üçün pul ödəyə bilməyəcəyəm. Mən, həqiqətən, məktəbə getməyi çox istəyirəm. Fikirləşirəm ki, Allah mənə nə üçün kömək etmir”.

Hamı cənab Mulenqa tərəfə baxaraq gözləyir ki, bu suala o cavab versin.

Cənab Mulenqa gülümsəyərək deyir: “Biz cəhd göstərəndə Allahın bizə kömək etməsi o demək deyil ki, həyat asandır. Sənin həyatın çətinliklərlə dolu olacaq və təəssüf ki, onların çoxu ədalətsizlikdən yaranacaq. Lakin sən həmişə gərgin işləməlisən və hətta işlərin bir müddət sən istədiyin kimi getməsə də, sən Allahın təyidinə əmin olmalısan. O sənə xüsusən, ədalətsizliyə qarşı mübarizə cəhdində xeyir-dua verəcək”. O, Çişimbaya tərəf dönərək deyir “Sənin ailən mehriban və əməksevərdir. Mənim ürəyim deyir ki, sizin vəziyyətiniz dəyişəcək. Sən məktəbi oxuyub qurtaracaqsan. Mənə inan”.

Növbəti bazar ertəsi qızlar xanım Firi ilə poliklinikaya gedirlər. Anaların məşğələ vaxtı gəldikdə Musonda və Roza uşaqları götürüb çöldə ağacın altında onlarla əyləşirlər. Onlar birgə mahnı oxuyur və oyunlar oynayırlar. Roza uşaqlara hekayə danışır. Roza hekayəni yenicə danışıb qurtarır ki, uşaqların anaları onların dalınca gəlirlər. Hamı şaddır. Xanım Firi və poliklinikanın digər işçiləri məmnundurlar və onlar qızları növbəti həftə yenə dəvət edirlər.

Evə qayıdarkən Musonda fikirli görünür. Nəhayət, o, sükutu pozur və Rozaya deyir: “Səncə bu gün olanların «təyid»lə əlaqəsi varmı? Sən müəllim, mən isə tibb bacısı olmaq istəyirəm – budur, biz poliklinikada dərs deyir və uşaqların qayğısına qalırıq”.

Roza gələndən bəri bu həftələr ərzində qızlar müxtəlif mövzular ətrafında söhbət etmişlər və Musondanın başı ideyalarla doludur. Beləliklə, bir gün Musonda yenə sevimli yerinə getməyi qərara alır. Qayanın üstünə uzandıqda o, poliklinikadakı gününü yadına salır. “Xeyirli bir iş görmək yaxşıdır”, öz-özünə düşünür. O, atasının tez-tez söylədiyi “ağaclar meyvə verməlidir” ifadəsini xatırlayır. Sonra o düşünür ki, “Mən necə əmin ola bilərəm ki, mənim həyatım yaxşı meyvələr verəcək”. Həmin an o, “təyid” sözünü xatırlayır.

Elə bu zaman külək anidən şiddətlənir. Külək bir neçə yarpağı havaya uçurur. Yarpaqlar arasında Musonda balaca sarı bir quş görür. Külək sakitləşdikdən sonra yarpaqlar çaya tökülür, balaca quş isə uçmaqda davam edir. Quşu müşahidə edərkən Musondanın ağlına bir fikir gəlir. Külək balaca quşa uçmaq üçün təkan verir və indi o daha yüksəklərə uçur. Bəlkə təyid elə bu deməkdir. Quş uçmağa səy göstərdi, külək isə ona kömək etdi.

“Qodvin, sən heç gələcəyin haqqında fikirləşirsən? Sən gələcəkdə nə olmaq istəyirsən?” - deyə Musonda soruşur.

Qodvin velosipedin təmiri ilə işini davam edərək: “Bilmirəm. Mən pul qazanmaq istəyirəm. Mən valideynlərimə kömək etmək və bir gün ailə qurmaq istəyirəm”. - cavab verir.

“Bəs sən nə vaxtsa öz istedadların və onları necə istifadə edə biləcəyin haqda fikirləşmisənmi?” Musonda soruşur. “Biz Roza ilə bu barədə çox danışırıq”

“Bilirəm, bilirəm,” açarı götürərək Qodvin cavab verir. “Siz həmişə «təyid»dən danışırsınız. . . «Biz səy göstərdikdə Allah bizə kömək edir»”.

“Qodvin, amma bu düzdür”. Sonra Musonda ona sarı quş və külək əhvalatını danışır. O, həmçinin özünün və Rozanın poliklinikadakı uşaqlarla gördüyü iş haqqında ona söyləyir.

Elə bu vaxt Çişimba gəlir. “Salam. Velosipedin vəziyyəti necədir? Problemin nə olduğunu tapdınmı?”

“Problem ötürmə qutusunda idi. Mən hələ də onun üzərində işləyirəm”. - deyə Qodvin boltu bərkidir.

“Mən bilirdim ki, sən bunu düzəldəcəksən” - deyə Çişimba üzünü Musondaya tutur, “Sən bilirsənmi ki, sənin qardaşın mexanikdir?”

Roza evdən çıxır və söhbətin bir hissəsini eşidir. “Qodvin, bu sənin istedadlarından biridir. Sən təmir etməkdə məharətlisən. Sən yaxşı mexanik ola bilərsən” - Roza deyir.

“Mənim yalnız velosipedi düzəldə bilməyim o demək deyil ki, mən mexanikəm. Mənim təlimə ehtiyacım var” - Qodvin cavab verir.

Uşaqların üçü gülümsəyərək: “Onda səy göstər!” deyirlər. Hamı gülüşür, hətta Qodvin də.

“Qodvin nə üçün sən bazarın yanında sexi olan maşın ustası cənab Çiesu ilə danışmırsan? O səni öyrədə bilər” - Çişimba həvəslə təklif edir.

“Düzdür, bu bir başlanğıc ola bilər”. - Roza əlavə edir.

“Necə?!” - Qodvin soruşur. “Mən heç nədən, sadəcə ona yaxınlaşıb bu cür xahiş edə bilmərəm. Mən onu heç tanımıram”.

“Mən onu tanıyıram. Mən səni tanış edə bilərəm. Biz ora sabah birgə gedə bilərik” - deyə Çişimba cavab verir.

Daha sonra, təklikdə olanda Roza Musondaya deyir: “Sabah Qodvin təyidin mənasını başa düşəcək”. Onlar gülüşürlər, lakin razılaşırlar ki, oğlanlara heç nə deməsinlər.

Balaca boy, yaşlı cənab Çiesu emalatxanasının qarşısında əyləşib. O, astaca mahnı zümzümə edərək mühərrikin kiçik bir hissəsini təmizləyir. Çişimbanı gördükdə onun üzü işıqlanır. Onlar bir-birinin əlini sıxırlar.

Çişimba Qodvini təqdim edərək deyir ki, o müxtəlif təmir işlərini yaxşı bacarır. Qodvin həyəcanlı olmağına baxmayaraq bir neçə kəlmə deməyə özündə cəsarət tapır. O, udqunaraq deyir: “Cənab Çiesu, mən mexanik olmaq istəyirəm. Mən fikirləşdim, bəlkə mən emalatxanada sizə kömək edə bilərəm və eyni zamanda bu işi sizdən öyrənə bilərəm?”

“Mənə kömək lazım olar, amma mənim sənə ödəməyə pulum yoxdur”. deyə cənab Çiesu cavab verir.

“Bunun heç bir fərqi yoxdur. Mən yalnız işi öyrənmək istəyirəm”. Qodvin deyir: “Mən nə vaxt başlaya bilərəm?”

“İndidən yaxşı vaxt ola bilməz!” Cənab Çiesu deyir: “Bu səhər qala bilərsən? Bu hissələr yağlanmalıdır. Sonra isə biz mühərriki birgə yığarıq”.

“İndi? Mən elə indi işə başlaya bilərəm?” - Qodvin təəccüblə soruşur.

“Əlbəttə! Qollarını çırmala və işə başla!” deyərək cənab Çiesu gülür.

Qodvin həvəslə yeni işinə başlayır. Bir neçə dəqiqədən sonra Çişimba getmək üçün ayağa qalxır. O, cənab Çiesu ilə görüşür və əyilərək Qodvinin qulağına “təyid” sözünü pıçıldayır.

Evə gedərkən Çişimba poliklinikanın yanından keçir və orada uşaqlara kömək edən Roza və Musondanı görür. Qızlar baş verənlər haqqında öyrənməyi səbirsizliklə gözləyirdilər. “Necə oldu?” - deyə onlar soruşurlar.

“Qodvin səy göstərdi və bu da işə yaradı. O, indi oradadır. Məncə, cənab Çiesu onu yoxlamaq istəyir,” Çişimba cavab verir.

Bir gün səhər Çişimba anasına balıq almaq üçün bazara yollanır. O bir neçə gündür ki, məktəbə necə pul qazanacağı haqda fikirləşir. O, satmaq üçün bostan bitkiləri əkməyi fikirləşdi, amma əkin mövsümü bitmişdi. O, yol kənarında odun kömürü satmağı fikirləşdi, lakin çox adamlar bu işlə məşğuldurlar. Çişimba Rozanın dediyi “Çalış heç kimin görmədiyi bir işi görəsən” sözlərini yada salır.

Çişimba balıq almaq üçün xanım Musoulun yerinə yaxınlaşanda görür ki, o yerində deyil. “O, şəhərə təzə balıq almağa gedib,” qonşu piştaxtada alver edən qadın Çişimbaya deyir: “O, həftədə iki dəfə şəhərə gedir”. Çişimba bilirdi ki, cənab Çiesu da avtomobillər üçün ehtiyat hissələri almaq üçün hərdən şəhərə gedir.

Bu ona yeni bir fikir verir - “Bəlkə mən alver edənlərə təklif edim ki, onlar üçün şəhərə gedib onlara lazım olan şeyləri alıb gətirim. Onlar isə yerlərində qalıb işləyərlər və pul itirməzlər” - o fikirləşir.

Həmin axşam Çişimba valideynləri ilə məsləhətləşir. Valideynlər onun bu fikrini bəyənirlər. Ertəsi gün Çişimba bazara gedib xanım Musoul və cənab Çiesu ilə söhbət edir. “Əgər siz mənə şəhərə getdiyiniz zaman yola xərclədiyiniz məbləği versəniz, onun yarısına mən şəhərə gedib sizə lazım olan şeyləri gətirərdim, o biri yarısını isə məktəbim üçün yığardım”. Onlar razılaşırlar ki, bunu sınamağa dəyər və Çişimbaya iki gündən sonra gəlməyi tapşırırlar. “Bu təklifin yaxşı işləsə, elə bil ki, sən özünə iş tapmısan!” - cənab Çiesu deyir.

Valideynlərinə bu xoş xəbəri demək üçün evə yola düşən Çişimba yol üstə Qodvin və onun ailəsini görmək üçün dayanır. O öz planını onlarla bölüşməyə tələsir. Onun xəbərini eşidəndən sonra xanım Mulenqa Çişimbaya daha bir yaxşı xəbər verir. O deyir ki, xanım

Mulenqa srağagün Kabveyə getməli olubmuş və orada o, əmisi oğlu ilə söhbət edib. Xanım Mulenqanın əmisi oğlu deyib ki, Çişimba məktəbindən bir kilometr məsafədə yerləşən evdə onun ailəsi ilə birgə yaşaya bilər. “Yemək və yatmaq yerinin qarşılığında isə sən onlara sahədə işləməyə kömək edə bilərsən” - xanım Mulenqa deyir.

“Əla, çox sağ olun, xanım Mulenqa!” - deyə Çişimba cavab verir.

“Çişimba, görünür bir azdan sən pul qazanmağa başlayacaqsan” - Xanım Mulenqa deyir. “Bəzən çətin olsa da, sən pulu məktəb üçün yığıb saxlamalısan. Boş şeylərə pulu xərcləmək nəfsinə yol vermə”.

“Narahat olmayın, xanım Mulenqa” - üzü təbəssümdən açılan Çişimba cavab verir. “Mən söz verirəm ki, buna yol verməyəcəyəm”. Xudahafizləşib gedəndə o dönüb Roza və Musondaya baxaraq “Qapılar açılır!” - deyərək gülümsəyir.

Məktəb tətili sona yaxınlaşır. Vaxt yetişib, Roza evə qayıtmalı və yenidən məktəbə getməlidir. Evlərinə getməyə hazırlaşarkən o, Musonda ilə söhbət edir.

“Kaş ki, sən getməli olmayaydın” - Musonda deyir.

“Mən də istərdim. Bu, doğrudan da, çox gözəl tətil idi” - Roza cavab verir. “Mən bu baş verənlərə heç inana bilmirəm”.

“Düzdür” - Musonda deyir. “Qodvinə bir bax. O öz işini o qədər sevdi ki, indi o məktəbi qurtardıqdan sonra rəsmi texniki təhsil almaq haqda fikirləşir. Çişimbanın ideyası isə doğrudan da işlədi. Nəticədə onun o qədər müştərisi var ki, az qala hər gün şəhərə getməli olur”.

“Sən bir bizə də bax” - Roza deyir. “Poliklinikada işləmək böyük bir təcrübə idi. İndi mən müəllim olmaq arzumda daha da qətiyyətliyəm. Bizim kəndimizin şurası müxtəlif yaşlı uşaqlar üçün dərslər təşkil edir və demək olar ki, bütün uşaqlar gedirlər. Bu il mən bir sinfə dərs deməyi təklif edəcəyəm”.

"Mən isə poliklinikada işləməyi davam etdirməyə çalışacağam" - Musonda deyir. "Məktəbə görə bazar ertəsi günü ora gedə bilməyəcəyəm, lakin ola bilər, bəzi günortalar kömək edə bilim. Yadındamı, Roza, biz birinci gün təyid haqda danışırdıq. O zaman təsəvvür edə bilməzdim ki, bu nə qədər vacibdir və bunu başa düşmək bizim həyatımızı necə dəyişəcəkdi".

"Düzdür" - Roza razılaşır, "Bax, gör, biz səy göstərib təyid gözləməyi öyrəndiyimiz üçün nə qədər dəyişmişik".

Evə qayıdan zaman Musonda aşağı, çayın qırağına getməsi üçün icazə istəyir. O öz sevimli yerinə qaçır, qayanın üstünə çıxır, arxası üstə uzanır və səmaya baxır. Onun ağlından bir çox fikirlər keçir. O, yay tətili haqda fikirləşir və növbəti ilin nə gətirəcəyi haqda düşünür. Küləkli gündür və o, sarı quşu xatırlayır. "Mən nəyə cəhd etsəm, Allah mənə kömək edəcək". - o öz-özünə pıçıldayır. Getmək üçün ayağa qalxdıqda onun arxasınca külək vurur və ona güc verir.

## BÖLMƏ 21

Ümumiyyətlə, kitabların məzmunu ilə yaxşı tanış olmaq – bu halda, *Təyid Nəsimləri* kitabı ilə – və onların öz məqsədlərinə nail olmağa necə çalışmaları barədə dərin anlayışa malik olmaq yeniyetmə qrupunun animatoru kimi məsuliyyətinizi öz üzərinizə inamla götürməyə sizi qabil edəcəkdir. Bundan əlavə, siz kitabları öyrənməkdə və onlarda göstərilən əsas anlayışları qavramaqda qrupa etdiyiniz kömək metodları üzərində düşünməli olacaqsınız. Bu məqsəd üçün sizə lazım olan məharət və bacarıqlar, əlbəttə, siz təcrübə qazandıqca tədricən inkişaf edəcəkdir, aşağıdakı çalışmalar isə, xüsusilə, Təyid Nəsimlərinə aid olmaqla, bu mənada sizə çoxlu bəsirət verəcəkdir.

1. Kitabın mətni cümlə quruluşu və axıcılığı baxımından müəyyən dərəcədə sadəliyi saxlamağa çalışır. Lakin, lazım olduqda, çətin sözlər və ifadələr də daxil edilmişdir. Dərslər bu cür sözləri müxtəlif kontekstdə verməklə və çalışmalar vasitəsilə onların mənasını üzə çıxarır. Bu yolla zəngin bir söz ehtiyatı işlətməklə hekayə, "uşaqlar üçün" və səthi olmaqdan qaçır. Məsələn, ədalətsizlik sadə bir konsepsiya deyil, baxmayaraq ki, bu tez-tez adi danışıqda işlədilir. 6-cı Dərsdə onun təqdim edildiyi kontekst və müvafiq çalışmalar bu konsepsiya barədə müəyyən bir qavrayış əldə etməkdə yeniyetmələrə kömək edir. Erkən yetkinlik dövrünü yaşayan gənc insanlar üçün bu cür yanaşma, sizcə, səmərəlidirmi və ya düşünürsünüzmü ki, siz onlar üçün "çətin" olan sözləri müəyyən etməlisiniz?

2. Bu kitabın dərsləri enerjili və coşqun bir tempdə, sevincli və düşüncəli bir atmosferdə öyrənmək üçün yazılmışdır. Güman edilir ki, yeniyetmələr hekayəni oxuyacaq və dil məharətlərini inkişaf etdirmək və sözlər və konsepsiyalar haqqında anlayışlarını möhkəmləndirmək üçün nəzərdə tutulmuş çalışmaları yüksək tempdə, lakin lazımi diqqət ilə yerinə yetirəcəklər. Hər bir dərsin nəzərdə tutulan məqsədindən daha çox şeyə nail olsınız və onun hər bir məqamında həddən artıq təfərrüata varsınız, nə ola bilər?

3. Yeniyetmələrin diqqətlərini saxlama vaxtı qısa deyil, necə ki, çox vaxt əksini fərz edirlər. Həyatın sadə şeyləri üçün sevinmə bacarığını saxlamaqla yanaşı, onların qarşısına çıxan çətin məsələlər barəsində də dərin düşünmək imkanına malikdirlər. Əgər qrupun mühiti etimad və dəstək mühitidirsə – rəqabətin yaratdığı gərginlikdən və əvvəlcədən müəyyən edilmiş nəticələrə nail olmaq üçün təzyiqdən azad olmaqla – *Təyid Nəsimləri*-ndə dərslərin öyrənilməsi yeniyetmələrin ehtiyacları və qabiliyyətləri barəsində müzakirə və düşünməyə əsas verəcək. Arzuolunan atmosferi yaratmaq üçün sizin ata biləcəyiniz bəzi addımlar hansılardır?

4. Kitabın öyrənilməsi “ev tapşırığı”nı nəzərdə tutmur. Çalışmalar qrupun görüşündə yerinə yetirilməli və animatorun köməkliyi ilə müzakirə olunmalıdır. Evdə tapşırıqları yerinə yetirməyi yeniyetmələrin öhdəsinə buraxmaq əvəzinə, bu yanaşmadan istifadə etməyin nə faydası var?

5. Bu kitabın dərslərinin çox hissəsinə bir fəaliyyət daxil edilmişdir ki, iştirakçılar ya hekayənin öyrəndikləri hissəsinə aid, ya da verilmiş konkret bir ideyanın onların həyatında necə tətbiq olunmasına dair bir necə cümlə yazmalıdırlar. Özünü aydın ifadəetmə gücünü inkişaf etdirməyə yardım etməklə, siz yeniyetmələrə bu cür fəaliyyətləri yerinə yetirməkdə necə kömək edərdiniz?

6. Kitabın 2, 5, 9, 10, 13 və 14-cü Dərsləri yazılardan sitatla bitir ki, yeniyetmələr bunları əzbərləməyə təşviq olunurlar. Bu dərslərdən biri və ya ikisinə istinad etməklə, bu son fəaliyyətin dərslərdə verilən konsepsiyaları necə möhkəmləndirməsini yoxlamağın faydalı olduğunu görə bilərsiniz.

7. Əsas mövzuya əlavə olaraq, kitab çox sayda mənəvi konsepsiyalara toxunur və tərifəlayiq keyfiyyət və münasibətləri möhkəmləndirməyə çalışır. Məsələn, Roza öz yeməyini avtobusda bir uşaqla bölüşür. Qodvin və Çişimba odun daşıyan qadına kömək edirlər. Roza və Musonda, anaları tibb məntəqəsində qidalandırma üzrə təlimdə olarkən uşaqlara dərs keçirlər. Futbol oyunu dostcasına keçirilən bir tədbirdir ki, onun bütövlükdə məqsədi “qalib gəlmək” deyil. Bu məqamlara nə qədər diqqət yetirilməlidir? Onların hər biri müəyyən edilməli və ətraflı müzakirə olunmalıdırmı? Yoxsa, bu kifayətdir ki, onların müzakirələr zamanı təbii olaraq üzə çıxmasına imkan verilsin?

8. Hekayədəki hadisələr bir Afrika kəndində cərəyan edir. Yeniyetmələrin ruhani gücləndirilməsi proqramının bir hissəsini təşkil edən kitablar müxtəlif qitələrdəki bir sıra müxtəlif mədəni və sosial xarakterli şəraitlərin gerçəkliyini təsvir edir. Və bu da proqramın zənginliyini artırır. Kimsə təklif edə bilər ki, "kitabların hər bir ölkənin gənclərinin reallığına uyğunlaşdırılması" lazımdır, məsələn, hekayədəki obrazların adlarını dəyişməklə? Əsrlər boyu insanlar onlarınkından fərqli olan mədəniyyətlərin kitablarını oxumuşlar, onlardan zövq almışlar və onlardan öyrənmişlər. Əlbəttə, onlar bunu şüurlu şəkildə etmişlər. Proqramın bu cəhəti barədə siz yeniyetmələri necə agah edə bilərdiniz? Bu fikrə sizin münasibətiniz necədir ki, bəzi adamların fikrincə, uşaqlar və gənclər ancaq onların mədəniyyətləri kontekstində yazılmış materialları öyrənə bilirlər?

## BÖLMƏ 22

*İman Ruhu* dərsliyi, bizim öncə də qeyd etdiyimiz kimi, Bəhai uşaq dərslərinin davam etməsi üçün proqram materiallarından biridir və burada Əmrin Mərkəzi Simalarına açıq şəkildə istinad olunur. Artıq əvvəllər biz qeyd etmişdik ki, yetkinlik dövrü həyatın elə bir mərhələsidir ki, insan bu zaman fəlsəfi xarakterli sualları araşdırmağa böyük maraq göstərir, xüsusilə də o suallar ki, insan həyatının məqsədi və təbiətinə aiddir. *İman Ruhu* belə bir sualla başlayır – "İnsan olmaq nə deməkdir?" Bu suala cavab verməyə cəhd edərkən, kitabın müxtəlif dərsləri bu səpkidə bir sıra ideyaları nəzərdən keçirir: insanın nəcibliyi; insanın yüksək və aşağı təbiəti; şeytanın mövcud olmaması; azad iradənin, iradə gücünün və taleyin təbiəti; əqlin gücü; elmi araşdırma; fiziki aləmin təkamülü; insanın ruhu və nəhayət, iman ruhu.

*Təyid Nəsimləri*-ndə olduğu kimi, siz kitab üzrə bir dəfə getməli, sonra "düşüncələr" kimi istinad edilən hissələrə xüsusi diqqət verməklə daha dərindən oxumalısınız. Sonra isə aşağıdakı suallara cavab verməklə kitabın öz məqsədinə çatmağa necə başladığını təhlil etməlisiniz:

1. Öz həqiqi kimlikləri haqqında düşünməkdə yeniyetmələrə kömək edən obrazlar olan 1-ci Dərsdə Həzrət Bəhaullahın Yazılarından bir neçə parça verilmişdir. Bu mənada hər bir obraz hansı bəsirəti verir? Dərsdəki hər bir düşüncə onların mövzunun başa düşməsini necə gücləndirir?

2. 2-ci Dərsin birinci hissəsindən, Allahın xilqəti və insanın nəcibliyi barədə yeniyetmələr necə anlayış qazanırlar?

3. Bu dərsin birinci "düşüncələr"i nəciblik konsepsiyasını öz həyatlarında görməkdə onlara necə kömək edir?

4. Dərsin növbəti hissəsində onlar insanların özlərini alçaltmalarına səbəb olan şey üzərində düşünürlər. Bu nədir?

___

___

___

5. İnsan varlığının yüksək və alçaq təbiətinin bu qısaca araşdırılmasından yeniyetmələrin hansı anlayışı əldə edəcəyinə ümid edirsiniz?

___

___

___

6. Bu dərsin ikinci "düşüncələr"indən yeniyetmələr özlərinin yüksək təbiətlərinin inkişaf etdirilməsi barədə nə öyrənirlər?

___

___

___

7. İnsanın aşağı təbiətinin şeytani olmamasını anlamaq hər dəfə səhv edəndə yeniyetməyə günahkarlıq hissindən qaçmaqda necə kömək edir? Bu mövzu barədə onların anlayışlarını dərinləşdirmək üçün hansı misallardan istifadə olunur?

___

___

___

8. 2-ci Dərsin sonuncu hissəsi və xüsusilə də, sonuncu iki "düşüncələr" aşağı təbiətin "diqtəsini" nəzarətdə saxlamaq barəsində hansı anlayışları verir?

___

___

___

9. İradə gücü konsepsiyasına 3-cü Dərsdə necə baxılır? Dərsin əvvəlində təsvir edilən situasiyanı siz gənc insanların həyatlarına uyğun görürsünüzmü?

___

___

___

10. Yüksək təbiətlərini inkişaf etdirməkdə azad iradənin rolu barədə 3-cü dərsdə yeniyetmələr nə öyrənirlər?

___

___

___

11. Həyatlarının hansı sahələrində yeniyetmələr bunu başa düşürlər ki, onlar azad iradələrini istifadə edə bilərlər? Azad iradələrinin hüdudlarını bilmək onlar üçün niyə vacibdir?

___

___

___

12. Onlar bu dərsin ikinci "düşüncələr"indən azad iradələrinin işləməsi barədə daha hansı bəsirətləri əldə edirlər?

___

___

___

13. Başqalarına nəzarət etmək və onlara müsbət təsir göstərmək arasındakı fərqi görmək yeniyetmələr üçün niyə vacibdir? Üçüncü "düşüncələr"də yaranan müzakirələr öz ətraflarına müsbət təsir göstərmək səylərində, sizin fikrinizcə, onlara necə kömək edir?

14. Tale barədə 3-cü dərs yeniyetmələrə nə öyrədir?

15. Bu dərs, tale konsepsiyasına dair hansı səhv anlayışları aradan qaldırmağa çalışır?

16. Yelkənli qayıq metaforası öz səylərinin əhəmiyyəti və onların həyatlarında ilahi yardımın gücü barədə yeniyetmələrin düzgün baxış əldə etmələri üçün nə dərəcədə təsirlidir?

17. Təbiətin məhdudiyyətlərini aşkar etməkdə 4-cü Dərsin birinci hissəsi yeniyetmələrə hansı yolla kömək edir?

18. İnsanların bu məhdudiyyətləri aşmaq yolları barədə bu dərs nə deyir?

19. Dərsdə elmin bütün bəşəriyyətə aid olması arqumenti irəli sürülür. Bu arqument nədir?

20. Dərs 4-də sitat gətirilən elmə aid hissədə "Allah bu gerçəklik sevgisini insanda yaratmış və ya yerləşdirmişdir" ifadəsi verilir. Yeniyetmələrdə bu gerçəklik sevgisini tərbiyə etmək nə dərəcədə vacibdir?

21. Müşahidə gücü yeniyetmələrə necə təsvir olunur?

22. 4-cü Dərsdə verilən misal elmin irəlilədilməsində müşahidə və eksperimentlərin rolunu başa düşməkdə yeniyetmələrə necə kömək edir?

23. Dərs bunu demək istəyirmi ki, onlar müşahidə gücünü həyatlarının hər bir cəhətində istifadə edə bilərlər? 3-cü “düşüncələr”də verilmiş və onları bu gücü işlətməyə təşviq edən sualların hamısı, sizcə, niyə insan varlığının yüksək təbiəti üzərində fokuslanır?

24. Dördüncü “düşüncələr”də verilmiş misallar onu nəzərdə tutur ki, eksperiment həyatın hər bir sahəsində istifadə edilə bilməz. Onlar bu prinsipin əhəmiyyətini görməkdə yeniyetmələrə necə kömək edir?

25. 5-ci və 6-cı Dərslərdə istifadə olunan müxtəlif misallar növlərin təkamülü kimi çox mürəkkəb bir nəzəriyyə barədə bəsirət əldə etməkdə yeniyetmələrə necə kömək edir?

26. Bu təkamül prosesində insan ruhunun meydana çıxması necə təsvir olunur?

27. 6-cı Dərsdə animator Nataliya Petrovna Həzrət Əbdül-Bəhanın Yazılarından hekayədə iki sitatı yeniyetmə qrupuna oxuyur və sonra onları öyrənmək və başa düşməkdə onlara kömək edir. Onun bunu necə etməsi barədə heç bir göstərici yoxdur. Siz özünüz bunu necə edərdiniz?

28. 7-ci Dərsin birinci bölməsində təsvir olunduğu kimi, insan ruhunun fərqləndirici xüsusiyyəti nədir?

29. Bu dərsin birinci “düşüncələr”ində şüur necə təqdim olunur? Bu düşüncələrdəki iki çalışma yeniyetmələrin həyatlarına nə dərəcədə aiddir?

30. İnsan əqlinin gücü necə yüksək təbiətin aləti ola bilər? İkinci “düşüncələr”də edildiyi kimi, təzadların verilməsi insan intellektinin yönəldilməyə ehtiyacı olmasını nümayiş etdirmək üçün faydalı bir üsuldurmu?

31. İman ruhu nədir?

32. 7-ci Dərsin son iki "düşüncələr"i iman ruhunun onların həyatında necə işləməsini görməkdə yeniyetmələrə necə kömək edir?

## BÖLMƏ 23

*İman Ruhu* kitabının mərkəzində elmlə din arasında harmoniya prinsipi dayanır. Bəşəriyyətin həyatı üçün bu prinsipin mənası dərindir və bizim hər birimiz onun fəaliyyəti ilə bağlı bəsirət əldə etməyə çalışmalıyıq. Təbii ki, elm və din haqqında bəzi baxışlar da var ki, onları birbaşa ziddiyyətdə göstərməsələr də, din və elm arasındakı ahəngdar əlaqənin tələblərinə açıq şəkildə cavab vermirlər – məsələn, belə bir iddia ki, dinin bu gün toxunduğu sirlər, elm irəlilədikcə onun tərəfindən izah ediləcək və ya əksinə, bütün elmi həqiqətlərin son nəticədə dini kitabları oxumaqla kəşf oluna biləcəyinə inam, çünki o, Hər Şeyi Bilən Allahdan gəlir. Hər bir baxışın altında yatan yanlış təsəvvürlərə girmədən, biz asanlıqla görə bilərik ki, hər ikisində bir bilik mənbəyi digərinə tabe edilir və bu, çətin ki, həqiqi harmoniya hesab edilə bilər. Ancaq belə fikirləri rədd edərkən belə, özümüzə sual verməliyik ki, biz elm və dinin bir-birini tamamladığını necə təsəvvür edirik? Bu baxımdan, aşağıdakı bəyanat sizin nəzərinizə təqdim olunur. Onu oxuyun və sonrakı çalışmaları tamamlayın.

> *Başqa bir ehtimal da bunun iddia edilməsi ola bilər ki, elmdə və dində təsbit edilmiş həqiqətlər iki ayrı və bir-birini istisna edən təcrübə sahəsini əhatə edir. Elm maddi kainatı öyrənir, təkcə təbiətin işini deyil, həm də insan icmaları, təsisatları və qarşılıqlı əlaqələri ilə bağlı müəyyən hadisələri öyrənir. Onun yaratdığı bilik texnoloji tərəqqi üçün əsas olur və texnologiya da öz növbəsində bəşəriyyətin xeyri üçün də tətbiq oluna bilər, onun ziyanı üçün də. Sosial elmlər nə qədər irəliləsə də, elmin özünün məhsullarının hansı məqsədlər üçün istifadə edilməli olduğunu müəyyən etmək imkanları məhduddur. Din isə, əksinə olaraq, insanın mövcudluğunun tamamilə ruhani ölçüləri ilə məşğuldur. Onun vəzifəsi insanın daxili aləminə işıq salmaq, dərin motivasiya etmək və insanın davranışını lazımi qaydada yönəldən etika və mənəviyyat qaydalarını yaratmaqdır. Sivilizasiya prosesi hər iki bilik sistemindən asılıdır; nə qədər ki, onların hər biri özünün təsir dairəsi və spesifikası hüdudlarında qalır, onların münaqişəsi üçün heç bir səbəb yoxdur.*
>
> *Elmlə din arasındakı bu harmoniya baxışı əsaslıdır, lakin əsasən tətbiq səviyyəsində. Son nəticədə, bu yanaşmada elm və din ayrılmışdır və hər biri öz məqsədlərinə xidmət edir və əhəmiyyət kəsb edən isə texnologiya ilə mənəviyyatın qarşılıqlı təsiridir. Lakin elmlə din arasındakı münasibətin bu cür analizinin də məhdudluğu tezliklə üzə çıxır, çünki əslində, bir sıra fenomenlər var ki, onların hər ikisi onları başa düşməyə və izah etməyə çalışır. Fiziki dünyaya münasibətdə bu cəhət az nəzərə çarpan olsa da, insan varlığı və cəmiyyətin öyrənilməsi məsələsində bu bütün çılpaqlığı ilə ortaya çıxır. Bundan da ötəsi, dinin də, elmin də gerçəkliyə yanaşma yollarında çoxlu ümumi cəhətlər var. Məsələn, hər ikisi mövcudat aləmində bir nizamın olduğunu qəbul edir və inanırlar ki, insan ağlı müəyyən dərəcədə bu nizamı dərk etmək iqtidarındadır. Elmi metodlar kainatda baş verən proseslərin açıqlanmasında özünün son dərəcə səmərəli olduğunu sübut etmişdir. Və din də, insanları hər zaman irəliləməkdə olan sivilizasiyaya öz töhfələrini verməkdə yönəltməyə çalışdıqca, bu metodlardan istifadə etməlidir. Elm və din eyni bir şey deyildir, lakin onların arasında ümumi olan kifayət qədər şeylər vardır ki, onların arasında dialoq və harmoniya olmasına, bir-birinə təsir*

*etməsinə və bir-birini tamamlamasına imkan versin. Buna görə də, elm və dini ünvanladıqları suallar və istifadə etdikləri metodlar üst-üstə düşən, bir-birini tamamlayan iki bilik və təcrübə sistemi kimi nəzərdən keçirmək məqsədəuyğundur.*

1. Elmlə din arasında yuxarıdakı tezisdə təsvir olunan münasibət həm elmin, həm də dinin araşdırmalı olduqları bilik sahələrini göz önünə gətirir. Bunların arasında insan ağlının gücünə aid olan məsələlər, insan növünün təkamülü, intellektual və mənəvi inkişaf kimi məsələlər vardır. Müzakirə edin – *İman Ruhu* bu cür məsələlərə baxarkən, elmin əsaslılığına necə hörmət edir və eyni zamanda da, anlayışın din işığı ilə işıqlandırılmasına necə imkan verir?

2. Elmlə dinin harmoniyası prinsipi bunu nəzərdə tutur ki, yeri gəldikdə, təlim-tərbiyə materialları ruhani və elmi konsepsiyaları inteqrasiya etdirə bilər, əlbəttə, elə bir formada ki, bu səthi və sistemsiz olmasın. Biliyin bu cür inteqrasiyası anlayışı artırır və uydurma dixotomiyaları aradan götürür. *İman Ruhu*-nun bu səviyyə inteqrasiyaya necə nail olduğunu nəzərdən keçirin. Siz, xüsusilə, 5-ci və 6-cı Dərslərdəki "düşüncələr"ə istinad edə bilərsiniz.

3. Siz *İman Ruhu*-nu bir daha nəzərdən keçirə və müəyyən edə bilərsiniz ki, bu, həqiqət axtaran və gerçəkliyi araşdıran bir şəxs üçün zəruri hesab olunan müəyyən konkret münasibətləri hansı dərəcədə yarada bilir. Bu münasibətlərdən bəziləri hansılardır və material onları nə dərəcədə səmərəli araşdırır?

## BÖLMƏ 24

Biz yeniyetmələrin ruhani gücləndirilməsi proqramında öyrənilən dərsliklərlə bağlı 3-cü Bölmədə başladığımız müzakirəni burada bitirəcəyik. Bizim *Təyid Nəsimləri* və *İman Ruhu* dərsliklərini təfərrüatlı təhlil etməyimiz proqramdakı hər bir dərsliklə sizin tanışlığınızın dərəcəsi üçün bir göstərici verir. Kitab 5-dən ayrılan kurslarda, biz başqa dərsliklərin də buna bənzər müzakirəsinə daxil olacağıq ki, bu da bu mənada sizə kömək edəcəkdir; lakin belə bir öyrənmədən asılı olmayaraq, siz dərsliklərin oxunmasına və onların öz məqsədlərinə çatmaları üçün necə çalışdıqlarını nəzərdən keçirməyə zəruri vaxt ayırmalısınız. Animator kimi xidmət edən digər fərdlərlə dövri düşünmə-təhlil görüşləri materialın başa düşülməsində dərinləşməyiniz üçün sizə ən faydalı imkanlar təqdim edəcəkdir. Siz və sizin animator yoldaşlarınız bu cür tədbirlərdə istifadə edilməli olan müştərək təcrübə sərvəti tapacaqsınız. Çünki son nəticədə, bu ancaq qarşılıqlı dəstək və yardım mühitinin yaradılmasındadır – harada ki öyrənmə öhdəliyi başqalarını səylərində müşayiət etmək istəyi və hazırlığında öz ifadəsini tapır – ki, dərsliklərin potensialı tamamilə araşdırıla və nəhayətdə, həyata keçirilə bilər.

# BÖLMƏ 25

Bu fəslin əvvəlində qeyd edilmişdi ki, materialların öyrənilməsi ilə yanaşı, yeniyetmələr xidməti fəaliyyətlə, idmanla və xüsusən də öz yerli mədəniyyətlərinə xas olan müxtəlif sənət və incəsənət növləri ilə məşğul olurlar. Bu kitabın ikinci fəslində, sizin imkanınız oldu ki, sosial mühitin gənc insanlara təsirini müəyyən qədər nəzərdən keçirəsiniz və siz onun ziyanlı təsirləri barədə agah edildiniz. Lakin bu gün cəmiyyətin vəziyyətinin pisləşməsinin vurğulanması bu faktı kölgədə qoymamalıdır ki, hər bir mühitin bir çox ünsürləri, əgər lazımi qaydada istifadə olunarsa, özünüifadə gücünü, sosial prosesləri analiz etmək bacarığını və bəşəriyyətə xidmət etmək iradəsini yüksəldə bilər. Aşağıdakı qəzet məqaləsi bir hekayədən bəhs edir ki, bu hekayə medianın, məsələn, necə cəmiyyətin rifahının təşviqi üçün istifadə oluna biləcəyini ifadə edir:

## Səssizin Səsi

Qərbi Afrikada tranzistor radio hələ də icmanın xidmətindədir.

Qvineyanın meşəlik regionu Nzerekore kənd radio stansiyasının çox balaca studiyasında üç cavan oğlan mikrofonun ətrafında sıxlaşaraq qızların təhsilindən danışırlar.

“Qızlar məktəbə getməlidirlər, çünki bir gün gələcək ki, onlar ana olacaqlar və əgər onlar təhsil alsalar, onlar öz uşaqlarını tərbiyə edəcəklər və onlara daha yaxşı baxa biləcəklər,” – Mariko Keyk deyir. “Bir qıza təhsil verəndə, bütün millətə təlim-tərbiyə vermiş olursan,” – vurğu ilə o əlavə edir. Lensi Tur, proqramın on altı yaşlı aparıcısı başı ilə razılığını bildirir, baxmayaraq ki, onun valideynləri onun məktəbdən çıxmasını və tarlaya işləməyə getməsini istəyirlər.

Gənclərin aydın, dəqiq ifadə olunmuş dəlilləri Liberiya və Fil Dişi Sahili sərhədlərinə yaxın qonşu kəndlərə canlı yayımlanır. Artıq toran düşür və palçıq daxmalardan kerosin lampalarının qırpan zəif işığı gəlir. Kəndlilər sahədən və bazardan evlərinə qayıtmışlar. Onların hamısı şam yeməyi bişirərkən və ya yatmağa hazırlaşarkən radioya qulaq asırlar.

Yaşlı əhalinin çox hissəsinin savadsız olduğu Qvineya kimi ölkələrdə bir çox uşaqlar məktəbə gedə bilmirlər, elektrik işığı isə çox nadir hadisədir, – generatorla əldə edilən elektriklə işləyən kənd və icma radio stansiyası buralarda “həyat xətti”dir.

“Radio burada hər şeydir,” – Nzerekore kənd radiostansiyasının proqram direktoru Qnouma Kamara deyir. Bu stansiya həftədə altı gün beş regional yerli dildən birində və fransızca 100 kilometrlik radiusda yayımlanır. Regionda üç ailədən ikisində tranzistor var və radiostansiya səhər ertədən və axşamlar yayıma başlayanda bütün kənd qulaq asır.

“Biz onların öz dilində danışırıq, biz onların adət-ənənələrini bilirik, onların mesajlarını ötürür, doğum və ölüm elanlarını verir, ferma, kənd təsərrüfatı məsələlərini və icma problemlərini müzakirə edirik,” – Kamara əlavə edir. “Biz icmanın səsiyik. Səssizin səsi”...

“Mən proqramlara qulaq asıram, çünki onları uşaqlar təqdim edirlər və onlar mənim öz dilimdə danışırlar,” – on beş yaşlı gənc Mamadou Malik yerli Pular dilində deyir... “Proqram başlayan zaman mən bütün bacı və qardaşlarımı çağırıram və biz hamımız bir yerdə qulaq asırıq. Bu yolla mən çox şey öyrənirəm”.

“Valideynlər və icma rəhbərləri də qulaq asırlar,” – Kamara deyir. “Bizim mədəniyyətimizdə, uşaqlara çox da qulaq asmırlar, amma indi böyüklər onlara qulaq asmağa başlayıblar. Uşaqlar öz valideynlərinə,

məsələn, əsas gigiyena qaydaları haqqında məsləhətlər verirlər... Əgər bir ata uşağını vurursa, indi artıq onun qonşuları deyirlər: «Sən radioya qulaq asmırsanmı?»”

Bu hekayə minlərlə yoldan ancaq birini göstərir ki, bu yollarla sosial mühitin müxtəlif elementləri gənclərin istedad və bacarıqlarını onların öz icmalarına xidmətə yönəltmək üçün istifadə oluna bilər. Musiqi, mətbuat və texnologiya dünyanın hər yerində artıq gənc insanların həyatına təsir göstərir. Bir animator kimi siz, bu qüdrətli elementlərin daim fərqində olmalı olacaq və müvafiq fəaliyyətlər yaratmaqda, onları tətbiq etməkdə yeniyetmələrə kömək etməyi öyrənəcəksiniz. Öz sosial mühitinizin üzərində düşünün. Bu mühit aşağıdakılarla işləmək üçün yeniyetmələrin qarşısında hansı imkanları açır? İdeyalarınızı qrupunuzda müzakirə edin və verilmiş yerlərdə müəyyən fikirlərinizi yazın.

Musiqi:

Media:

Texnologiya:

## BÖLMƏ 26

Əgər yeniyetmələr öz inkişafları üçün məsuliyyəti öz üzərlərinə götürməkdən və öz icmalarının tərəqqisinə töhfə verməkdən ötrü gücləndirilməlidirlərsə, onlar bir qrup kimi, yalnız faydalı və məzmunlu fəaliyyətlərin yerinə yetirilməsində deyil, həm də onların yaradılmasında iştirak etməlidirlər. Xidmət layihələri və incəsənət və sənətkarlıqdan əlavə, bu cür fəaliyyətlərə, məsələn, bu və ya digər dərsliyin tamamlanmasını qeyd etmək üçün xüsusi yığıncaqlar daxil ola bilər, burada yeniyetmələr dramatik təqdimatlar edirlər, mahnılar oxuyurlar, şeirlər söyləyirlər və çıxışlar edirlər. Siz həmişə marağında olacaqsınız ki, başqa animatorlarla gənc dostlarınızı onların intellektual və ruhani qabiliyyətlərini yetişdirən fəaliyyətlərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmələrinə necə həvəsləndirmək, onların bəzi ideallarının praktiki xidmətə çevirmələrində necə kömək etmək, mükəmməlliyə can atmalarında onları necə möhkəmləndirmək kimi məsələlər barəsində müzakirələr aparasınız. Animator yoldaşlarınızla baxacağınız suallar bu qəbildən olacaqdır: Xidmət layihəsi tərtib etmək və onu icra etməkdə, onun sonrakı inkişafı üzərində düşünməkdə yeniyetmələrə necə kömək edirsiniz? Ssenari yazmaqda və sadə tamaşalar qoymaqda yeniyetmələrə necə kömək edirsiniz? Siz necə təmin edirsiniz ki, sənət və incəsənəti əvəz edən uşaq oyunları

istifadə olunmasın və "varlıq dünyasını yüksəldən və onun ucalmasına yardım edən" "incəsənət, sənət və elmlər" barədə həqiqi anlayış əldə etmələrində onlara yardım edilmiş olsun?

Hərçənd bədii fəaliyyət barədə müzakirə açmaq yeri deyil, lakin bundan agah olmaq sizin üçün vacibdir ki, bu cür fəaliyyət, bir incəsənət ifadəsi olaraq özü ilə dəyərlər daşıyır. Ona görə də, öz təbiəti etibarilə bu fəaliyyət təlim-tərbiyə prosesinə çox böyük təsir göstərə bilər. Yeniyetmə qrupunun animatoru olaraq, siz gənc dostlarınız üçün uyğun bir incəsənət məşğuliyyəti seçməkdə onlara kömək etməyin qayğısına qalacaqsınız, elə məşğuliyyətlər ki, bilməyərəkdən, onların cəlb olunduqları təlim-tərbiyə prosesi ilə incə yollarla ziddiyyət təşkil edən dəyərlər aşılamasın.

## BÖLMƏ 27

Təcrübə göstərir ki, on-on beş nəfərdən ibarət yeniyetmə qrupu çox vaxt dostlarını layiqli bir iş ətrafında toplamaq bacarığını nümayiş etdirmiş bir neçə şəxslə başlayır. Bu yeniyetmələr başqalarını qoşulmağa təşviq edərkən, özləri animatorla müntəzəm görüşməyə başlayacaqlar. Üzvlük, həm də qonşuluqda və ya kənddə işləyən dostların, xüsusən də institutun ilk bir neçə kursunda təlim-tərbiyə görməkdə irəliləyən orta və yuxarı yaş qruplarındakı gənclərin genişlənən nüvəsinin köməyi ilə möhkəmləndirilə bilər. Dünyanın bəzi yerlərində, rəsmi olaraq qrup yaratmazdan öncə, kənddən və ya qonşuluqdan yeniyetmələrin silsilə tədbirlərə dəvət edilməsi də öz səmərəliliyini sübut etmişdir. Başqa bir yanaşma da proqramı məktəbə təqdim etməkdir. Məktəb bu ideyaya müsbət yanaşanda, müvafiq siniflərdə oxuyan şagirdlərə və müəllimlərə edilən bir və ya iki təqdimat bir neçə yeniyetmə qruplarının formalaşması ilə nəticələnir. Çox vaxt qruplar elə məktəb binasında toplaşırlar və fəaliyyətlərini tədris proqramına əlavə fəaliyyətlər kimi həyata keçirirlər. Və məktəb də öz növbəsində, öz şagirdlərinin sağlam mənəvi və intellektual inkişafında proqramın verdiyi qiymətli töhfəni etiraf edir. Beləliklə, onlar məktəb binasında görüşüb-görüşməmələrindən asılı olmayaraq, proqramı məktəbdənkənar fəaliyyət kimi həyata keçirə bilərlər. Məktəb, hər iki halda, proqramın şagirdlərin mənəvi-əxlaqi və intellektual qadiriyyətlərinin sağlam inkişafına verdiyi dəyərli töhfəni qəbul edir.

Öz vəziyyətiniz və şəraitiniz barədə düşünün və yeniyetmə qrupunun formalaşmasına kömək etmək istəyən bir animator kimi qəbul edə biləcəyiniz bəzi yanaşmaları təsvir edin.

## BÖLMƏ 28

Dinamik yeniyetmə qrupu yaradıb saxlamaq üçün çox vacib tələbat valideynlərin etibarını qazanmaq və onlarla dostluq yaratmaqdır. Animatorlar, ya qrupu yaratmazdan öncə, ya da dərhal sonra onları ziyarət etməli və proqramın məqsədini onlara izah etməlidirlər. Onlar mütəmadi olaraq hər bir evə ziyarət etməyə davam etməli və onun üzvləri ilə yeniyetmələrin canatmaları və potensiallarını və onların ruhani gücləndirilməsi üçün proqrama forma verən konsepsiyaları və yanaşmaları – Kitab 2-nin üçüncü fəslində qeyd olunan, lakin burada daha təfərrüatlı şəkildə araşdırılan mövzular – müzakirə etməlidirlər. Bu cür ziyarətlər, həm də oğul və qızlarının rifahı və tərəqqisi barədə valideynlərlə məşvərət etmək imkanı verə bilər. Çox vaxt, Kitab 2-də təklif olunduğu kimi, animatorlar proqramda öyrənilən dərsliklərdən bir və ya

ikisini valideynlərə göstərəcəklər ki, onlar uşaqlarının nə öyrəndiyini görə bilsinlər. Baxmayaraq ki, hər bir animator uzun aylar ərzində valideynlərlə bu cür dostluq bağlarını inkişaf etdirməlidir, ilk bir neçə ziyarətdə onu daha təcrübəli bir şəxs müşayiət edə bilər.

Ruhani gücləndirilmə proqramında gənclərin valideynləri ilə davam edən söhbət üçün əsas təşkil edən anlayışları xatırlatmaq məqsədilə Kitab 2-nin üçüncü fəslinin 14-cü Bölməsinə müraciət etməyiniz tövsiyə olunur. Sonra kəndinizdə və ya qonşuluğunuzda yeniyetmələrin ailələrinə baş çəkərkən əldə edilmiş təcrübəni bu kursun digər iştirakçıları ilə müzakirə edin. Bu kitabla bağlı öyrənmənizdən hansı əlavə fikirlər belə ziyarətlər zamanı söhbəti zənginləşdirə bilər?

____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________
____________________________________________________________________________________________

## BÖLMƏ 29

İlk vaxtlarda animatorun yeniyetmə qrupu arasında başlatdığı söhbətlər xüsusilə əhəmiyyətlidir. İlk üç və ya dörd görüşdə üzvlərin qrupun məqsədini tam müzakirə etmələri və kollektiv şəkildə çatmaq istədikləri bir neçə hədəfi müəyyən etmələri vacibdir. Onlar, həmçinin üzərlərinə götürmək istədikləri fəaliyyətlərin təbiəti barəsində də ortaq məxrəcə gəlməlidirlər. Bu görüşlərdə baxılan mövzular, əlbəttə ki, qruplardan asılı olaraq dəyişə bilər. Lakin "mükəmməllik" və "xidmət" kimi bir sıra konsepsiyalar vardır ki, onlar bu cür görüşlərin hamısında qeyd olunmalıdır. Ona görə də aşağıdakı məqamlar yaradılmasına kömək etdiyiniz hər bir qrupun üzvləri ilə aparılan ilk söhbətlərinizin təşkilində sizə kömək edə bilər. Siz bu kursda digər iştirakçılarla bunların hər birini hərtərəfli tədqiq etməli və tezliklə iştirakının baş tutacağına ümid etdiyiniz yeniyetmə qrupu ilə müzakirələrə necə yanaşacağınıza dair ilkin düşüncələrinizi yazmalısınız.

- Bir çox animator yeniyetmələri qrupa ruhani və intellektual mükəmməlliyə can atacaqları bir məkan kimi baxmağa təşviq etməyi faydalı hesab edirlər. Onlar izah edirlər ki, ruhani mükəmməlliyə can atmaq üçün sevgi, alicənablıq, dürüstlük və təvazökarlıq kimi yüksək təbiətimizə xas olan keyfiyyətləri inkişaf etdirməliyik. İntellektual mükəmməlliyə can atmaq üçün öz həyatımızı və başqalarının həyatını yaxşılaşdırmağa kömək edəcək bilik və praktiki məharətlər əldə etməliyik. "Hər səhər öz ərəfəsindən, hər sabah dünənindən daha zəngin olsun" kimi sitatlar üzərində düşünmək və onları yaddaşa həkk etmək mükəmməllik konsepsiyası haqqında anlayışı artırmaqda çox vaxt təsirli olur.

  ____________________________________________________________________________
  ____________________________________________________________________________
  ____________________________________________________________________________
  ____________________________________________________________________________
  ____________________________________________________________________________
  ____________________________________________________________________________
  ____________________________________________________________________________

- Qrupun məqsədi ilə bağlı müəyyən aydınlıq əldə etdikdən sonra mükəmməlliyə nail olmaq yolunda hansı konkret fəaliyyətlə – intellektual, idman və mədəni – məşğul olmaq istədiklərinə qərar verməkdə animator qrup üzvlərinə kömək edə bilər.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

- İntellektual və ruhani mükəmməlliyə münasibətdə, düşüncə qəlibləri ilə əlaqəli olan dil məsələsi müəyyən dərəcədə müzakirə edilməlidir. Yeniyetmələrlə bu mövzuda söhbətdə adətən izah etmək kifayətdir ki, daha yüksək mükəmməlliyə nail olmaq üçün ifadə gücümüzü inkişaf etdirməliyik. Biz oxumağı bacarmalıyıq və oxuduqlarımızın mənasını anlamalıyıq; fikirlərimizi aydın şəkildə ifadə etməyi öyrənməliyik. Məhz bu kontekstdə animatorlar adətən yeniyetmələrin öyrənəcəyi mətnləri təqdim etməyi səmərəli hesab edirlər və siz onlardan bəzilərini bu fəsildə indiyə kimi tam və ya qismən araşdırmışsınız.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

- Yeniyetmələrin ruhani gücləndirilməsi proqramında yazılardan parçaların əzbərlənməsinə lazımi əhəmiyyət verilməlidir. Deməli, əzbərləmə məsələsi qrupun ilk görüşlərindən birində söhbət mövzusu olmalıdır. Gənc dostlar mükəmməlliyə can atarkən animatorlar Allahın Kəlamının unikal gücü və onun gənclərin həyatlarına təsirindən xəbərdar olmaqda onlara kömək etməlidirlər. Belə bir müzakirə vasitəsilə onlar yazılardan çoxlu parçaları əzbər bilməyin faydalarını başa düşəcəklər.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

- Animatorlar üçün ilk bir neçə görüşdə vurğulamaq faydalıdır ki, qrupun ruhani mükəmməlliyə can atması üçün onun üzvləri möhkəm dostluq bağlarını inkişaf etdirməli və daha geniş və daha böyük birliyə nail olmalıdırlar. Animatorlar adətən yeniyetmələrə yaddaşda saxlamağa təşviq edilməli olan dostluq, birlik və harmoniya mövzularını yazılardan sitatlar işığında araşdırmaqda kömək etməyi səmərəli hesab edirlər.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

- Dostluq və birlik mövzularında müzakirələr qrup üzvlərinin bir-biri ilə necə qarşılıqlı əlaqədə olacağı ilə bağlı söhbət üçün təbii açılışı təmin edə bilər. Onlar bir-birlərini diqqətlə dinləyəcəklər; biri fikrini ifadə etməkdə çətinlik çəksə belə, həmişə bir-birini başa düşməyə çalışacaqlar; onlardan

hər hansı birinin paylaşacağı şeyi heç vaxt qiymətsiz görməyəcəklər – bunlar belə bir söhbət vasitəsilə qrup şəklində çıxara biləcəkləri bəzi nəticələrdən nümunələrdir.

- Qrupun ilk söhbətləri üçün çox vacib olan mövzulardan biri xidmətdir. Bununla əlaqədar olaraq, siz yeniyetmələrə xatırlada bilərsiniz ki, bir insan olaraq, bizim hamımız bir-birimizdən asılıyıq. Biz hamımız insan ailəsinin üzvləriyik və icmalarımızın şəraitini yaxşılaşdırmaq üçün əlimizdən gələni etməliyik. Ətrafımızdakılardan heç bir kömək almadığımız bir vəziyyətin necə olacağını təsəvvüründə canlandırmaq bəzən yeniyetmələrə xidmətin əhəmiyyətini dərk etməkdə kömək edə bilər.

- Xidmət haqqında müzakirələr fərdin başqalarına xidmət etmək üçün qoyduğu səylər məsələsinin çərçivəsini aşmalıdır və gənclərin bir qrup olaraq nə edə biləcəyinə baxılmalıdır. Əlbəttə, bu vacibdir ki, onların ilkin səyləri qısamüddətli və asanlıqla nail olunan hədəfləri ehtiva etsin. Bu yolla onlar kollektiv qabiliyyətlərində inam əldə edəcək, daha dayanıqlı xidmət layihələrini öhdələrinə götürmək imkanı qazanmaqla, birlikdə işləməyi öyrənəcəklər. Elə başlanğıcdan, animatorlar, öz icmalarının həyatı və onun yaxşılaşmasına necə töhfə verə biləcəkləri barədə düşündükləri bir prosesi işə salmaqda gəncləri istiqamətləndirməlidirlər. Onların icma barədə müşahidədən doğan fikirlər söyləmələrini tələb edən suallar vermək bununla bağlı onlara kömək edəcəkdir. Beləliklə, onlar icmada xəstə olan bir kəsi ziyarət etmək kimi sadə xidmət hərəkəti ilə başlaya bilər və tədricən irəli gedərək üzərlərinə bir layihə – məsələn, ağac əkmək – götürə bilərlər ki, harada onlar müvafiq yerli təsisatlarla məşvərət edəcək, dostların və valideynlərin dəstəyini alacaq və uzun vədəli tədbirlər təşkil edəcəklər. Təbii olaraq, qrupun ilk bir neçə görüşündə, səmərəli əməkdaşlıq üçün zəruri olan bəzi məharət və bacarıqlar, habelə münasibətlər və keyfiyyətlər müzakirə olunur.

- Sağlam istirahət, xüsusən də, idman yeniyetmələr qrupunun ilk görüşlərində müzakirə olunacaq digər məsələdir. Yenə də, baxılacaq konsepsiya və məsələlərin nəzərdən keçirilməsindən əlavə, qrupun öz görüşlərində, ya da xüsusi bir tədbirdə qrup üzvlərinin etmək istədiyi fəal istirahət və sağlam əyləncə fəaliyyətlərini müəyyən etməkdə animatorlar qrupa kömək etmək istəyəcəklər. Bununla bağlı xəbərdarlıq etməyə də ehtiyac vardır: Gərgin fiziki fəaliyyət yeniyetmələrin malik olduğu enerjinin təbii ifadəsidir. Dünya üzrə təcrübə göstərmişdir ki, deyək ki, bədii fəaliyyətləri idman fəaliyyətlərindən üstün tutanda qrupda bir seçmə prosesi başlayır ki, bəzi gənclər onda iştirak etməkdə həvəssizlik göstərirlər.

Yuxarıda təqdim olunan bütün məqamlarla bağlı, bunu başa düşmək vacibdir ki, animatorlar daha böyük təcrübə topladıqca, onlar bir-birini tamamlayan fəaliyyətlərin – o fəaliyyətlər ki, onlar yeniyetmələrin müxtəlif dərslikləri öyrənməklə və yüksək ideyalara riayət etməyə çalışmaqla əldə etdikləri bəsirətin praktiki ifadəsidir – planlaşdırılmasında və həyata keçirilməsində yeniyetmələrə kömək etməyə daha yaxşı qabil olurlar.

## BÖLMƏ 30

Bu kitabın, əsasən konseptual xarakter daşıyan ilk iki fəslindəki müzakirələrimizdən sizin bu bölmədə animator kimi xidmət etməyə hazırlığınız da müəyyən praktiki ölçülərə keçdi. Xidmətin bu sahəsində siz təcrübə qazandıqca, bu kitabın səhifələri üzərində düşünmək üçün sizə ideyalar təqdim etməyə davam edəcəkdir. Bundan əvvəlki bölmədəki məqamları çox animatorlar xüsusilə faydalı hesab edirlər və onlara təkrar-təkrar qayıdır, qeyd dəftəri tutaraq öz təcrübələrinin və animator yoldaşları ilə müzakirələrinin inkişaf xəttini izləyirlər. Bu arada, təklif olunur ki, siz indi başlayacağınız fəaliyyətin doğuracağı nəticələr üzərində düşünməklə bu fəsli bitirəsiniz. Ümumdünya Ədalət Evinin dünyanın hər yerindəki gənclərə ünvanlanmış sözləri bu xidmət yolu ilə getmək istəyən hər kəsə aid edilə bilər:

> **“Heç də təəccüblü deyil ki, məhz sizin yaşınızda olanlar, yeniyetmələrə, həmçinin uşaqlara, onların mənəvi-əxlaqi və ruhani inkişaflarında, onlarda kollektiv xidmət və həqiqi dostluq qabiliyyəti bəsləməkdə kömək edərək ən böyük təcrübə toplayırlar. Hər şeydən əvvəl, bu gənc insanların özlərinə istiqamət seçəcəkləri bu dünyadan və onun tələ və imkanlarından xəbərdar olmaqla siz, ruhani güclənmənin və hazırlığın vacibliyini tərəddüdsüz başa düşürsünüz. Həzrət Bəhaullahın bəşəriyyətin həm daxili həyatını, həm də xarici vəziyyətini dəyişdirmək üçün gəldiyindən agah olmaqla, necə ki agahsınız, siz, sizdən gənc olanlara xasiyyətlərini cilalamaqda və öz icmalarının rifahı üçün məsuliyyət götürməyə hazırlaşmaqda kömək edirsiniz. Onlar yeniyetməlik dövrünə daxil olduqca, siz onlara özünüifadə gücünü yüksəltməkdə kömək edirsiniz, habelə, onların daxilində möhkəm əxlaqi həssasiyyətin kök salmasına şərait yaradırsınız. Belə edərkən, Həzrət Bəhaullahın: «Qoy sizin bəzəyiniz sözlər deyil, əməllər olsun» əmrinə daha da qulaq verdikcə, sizin öz məqsəd hissiniz daha da aydın müəyyən olur”.[52]**

İSTİNADLAR
1. 11 iyun 2006-cı il tarixində Ümumdünya Ədalət Evinin adından bir fərdi inanana yazılmış məktubdan, *Sosial Hərəkət: Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən Hazırlanmış Seçmə*-də (Vilmett: Bahá'í Publishing Trust, 2020), № 117, s. 62.
2. 19 iyul 2006-cı il tarixində Ümumdünya Ədalət Evinin adından iki fərdə yazılmış məktubdan
3. 17 aprel 1936-ci il tarixində Şövqi Əfəndinin adından bir fərdi inanana yazılmış məktubdan, *Əmrin Vəlisinin Göstərişləri*-ndə çap edilib (New Delhi: Bahá'í Publishing Trust, 1973), s. 84.
4. Həzrət Əbdül-Bəha, *Sosial Hərəkət* seçməsində, № 190, s. 112–13.
5. 20 sentyabr 1912-ci il tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Vilmett: Bahá'í Publishing, 2012), hissə 9, s. 471.
6. Həzrət Əbdül-Bəhanın 4 may 1912-ci il tarixində etdiyi söhbətdən, yenə orada., hissə 9, s. 125.
7. Həzrət Əbdül-Bəhanın Sözləri, J. E. Esslemont tərəfindən sitat gətirilib, *Bəhaullah və Yeni Era: Bəhai Dininə Giriş* (Vilmett: Bahá'í Publishing, 2006, 2017 nəşri), s. 101.
8. Həzrət Əbdül-Bəhanın 4 may 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 7, s. 123.
9. Həzrət Əbdül-Bəhanın 26 may 1912-ci il tarixində etdiyi söhbətdən, yenə orada., hissə 1, s. 204.
10. Həzrət Əbdül-Bəha, *Bəzi Suallara Cavablar*-da (Vilmett: Bahá'í Publishing, 2014, 2016 nəşri), № 84.2, s. 440.
11. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá'í Publishing Committee, 1915, 1940 nəşri), cild. 2, s. 276. (səlahiyyətli tərcümə)
12. *Xitabət: Həzrət Əbdül-Bəhanın Söhbətləri* (Hofheim-Langenhain: Bahá'í-Verlag, 1984), s. 131–32. (səlahiyyətli tərcümə)
13. Həzrət Əbdül-Bəhanın 4 may 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 8, s. 124.
14. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Vilmett: Bahá'í Publishing, 2010, 2015 nəşri), № 230.1, s. 428.
15. 10 noyabr 1911-ci il tarixində edilən söhbətdən, *Paris Söhbətləri: Həzrət Əbdül-Bəha tərəfindən 1911-ci İldə Parisdə Edilən Çıxışlar*-da çap edilib (Vilmett: Bahá'í Publishing, 2006, 2016 nəşri), № 29.41, s. 113.
16. *İlahi Fəlsəfəyə Dair Həzrət Əbdül-Bəhanın Fikirləri* (Boston: The Tudor Press, 1918), s. 30.
17. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 24.1, s. 78–79.
18. *Əbdül-Bəha Abbasın Lövhləri* (Nyu-York: Bahá'í Publishing Committee, 1909, 1930 nəşri), cild. 1, s. 63. (səlahiyyətli tərcümə)
19. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 155.4, s. 253.
20. Həzrət Əbdül-Bəha, *İlahi Sivilizasiyanın Sirri* (Vilmett: Bahá'í Publishing, 2007, 2016 nəşri), hissə 118, s. 83.
21. *Birlik Çadırı: Həzrət Bəhaullahın Manikçi Sahibə və Digər Yazılara Cavabları* (Hayfa: Bəhai Dünya Mərkəzi, 2006), № 1.11, s. 7–8.
22. Həzrət Əbdül-Bəhanın 27 oktyabr 1911-ci il tarixində etdiyi söhbətdən, *Paris Söhbətləri*-ndə çap edilib, № 12.8, s. 42.
23. *Əbdül-Bəha Abbasın Lövhləri*, cild. 1, s. 71–72.
24. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, № 97.1, s. 177–78.
25. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri* (Vilmett: Bahá'í Publishing Trust, 1988, 2005 nəşri), № 6.40, s. 72.
26. *Həzrət Bəhaullahın Dünyanın Krallarına və Rəhbərlərinə Çağırışı* (Hayfa: Bəhai Dünya Mərkəzi, 1967, 1978 nəşri), s. 78.
27. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Vilmett: Bahá'í Publishing, 1983, 2017 nəşri), XLIII, hissə 2, s. 104.
28. Həzrət Əbdül-Bəha tərəfindən 3 dekabr 1912-ci il tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 3, s. 648–49.
29. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri*, № 9.20, s. 143.
30. Yenə orada., № 11.28, s. 172.
31. *Əbdül-Bəha Abbasın Lövhləri*, cild. 1, s. 31. (səlahiyyətli tərcümə)
32. Yenə orada., s. 194. (səlahiyyətli tərcümə)
33. Həzrət Bəhaullah, *Qurdun Oğluna Məktub* (Vilmett: Bahá'í Publishing Trust, 1988, 2016 nəşri), s. 12.

34. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri*, № 11.27, s. 172.
35. Yenə orada., № 11.30, s. 172–73.
36. Yenə orada., № 13.15, s. 199.
37. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XVIII, hissə 1, s. 47.
38. *Həzrət Bəhaullahdan Dualar və Meditasiyalar* (Vilmett: Bahá'í Publishing Trust, 1987, 2008 nəşri), XXXII, s. 41.
39. *Birlik Çadırı*, № 1.2, s. 4.
40. Həzrət Əbdül-Bəha tərəfindən 5 may 1912 tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə 3, s. 130.
41. *Dualar və Meditasiyalar*, CXIII, s. 191.
42. Həzrət Bəhaullah, *Bəhai Duaları: Həzrət Bəhaullahın, Babın və Həzrət Əbdül-Bəhanın Bəyan Etdiyi Dualardan Seçmələr*-də (Vilmett: Bahá'í Publishing Trust, 2002, 2017 nəşri), s. 181–82.
43. *Dualar və Meditasiyalar*, CLXXVIII, s. 299.
44. Yenə orada., LXXIX, s. 131–32.
45. Həzrət Bəhaullah, *Bəhai Duaları*-nda, s. 219–20.
46. Həzrət Əbdül-Bəha, yenə orada., s. 243–44.
47. Yenə orada., s. 28.
48. Həzrət Bəhaullah, yenə orada., s. 183.
49. Həzrət Bab, yenə orada., s. 186.
50. Həzrət Əbdül-Bəha, yenə orada., s. 197.
51. *Dualar və Meditasiyalar*, XCI, s. 154–55.
52. 1 iyul 2013-cü il tarixində Ümumdünya Ədalət Evi tərəfindən qarşıdan gələn dünya üzrə 114-cü gənclər konfransının bütün iştirakçılarına ünvanlanmış məktubdan, *Hərəkət Çərçivəsi: 2006-2016 Ümumdünya Ədalət Evinin Seçilmiş Müraciətləri və Əlavə Material*-da çap edilib (West Palm Beach: Palabra Publications, 2017), № 27.4,